HÖCCƏTUL-İSLAM VƏL-MUSLİMİN

**HACI ƏBDURRAHMAN YUSİFPUR**

# İSLAMDA
# AİLƏ QURULUŞU

Tərcümə edini: **Əlibala Hacızadə**

**I CİLD**

**Bakı-1998**

**Kitabın adı:.....................................İslamda ailə quruluşu**
**Müəllif:............................................Haci Əbdurrahman Yusifpur**
**Tərcümə edən:................................Məlahət Əsədova**
**Nəşr edən:........................................Müəlif**
**Çap növbəsi:...................................Birinci**
**Çap tarixi:........................................Bahar, 1378 (1999)**
**Tiraj:................................................3000**

**Kitabın bütün huquqları müəlifə məxsusdur**


بسم الله الرحمن الرحيم

***Bismillahir-Rəhmanir-Rəhim***

# MÜQƏDDİMƏ

Dərin bəşəri məzmunu ilə əvvəlkidinlərdən əsaslı sürətdə fərqlənir İslam bütün dövrlər üçün əhəmiyyətini saxlayan ailə qurluşu bairəsində mühüm özəlliklərə malikdir. Müqəddəs kitabımız Qurani-kərimdə, əziz İslam Peyqəmbərinin (s) və məsum İmamlarımız hədislərində bu vacib məsələyə dair qiymətli örnəklər vardır.

Çoxsaylı və dərin məzmunlu əsərlərin müəllifi kimi tanıdığımız Höccətul-islam vəl-müslimin Hacı Əbdürrahman Yusifpur da adını çəkdiyimiz zəngin mənbələrə əsaslanaraq bu mövzuda gözəl bir əsər yazmışdır.

Kitabı oxuyarkən evlənmək, evlilik, ər-arvad münasibəti, onların hüquq və vəzifələri barədə elə aydın dəlillərə rast gəlirik ki, İslam dini və onun bəşəri mahiyyəti haqqında təsəvvürlərimiz daha da zənginləşir. Əsər bizə indiyədək əsası olmayan, lakin uzun illər dini ehkam kimi qəbul etdirilən bəzi bidətlərdən, islam dini adına söylənən böhtanlardan yaxa qurtarmaqda yardım edir.

Ağayi Yusifpurun böyük məsulliyət və ciddi zəhməti nəticəsində ərsəyə gəlmiş digər əsərlərlə yanaşı «İslam ailə qurluşu» adlandırıldığı iki cildilik kitabın birinci («İslamda izdivac») artıq əlinizdədir.

Azərbaycan oxucuları bu kitabda indiyə qədər az eşiddikləri və ya bəzilərinin az eşiddikləri mühüm məlumatlarnan tanış olacaq, cəmiyyətin özülü olan ailə münasibətlərini düzgün tənzim etmək yolunda çox faydalı nəticələr çıxarıcaqlar.

Arzumuz budur ki, məhtərəm oxucular əsəri diqqətlə oxusunlar. Əminik ki, bu zaman onlar ailənin, övlad böyütməyin, düzgün tərbiyənin nə qədər məsuliyyətli və müqəddəs bior əməl olduğunu bir daha düşünəcəklər.

Qadir və mərhəmətli Allahdan bütün subaylarımıza gözəl ailə səadət və xoşbəxtlik arzu edir, kitabın müəlifinə yeni-yeni əsərlər yazması üçün bərəkətli ömür arzulayırıq.

**Hafiz Abıyev**

# İSLAMDA İZDIVACIN ƏHƏMİYYƏTİ

Izdivc – Quranda, İslam mədəniyyətində, əxlaqında və şəriət ehkamında diqqəti cəlb edən məsələlərdən biridir və həm də İslam aləmində mühüm əhəmiyyət kəsb edir.

Gənc oğlan və qızların gələcək taleyini müəyyənləşdirən izdivac (ailə qurluşu) haqqında Rəsuli-Əkrəmin hədislərində və məsum İmamlarımızdan varid olan rəvayətlərdə ibrətamiz tövsiyələr olunur və ciddi xəbərdarlıqv edilir.

Hər şeydən əvvəl gərək Qurani-kərim izdivac haqqında nə kimi hökümlər verilir.

## İzdivac – Quran baxımından

1. Mübarək «Rum» sürəsinin 21-ci ayəsindən Quran-şərif buyurur: «Allah sizin özünüzdən sizin üçün taylar yaratmışdır ki, onlarla rahatlıq tapasız. Və sizin aranızda dostluq və mehribanlıq qərar vermişdir. Bütün bunlarda təfəkkür sahibləri üçün bir ibrət vardır».

2. «İçərinizdə ərsiz azad qadınları və arvadsız azad kişiləri, kölələrinizdən və cariyələrinizdən əməli düz olanlrı bir-biri ilə evləndirin. Əgər yoxsuludurlarsa Allah öz kəraməti ilə onları varlandırar. Allah lütfü genişdir və hər şeyi biləndir». «Nur» sürəsi, ayə 32.

## İzdivac – Hədis və rəvayətlər baxımından

İzdivac – İslam dinində insanların tale yükü məsələlərindən ən mühüm olduğu üçün bu haqqda bəhs olunan hədis və rəvayətlərin sayı-hesabı yoxdur. O cümlədən:

1. İmam Mühəmməd Baqir (ə), Rəsuli-Əkrəmdən (s) belə nəql edir: «İslamda Allah yanında İzdivac qədər mühüm və bəyənilmiş bir bina yoxdur».

2. İmam Cəfər Sadiq (ə) buyurur: «Evlənmiş bir şəxsin iki rükət namazı subay adamın 70 rükət namazdan, üstündür».

3. İmam Cəfər Sadiq (ə) Rəsuli-Xudadan (s) belə nəql edir: «Sizin ölülərinizin ən pisi evlənməmiş insanlardır».

4. İmam Cəfər Sadiq (ə) Rəsuli-Əkrəmdən (s) belə nəql edir: «Cəhənnəm əhlinin əksəriyyəti dünyadan izdivacsız gedənlərdir».

5. İslam Peyqəmbəri (s) buyurur: «Hər kəs kasıbcılıqdan qorxub evlənməsə, şübhə yox ki, o, Allahdan bədgüman olmuş olur».

6. Rəsuli-Xuda (s) buyurub: «Allah-Təala yanında İslam dini əsasında qurulmuş bir ailə qədər bəyənmiş bir iş yoxdur».

7. Peyqəmbər salavatullah buyurur: «Gənc oğlan və gənc qız bir-birini sevib ailə qurarkən şeytan nalə çəkərək deyilir «Vaveyla, vaveyla ki, bu cür cavanlar öz dinininüçdən bir hissəsini məndən qoruya bildilər!» Gərək bu Allah bəndələri dinlərinin qalan iki hissəsində də öz TANRIlarından qorxub çəkinsinlər».

8. Əziz Peyqəmbərimiz Osman adlı bir nəfərə hansı ki, yaşının ötməyinə baxmayaraq heç evlənməmişdi, çox narazı və ciddi halda xəbərdarlıq edərək buyurdu: «Ey Osman! Allah-Təalla bizi rahiblik (tək-tənha yaşamaq) üçün xəlq etməmişdir. Mən də namaz qılır, oruc tutur və həm də öz həmsərimlə (həyat yoldaşımla) yaxınlıq edirəm. Hər kim mənim qoyduğum adət-ənənələri bəyənirsə gərk bu ayinləri yerinə yetirsin və izdivac mənim ayinlərimdən biri, həm də mühümüdür».

9. Peyqəmbər-Əkrəm (s) buyurur: «O kəsin ki, evlənməyə imkanı var, lakin evlənmir, o mənim ümmətimdən deyil».

10. Rəsuli-Xuda (s) buyurub: «Xüdavəndi-aləm ərşdən dörd qəbildən olan insanları lənətləyir, mələklər də amin deyir. Bunlardan biri o kəsdir ki ki, evlənməkdən boyun qacırır, o məqsədlə ki, oğul-uşaq, külfət dərdi çəkməsin».

11. Həzrət Peyqəmbər (s) buyurub: «Evli adam qıldığı iki rükət namaz subay adamın gecəni səhərədək oyaq qalmağından və gündüz oruc tutmağından yaxşıdır».

12. Rəsuli-Xuda buyurub: «Allahın rəhmət qapısı dörd yerdə açılır, onlardan biri insan ailə qurarkən baş verir».

13. İmam Mühəmməd Baqir (ə) buyurur: «Mən sevmərəm dünyanı və onun hər nəyi var o gecə ki, zövcəm olmasın».

14. Həzrət Peyqəmbər (s) buyurub: «Mənim ümmətimdən ən yaxşıları evlənənlər və pisləri isə subay qalanlardı».

15. İmam Cəfər Sadiq (ə) buyurulub: «Rəsuli-Xuda (s) ərə getmək istəməyən qadınları qınayır və onlara ailə qurmağı tövsiyə edirdi».

16. İmam Cəfər Sadiq (ə) buyurub: «Gəlin keçən evi Allah-Taala sevir».

Böyük ilahi neymət, insanı həyatının və gələcəyinin mayası, ictimai inkişafa təsir edən, ailədə xoşbəxtlik və səadətə səbəb olan amillərdən biri də cinsi yaxınlıqdır (əlaqədir), etiras hissidir. Belə bir hissiyat hər bir sağlam insanın varlığında mövcuddur və bunsuz həyatdan ləzət almaq mümkün deyil. Çünki bu əvəzsiz ilahi nemət bəşər nəsillərinin başlanğıcı olub, ər və arvad qırılmaz sürətdə bir-birinə bağlayan və ailə mühitini behiştə çevirən amildir.

Yemək-içmək, yatmaq, nəfəs almaq və insan üçün zəruri olan digər amillər təbii bir zərurət olduğu kimi cinsi ehtiyacın da ödənilməsi hər bir şüurlu insanın istəyidir. Həmin məqam çatan zaman onu düzgün sürətdə yerinə yetirmək və insanın ehtiyacını təmin etmək lazımdır.

Bütün cavanlar: istər qızlar və istər də oğlanların ailə qurması zəruridir. Əgər bu müqəddəs birlik həyata keçirilməzsə, arzuolunmaz çətinliklərlə rastlaşa bilər. Çünki cinsi böhran zamanı onu şəriət qanunları ilə aradan qaldırmaq müyəssər olmazsa, o zaman da narkotik maddələrə meyl salacaq və yaxud da namus vəismətə zidd olan cinayətlərə əl atacaqlar. Dəyanətli, mömin, etiqadlı olmaqlarına baxmayaraq iztirab, narahatlıq və yorğunluq kimi amillərlə qarşılaşacaq, həyatlarını kədər və qəmlə başa vuracaqlar.

## MÜASİR DÜNYADA BAŞ VERƏN ƏXLAQSIZLIQ HÜCÜMLARI

Əgər cavanların cinsi problemlərini dərk etsək, qərb mədəniyyətinin və onun aldanmış havadarlarının etdikləri «mədəni» hücumlara nəzər salsaq və düşmənin gizli yollarla gətirib yaydıqları şəhvətləndirici erotik kadrlarla dolu video filimlərlərdən xəbər tutsaq, tərəddüd etmədən və böyük məsuliyyət hissi ilə bu fəsada qarşı müxalifətə qalxarıq.

Müasir dünyada cavanları zəncirləmək, əl-qolunu bağlamaq, onları məzhəbi ideyalardan və siyasi təfəkkürdən uzaqlaşmaq və sağlam bir cəmiyyəti qərb yönümlü cəmiyyətə cevirmək üçün bütün vasitələrdən istifadə edib meydana girir və hər bir şəxsi düz yoldan fitnə yoluna sürükləyirlər. Başqa ölkələrdən yayılan radio və televiziya verilişləri, hədiyyə edilmiş jurnal və kasetlər, azad bazara qacaqmalcılıq yolu ilə

satılan filimlər, üzərinə Avropa markası yapışdırılmış və cılpaq qadınların şəkilləri əks olunan əşyalar bəşər düşmənlərinin başqa müxtəlif təbliğat vasitələri bu şeytanm məqsədindən xəbər verir.

## İsmətsizlik və pozğunluq ticarət paltarında

Burada diqqətinizi bəşər düşmənlərinin istifadə etdiyi tarixi bir hadisəyə cəlb etmək istəyirik.

Həzrəti Musa əleyhissəlam öz fitrəti istedadı və ilhamı ilə inkişaf edib qabağa getdiyi bir vaxta Fironu və onun tərəfdarlarını dəhşətə salırdı. Düşmən qüvvələr o həzrətin nüfuzunun qarşısını almaq üçün Bələm-bauranın yanına gəldi və ondan Musanı vən adamlrını lənətləməyi tələb etdilər.

İsmi əzəm və «Müstəcabda-dəvə» ləqəblərinə malik olan Bələm əvvəlcə bu təklifi qəbul etməkdən imtina etdi və dedi: «Mən Allahın Peyqəmbərini və onunhaqqı müdafiə edən qoşununu necə lənətləyim. Onu mələklər müşayət edirlər». Lakin düşmən tərsliyindən əl çəkmədi. Onun həyat yoldaşı (arvadı) vasitəsi ilə yoldan çıxardıb Musaya qarşı qoydular.

Nəhayət Bələm Musanın qoşunun yerləşdiyi bir dağın zirvəsinə qalxdı. Nə qədər istədi İsmi-Əzəm duası ilə Musanı lənətləsin. Allah İsmi-Əzəmi ondan geri aldı və özünə tabe etdi. Nagah dili ağzından çıxdı. O, Fironun adamlarına sifariş etdi: Siz öz arvad və qızlarınızıbacardığınız qədər bəzəyin və onları ehtiyacı çox olan mallarla Musanın qoşununun içərisinə göndərin, zina və əxlaqsızlıq yolu ilə onları pis yola cəkin. Düşmən bu sifarişi qəbul edib ona əməl etdi. Musanın 20 mindən çox əsgəri Allahın qəzəbinə ducar olub taun xəstəliyinə tutulub həlak oldulr. Əziz oxucular bunun şahidi olurlar ki, düşmən olurlar ki, düşmən hansı yollarla əvvəllər Həzrət Musanın dostu və onun ideallarını təbliğat edənlərdən olan Bələm-bauranı aldadıb onu haqq yolundan döndərmiş böyük Allaha və onun Peyqəmbər qarşı çıxmağa sövq etmiş, onun vasitəsi ilə gözəl qızları ticarət adı altında mədəniyyət müharibəsinə göndərmişdi, Peyqəmbərin 20 midən artıq qoşununu məhv etmişdir. Siz təsəvvür edin bu «mədəni» hücumadi və uzaqgörən olmayan bir millətə qarşı yönəlmişolsaydı hansı nəticələrə gətirib çıxarardı. Ailə qurmaq ehtiras hissinə bir sığınacaqdır.

Qeyd edildiyi kimi tarix boyu İslamın düşmənləri əxlaqsızlıq və ismətsizlik kimi amillərdən istifadəetmiş, ocümlədən münafiqlərin başçısı olmuş Əbdullah Ubeyy ona məxsus olan beş kənizi faişəlik etməyə vadar etmiş və bu yolla İslama və onun ictimayyətinə zərbə vurmuşdu. Allah-Taala «Nur» surəsinin 33-cü ayəsində bu məsələyə işarə etmişdir. Hal-hazırda da mənəviyyatsızlıq dünyada hay-küy yaradıb. Dostluq və qarşılıqlı razılıq yolu ilə baş verən əxlaqsız hərəkətlərdən başqa zorla yaxınlıq etmə, eyni cinsdən olanların yaxınlığı, ərli qadınları ləkələmək kimi hallarda hər gün hadisə xəbərlərində rast gəlmək olur.

Xülasə bu cür fəsadların qarşısını alan yekanə amil evlənməkdir. Allahın elçisi bu işə göstəriş vermişdir. İndi isə diqqətinizi bu bairədə olan bir neçə hədisə cəlb edirik.

1. İmam Cəfər Sadiq (ə) belə nəql olunur: «Bir gün Allahın Rəsulunun gözü bir qadına sataşır, onun gözəlliyindən heyrətlənir və dərhal arvadı Ümm Sələmin yanına gəlir və onun yanında sakitlik tapır. Bundan sonra o, cənabət qusulu edib məscidə gəldi və insanlara xitabən buyurdu: «Naməhrəmlə görüşmək şeytan əməlidir. Gözü naməhrəmə sataşıb təsirlənən şəxslər arvadının yanına getsin». Maraqlıdır ki, bu hadisdə həyat yoldaşı daxili və cinsi ehtirası söndürmək simvolu kimi təsvir edilir. Hətta böyük Peyqəmbər və digər məsum Həzrətlər də bundan bəhrələnirlər.

2. Əli (ə) buyurdu: «Hərgah naməhrəmi görüb ondan təsirləndiniz ailənizin yanına gedin».

Burada da həyat yoldaşı çirkaba batmağın qarşısını alan bir nicat yolu kimi təqdim edilir.

3. Peyqəmbər (s) buyurub: «Ey cavanlar hər kimdə evlənməyə zəmin olsa, ailə qursun. Çünki bu iş onu günah işlərdən və naməhrəmdən qoruyar».

Bu hədis başqa hədislər kimi ailə qurmağın insanın əxlaqi pozğunluqlardan qorunmasının təzahuru kimi verilmişdir.

## İSLAMDA AİLƏ QURMAĞIN DƏYƏRİ

Müqəddəs İslam dini hər bir sahədə mənfi və qorxulu qapıları bağlamaq üçün birinci növbədə müsbət və ağıllı yollar göstərir və sonra və sonra bu ardıcıllarını fəsadlı və əxlaqa zidd olan yollardan çəkindirib

səmərəli və müsbət nəticələr verə biləcək istiqamətə yönəldir. Cinsi yaxınlıq məsələləri haqqında uzaqgörən və şərəfli insanlara təqidlə göstərişlər verir. Nütfənin tələf olması və bu ilahi nemətin hədər yerə sərf edilməsindən çəkinmək və onun şərtilə icazə verilmişmüəyyən qiymətli nəticə əldə məqsədi ilə məsərəf etsinlər. Buna görə də anonizm, kişilərlə cinsi əlaqə saxlamaq və bu hərəkəti heyvanlarla etməyi qadağan edib və bu işdə təqsirli bilinənlər ölüm cəzasına qədər cəzalandırılar.

Cinsi tarazlıq yaratmaq, nəsilləri qorumaq, ailələrə hörmətlə yanaşmaq, ictimai və dini işləri şövq və həvəslə icra etmək məqsədi ilə ailə qurmağın zəruriliyi vurğulanır və onun möhkəmləndirilməsi üçün xüsusi şərait və özünəməxsus məqamlar tövsiyə edilir. Bu məqsədlə əziz oxucuların nəzər diqqətini bir hədisə cəlb edirik.

Allah Peyqəmbər (s) buyurub: «Hər kəs pak və pakizə Allahın görüşünə grtmək istəyirsə (pak ruhla və səhv etmədən ölmək istəyirsə), mütləq ailəsi ilə yaşasın». Bu hədisdən görünür ki, arvad almaq, evlənmək insanlrı bir çox günahlardan uzaqlaşdırır və bundan məhrum olmaq əxlaqsızlıq və fəsadlar törədir.

**Evlənmənməyinin cəzası**

Allah Elcisi (s) bir şəxsdən soruşdu: «Arvadın var?»

Kişi cavab verdi: - xeyr, ya Rəsulallah.

Peyqəmbər: Kənizin var? (Bu yolla cinsi problemini həll etmiş olasan)

Kişi: Xeyr, ya Peyqəmbər.

Peyqəmbər: - Sənin maddi imkanın varmı?

Kişi: Bəli, ya Peyqəmbər.

Allahın elcisi: - Get və evlən. Yoxsa günahkarlarv cərgəsinə düşərsən». Başqa bir rəvayətdə buyurur: «Əgər evlənməsən xristian rahiblərindən hesab olunursan». 3-cü bir hədisdə buyurur: «Əgər ailə qurmasan, şeytanın dostu və yoldaşı hesab olunursan».

Bu hədis ailə qurmağı zəruri sayır və ona əməl etməyi bədbəxtliyin səbəbi, subay cavanı günhkar xristian rahib və şeytanın qardaşı adlndırır».

4. Allah Rəsulu (s) buyurur: «Göyün rəhmət qapıları dörd halda açılır:

1. Yağış yağanda

2. Övlad rəhm və mehribanlıqla öz ata-anasının üzünə baxdıqda
3. Kəbənin qapısı açdıqda.
4. Toy və evlənmə mərasimində.

Bu hədis də evlənməyin dəyərini açıqlayır və onun rəhmət qapılarının açılması kimi dəyərləndirir».

İmam Baqir (ə) buyurur: «Əgər bütn dünyanı onun varlığı ilə mənə versələr ki, bir gecə həyat yoldaşında ayrı yaşa, mən heç vaxt belə bir xeyirli sövdələşməni qəbul etmərəm.

Bu hədis həyat yoldaşına və ailəyə malik olmaq faktorunu qiymətləndirir bir hal olmasını irəli çəkir və bütün dünyanı bir gecə ailə ilə məhəbbətlə yaşamağın müqabilində qiymətsiz sayır!!!

Allah Elcisi (s) buyurur: «Ər və arvad kəbin kəsildikdən sonra biri-birinin əllərinə baxdığı zaman böyük Allah da rəhmətlə onlra baxar. Biri-birinin əllərinə tutduğu zaman onların günahları barmaqlarının arasından süzülüb yerə tökülər».

Bütün bu hadisələrdə belə nəticəyə gəlirik: «Evlənmək insanın cismən varlı edir, cinsi və iqtisadi ehtiyacını ödəyir, evli şəxslər müqəddəs ailə qurmağın cazibə qüvvəsi ilə fitnə fəsaddan, yolunu azmaq kimi mənfi hallardan xilas olur, mənəvi və daxili gözəllik və paklıqla həyatını davam etdirirlər. Bununla da (bu yolla) fəzilət yollarını üzlərinə açıb ilahinin tükənməz lütfünə laiq olurlar.

## İZDIVACIN SƏBƏBİ, MƏQSƏDİ, FAYDASI VƏ VAXTI

### İzdivacın səbəbi

O kəs ki, istəyir izdivaca girsin (ailə qursun) gərəkdir ki, İlahi səbəb üzündən evlənsin, yəni Allah-Təalanın fərmanına əncam vermək məqsədini güdsün. Necə ki, İmam Səccad (ə) buyurub: «Hər kəs Allah xatirinə və qohumluq əlaqələrini möhkəmləndirmək və inkişaf etdirmək məqsədi ilə izdivaca girərsə, Xüdavəndi-aləm onun başına padşahlıq tacı qoyar».

Digər tərəfdən bir şəxsin izdivacı halal yol ilə və halal mal ilə baş tutsa belə, lakin bu izdivac özündə ilahi məqsəd daşıması, bu cür ailə qurluşu səmərəsiz və yararsız olar. Necə ki, Peyqəmbər-Əkrəm (s) buyurur: «Hər kəs halal yolla və halal mal ilə qadınla evlənsə, bu halda

məqsədi özünü başqasına göstərmək və nümaiş etdirmək olsa, Allah-Təalanın nəzərində bu izdivac əhəmiyyətsiz və mənasız olar».

Həmcinin, əgər izdivac gələcək həyat yoldaşının malına və gözəlliyinə görə olsa, bu nigah təqdirə laiq olmaz».

İslam Peyqəmbəri bu haqqda buyurur: «Hər kim qadınla mal-dövlətinə gerə evlənmiş olsa, Allah-Təala onun həmin mal-dövlətə həsrət qoyar. Hər kim bir qadınla gözəlliyinə görə evlənmiş olsa, xoşu gəlmədiyi sifəti (xasiyyətiləri) onda görər və əgər bir qadınla dininə görə evlənmiş olsa, Allah bütün bu nemətlərin onlar üçün yetirər».

## İzdivacın məqsədi

Evlənməyin, ailə qurmağın  müxtəlif məqsədləri var. O cümlədən:

1. Nəsil artırmaq:

Quranın «Nəhl» sürəsi 72-ci ayəsində Allah-Təala buyurur: «Allah sizin icərinizdən özünüzə zövcələr (taylar) qərar verib. Bu zövcələrdən sizin üçün övlad və nəvə-nəticə ucuda gətirib. Pak nemətlərdən sizin üçün ruzu yetirib..».

Peyqəmbər-Əkrəm (s) buyurur: «Evlənin, ta ki, nəslinizi artırasınız. Qiyamət günü çoxluğunuz üçün sizinlə fəxr edəcəyəm. Hətta ğlü dünyaya gələn uşaqlarla ki, onlar behiştin qapısında dayanıb deyəcəklər ki, onlar behiştin qapısında dayanıb deyəcəklər ki, bizdən əvvəl ata-anamız gərək behiştdə daxil olanlar».

2. Ruhi aramlıq:

Quranı-şərif, mübarək «Rum» sürəsində buyurur: «Sizin özünüzdən sizlər üçün taylar yaratmış ki, onlarla rahatlıq tapasınız» (ayə, 21).

3. Cinsi tələbatın təminatçısı.

Rəsuli-Xuda buyurub: «Əgər bakirə qızlar o hisslər ki, qadınlar dərk edilərlər, onlar da dərk edilərsə, onlar üçün ən yaxşı çarə ərə getməkdir, əks təqdirdə bəşəriyyət fəsaddan əmin-amanlıqda olmaz. Onlar yetişmiş meyvə kimidirlər. Dərilməsə gün onu xarab edir, ya da düşüb məhv olar».

Həzrət Əli (ə) buyurub: «O zaman ki, zövcənizlə əlaqədə oldunuz onları tələsdirməyin, çünki onların öz tələbatıları var».

## İzdivacın faydası

İzdivacın demək olar ki, insanların mənəvi və maddi faydalarının əsasını, bünövrəsini təşkil edir.

Peyqəmbər-Əkrəm (s) buyurur: «Hər kim evlənirsə, o, dinin yarısını qorumuş olur, dinin qalan ikinci yarısını qorumaq üçün Allahdan qorxusun».

- «Hər kəs evlənib ailə qursa, ibadətin yarısı ona bağışlanır».

- «Hər kəs Allahı sevir və onun dərgahına pak və pakizə halda getmək istəyirsə, ailə qursun» (Yəni ailə qurma Allahın razılığını əldə etməkdir).

- Subay oğlan və qızları evləndirin, çünki Allah-Təala onları xoşəxlaq edir, onlara ruzi yetirir, şərəf və ləyaqətlərini artırır».

- «Özünüz üçün həyat yoldaşı seçin və evlənin, Allah sizə ruzi verər».

İmam Baqir (ə) Həzrət Peyqəmbərdən (s) rəvayət edir: «Möminin evlənməsinə nə mane ola bilər, bir halda ki, Allah yer üzərində ona övlad əta edər ki, «la ilahə illəl-lah» desin».

## İzdivacın vaxtı

Təbiət və yaradan, insanlar üçün izdivac yaşını təyin etmişdir və o həddi-buluğa çatma yaşıdır. Oğlanlar on altı yaşında, qızlar isə on yaşında yeniyetmə yaşına çatırlar. Onlar bu mərhələdə şəriət qaydalarına uyğun olaraq izdivac edə bilərlər. Buna baxmayaraq, oğlanlarda 17 və 18 yaşadək, qızlarda isə 15 və 16 yaşadək təxirə salınması daha düzgün olardı. Çünki həm oğlanlar, həm də qızlar yeniyetmə mərhələsinin əvvəllərində kifayət qədər inkişafa və zəkaya malik olmurlar. Bu baxımdan həmin mərhələdə həyata keçirilən izdivac müəyyən çətinliklərlə, problemlərlə üzləşməli olurlar. Bundan əlavə, həddi-buluğa çatma mərhələsinin ilkin iki və ya üç ilində cinsi instinkt tam oyanmır, cavanlar o qədər də təzyiq göstərmir. Bütün bunlar uyğun olaraq qeyd etmək lazımdır ki, oğlanlarda 17 və ya 18 yaş, qızlarda isə 15 və ya 16 yaş izdivac üzdivac üçün ən münasib yaş həddidir. Ancaq izdivac etmənin yuxarıda qeyd olunan yaş həddindən sonrakı mərhələyə saxlanılması düzgün deyil. Çünki cismani, ruhi və ya ictimai hadisələrə gətirib çıxara bilər. Bu yaşda cinsi instinkt tamamilə oyanmış vəziyyətdəolur, bütün var gücü ilə təhrik edir və cavanı öz təziqi altında saxlayır. Və bunu şəriətlə

icazə verilmiş təminatından başqa heç bir çarəsi yoxdur. Çinsi tələbat insanın suya və ya qidaya olan tələbatı kimidir. Məgər hər hansı bir ac və ya susuz adama yemə və ya içmə demək mümkündürmü? Məgər başqa bir iş, məsələn idman, əyləncə və ya hər hansı bir oyun növü insanın bu tələbatlarını ödəyə bilərmi? Cinsi ehtiyacda aclıq və ya susuzluq kimi bir şeydi, bəlkə də ondan daha şiddətli, daha güvvətli ehtiyacdır. Və əgər bu təbii tələbat icazə verilmiş yolla təmin edilməzsə, onda həmin hisslər, həmin tələbat insanı qadağan edilmiş yollarla və ya günah işlətməyə sövq edirə bilər. Belə olduğda zaman onun qarşısını almaq çox çətin olacaqdır. Gəncin bu yasaq edilmiş yollardan çəkindirilməsi də inam, etiqad, həya və əxlaqi təmizlik yolları ilə həyata keçirilməli və o, özü qeyd etdiyimiz cinsi instinktin qarşısını almalıdır. Əks təqdirdə, xeyli günahlara bata bilər. Amma bütün bunlara baxmayaraq, gəncdə elə bir mərhələ yetişir ki, artıq bu cini instinktin qarşısının alınması qeyri-mümkün olur. Və bu halda, yəni müəyyən yaş həddində izdivacdan savayı başqa bir yol var qalmır. Nə qədər mümkündürsə, bir o qədər tez izdivac etmək olmaz.

## İZDIVAC RUZİNİ ARTIRIR

Peyqəmbər (s) buyurur: «Qadın alın k, sizin ruziniz artsın»

***QEYD*: *Evlənməklə ruzinin artmasının iki yolu var:***

1. Allahın verdiyi vədəyə uyğun olaraq, tərəflər üçün Allahın qeybi köməkləri, izdivac, həyat davam etdirmək, qadınla kişinin rahatlığı, gümrahlıq, gələçəyi düşünmək hissi, ailə ocağını təşkil etmək, evin büdcə ehtiyaclarını duymaq, xərclərə nəzarət, dolanışılıq vəsaitləri hazırlamaq, israfcılıq və əlavə xərclərdən çəkinmək üçün bir vasitədir və bunun nəticəsində ailənin həyat şəraitini təmin olunur və ehtiyacları həll olunur. Bu, təbii bir işdir.

2. Kasıblığın qorxusundan evlənməyən adam Allahdan bədgümün olmuş olur. Allah buyurmuşdur: «Əgər kişilər kasıb olsalar, Allah öz fəziləti vvvə kəraməti ilə onu ehtiyacdan qurtarar».

3. «Ruzinin artırması üçün evlənin qadın bərəkət sahibidir».

4. İsaq ibni Əmmar deyir; «Həzrət Cəfər Sadiq (ə) ərz etdim: «Camaat danışır ki, bir şəxs Allah elcisinin hüzüründa yoxsulluqdan şikayət etdi. Həzrət Mühəmməd (s) buyurdu: «Evlən!» İkinci dəfə şikayətləndi. Yenə buyurdu: «Evlən!» Bu sözü üç dəfə təkrar etdi. Bu

hədis düzgün hədisdir?» Həzrət İmam Cəfər Sadiq (ə) buyurub: «Bəli, düzgün hədisdir. Ruzi qadın və övladla yol yoldaşıdır».

5. Həzrət Cəfər Sadiq (ə) buyurub: «Bir kişi Peyqəmbər (s) hüzurunda yoxsulluqdan gileyləndi. Həzrət Mühəmməd (s) buyurudu: «Evlən!» O, getdi və evləndi. Ruzi qapıları onun üzünə acıldı».

6. Yenə də altıncı İmam buyurur: «Bir cavan ənsar Peyqəmbərin (s) yanında kasıbcılıqdan fəryad elədi. Həzrət Mühəmməd (s) buyurudu: «Evlən!» O cavan dedi: «Mən ehtiyac içində olduğumu ikinci dəfə Peyqəmbərə söyləməkdən utanıram».

Ənsarlardan biri (Mədinə müsalmanlarından) onunla görüşüb söylədi: «Mənim həddi-buluğa çatmış bir qızım var. Onunla evlənə bilərsən!». Cavan ənsarın qızı ilə izdivac etdi və Allah onun işlərini yaxınlaşdırdı. Bir gün o, Allah elcisinin yanına gəlib əhvalatı ona danışdı. Həzrət Mühəmməd (s) buyurudu: «Ey cavanlar! Evlənin!»

7. Həzrət Peyqəmbər (s) buyurur: «Ruzini evlənmək ilə əldə edin!»

8. Peyqəmbər (s) buyurur: «Ey cavanlar! Hər biriniz bacarırsınızsa, evlənin! Əgər bu işi bacarmırsınızsa, müntəzəm oruc tutun ki, şəhvətiniz azlsın!»

## İzdivac, müqəddəs ailə həyatı

Bütün oğlan və qızlar müəyyən yaş həddinə çatdıqda sevib-sevilməyə, ailə qurmağa özlərində ehtiyac duyurlar. Bu, təbii və cinsi zəruriyyətdən irəli gələn fitri bir haldır ki, bütün insanların (onlara heç bir təlqin və təlim keçmədən) daxili aləmində vücuda gəlir.

Cinsi ehtiyacı ödəməyin üç yolu var:

1. Narkotik maddələr və bu kimi insan mənəviyyatına böyük ziyan vuran və insan şəxsiyyətini alcadan məstedici maddələr.

2. Zinakarlığa, faişəliyə uymaq.

3. Evlənmək, müqəddəs ailə həyatı qurmaqla İlahi hökmə əncam vermək.

Birinci yolu aqil insanlar məhküm edir və batil hesab edirlər. Çünki bilə-bilə özlərini şikəst edən insanlar Allahın fərmanından boyun qaçırır, tərkidünyalığa və bədbinliyə düşmənklə özlərini günaha batırırlar. İzdivac dövrü insanın gənclik illərinə təsadüf etdiyindən bu dövr şəxsiyyətin formalaşa, təkamül prosesi nəticəsində eşq kimi şirin gözəl bir duyğunun

çiçəklənən və ətir saçan bir dövrüdür. İlahidən gələn belə gözəl duyğulardan gönüllü olaraq imtina etmək sağlam ağıl sahiblərinin işi deyil.

Ikinci yol fəsadı və zərərli cəhətləri şübhə yox ki, birinci yolda olan insanlardan daha çoxdur. İnsanləyaqətini, mənəviyyatını ləkələyən və alcaldan bu cür adamlar təkcə özlərinə yox, həmcinin İslam əxlaqına və mədəniyyətinə həddən ziyadə ziyan vururlar.

Bu cür fasiq və günah işlərlə tərbiyyəsini pozmaqla böyük fəlakətlərə səbəb olurlar. İnsan əqli və dərrakəsi bir cür cirkin hərəkərləri qəbul etməz və onunla barışmazdır. Çünki belə çirkin içlərə aludə olan şəxslər şərəfsiz insanlardır və daimə fəsad törətməkdən çəkinməzlər. Çox təssüf ki, bir çox adamlar, bu cür pis və xətərli yola düşürlər. Iş o yerə çatıb ki, Qərb və Avropa ölkələrində biqeyrətliyi və bihəyalığı özlərinə şərəf sayır, kişilər öz məşuqələrinin sayı ilə, qadınlar iəs aşnalarının çox olmağı ilə fəxr edirlər. Bu ölkələrdə əxlaqsızlıq o həddə şatıb ki, kişilər ləvatlıqla məşğul olurlar, əhalinin əksəriyyəti zina, əyyaşlıq və bu kimi fasiq işlərdən kənarda qalmırlar.

Həya və ismət o dərəcədə aradan gedib ki, İngitərədə bir neçə il bundan qabaq Böyük Britaniyanın ali, qanunverici məclisi olan Lordlar palatası levatiliyi sənədləşdirilmiş və qanuni hesab etmişlər. («Təfsirəl-mizan» cild 4, səh. 197-198)

İnsanın əxlaqına zidd olan çirkin işlər Amerikada da dərin kök salıb və təşəkkül tapmaqdadır. Belə ki, ABŞ-da eyni cinsdən olan iki «ailə qurması» azad hesab olunur.

Özünüz mülahizə edin və görün ki, bu kimi «sivilizasiyalı» ölkələrdə insan mənəviyyatı necə suquta yetir.

## İzdivac fəziləti

Üçüncü yol insan həyatında təbii həm də şərəfli bir yoldur. Xüdavəndi-aləm bu yolu Qurani-məciddə, məsum İmamlarımız hədis və rəvayətlərdə bəyənir, qiymət verir və izdivacı insanlar üçün faydalı və şərəfli bir iş hesab edirlər.

Fikrimiz aydınlaşdırmaq və bu kimi həyati məsələlərə daha aydın işıq sacmaq üçün diqqətinizi aşağıdakı hədisə cəlb etmək istəyirik.

İmam Sadiq (ə) buyurur: «Nə dünya və nə də axirətdə qadınla izdivaca girməkdən, onunla təmasda olmaqdan ləzzətli bir şey ola bilməz».

Bu cür hədislər nişan verir ki, izdivac ilahi bir qanun və mühüm ibadətlərdəndir və bu kimi müqəddəs əmrə əncam verməklə insan həyatdan əsil ləzzət aparar və həyatın, yaşamağın mənasını dərk edib anlayar. İzdivaca girməklə insan eyni zamanda faişəlik, əyyaşlıq və s. günah işlərdən özünü, ailəsini və yaşadığı cəmiyyəti uzaqlaşdırar, onları şeytani vəsvəsələrdən xilas edər.

## İzdivaca girməməyin mənfi cəhətləri

İzdivac baxmayaraq ki, müstəhəbbi bir əməldir, lakin insan iztirabdan, məsiyyətdən və günahda batmaqdan yaxa qurtarmaq istəyirsə, vacibdir ki, evlənsin, ailə qursun. Bununla da narahtlıqdan və haram işlərdən nicat tapsın.

Məsum İmamlarmızdan da müqəddəs ailə quruculuğunu ilahi bir qanun, Peyqəmbərin (s) ümmətinin şərəfli vəzifələrindən bir sanır, mücərrəd, ailəsiz insanları isə dünyada ən pis adamlar və şeytanın qardaşları hesab edirlər.

Bütün bu hədis və rəvayətlərdən belə qənaətə gəlmək olar ki, izdivacsız, mücərrəd yaşayan kəs həyatda bədbin, məsiətkar və şeytanla həmkarlıq edənlərdən olar. Bu cür adamlar xalq tərəfidən pislənir və onlara pis gözlə baxırlar. Hətta vaxtında evlənməyən şəxslər həyata cürbəcür xəstəliklərə, məhrumiyyətlərə və əzab-əziyyətə ducar olur, həyatın mənasını dərk etmir, ondan bəhrə götürmür, ailə, oğul-uşaq sahibi olmaq kimi gözəl həyati duyğulardan məhrum olur.

Bütün hallarda uzun illərin təcrübəsi sübuta yetirir ki, evlənmək, ailə qurmaq tək, subay qalmaqdan olduqca mənfəətli və faydalı olur.

Necə ki, Qurani-şərifdə və hədis xəbərlərində izdivacın əhəmiyyəti və faydaları haqqında mülahizələr yürüdülür və tövsiyələr olunur. Eləcə də İslamın görkəmli xadimləri və müctəhidlər daha çox əhəmiyyət verərək izdivacın mahiyyətini və əsil səmərəsini, təbiiləzətlərdən faydalanmaqdan savayı sağlam və tərbiyəli övlad yetişdirmək, kişi ilə qadın arasında ülvi duyğularda və axirəti qazanmaqda görürlər.

Rəsuli-Xuda (s) hədis-şəriflərində buyurur: «Pak və xoşxislətli qadınlarla izdivac edin, lakin gözəl üzlü nazaninlərlə izdivac etməkdən ehtiyat edin, lakin gözəl üzlü nazaninlərlə izdivac etməkdən ehtiyat edin, çünki qiyamət günü mən ümmətimin camalına yox, kəmalına diqqət edəcəyəm».

Həzrət Əli (ə) Həzrət Peyqəmbər- Əkrəmdən (s) nəql edərək buyurur: «Hər kim istəyir ki, mənim ayinlərimə tabe olsun, bilsin ki, izdivac mənim ayinlərimin bir hissəsidir. Səy edin ki, izdivac vasitəsi ilə övlad sahibi olasız, çünki mən sair ümmətlərə nisbət, öz ümmətimin çoxluğu ilə fərəhlənəcəyəm».

Bununla da biz belə nəticəyə gəlirik ki, izdivac İslamın müqəddəs, şəri hökmlərinə uyğun hərəkət edərək sağlam nəsil tərbiyə edib böyütmək, cəmiyyətə İslam əxlaqına zidd olan nalayiq hərəkətlərə yol verməmək, pis yola sürüklənən adamları getdikləri batil yoldan qaytarmaq, onları günah işlər görməkdən çəkindirməkdir.

Hər bir müsalman çalışmalıdır ki, izdivac mərasimlərində İslam qaydalarına zidd olan eybəcər adət-ənənələrə yol verməsin.

Hər bir ata-ananın müqəddəs borcudur ki, özlərində məsuliyyət dərk edib öz övladlarını erkən yaşlarından İslami göstərişlərə uyğun olaraq izdivac üçün lazım olan hər bir tədarükü görsünlər.

Rəsuli-Xuda (s) buyurur: «Hər kimin izdivac həddinə çatmış övladı olmuş olsa, onun ümdə vəzifəsi odur ki, izdivaca lazım olan hər bir şeyi tədarük görsün. Əgər bu mübarək işə əncam verməyi üzündfən övlad günah iş görsə, ata-ana bilməlidirlər ki, onlar da günaha şərikdirlər.

Allah-Tala bütün möhtərəm valideynlərə belə müqəddəs bir işi öz övladlarına təşviq və rəğbət qazandırmaqda tovfiq inayət əta etsin.

## İzdivacaın dünyəvi və axirəvi mahiyyətləri

Nəzərə alsaq ki, izdivac ilahi qanun, Peyqəmbər (s) ayini və dini təklifdir, şübhə yox ki, o səmərəli və faydalı olmalıdır.

Ilahi əmirləri və İslam göstərişləri dönmədən həyata keçirən məsum İmamlarımız izdivaca girib ailə səadətinə yetdikdən sonra ictimaiyyəti də hidayət etməyə, onlara rəhbərlik etməyə özlərini məsuliyyətli biliblər. Çünki mücərrəd adamlar ictimaiyyət arasında etibarsız və məsuliyyətsiz olurlar və xalqıbn problemlərini, dərdi-sərini anlamaz, dərk etməzlər.

Adətən bu cür insanlar cəmiyyətə qarşı laqeyd və etinasız olurlar. Faydalı işlərdən əli elə soyuyar ki, hətta səhərlər öz yatalarından da qalxmaq istəməzlər. Bu cür adamlar başqalarının nailiyyətlərinə həsəd aparar və pis yola getməkdən də çəkinməzlər. Məsələn, bir çoxları evlənib oğul-uşaq sahibi olarkən onun təbiətində bir canlanma baş verir, ictimai həyatda rolu və fəaliyyəti artır. Dünən günortayadək yatağından durmaq istəmiyən şəxs gecələr gec yatır, səhərlər isə erkən duraraq ailə qayğısı və dərd-səri ilə məşğul olur. Məhz belə halda həyatın mənasını dərk edir, yaşayıb-yaratmaq eşqi onun ruhunda gün-gündən təşəkkül tapır və inkişaf edir. Eyni zamanda ətrafındakıların da hörmətini qazanır başı ailə qayğısı ilə qarışır və pis yola getməkdən çəkinir. Əgər cəmiyyətdə bəzi hadisələr onu narahat etsə də ailəyə pənah aparır.

Beləliklə izdivaca girmək, möhkəm ailə təməli qurmaqla insan xeyir-bərəkətə və əmin-amanlığa nail olur.

### İzdivacaın axirət dünyasından ötrü əhəmiyyəti

İzdivac, Ilahi bir əmr olduğundan şübhə yox ki, axirətdə də öz nəticəsini və bəhrəsini verəcəkdir. Belə ki, insan izdivac dövründə günahlardan çəkindiklərinə görə qiyamət günü onlar Allahın təhti-nəzərində qərar tutacaqlar. Çünki izdivac Allaha yaxın olmaqdan ötrü mühüm bir vasitədir. Və mükafatı da o olar ki, ibadətinin savabını ikiqat artırıb yaxşı dərəcələrə çatdırar, inşəllah.

Rəsuli-Xuda (s) buyurur: «Hər kim istəyir ki, kamil imanla dünyadan getsin və axirəti xeyirli olsun, hökmən gərək ailə sahibi ola».

Hər insanın ictimai və dini şəxsiyyətinin müəyyən qədər təcəssüm tapması və ruhi həyacanların aradan getməsi ailə qurmaqdadır. Quran «Rum» surəsinin 21-ci ayəsində deyir ki, izdivacın faydalarından biri də ruhun aramlığıdır.

## İZDIVAC ƏRƏFƏSİNDƏ TANIŞLIQ

1. Oğlan barəsində tanışlıq elə olmalıdır ki, qızın arzu etdiyi sifətlərin (xasiyyəti, peşə və ya xarici görkəmi) həmin oğlanda olub-olmamağına diqqət yetirmək lazımdır.

## Qız barəsində tanışlıq

Gəlin secməyə gəldikdə insanlar mühüm bir məsələyə daha çox diqqət yetirərlər, cəhd edərlər ki, oğlan gələcək zövcəsinin üzünü görsün və adətən qızın zahiri görkəminə daha çox diqqət yetirirlər.

Rəvayətlərdə varid olub ki: - «Öz övladlarınıza laiq həyat yoldaşı seçin, gəlin gətirəcəyiniz qızın əslnəcabətinə diqqət yetirin. Məsəl var deyərlər: «Oğlan dayısına, qız bibisinə oxşayar».

İmam Sadiq (ə) evlənmək niyyətində olan əshablarından bir nəfərin izdivac haqqında verdiyi sualabelə cavab verir: «Bax, gör kimi öz ocağının üstünə gətirirsən, kimi öz malına şərik edirsən, öz dininə və sirrinə kimi agsh edirsən? Bəs, əgər naçar evlənmək niyyətində olsan, heç olmasa bakirə bir qız seç ki, nəcabətli və xoş əxlaqlı olsun».

İmam Sadiq (ə) buyurur: «Qadın boyunbağı timsalındadır, bax gör nəyi boynuna salırsan?»

İmam Saccad (ə) buyurur: «Hərgah sizlərdən hər hansı biriniz evlənmək fikrinə düşsə, qızın camalı ilə maraqlandığınız kimi saçı ilə məraqlanın, çünki saç qızın gözəlliyinin yarısı deməkdir.

Rəsuli-Xuda (s) izdivac məqsədi iləbir nəfər qadını elçiliyə göndərir və ona tapşırılır ki, qızın boynundan iyləsin, əgər boynunda xoş qoxu varsa, qadın xoşətirli və pak olur. Bir də ayağının üstünə baxsın..».

Mühəmməd ibn Müslim rəvayət edir ki, İmam Baqirdən (ə) soruşdum: «Əgər bir şəxs evlənmək istəyirsə o, istədiyi qızın üzünə baxa bilərmi?» Həzrət cavabında dedi: «Bəli, baxa bilər, çünki onu çox baha qiymətə alır».

Zövcə seçərkən qıza baxmağın şərtləri:

O şəxs ki, evlənmək istəyir istədiyi qıza baxa bilər, bu şərtlə ki:

a) Ləzət almaq məqsədi olmasın;

b) Etimal edə ki, üzünə baxmaqla o qadını daha yaxşı tanıya bilər;

c) Elçi gedən vaxtı; o, şərtlə ki, izdivac o qadına caiz olsun, nəinki ərdə və ya «ildə»(* «ildə»-şəriətlə ərə getmək istəyən dul və ya ərindən ayrılmış qadınlar üçün qadağan müddətidir. Bu müddət dul qadınlar üçün 4 ay 10 gün, hamilə qadınlar üçün hamiləlikdən azad olunadək, ərindən ayrılmış qadınlar üçün isə 3 aydır) halında olsun;

ç) Qızın (qadının) o şəxslə izdivaca girməsi etimal versin;

d) Bir necə qadının arasında öz istədiyi qıza baxmaq caiz deyil;

e) Əgər qıza izdiva məqsədi ilə bir dəfə baxmaqla onda agahlıq hasil olmayıbsa, caizdir ki, öz baxışını bir də təkrar etsin.

**Diqqət:**

Əldə olan təcrübələrə əsasən belə nəticəyə gəlmək olar ki, ailədə ər və ərvad arasında münaqişə və ya ailənin əsla dağılmasına səbəb nigah bağlamaqdan əvvəl bir-birini kifayət qədər tanımamaqları və ya onları evləndirən valideynlərin səriştəsizliyi və ya məsuliyyətsizliyi üzündən ortaya çıxır.

Buna görə də ailə qurmazdan əvvəl bu cür həyati məsələyə tam ciddiliklə və məsuliyyətlə yaşayıb iki ailə arasında tədqiqat aparıb biri-digərini yaxşı tanımaq, oğlanla qızın bir-birini həqiqi mənada sevməklərini xasiyyət cəhətdən bir-biri ilə uyuşmaqlarını tam mənada öyrənmək lazımdır. Çünki belə bir məqamda insan həyatında ilk dəfə yol verilən səhv axırıncı və islahı bir daha mümkün olmayan səhv ola bilər.

**Qadın ləyaqəti**

İnsanın səadəti və xobəxtliyindən biri xanımının ləyaqətili, xoşxasiyyət və ismətli olmasıdır. Rəsuli-Əkrəm (s) buyurur: «İnsanın xoşbəxtliyi onun zövcəsinin xoşxislət və ləyaqətli olmasıdır».

İslam baxımından evlənmək, ailə qurmaq istəyən hər hansı bir kişi və ya qadın bir sıra keyfiyyətlərə və xüsusiyətlərə malik olmalıdırlar. O cümlədən:

Ləyaqətli qadının xüsusiyyətləri:

1. İslam Peyqəmbərin (s) nəzərində ləyaqətli qadın o kəsdir ki, o xoşxasiyyətli, nəzakətli ailə başçısına, ərinə qarşı həssas və onun itaətində olsun, ailədə olanların hörmət və etiramını qazanmış olsun, səliqəli, təmizkar, ev quiran və nəsil verən olsun. Çətin şəraitdə səbirli və təmkinli olsun.

2. Həzrət Əli (ə) buyurub: «Dörd xislət hər kimdə olsa, dünya və axirətdə xeyir tapar».

Bu xislətdən biri həyat yoldaşının ləyaqətli və xoşxasiyyətli olmasıdır. Bu cür övrət öz ərlərinin üzünü dünya və axirətdə ağ edər.

3. Rəsuli-Xuda (s) buyurur: «Sizin qadınlarınızdan ən yaxşıları Qureyş və seyyidə olanlardır, çünki onlar öz ərlərinə həddən ziyadə lütf göstərirlər, öz övladlarına daha çox mehriban olurlar, evdarlığa gəldikdə isə öz ərləri ilə təmkin və səmimiyyətlə rəftar edirlər və kənar şəxslərdən öz həya-abırlarını gözləyirlər.

Mərhum Şeyx Hürr Amili bu və digər hədisə istinadən buyurur: «Qureyş qadınları və seyyidlərlə izdivac müstəhəbdir».

4. Rəsuli-Əkrəm (s) buyurur: «Dörd xislət hər kimdə olsa, dünya və axirətdə xeyir tapar».

Bu xüsuyyətlərdən biri həyat yoldaşının ləyaqətli və xoşxasiyyətli olmasıdır. Bu cür övrət öz ərlərinin üzünü dünya və axirətdə ağ edər.

İmam Sadiq (ə) buyurur: «Sizin qadınlarınızdan ən yaxşıları onlardır ki, öz əri ilə təmasda olduğu anlarda həya pərdəsini üzündən götürsün, libası əyininə geydikdən sonra həya pərdəsini də üzünə çəksin».

6. İmam Baqir (ə) buyurur: «Bir kişi Rəsuli-Əkrəmin xidmətinə təşrif gətirdi, evlənməkdən ötrü ondan məsləhət və icazə istədi. Həzrət Peyqəmbər (s) ona buyurur: «Bəli, evlən, amma dindar qızla evlən»

7. Peyqəmbər-Əkrəm (s) buyurur: «Heç bir müsalman İslamdan qeyri millətdən fayda görməyib o mənada müsalman qadının üzünə baxıb sevindiyi kimi sevinsin, ona bir söz deyəndə sözünə qulaq asmış olsun, əri yanında olmayanda onun malını qorumuş olsun».

8. İmam Sadiq (ə) buyurur: «Sizn xanımlarınızdan ən yaxşı o qadındır ki, xoşxislət olsun və cinsi rəğbəti ərinə qarşı daha çox olsun».

9. Yenə o Həzrət buyurur: «Gözəl sürətli və gözəl xislətli dünya qadınları, behişt hürilərindən də üstündür»

10. Həzrət Əli (ə) buyurur: «Xoşrəftar qadın ailədə asyişin rəmzidir».

11. Müstəhəbdir ki, qız seçəndə nəcib, xeyirxah, iri gözləri, xoş qoxulu, gözəl üzlü, qalın saçlı, həyalı bir qız olsun və ata-anası fasiq işlərdə məşqul olmamış olsun.

12. O qız ki, nəcib və xeyirxaq deyil, onunla ailə qurmaq məkruhdur.

Mərhum Şeyx Hürr Amili bir neçə hədisdə istinadən buyurur ki: «Gülərüz, xoş sima və qalın hörükləri olan qızla evlənmək müstəhəbdir».

Ləyaqətsiz qadının xüsusiyyətləri:

Rəsuli-Əkrəmin nəzərində ləyaqətsiz qadın o qadındır ki:

1. Ailə üzvlərinin arasında hörməti yoxdur. Ərinə qarşı kobud və laqeyddir. Kin-küdrətli və davakrdır. Ərinin itaətində deyil. Əri bir yerə

gedəndə Allahdan qorxmayıb günah işlərə əl qatır. Başqaları üçün geyinib-bəzənir, əri yanında olanda isə ona yaxınlaşmaq, mehribanlıq göstərmək əvəzində ondan uzaqlaşır və ona qarşı laqed olur. Əri ilə hesablaşmır və heç bir işdə ona qarşı güzəştə getmir.

2. Zövcə seçərkən təkcə qızın gözəlliyinə və mal-dövlətinə uymaq məkruhdur. Yaxşı olar ki, özünə ömür-gün yoldaşı seçərkən təkcə onun zahiri gözəlliyinə və mal-dövlətinə aşiq olmayasan.

3. Məsum İmamlrımızdan biri buyurur: «Hər kəs bir qızla yalnız onun gözəlliyinə görə evlənərsə, Allah-Təala həmin qadının gözəlliyini ərinin başına bir bəla edər».

4. İmam Sadiq (ə) buyurur: «Möminin ən qəddar düşməni onun pis arvadıdır».

5. Həzrət Əli (ə) buyurur: Ən pi arvad o arvaddır ki, ərinin istəyinə və və iradəsinə tabe olmaya».

6. Rəsuli-Xuda (s) buyurur: «Ey kişilər! Özünüzü zibillikdə göyərənlərdən qoruyun, onlardan uzq olun!» Soruşdular: «Ya Rəsulallah! «Zibillikdə göyərənlər» nə olan şeydir?

7. Həzrət buyurdu: «O gözəl qızdır ki, ailədə pis tərbiyə alıb».

8. Nadan qadınla evlənmək məkruhdur. İmam Sadiq (ə) cənab Əmirəl-möminindən belə nəql edir: «Nadan qadınla izdivacdan ehtiyat edin ki, onunla oturub-durmaq adamı dərdə giriftar edər, ondan törənən övlad isə qabiliyyətsiz olar».

9. İmam Sadiq (ə) buyurur: «Qadının bərəkətlisi qənaətlə dolananı, bəd olanı isə israfçılğa yol verənidir».

## Pis və yaxşı qadının qiyməti

Peyqəmbər-Əkrəm (s) buyurur: «İstər pis, istərsə də yaxşı qadına qiymət yoxdur. Çünki yaxşı qadını qızıl-gümüşlə ölçmək olmaz ki, deyəsən bu yaxşıdır və ya digəri. Pis qadını da torpaqla ölcmək olmaz ki, deyəsən torpaq ondan qiymətlidir».

## Ləyaqətli kişının xüsusiyyətləri

1. Ləyaqətli ər o kəsdir ki, xoş əxlaqlı, dindar, vicdanlı, əmanətə xəyanət etməyən, bacarıqlı, qabiliyyətli olsun və bu keyfiyyətinə görə ona hörmət göstərsinlər. Əsl-nəsəbinə, şərəfinə görə ona baş əyməsin.

2. İbrahim ibn Mühəmməd yazır: «Mən İmam Mühəmməd Baqir (ə) izdivac haqqında bir namə yazdım. Sonra Həzrət öz mübarək xətti ilə yazdığı cavab məktubunu aldım. Həzrət yazırdı ki: «Rəsuli-Xuda (s) buyurur: «Hər kəs sizin qapınıza qız almağa gəlsə onun əxlaqını və dinini bəyənsəniz, onda ona qız verin. Yox əgər belə olmasa, Yer üzünü fitnə-fəsad buyurər».

3. Peyqəmbər (s) buyurur: «Sizin ən yaxşı kişilərinız təqvalı və vicdanı təmiz olanıdır və o kəslərdir ki, ata-anasına yaxşılıq edirlər. Bu cür adamlar öz qadınlarını da başqalarına möhtac etməzlər».

4. İmam Baqir (ə) buyurur: «Hər kim sizin qapınıza elçiliyə gəlsə, əgər dininə agahsınızsa, ona əmanət etibar edə bilərsinizsə, ona qız verin. Əgər başqa cür olsa arada əmin-amanlıq olmaz».

5. Rəsuli-Xuda (s) buyurur: «Özünüzə laiq bir ailəyə, qızınıza tay ola bilən bir kişiyə qız verin».

6. Bir nəfər öz qızının izdivacı haqqında İmam Həsən (ə) məşvərət edirdi. İmam ona buyurdu: «Öz qızını bir nəfər təqva əhlinə ərə verr, çünki bu cür şəxs əgər sevməsə də ona zülm-sitəm etməz».

**Qeyd:**

*1. Ərəbin əcəmlə və ya əksinə əcəmin ərəbləevlənməsi, seyyid övladıilə qohum olmaqları, ənsəb sahiblərinin sıravi adamlarla qohum olmaqları caizdir, çünki müsalman müsalmanla, mömin də mömınə qadına ləyiqdir.*

### Ləyaqətli kişının sifətləri

1. Əxlaqsız, şərabxor, namərd, fasiq, dinsiz və bu kimi bəd sifətlərə malik olan adamlara qız vermək və ya qızların bu cür insanlara ərə getmələri laiq deyil.

2. Bəşşar Vasti deyir: «Mən İmam Rzaya (ə) bir məktub gendərdim. Yazmışdım ki, «Qohumlarımdan bir nəfər mənim qızım üçün elçiliyə gəlib. Oğlan əxlaqsızdır. Nə məsləhət bilirsiniz?» İmam (ə) cavab məktubunda yazırdı: «Əgər oğlan əxlaqsızdırsa ona qız vermə».

3. Peyqəmbər (s) buyurur: «Siz kişilərdən ən pisi odur ki, o töhmət edə, paxıl və ədəbsiz ola. Tək nahar edər, qonaq-pərvərliyi olmaz. Övrətini və xidmətçilərini döyər və təhqir edər. Öz arvadını başqalarına möhtac edər və ata-anasına əziyyət verər».

4. Rəsuli-Xuda (s) buyurur: «Əgər şarabxor qapınıza elçiliyə gəlsə, ona qız verməyin».

5. İslam Peyqəmbəri (s) buyurur: «Hər kəs öz əziz qızını fasiq və nanəcib adama ərə versə, gündə ona min lənət yağdırılar».

6. Bu cəhətdən də əxlaqsız, yolunu azmış fasiq, şərabxor adamlara qız vermək məkruhdur.

7. Müsalman qadın (qız) kafirə ərə gedə bilməz. Müsalman kişi həmcinin də kafir qızı ilə daimə evlənə bilməz.

8. İmam Sadiq (ə) buyurub: «O qadınlar ki, iman cəhətdən zəifdilər onlarla evlənməyin eybi yoxdur, lakin imanı zəif olan kişilərə, İmamlrla müxalif olan adamlara qız vermək caiz deyil, çünki qadın ərinin əxlaqının və ədəbinin təsiri altına düşə bilər və əgər qız övladı olsa onu öz alət və ayinlərinə üyğun davranmağa məcbur edər».

9. Müsalman qadın açıq-aşkar əhli-beytlə (ə) düşməncilik edən və yaxud əksinə Peyqəmbər və ya İmamları hər hansı birini Allah sayana ərə getməyi caiz deyil.

10. Həmçinin mömin kişilərə də caiz deyil bu əqidədə, bu xislətdə olan qadınlarla evlənsinlər, çünki bu cürv insanlar kafir hökmündədilər.

## Kişılərın və qadınların ən yaxşısı və ən pisi

1. Peyqəmbər (s) buyurmuşdur: «Allahın hüzürüna pak və oakizə getmək istəyən hər kəs ölüm ayağında evli olmalıdır».

2. Peyqəmbər (s) buyurmuşdur: «Ümmətin ən pis adamları subaylardır».

3. «Sizlərdən ən pis adamları subaylardır, onlar şeytnın qardaşla

4. «Şeytan əməlisaleh kişiləri şirnikləndirmək üçün qadından iti qılıncı yoxdur. Yalnız evli kişilər pak, azad və şeytan vəsvəsindən uzaq ola bilərlər».

5. Başqa bir hədisdə qeyd olunmuşdur ki, Peyqəmbər (s) «Biz evlənmirik!» deyən kişiləri və qadınları lənətləmişdir».

6. Peyqəmbər tərkidünyalığın və evlənməməyin qarşısını almış və qadının ərə getməkdən imtina etməsini qadağan etmişdir.

7. Əli (ə) buyurur: «Peyqəmbər əsabından kimsə evlənirdisə, o Həzrət deyirdi: «Dini kamil oldu».

8. Əkkaf deyir: «Peyqəmbər (s) hüzürüna getdim, buyurdu: «Əkkaf sənin arvadın var?» Dedim: «Yox!» Buyurdu: «Kənizin var?» Dedim: «Yox!» Buyurdu «sən ki, sağlam və varlısan!» Dedim: «Bəli, şükür Allaha!» Buyurdu: «Onda sən şeytanın qardaşlarındansan! Ya gərək Məsihi rəhiblərindən olasan, ya əgər müsalmansansa, bütün müsalmanlar kimi hərəkət edəsən. Arvad almaq bizim qanunlarımızdandır. Sizlərin ən pisiniz subay olanlarınızdır, ölülərin ən pisi subay ölənlərdir. Vay sənin halına, Əkkaf! Evlən ki, günahkarsan!»

## MÖMİN KİŞİ VƏ QADIN BİR-BİRİNƏ YARAŞIR

1. Qurani-məcid buyurur: «Ey iman gətirənlər! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olasınız Allahdan ən çox qorxanısınız, pis əməllərdən ən çox çəkinəninizdi».. Həqiqətən, Allah hər şeyi biləndir, hər şeydən xəbərdardır» (1. Quran. «Hücurat» surəsi, 12 ayə)

2. İmam Baqir (ə) buyurur: «Bundan böyük müsibət yoxdur ki, bir cavan müsəlman özünün müsalman qardaşının qızına elçi göndərsin və qızın atası ona: «Üzr istəyirəm, sən sərvət baxımından mənim səviyyəmə uyğun deyilsən!»-deyə cavab versin».

3. Peyqəmbər (s) Qüreyş qəbiləsinin qadınlarını ərəb olmayan kişilərlə evləndirirdi ki, izdivacların sayı azalmasın və bu məsələdə yəni başqa millətlərinin nümayəndələrinə qız verməkdə başqaları da (başqa millətlər də) o Həzrəti təqlid etsinlər.

4. İmam Sadiq (ə) buyurur: «Qadın elə bir kişi ilə izdivac etmək istəyir ki, sədaqətli və ailəsini dolandırmağa qadir olsun».

5. Əbdülməlik Mərvanın Mədinədə bir casusu vardı ki, şəhərin kiçik-böyük xəbərlərini xilafətin mərkəzinə çatdırırdı. Həzrət Səccadın (ə) bir kənizi var idi onu azad etdi və İslam qanunları hökmü ilə onunla evləndi. Casus bu hadisəni Əməvi xəlifəsinə xəbər verdi. Əbdülməlik o cənaba tənəli bir məktub yazdı: «Gələn məlumatlara görə siz özünüz azad

etdiyiniz bir kənizlə evlənmisiniz. Halbuki Qüreyşin mötəbər ailələrindən özünüzə bab bir qadınla evlənə bilərdiniz ki, bu həm şərəfli bir iş olardı və həm də əsil-nəcabətli bir övlad doğardı. Siz buna münasib izdivacla nə məsləkinizə riayət etmisiniz, nə də övladlarınıza rəhm eləmisiniz» (Bu elə bir məktub idi ki, İslamdan heç bir əsər-əlaməti olmayan cahiliyyət ruhundan söz açırdı). Zeynəlabidin (ə) cavabında yazdı: «Sizin məktubunuz çatdı. Mənim özümün azad etdiyim kənizlə evlənməkdə məzəmmət etmişdiniz. Yazmışdınız ki, Qüreyş qadınlarının biri ilə evlənməyim başucalığım və övladımın əsil-nəcabətili olmasına səbəb olardı.

Səhv edirsən! Məgər Peyqəmbərdən üstün, uca şərəf və məqam təsəvvür etmək olarmı ki, mən evlənməklə o şərəf və məqama nail olum? Bu mənə məxsus bir kəniz idi, Allahın hökmü ilə əcr və savab qazanmaq xatirinə onu azad etdim və sonra ilahi qanunlar əsasında onunla kəbin kəsirdim. Allahın dinində pak və təmiz olan bir kəsin heysiyyət və şərəfinə bu cür işlər xələl gətirə bilməz. Allah İslam dini vasitəsilə cahiliyyətin mövhumi cəhətlərini aradan götürmüşdür ki, biz Rəsulullahın yaxşı əməllərini təkrar edək. Peyqəmbər Qüreyşin ən hörmətli qadını öz əmisi qızı Zeynəbi öz qulamı Zeydə verdi və kənizi və yəhudi Həyy ibni Əxtəbin qızı Səfiyyə ilə evləndirdi».

Həzrət Baqir (ə) buyurur: «Yəmamə əhalisindən Cubeybir adlı birisi İslam eşqi ilə Peyqəmbərin yanına gəldi, İslamı qəbul etdi və əsil müsəlman oldu. O, balacaboy, kifir, yoxsul və çılpaq bir kişi idi, bir sözlə, çirkin Sudanlı qiyafəsi vardı.

Bir gün Peyqəmbər onun qara, yazıq çöhrəsinə mehriban və riqqətli bir nəzər salıb dedi: «Cubeybir! Necə də yaxşı olardı ki, sən bir qadınla evlənəydin, onda sənin iffətin qorunardı, dünya və axirət işlərində o sənin yarın-yodaşın olardı».

O dedi: «Ya Rəsulullah! Atam-anam sənə fəda olsun, hansı qadın mənim həyat yoldaşım, balınc yoldaşım olmağa razı olar, əsil-nəsəbimə, ya çoxlu var-dövlətimə və gözəl görkəmimə baxıb sevinər və ümumiyyətlə, hansı qadın məni sevər?»

Həzrət buyurdu: «Cubeybir! Allah İslamın bərəkəti sayəsində cahiliyyət dövrünün zadəganlarını alçaltdı, qədərsiz-qiymətsiz olan adamlara şərəf bəxş elədi, zəlilləri əziz elədi, cahilliyətin məğrur, böyük qəbilələrin və möhtəşəm nəsillərin fəxr etdiyi şəxsləri əzib sıradan

çıxartdı, bu gün daha xalq bütün ağ və qara dərililər, Qureyşlilər, Qureyşli olmayanlar, ərəb və ya əcəm əhli hamı Adəm nəslindəndir və Adəm də qildən yaradılmışdır fikrini qəbul edibdir.

Allahın yanında ən sevimli şəxslər o şəxslərdir ki, onun əmrini hər şeydən üstün tutar və daha çox pəhrizkardır.

Cubeybir! Mən bu gün təqvası və itaəti səndən daha üstün olan bir müsəlman tanımıram». Sonra buyurdu: «Get, Bəni Bəyaze qəbiləsinin ən şərəfli adamı olan Ziyad ibn Ləbeydin qapısını döy, mənim buyruğumu ona çatdır və de ki, Peyqəmbər (s) buyurur: «Öz qızın Zulfanı Cubeybirə ver». O cür görkəmli, əsil-nəsilli Ziyad, Peyqəmbərin bu göstərişini eşitdi və heyran oldu: «Biz indiyə qədər öz qohum-əqrabamızdan, yaxın adamlarımızdan başqa heç kəsə qız verməmişik. Necə ola bilər ki, Mədinənin ən cah-calalı evində naz-nemət içində tərbiyə olunmuş bir qız adsız-sansız, qara sifətli və yoxsul bir cavanın həyat yoldaşı olsun?

Nəhayət, əsil həqiqəti aydınlaşdırmaq üçün Peyqəmbərin yanına gəldi Peyqəmbər buyurdu: «Ziyad! Cubeybir imanlı və mömin bir cavandır. Mömin kişi mömin bir qadının əri olmağa, müsalman qadının ərin olmağa laiqdir. Qadın və kişinin digər imtiyazları onların şəxsiyyətinə və ər-arvad olmağına kiçicik bir təsir göstərə bilməz. Məbada bu təmiz ürəkli cavandan yoxsul olduğuna görə üz döndərəsən». Ziyad Allah Elcisinin bu aydın hökmünə razılıqverdi. İslami tərbiyənin ilkin nümunasi kimi mövhumi şəxsiyyətlər anlayışı sındırıldı, təqva və fəzillət insanın qədr- qiymətinin dəyəri olaraq tanıdı, Ərəb xanədanından ən şərəfli bir qızının Həbəş əhalininən asız-sansız, ən yoxsul bir cavanına kəbini kəsildi.

6. İmam Mühəmməd Baqir (ə) buyurur: «Möminlər bir-birinin həyat yoldaşı ola bilər və bir-birinin şəninə yaraşandır».

7. İmam Sadiq (ə) buyurub: «Peyqəmbər (s) Qureyşin ən şərəfli ailələrindən olan Zubeyir ibn Əbdül Müttəlibin qızı Zobaəni qəbilənin yoxsul və hörmətsiz bir kişisi olan Miqdad ibn Əsvədə ərə verdi ki, izdivacların sayı azalmasın və camaat Peyqəmbəri təqlid etsin və bilsinlər ki, Allahın yanında onların ən böyüyü onların ən pahrizkar olanlarıdır».

8. Əsir düşən, ya başqa bir münasibət üzündən Mədinəyə gəlib orada məskünlaşmış məvalilər, xəlifə zamanında Əmirəl-möminin yanına gəlib ərz etdilər. «Ya Əli! Peyqəmbər müharibədən əldə etdiyi qənimətləri ayrı-seckilik qaoymadan ərəblərə verdiyi miqdarda bizədə verirdi. Başqa

millətdən olan Salman, Bilal və Səhibən qadın verdi. Ancaq indiki böyüklərimiz bizə az pay verirlər və bizi ərəblərlə bir cərgəyə qoymurlar».

Əmirəl-möminin (ə) onların şikayətini məsul şəxslərin nəzərinə çatdırdı və eyni zamanda bu ədalətsizliyə etiraz əlaməti olaraq İslam bərabərliyinin yerinə yetirilməsini tələb etdi. Lakin səslər ucaldı: «Ey Həsənin atası! Biz belə qanuna baş əymirik!»

Əli (ə) qəzəbli halda tələsik məclisi tərk etdi, şəkakların cavabında buyurdu: «Bu tayfa sizi Yəhudilərlə və Nəsranilərlə bir hesab etdi. Sizdən qız alıralar, ancaq sizə qız vermirlər. Öz haqlarını sizdən alırlar, ancaq sizin haqqınızı ədalətlə vermirlər. İndi belə məsləhət bilirəm ki, ticarətə başlayın, Allahınızı sizə bərəkət verər. Mən özüm Peyqəmbər (s) eşitdim ki, ruzi on hissədir, doqquzu ticarətdədir və bir payı da başqa işlərdədir».

Xilafətin istiqamətinin dəyişməsi nəticəsində İslamın müqəddəs vücudun ən böyük zərbə vuran bəlkə də irqi ayrı-seçkilik və ərəb millətçiliyi olmuşdu. İslamın ali və gözqamaşdıran bu istiqaməti insanlar arasında mövcüd olan bir çox imtiyazları ləğv etdi ki, bu da ürəkləri bir-birilə birləşdi, ictimai ədaləti sözün həqiqi mənasında bərpa etdi, bəşəriyyəti ən çətin düyünü açdı, insanların ən şirin arzularını yerinə yetirdi, iftixar mənbəyi oldu, İslam cəmiyyətininvəhdətini təmin etdi: o, düşmən başı əzən idi, Quran təlimlərinin asiman olmasının sənədi idi. Ancaq təəsüf ki, biyabanlarda gəzib dolaşan kinli və vəzifəpərəst bir ovuc adam İslam ağacını bar verməmiş soldurdu, dirilik suyu bulağının gözünü çirkaba bulaşdırdı.

## QIZLARINIZI TEZ ƏRƏ VERİN!

1. Həzrət Sadiq (ə) buyurub: «Kişinin xoşbəxtliyinin bir nişanəsi budur ki, qızı bəkarətini itirməzdən qabaq ər evinə getsin».

2. Doğru yol göstərən İmamlardan nəql olunmuşdur: Allah-Təala bəşər övladına lazım olan hər şeyi Peyqəmbərinə öyrətmişdir. O cümlədən, bir gün Peyqəmbər (s) minbərə çıxdı, Allaha həmd və səna etdikdən buyurdu: «Ey camaat! Cəbrail bütün sirrləri bilən Allah tərəfindən mənim yanıma nazil oldu və dedi: «Qızlar ağaclardakı meyvələr kimidir; yetiən kimi dərilməlidir. Əgər belə olmasa, Günəşin hərarəti, əsasən küləklər onu məhv edər. Qızlar həddi-buluğa çatan kimi

onların təbiətinin tuğyanının ərdən başqa bir dərmanı yoxdur. Ərə getməsələr fəsad törədər və çirkaba bulaşa bilər. Çünki onlar da insandır». Onların cinsi həyacanları var qüvvəsi ilə qaynayan kimi vücüdlarını alt-üst edə bilər.

Qızları ərə verməkdə tələsmək məsələsi bir çox rəvayətlərdə təkidlə qeyd olunmuşdu, üçüncü hədisdə deyildiyi kimi bu göstərişin əsas səbəbi qızların əxlaqi fəsadlarının qarşısını almaqdır. Lakin bu hədislərə əlavə olaraq qızların yetişməsi ərə qulluq göstərmək, qadınla kişinin yaş uyğunluğu məəkələrinə də riayət etmək lazımdır. Ailəni idarə etmək qabiliyyəti olmayan, ya bədəncə inkişaf etməyən, izdivac üçün mənəvi hazırlığı olmayn bir qız əgər ər evinə getsə, Əttarın dediyi kimi olar: «Bir həftə eyş, ləzzət, bir necə il qəm-qüssə!»

Belə işin sonu ya tədrici can çəkişməkdir, ya ayrılıq və təlaqdır. Çox az hallar olur ki, bu cür qurulan ailələr xüsusilə işin əvvəllərində ürək istəyincə olur; əlbəttə, əgər bu əlaqələr məzhəbi xarakter daşıyırsa, dini əxlaq o ailələrdə üstünlük təşkil edrsə, bütün bu uyğunsuzluqlar və nigarançılıqlar meydna çıxırmır, təlaqın qorxunc ifritəsi ailənin isti ocağını soyuq və sükuta qərq olmuş qəbristanlıq şəklinə salmır. Bunların hamısı maddi mədəniyyətin və məzhəb qüvvəsinin zəifliyinin töhfəsidir. Amma mövcud vəziyyətdə diqqətli, ehtiyatlı və möhkəm olmaqdan başqa bir çarə yoxdur. Həm qızın iffət və təqvasına riayət etmək lazımdır və həm də evi sel ağzında tikməkdən çəkinmək görəkdir.

## Qadın kişinin məhək daşı və bədbəxtliyinin səbabkarı

1. Həzrət Sadiq (ə) buyurub: «Mömin ən qəddar düşmən onun bədrəftar həyat yoldaşıdır və Allah onu bu yolla sınağa çəkir».

2. Yenə o, buyurur: «İlkin günah altı şeydir: dünyapərəstlik, vəzifəpərəstlik, yatmağı çox sevmək, qadınpərəstlik, qarınqululuq və rahatlığı çox istəmək».

**QEYD:** *Adətə görə ailə başçısı ailə üzvlərinin tərbiyə işlərində məsul olan şəxs kişidir və evin daxili işlərinin bir hissəsi qadının öhdəsinə düşür. Bəzən müəyyən bir ailədə qadının evə rəhbərliyi kişiyə nisbətən daha yaxşı olur, buna görə ailənin bütün işlərinin idarəsi və məsuliyyəti onun öhdəsinə düşür. Hər halda ailənin idarə işlərində, öhdəlikləri yerinə yetirməkdə və məsuliyyət daşımaqda imtahandan yaxşı çıxmaq, vəzifəsini*

*layiqincə yerinə yetirmək və evdarlıqda nümunə göstərmək kamil bir dini cəmiyyətin təşkil olunmasında kişinin və qadının qarşısına çıxan ən böyük imtahan və sınaqdır! Elə ata-analar ki, bəzən Əli (ə) ailəsi kimi Zəhradan, Həsən, Hüseyn və Zeynəbdən ibarət bir ailə qura bilərlər.*

Qurani-məcid buyurur: «Qadınlar sizin eyiblərinizi örtən bir libas kimidir və siz kişilər də paltar kimi onların qəbahətlərini örtənlərsiniz».

Qadın və kişi evlənməzdən əvvəl bir-birini görə bilərlər.

1. Müğeyrət ibn Şöbə bir qadına elçi düşmüşdü. Peyqəmbər (s) buyurdur: «Əgər onu əvvəlcə görmüş olsaydın, saziş və razılıq imkanı daha çox olardı».

2. Həsən Səri deyir «Həzrət Sadiqdən (ə) soruşdum: «Evlənməmişdən qabaq kişinin ixtiyarı varmı ki, qadını arxadan görsün və özünə diqqətlə baxsın?» Buyurdu: «Bəli evlənmək istədiyi qadına arxadan, ya qabaqdan baxmaqla elə bir qəbahət yoxdur»«.

3. Yenə o cənabdan soruşdu: «Kişinin almaq istədiyi qadının saclarına və gözəlliyinə baxmağı məqbuldurmu?» Buyurdu: «Əgər baxışda ləzzət almaq deyilsə (yəni məqsədi qadının yalnız sırf bədən xüsusiyyətlərinin öyrənmək olsa), elə bir qəbahət yoxdur».

Başqa bir xəbərdə sual edirlər: «Qadının dayanmağı və kişinin nona tamaşa eləməsi məqbuldurmu?» Buyurdu: «Bəli, hətta bu zaman nazik paltar geymək də meneçilik törətmir!»

4. Sahabələrdən biri bir qadına elçi düşmüşdür. Peyqəmbər (s) buyurdu: «Onun üzünə və əllərinə bax!»

**QEYD:** *Bu rəvayətdən məqsəd budur ki, əgər bir kəs bir qadını evlənmək üçün secmişsə, başqa cəhətlərini də bəyənmişsə, onun bədəninin cizgilərinə baxa bilər; Allah eləməmiş birdən onun vücudunda peşmançılığa, soyuqluğa və ya ayrılmağa ixtiyarı vardır. Ancaq bu o demək deyil ki, bütün qızları nəzərdən keçirə, hamısını yoxlaya bilər və nəhayət, onların arasında birin seçə bilər.*

## NAMƏHRƏMƏ BAXMAQ

1. Peyqəmbər (s) buyurmuşdur: «Hər kim qoşunun otağının qapısına baxsa və bir kişinin arvadını, ya onun bədəninin bir tükünü görsə, Allahın haqqı vardır ki, dünyada onun qadınların eybini axtarmaq dalınca gəzən münafiqlərlə birlikdə atəş içinə atsın, Allah onu rusvay etməyincə

dünyadan köçməsin və axirətdə də eyblərinin üstünü örtməsin» (Bu o zaman olur ki, o şəxs tövbə etməsin və keçmiş günahlarından azad olunmasın).

2. Yenə o Həzrət buyurur: «Kim gözünü haramla doldursa, əgər ölümdən qabaq tövbə etməsə, qiyamət günü Allah onun gözlərini atəşlə doldurar».

3. Həzrət Peyqəmbər (s) başqa bir hədisdə Əliyə (ə) buyurur: «Ya Əli! Bir dəfədən artıq baxmaq caiz deyil; ikinci dəfə baxma!» Birinci bbaxış həmən gözünə dəymək, gözü sataşmaqdır ki, qarşısını almaq mümkün deyil, insandanasılı olmayaraq baş verir, lakin ondan sonra baxırsa və bu mənzərədə bir naməhrəmlik olduğunu düşürsə, ikinci baxışdan (bu tamamilə qəsdən olan baxışdır) imtina etməlidir. Yəqin məşhur: «Bir baxış halaldır» cümləsi də buradan götürülmüşdür burada təbii baxış nəzərdə tutulur, çünki birinci və ikinci qəsdən baxmaq mahiyyətcə eyni şeydir.

4. Həzrət Baqir (ə) buyurur: Peyqəmbər (s) bir necə şəxsi lənətləmişdir: öz arvadında və kənizindən başqa qeyri bir qadının tənəsül əzasına  baxan kişi; öz qardaşının namusuna xəyanət edən kişi; ehtiyac içində olanlara dini təlimi öyrətmək üçün rüşvət istəyən fəqih».

5. Yenə Həzrət Baqir (ə) buyurur: «Cavan bir ənsar Mədinənin küçələrindən  birində bir qadınla rastlaşdı. Xanım çarqatını qulağının dibinə endirmişdi və təbii ki, üzü, alnı və boğazı görünürdü. Cavnin gözü onu üzünə dikildi. Qadın keçib getdi, ancaq cavan nəzərlərini ondan çəkmədi. Gedirdi, ardınca baxırdı. Nəhayət, dar bir küçəyə buruldu. Qəfildən sümükmü, şüşəmi parçası oğlanın üzünü parçaladı. Qadın gözdən itəndən sonra oğlan gördü ki, paltarı və sinəsi qana bulaşdı. Dedi: «Allaha and olsun gedirəm Peyqəmbərə danışam». Gəldi və əhvalatı söylədi. Bu ayə həmin münasibətlə nazil oldu: «Mömin kişilərə de: «Gözlərini naməhrəmdən çəkinsinlər və öz qadınlarına baxsınlar. B namusluq onların təmiz qəlbliyi üçün daha yaxşıdır. Allha onların işindən xəbərdardır».

6. «Qadınların gözəlliklərinə baxmaq şeytanın açdığı atəşdir. Hər kəs bu baxışlardan əl çəksə, Allah ibadət məzəsindən ona dadızdırar ki, bu da onun sevincinə səbəb olar».

7. «Mən öləndən sonra kişilər üçün qadınlardan daha ziyanlı bir fitnə olmayacaqdır».

8. Əli (ə) buyurur: «Gözünü azad buraxan (hər şeyə baxan) adam qəlbini əzaba salar. Azad şəkildə dalbadal hər şeyə baxan adamın daimi həsrət olar»

9. Fəzl ibn Əbbas Peyqəmbər (s) tərkinə minmişdi və Ətrafata tərəf gedirdilər. Fəzl xoşsima bir cavan idi. Yolda bir ərəbə rast gəldilər: bacısı ilə gedirdi. Xanım misilsiz bir gözəlliyə malik idi. Ərəb Peyqəmbərə suallar verməyə başladı. Fəzl altdan-altdan o xanıma baxırdı. Fəzlin hərəkətlərinə diqqət yetirən Peyqəmbər əlini onun gözünün qabağına tutdu. Amma.... Peyqəmbər əli hansı tərəfdən irəli uzandısa. Fəzl digər tərəfdən qıza gözlərini zillləyirdi. Söhbət qurtardıqda Həzrət üzünü Fəzlə tutub əlini çiyninə qoydu və buyurdu; «Məgər bilmirsənmi ki, bu günlər Allaha tərəfindən Quranda da ehtiramla xatırlanan həmən «məlumat və məlumat» günləridir? Hər kəs bu günlər öz gözünü, dilini və lini saxlasa, Allah gələn ilin həcc savabını onun əməl dəftərinə yazar».

10 Həzrət Sadiq (ə) buyurur: «Heç kəs göz yummaqdan (naməhrəmə baxmaqdan) əldə etdiyi qənimət kimi qənimət əldə etmişdir; əgər göz harama baxmaqdan çəkinsə, haqqın əzəmət və cəlalını görməkdə qabağ düşər».

11. Əmirəl-mömınindən (ə) soruşdular: «Harama göz yummaqda hansı vasitələrdən istifadə edək?» Buyurdu: «Bu nöqtəni unutmayın ki, siz Allah qüdrətinin əlindəsiniz: 0, sizin bütün sirrlərinizdən xəbərdardır. Göz ürəyin casusu və əqlin keşikçisidir. Dinə münasib və uyğun olmayan şeylərə göz yumun!»

12. Həzrət Sadiq (ə) buyurub: «Baxış şeytan oxlarının içində zəhərli bir oxdur». Çünki çox belə hallar olmuşdur ki, bir baxış uzuuzadı həsrətlə nəticələnmişdir. Bu cür baxışlara yol verməyən hər kəsə Allah elə bir iman verər ki, onun dadını hiss edər».

13. Adi və qyğısız adamlardan heç kəs zinadan faydalanmamış deyil. Gözün zinası baxışdır, ağızın zinası ğpüşdür, əlin zinası toxunmaqdır. Əsil zina əməli baş versə də, verməsə də bunlar zinadır.

14. «Baxış dalınac baxış qəlbə şəhvət toxumu səpir və bu fitnə insanı yoldan azdırmaq üçün kifayətdir».

15. Kimin gözü naməhrəmə sataşsa və bu zaman başını asimana qaldırsa, ya gözünü yumsa, hələ baxışını döndərməmiş, Allah bunun əvəzində (cənnətdə) huruleyn ilə izdivac etmək huququnu əməl dəftərinəqeyd edər».

16. Həzrət Rza (ə) Mühəmməd ibn Sənanın sualına cavab verəndə yazıb buyurmuşdu: «Allah-Təala qadının saçına istər ərli olsun, istər ərsiz baxmağı haram buyurmuşdur, çünki bu şəhvət doğuran baxışdır və şəhvət hissi insanı fəsad, qeyri-şəri və xoşagəlməz əməllər qucağına sürükləyir. Yalnız tükə baxmaq deyil, qadının bədəninin belə xüsusiyyətə malik olaan hər əzasına baxmaq haramdır. Allah yalnız bir məqamı istisna etmişdir: daha ərə getmək ümidi olmayan yaşlı qadınların öz üst paltarlarını (çadra kimi) bəzənib düzənmədən çıxarmaqlarının qoxusu yoxdur. Ancaq bəzənib naməhrəmlərin gözü qabağına gəlməməlidirlər. Bəli, bu Qurandır ki, hətta qoca arvadların da zər-zivər parıltısı içində məsum subay cavanları həvəsə gətirmələrinə, onların fikirlərini, fikirlərinin dalınca da ətəklərini (əllərini) çirkaba bulaşdırmalarına razı olmur. Bu, Allahdır ki, insanın güclü cinsi xislətinin zahirə çıxmasının qarşısını tamamilə alır ki, ömrün baharı əyyaşlığa və şöhrətpərəstliyə sərf olunmasın, cavanların fikri və əsəbi ehtiyatları Allahpərəstlik, ictimai xadmət, yüksək insani məqsədlərin inkişafı yolunda istifadə olunsun. Bəli, bu Allahdır».

17. İsa ibn Məryəm (ə) dostlarıan buyurdu: «Haram baxışdan çəkinin ki, şəhvət toxumu və əxlaqsızlıq otudur».

18. Peyqəmbər (s) buyurur: «Bu kişilərin baxışları keşilçidir və onların puçluğunun və fəsadının mayası da elə budur. Bəzən sizlərdən birinin gözü çox gözəl bir qadına sataşanda dərhal öz həyat yoldaşınızlan müqaisəyə edin; o da sizin qadınınız kimi bir qadındır».

19. «Gözlər şeytanın toplarıdr».

20. «Baxış fitnənin müqəddiməsidir».

21. «Gözü əldən vermək (baxmaq) qəlbi açan bir mənzərə görməkdən yaxşıdır».

22. «Çox baxış var ki, həsrətlər yaradır».

23. «Gözünü qapayan adam ürəyini rahat edir».

24. «Gözünü azad buraxan (hər şeyi baxan) adam ölümü istiqbalına tələsr».

25. «Gözünü qapayan (hər şeyi baxmayan) adam daha aqz təəsüflənər və məhv olmaqdan amanda olar».

Bura qədər nəql olunan rəvayətlərin hamısı kişinin baxmağına aid idi.

## Qadının kişiyə baxması

1. Peyqəmbər (s) buyurmuşdur: «Naməhrəmə baxan ərli qadına Alla-Təala onun bütün yaxşı əməllərini puç edər. Əgər kişi başqa kişini öz arvadının yatağına buraxarsa, Allahın ona qəbrdə əzab verməyə və sonra atəşdə yandırmağa haqqı vardı».

2. Ümm Səlmə deyir: «Mən və Meymunə (Peyqəmbərin digər bir qadını) Rəsulullahın yanında idik, İbn Ümm Məktub daxil oldu. Əlbəttə, bu hadisə Hicab haqqında göstəriş gələndən sonra olmuşdu. Həzrət buyurdu: «Gizlənin! Dedik: «Məgər bu kişi kor deyil? O ki, bizi görmür?!» Buyurdu: «Məgər siz də korsunuz, onu görmürsünüz?»

3. Peyqəmbər (s) Hövlaya buyurdu: «Qadını həddi-buluğa çatmış bir oğlanı evə gətirməsi caiz deyildir! Əgər məhrəm olmas, ya qadın ona doyunca baxacaq, ya oğlan ona göz dikəcək, ya bir yerdə cörək yeyəcəklər».

4. Həzrət Sadiq (ə) buyurub: «Kor kişi Həzrət Zəhranın evinə daxil olmaq üçün icazə istədi. Fatimə (ə) icazə vermədi. Peyqəmbər (s) buyurdu: «O ki, səni görmür?» Dedi: «Mən ki, onu görürəm! O da mənim iyimi duyur!» Buyurdu: «Şəhadət verirəm ki, sən mənim qəlbimin bir parçasısan!»

5. İmam Sadiq (ə) Sədana buyurdu: «Bilirsənmi ki, Peyqəmbər qadınlara beyət etdi?» Dedi: «Bunu Allah Peyqəmbərinin oğlu daha yaxşı bilər!» Buyurdu: «Qadınları bir yerə yığdı, göstəriş verdi ki, saxsı bir qab gətirsinlər. İçinə nüzun ətri (gülaba bənzər ətir) tökdü və öz mübarək əlini onun içinə saldı». Buyurdu: «Siz də əlinizi onun içinə salın».

Peyqəmbər (s) pak əli naməhrəm qadınların əlinə toxunmadığı üçün daha pak və təmiz idi.

6. Həzrət Sadiq (ə) buyurub: «Kişinin qadına əl verməsi o qoca olsa da bəyənilən hərəkət deyil».

7. Mühəmməd ibn Əbi Əmirin bacıları deyir: «Həzrətdən soruşduq: «Qadın öz din qardaşının görüşünə gedə bilərmi?» Buyurdu: «Bəli» Dedik: «Onunla əl verib görüşə bilərmi?» Buyurdu: «Bəli, ancaq paltar (örtük, əlcək) altından». Peyqəmbər (s) əli qolcağının içində idi; qadınlar ona beyət etmək üçün əllərini onun qolçağının üstünə sürtürdülər. Başqa bir hədisdə deyilmişdir ki, qadınlar beyət üçün əllərini su ilə dolu təştin içinə salırdılar.

## LAYİQLİ ELÇİNİ RƏDD ETMƏYİN

1. Peyqəmbər (s) sahabələrinə buyurdu: «Sizlərdən ən yaxşı kişini tanıdınmı?» Dedilər: «Bəli, ya Rəsulallah». Buyurdu: «Ən yaxşi kişi odur ki, pəhrizkar, qəlbitəmiz, əliaçiq, ata-analı, ata və anası ilə xoşrəftar olsun, ailəsini başqalarına möhtac qoymasın».

**QEYD:** *Həyatda insanən elə ehtiyaclrı vardır ki, təmin olunmalıdır: ehtiyacı olan adam yemək, dərman, paltar və evlə təmin olunduğu kimi. İnsanın eləcə də cinsi xislət, başqa fikri və əxlaqi təlabatlar baxımından da ehtiyacları vardır və onların ən mühümü tənbehedici sözlər deyərkən nəzakətli olmaq, öz vəifə borclarını yerinə yetirərkən yuxarı təbəqədən olan insanların diqqətini aşağı təbəqənin adamlarına cəlb etmək, lazım olan zaman onları təşviq etmək və tərifləmək, səbirli və dözümlü olmaq məqamında səbirli olmaq, xəta və səhv baş verdiyi zaman əfv və güzəşt etmək, düzgün hərəkət etməyənə öyüd-nəsihət vermək, nəhayət rəftarın və danışığın gözəlliyi kimi yaxşı davranış və əxlaqi sifətlərdir ki, bunlar tədriclə tərbiyə və təkamülə səbəb olur.*

Əlbəttə, bəzən məzəmmət, irad və ondan da üstün, həmişə öz şagirdinin qayğısına qalan, onun xöşbəxtliyi, kamilliyini və tərəqqisini düşünən mehriban bir müəllim diqqəti də lazımdır.

Ehtiyacın bu üsulla təmin olunması da kişinin qadın qarşısında vəzifəsi olduğu kimi, qadının da kişi qarşısında vəzifəsidir.

Hər instinktin azlığı və heç olmaması buna ehtiyacı olan tərəfin yolundan sapmasına və ehtiyacını başqasında axtarmaq səbəb olur və hər instinkdə yolundan çıxmağın xüsusi bir zərəri və ayrıca bir fəsadı vardır.

Kişi bu həqiqətlərə diqqət yetirməlidir və qadın da bundan xəbərdar olmalıdır.

2. Əli ibn İsbat Həzrət Cavada (ə) yazır: «Mən öz qızlarım üçün əxlaq və imanda özüm kimi olan bir adam tapmamışam ki, onunla qohum olam».

Həzrət cavabında yazdı: «Qızların barəsində yazdığın məsələni başa düşdüm. Allah sənə rəhm eləsin. Qız məsələsində bu qədər diqqətli olmaq lazım deyildir, ola bilməz ki, qızın əri yüzdə yüz faiz atasının istədiyi kimi olsun».

Peyqəmbər (s) buyurmuşdur: «Əgər (qapınıza) dini və əxlaqı yaxşı olan bir elçi gəlsə onu qəbul edin, yoxsa yer üzündə böyük bir fitnə və fəsad meydana gələr».

(Çünki cürbəcür iradlar nəticəsində qız ata evində qalır, əxlaqı pozulur, ərə gedən vaxtı keçir, qadın və kişinin əxlaqi calağı daha gec tutur və nəhayət, izdivac ağavının meyvəsi olan nəslin vücudunda da xoşagəlməz nəticələr meydana gəlir).

3. Həzrət Rza (ə) buyurmuşdur: «Əgər dinini və əxlaqını bəyəndiyin elçi gələrsə qəbul et, onun kasıblığından qorxma! Allah-Təala buyurmuşdur: «Əgər qadın və kişi bir-birindən ayrılsa, Allah onların hər birini öz kərəmindən məhrum edər». Həmçinin buyurmuşdur: «Əgər kasıb subay kişilər evlənsələr, Allah onları öz fəziləti ilə sərvət sahibi edər. Allah Kərim və öz bəndələrinin halından halidir. (Bu iki ayəni qeyd etməkdə məqsəd odur ki, hər halda qadının və kişinin ruzisi Allahdandır)».

İbrahim deyir: «Həzrət Sadiq (ə) buyurub: «İbrahim! Heş bir mömin mal-sərvətdən daha qorxulu bir fayda görməmişdir. Var-dövlətin vurduğu zərər çobansız sürüyə hücum etmiş iki canavarın biri sürünün qabağında digər sürünün arxasından vurduğu zərərdən daha artıqdır. Bu canavarlar qoyunların başına nə oyun açırlar?» Dedim: «Fəsaddan başqa bir şey eləmirlər!» Buyurdu: «Doğru dedin!» Dövlətin, sərvətin ən kiçik zərəri budur ki, bir müsalman birinin qızına elçi gəlsin, o da onu kasıb olduğu üçün rədd eləsin».

## Şərabın icən və bədəxlaq kişiyə qız verməyin!

1. İmam Sadiq (ə) buyurub: «Hər kəs öz əziz qızını şərab içənə versə, rəhimsizlik etmişdir» (Yəni öz qızına aid vəzifəsini yerinə yetirməmiş və ona zülm etmişdir).

2. Həzrət Rza (ə) buyurur: «Məbada şərab içənə qız verəsiniz, elə bilin ki, onu zina yoluna salmısınız».

3. Rəsuli-Əkrəm (s) buyurur: «Allahın mənim dilim vasitəsilə haram buyurduğu şərabı içən adamaın həyat yldaşı olmağa ləyaqəti yoxdur».

4. Yenə də o Həzrət buyurmuşdur: «Əgər şərab içən bir şəxs xəstələnsə, ona baş çəkməyin, əgər elciliyə gəlsə ona qız verməyin».

5. Həzrət Sadiq (ə) buyurub: «Şərab içənin səlahiyyəti yoxdur ki, ona qız versinlər, ya ona mal-sərvət tapşırsınlar. Allah-Təala buyurmuşdur: «Sərvətinizi ağılsızların əlinə tapşırmayın».

6. Peyqəmbər (s) buyurmuşdur: «Hər kəs öz qızını dinsiz bir adama ərə versə, hər gün ona min lənət nazil olar».

**QEYD:** *«Öz əziz övladını və zəhmətinin bəhrəsini öz əlilə təhlükəyə atan, əqidə və əməlinə uyğun olmayan bir yola salan, o izdivacdan onlarca, ya yüzlərcə insan nəslinin dünyaya gələcəyini, hamısınında əyri yolla gedəcəyini və öz cəmiyyətini puç edəcəyini bilməyən bir insan həmin adamların mənasız sözlərinə və böyük cəzalarına şərik olacaqdır. Özünüzü öz əlinizlə təhlükəyə atmayın».*

## Belə bir qadın seçin!

1. Peyqəmbər (s) buyurur: «Sizin qadınlarınızın ən yaxşısı o qadındır ki, uşaq doğan, mehriban, sədaqətli, ailəsinin yanında əziz və möhtərəm, ərinin qarşısında təvazökar və muti bolsun, əri üçün bəzənsin, başqa kişilərin yanında vüqarlı və onlara bietina olsun, ərinə qulaq assın, ərinə boyun əysin, xəlvətdə onun ixtiyarında olsun, ancaq kişilər kimi hərcayı olmasın».

2. İmam Baqir (ə) buyurur: «Bir kişi Peyqəmbər (s) izdivac məsələsi bairədə məşvərət etdi. Həzrət Peyqəmbər buyurdu: «Bəli evlən. Lakin imanlı və Allahı tanıyan bir qadınla evlən. Allahın xeyir versin. Ləyaqətli qadın Əsəm qarğası kimi az tapılır». Soruşdu: «Əsəm qarğası nədir?» Buyurdu: «Elə qarğadır ki, bir ayağı ağ olur».

3. İbrahim Kərxi deyir: «Həzrət Sadiqə (ə) dedim: «Həyat yoldaşım dünyadan köşdü. Ürək dostum, həmfikirim olan bir qadındı. İndi başqa bir həyat yoldaşı almaq fikrindəyəm». Buyurdu: «Yaxşı, bax gör kiminlə birləşirsən, kimi özünün, malın şəriki, dinin və sirrlərinin məhrəmi eləyirsən? Əgər bu işi etməyə məcbursansa, özünə xoşrəftar və xoşxasiyyət bir qız tap. Çünki qadınlar bu şairin vəsf etdiyi kimidir:

Qadınları Allah cürbəcür yaratmışdır:

Bəzisi dəyərli bir qənimət, dilbər və heyranedicidir, bəzisi isə zülmət gecə kimidir.

Özünə layiq bir qadın tapan hər kəs qalib gələr, kim ki, səhv edər, topa düşmüş quş kimi onun çarəsi yoxdur».

4.Peyqəmbər (s) buyurur: «Müsalman kişinin vəziyyətini islah edən ilahi təqdirlərdən biri elə bir qadındır ki, əri onu görən kimi şad olur, əri evdə olmayanda onun namusunu qoruyur, yanında olanda isə İslamın buyurduğu çərçivədə onun əmrinə tabe olur».

5. «İslam zuhur edəndən sonra heç bir müsalman əhval-ruhiyyəsinin yüksəlməsinin səbəbi, əmrinə muti sərvətinin və əri olmadıqda isə onun namusunun qoruyucusu olan müsalman həyat yoldaşından daha dəyərli bir qənimət əldə etməmişdir».

6. Allah hər kəsə bu dörd şeyi, səbrli vücudu, zikr edən dili, şükür edən ürəyi və ləyaqətli qadını vermişsə, dünyanın və axirətin əbədi səadətini vermişdir.

7. İmam Sadiq (ə) buyurub: «Bütün dövürlərdə üç şey az tapılandır: «Allah xatir bir kəslə qardaş olmaq nəqşesi cızan adam din məsələsindfə dostu-yardımçısı, ləyaqətli həyat yoldaşı olan kəs, ləyaqətli övladı olan şəxs. Bu üç nemətdən birini tapan adam dünya və axirətin əbədi səadətin tapmışdır və dünyanın ən ali səadətinə qovuşmuşdur».

8. Yenə O buyurur: «sizin qadınların ən yaxşısı o qadındır ki, vücudu xoş ətir saçsın, yaxşı xörəklər bişirsin, pulu yerində xərcləsin, yerində simiclik etsin. Belə qadın Allahın xidmətçilərindəndirvə Allah xidmət edən kəsin naümidiliyi və peşimançılığı olmaz».

9. Üç şey mömin bəndənin rahatlığının əsasıdır: həyatının eyib və nöqsanlarının üstünü örtən geniş ev: dünya və axitət işlərində dostu, köməkçisi olan ləyaqətli qadın qızını evdən çıxartmaq, ərə vrmək».

10.[Ya Mühəmməd!] Qızıl və gümüş toplayanlara və Allah yolunda onları xərcləməyənlərə ağaır bir əzab görəcəklərinin müjdəsini ver» - ayəsi nazil olanda Peyqəmbər  üç dəfə buyurdu: «Qızlıa və gümüşə lənət olsun!» Dedilər: «Ya Rəsulallah, bəs hansı sərvəti toplayaq?» Buyurdu: «Şükür edən dil, rəhimli ürək və din məsələsində sizin dostunuz, yardımçınız olan qadın».

11. Peyqəmbər (s) buyurmuşdur: «Beş şey səadət bəxş edər; ləyaqətli qadın, xoşrəftar övlaqd, yaxşı həmsöhbət, Vətəndə ruzi tapmaq, Mühəmməd xənadanını sevmək».

12. «Ləyaqətli həyat yoldaşı, geniş ev, münasib minik, ağıllı övlad kişinin xoşbəxtliklərindəndir».

13. Həzrət Musaya (ə) vəyh gəldi: «Mən filankəsə dünya və axirətin əbədi səadətini, yəni ləyaqətli həyat yoldaşı vermişəm».

14. Əmirəl-möminin (ə) buyurur: «Sizin ən yaxşı qadınlarınız Qureyş qadınlarıdır. Ərə daha lütf edər və səfa verərlər, övladla daha mehribandırlar, ərin qabağında müti, başqalarının qabağında dikbaşdılar».

15. «Sizin qadınlarınızın ən yaxşısı odur ki, sədaqətli və çalışqandır».

16. «Dünya mətahdan (əmtəədən) başqa bir şey deyildir, yəni ömür keçirmək üçün bir vasitəsidir və dünyanın ən yaxşı mətahı ləyaqətli həyat yoldaşıdır».

17. Yeddinci İmamdan nəql olunmuşdur: «Qiyamətdə mömin bəndədən üç şeyin hesabını istəmirlər: yediyi yeməyin,getdiyi paltarın və onun işinin yardımçısı və dininin qorunmasının səbabkarı olan ləyaqətli həyat yoldaşının».

**QEYD:** *Yemək və geyinmək deyəndə halla yolla əldə edilən yemək və geyinmək nəzərdə tutulur. Məhşərdə o qədər çox adamın olduğu yerdə və elə üzücü bir mühit də belə mömin bir şəxsdən hesab istəmək zəhmətindən sərf-nəzər olunur. Bunadan başqa çoxlu rəvayətlərə əsasən iki qism adamdan hesabat istəniləcəkdir: Həzrət Əlinin (ə) buyurduğu kimi: insanın dünyada toplkandığı halal mətahlar haqqında qiyamət günü hesabat verilməlidir, haramlar üçün cavab.*

Ancaq qeyri-şəri yolla əldə olunmuş yemək və libas barədə şübhəsiz ayələr və rəvayətlərə əsasən, hesab və cəza vardır.

18. Əli (ə) buyurmuşdur: «Ləyaqıtli qadın labas kimi eyb örtəndir».

**QEYD:** *Qadın və kişi bir-birinə laiq olduqda və yaraşdıqda, əqidə və əxlaq cəhətdən bir-birinə uyğun olduqda, eyblərini və nöqsanlarını gizli saxlayacaqlar. Çünki izdivacın özü təbii şəkildə onların hər ikisinin – qadın və kişinin cinsi sapmalarının, şəhvət xislətinin tuğyanın cilovlanmasına, irz-namusunun və abırın qorunmasına səbəb olur. Ona görə əzəmətli Quran buyurur: «Qadınlar sizin namusunuzun, sizdə onların namusunun libasısınız».*

19. «Müvafiq və münasib həyat yoldaşı könül rahatlılığının əsasıdır».

20. Peyqəmbər (s) buyurmuşdur: «Qızlarla evlənin, çünki onların ağızları (dodaqları) daha ləzətlidir, ....Hər şeyi daha tez öyrənirlər və məhəbbətləri daha davamlıdır».

21. Peyqəmbər (s) buyurur: «Həyat yoldaşı secdiyiniz zaman onun saclrını da yoxlayın, çünki üzü kimi sacları da gözəlliyin əsasıdır».

22. Peyqəmbər (s) buyurur: «Özünüzün şəninə yaraşan ardıcıllarınıza qız verin, özünüzə tay olanlardan qız alın və öz nütfəniz üçün münasib yer seçin».

23 Əli (ə) buyurur: «Qadınının yaxşı sifətləri ailə-evdarlıq məsələsində kişinin ən pis sifətləridir: bu sifətlərlər məğrurluq, qorxu və xəsislikdən ibarətdir: əgər qadın məğrur olsa, başqa kişiyə təslim olmaz: əgər xəsis olsa ərinin malını, sərvətini qoruyqr: əgər qorxaq olsa, hər şeydən ehtiyat edər (ovçunun toruna düşməz)».

24. İmam Sadiq (ə) buyurub: «Sizin qadınlarınızı ən gözəli o qadındır ki, acıqlı olanda ya ərini qəzəbləndirəndə ona desin: «Mənim əlim sənin ətəyindədir, əgər barışmasan, gözümə yuxu getməz».

25. Yenə o buyurur: «Heç kəsə üzünü görəndə sevinc bəxş edən, ərinə içdiyi anda əməl eləyən, əri yanında olmayanda onun namusunu qoruyan həyat yoldaşından daha yüksək bir töhfə verməmişlər».

26. Peyqəmbər (s) buyurmuşdur: «Heç kəs indiyə qədər imandan sonra münasib və münafiq həyat yoldaşı kimi daha yüksək bir qənimət əldə etməmişdir».

27. Ən çox bərəkətli həyat yoldaşı izdivac və dolanışıq xərcləri az olan qadındır.

## QADINLAR BİR NEÇƏ QRUPDUR

1. İmam Sadiq (ə) buyurub: «Qadinlar üç qrupdur: Birinci qrup: - xalis xeyirli olan qadınlar; ikinci qrup: - həm xeyirli, həm də ziyanlı olan qadınlar; üçüncü qism: - xalis ziyanlı olan qadınlar».

Xalis xeyirli olanlar qızlardır; xeyirli-ziyanlı olanlar –övladsız dul qadınlardır: xalis ziyanlı olanlar övladları olan dul qadınlardır.

Əlbətdə, bu həqiqətdir ki, keçmişdə başqa bir kişi ilə təmasda olmayan qız ünsiyyət üçün daha münasibdir və onun əxlaqı ərin əxlaqında daha yaxşı uyğun gələr.

Məlumdur ki, övladı olmayan dul qadının yeni həyata və təzə ərə bağlılığı daha çox olursa da, yanınca uşaqlar gətirdiyindən istər-istəməz öz mehr və məhəbbətini övladları və təzə əri arasında bölür. Lakin bu hadisədən elə məna çıxır ki, ikinci və üçüncü qrup qadınlar evdə qalmamalıdırlar və heç kəs onlarla evlənməməlidir. Hansı qrupun birinci, hansının ikinci sayılması yalnız insanın özündən asılıdır: əgər insan özünə

həyat yoldaşı seçməkdə tam ixtiyar sahibidirsə, birinci qrup ikincidən və ikinci qrup üçünçüdən qabağa düşə bilər.

Buna da əlavə etmək lazımdır ki, bir kəs öz nəfsinin, istəyinin əksinə olaraq hərəkət etmək istəsə və daha aşağı təbəqədən olan və ya kimsəsiz, pənahsız bir qadınla onun cəmiyyətdəki haqqını təmin etmək və ehtiyaclarını ödəmək məqsədilə izdivac etsə və bu yolla sahibsiz bir qadının və ya ailənin himayadarlığını öz öhdəsinə götürsə, bu çox bəyənilən və məqbul işdir və Allah-Təalanın yanında savab sahibi olmaqdır. Bu qruplaşdıra, tamamilə aydındır ki, ümumi xarakter daşımır: burada əksəriyyət nəzərdə tutulur.

2. Həzrət Sadiq (ə) buyurub: «Qadınlar üç qrupdur; Birinci qız, doğma qadir və mehriban olan qadınlar qrupudur: çətin ayaqda, dünya və axirət işlərində ərlərinə kömək edir, pis gündə vafasızlıq etmir; ikinci, doğmayan qadınlar qrupoudur: çətin ayaqda, dünya və axirət işlərində ərlərinə kömək edir, pis gündə vəfasızlıq etmir; ikinci, doğmayan qadınlar, onların nə gözəlliyi var, nə əxlaqı və heç bir xeyir işdə ərinə yardı əli uzatmır. Üçüncü - deyingən, davakar, tələbkar və eyb axtaran qadınlar: çoxu az sayılar, azı isə qəbul etmirlər».

3. İmam Rza (ə) buyurur: «Qadınlar bir neçə qrupdurlar:

a) Qənimətçil: - bu qrup arsevən və ərinə məhəbbət bəsləyən qadınlardan ibarətdir.

b) Bir gecəlik ay kimi ərinin önündə cilvələnən qadınlar - yəni işığı az və faydası az olur.

c) Qaranlıq gecə kimi olan qadınlar, həmişə ərinin yanındadır.

Ləyaqətli bir qadın tapan hər kəs xoşbəxt olur. Qadınların ləyaqətsizinin əlinə düşən hər kəs bədbəxt olur».

## Belə qadınlardan qaçın!

1. Peyqəmbər (s) buyurur: «Qadınlarınızın ən pisini sizə tanıtdırım? Öz ailəsində zəlil və qədir –qiymətsiz, doğmayan və kinli, çirkin işdən əl çəkməyən, əri evdə olmayanda özünə bəzək-düzək vuran, ərinin yanında pinti, ər sözünə qulaq asmayan, ərin üzrünü qəbul etməyən və onun səhvini bağışlamayan bir qadın qadınlarınızın ən pisidir».

2. «Qadınlarınızın ən pisini- doğmayan, pinti, tərs, ipə sapa yatmayan qadındır: o,ailəsinin gözündə yazıq, öz gözündə isə əzizdir, ərinə münasibətdə dikbaş, başqalarına münasibətdə isə həlim və mutidir»

3. Peyqəmbər (s) dualarında buyurur: «Pərvərdigara! Mənə əmr verən övladdan, səmərəsiz heç-puç olan sərvətdən, məni vaxtından tez qocaldan həyat yoldaşından, məkrli və yalançı dostun əlindən sənə pənah gətirirəm».

4. «Çirkli tərəvəzdən həzər edin! Soruşdular: «Çirkli tərəvəz nədir?» Buyurdu: «Bu rəzil, alçaq təbiətli, pis tərbiyə olunmuş gözəl üzlü qadındır!»

5. Həzrət İmam Sadiq (ə) buyurub: «Bir kişi Peyqəmbərin hüzuruna gəldi, ərz elədi: «Ya Rəsulallah! Mənim bir əmiqızım var, hüsnünü, camalını və dinini-əxlaqını bəyənmişəm. Ancaq doğmur. Onu alımmı?» Buyurdu: «Onunla evlənmə!»

6. Yenə o Həzrət buyurur: «Qadının bədbəxliyi, onun məhəbbətinin çoxluğu və ana olaq bilməməsidir».

7. «Qadınlarınızın ən pisini həyasız və qaraqabaq olanlardır».

8. Əli (ə) buyurmuşdur: «Kütbeyin qadınlarınlarala izdivac etməkdən çəkinin, çünki onlarla yaşamaq bəla və onlardan olan övladlar vecsizdir».

## Qadının malına və camalına göz dikməyin!

1. «Kim ki, halal malı, sərvəti bolan bir halal qadını alarsa və bu izdivacda məqsədi yalnız fəxr eləmək, özünü nümaiş etdirmək və gözə soxmaqdırsa, Allah bu vusalı onun zillətinin və zəlilliyinin əsas səbəbinə döndərər. Çünki bu cür izdivaclar adətən yüksək məqamlı adamlar arasında olur və kürəkən istər-istəməz o xanımın və ailəsinin qarşısında əli sinəsində dayanmalıdır».

2. «Qadınlarının gözəlliyinə görə alan kəs, ondan xoşagəlməz şeylər görör. Dininə-əxlaqına görə bir qadınla evlənən adamı Allah heç nədən məhrum etməz».

3. Peyqəmbər (s) Allah-Təalanın buyurduğu qaydadan kənar və namusu-iffəti hifz etmək üçün edilən izdivacdan qeyri bütün izdivacları qadağan etmiş, özünü göstərmək və gözə soxmaq üçün evlənmələrin qarşısını almışdır.

4. Rəsuli-Əkrəm (s) qadının malını və camalın xatirinə almağı qadağan buyurmuşdur. Demişdir: «Belə olduqda o qadının malı həmin adam üçün narazılığa, üsyana səbəb, gözəlliyi isə onun məhvinə əsas olacaqdır. Evlənəndə qadınlarının dinini və imanını nəzərə alın!»

**Oğlanlarınızın bqadın seçməkdə azad buraxın!**

1. İbn Əbi Yəfur deyir: «İmam Sadiqə (ə) dedim: «Mən evlənmək üçün bir qadın seçmişəm, atam-anam isə başqa bir qadın seçiblər. Onlardan hansını alım?» Buyurub: «Öz sevdiyin qadını al, atan-anan seçdiyi qadını burax getsin».

**QEYD:** *Bu o zaman belədir ki, ata-anaın seçdiyi qız barədə söhbət ciddi tələb deyil, adi bir təklifdir. Amma onların əmri qəti və ciddidirsə, övladın narazılığından narahat olacaqlar və məsələdə çətinlik yaradacaqdır. Çünki bu narazılıq ixtilafa səbəb və böyük günahdır. Demək, onları razı salmağa çalışmaq lazımdır, çünki övladın boynunda atanın və ananın haqqı insanların düşündüyündən daha çoxdur.*

## HƏYAT YOLDAŞINI NECƏ SEÇMƏLİ?

Evlənmək mərasimi daima və əbədi bir ittifaq olub İslam aləmində diqqət mərkəzində durur. İslam qadınlara və onların ərlərinə, ailələrinə tövsiyə edir ki, həyat yoldaşı seşməkdə Allaha təvəkkül edib məsləhət və məşvərətə kifayət qədər diqqət yetirsinlər.

Ailə qurmaq və həyat yoldaşı seçmək ev əşyası almaq deyildir ki, səthi qərar qəbul etməklə həyata keçirilsin. Həyat yoldaşı (istər qadın, istər kişi) çox həssas bir varlıqdır. O elə bir şəxsdir ki, insan canını, malını, namus və sirrlərini onun ixtiyarına verir və həyatın bütün mərhələ və sahələrində insanın yol-yoldaşı və həmfikiri olur. Buna görə də elə bir şəxs seçilməlidir ki, onun çətin anlarında, digər məsələlərdə onun dostu və yol-yoldaşı olsun.

İbrahim Kərəxi İmam Sadiqdən həyat yoldaşı seçmək haqqında sual verdi: Həzrət cavab verərkən buyurdu: «Bax gör varlığını kimə və hara tapşırır, mal-dövlətinə şərik olmaq üçün neçə bir şəxsi seçirsən, dinini və sirlərini hansı adama tapşırırsan?» Bu böyük şəxsiyyət başqa bir hədisdə həyat yoldaşını möhkəm və qırılmaz bir zəncirə bənzədib buyurur:

«Qadın möhkəm bir zəncirdi və insan onunla özünü zəncirləyir! Ona görə də diqqət ver, görərsən özünü necə bir zəncirə bağlayırsan. Yaxşı və pis qadınlar cihad və dəyəri nöqteyi-nəzərindən əvəzsizdirlər. Yaxşıları qızıl və gümüşdən qiymətli, piləri isə qiymətsiz torpaqdan da aşağı səviyyədədirlər!!»

Nəhayət, Peyqəmbərdən olan 3-cü hədisdə oxuyuruq: «Evlənmək bir cəhətdən qul olmağa bənzəyir. Buna görə də əgər qızınızı bir kəsin ixtiyarına versənizsə, onun ixtiyar və azadlığını məhdudlaşdırırsınız. Ona görə də diqqətli olun, baxıb görün öz əzizinizi kimə təhvil verirsiniz!»

Əziz oxucular, əgər bu üç hədisə yaxşı diqqət etsək çoxlu dərslər alarıq. Bir tərəfdən həyat yoldaşı, istər kişi və istərsədə qadın etibarlı olmalı və əmanət saxlamaq məsələsinə axırıncı mərhələyə qədər əməl etməli. Bir-birinin malına, canına, namusuna, abır-həyasına xəyanət etməməlidirlər. Çünki ailə ocağında bu qiymətli kövhərlər (can, namus, sirlər, mal-dövlət) hamısı ər və arvadın müştərək ixtiyarına verilir. Həyat yoldaşı seçməkdə ən kiçik ehtiyatsızlıq tərf-müqabilə ödənilməsi mümkün olmayan ziyanlar gətirir.

Başqa bir tərəfdən həyat yoldaşı (kişi, qadın)ağır və qul zəncirinə bənzədilib. Bununla da deməkistəyir ki, ailə həyatı qurduqdan sonra onu qırmaq və onun ağuşunan qurtarmaq da mümkün deyil və yaxud da çox çətindir. Bütün ata-analar borcludurlar ki, həyat yoldaşı secməkdə övladlarına kömək etsinlər, onların fikirlərini beyinslərini ötəri hisslərdən təmizlənsinlər, öz acı və şirin təcrübələrindən onlara öyrətsinlər. İslam nəinki bu məziyyətlərlə müxalif olmamış, əksinə öz sələflərini belə nemətlərə malik şəxsləri seçməyə sövq etməmişdir. İndi isə nəzər diqqətinizi bu hadisələrdən bir qisminə cəlb edirik. Peyqəmbər (s) buyurur: «Bir neçə şey müsalman kişinin səadətə qovuşmasına səbəb olur. Onlardan biri odur ki, qadın gözəl və dindar olsun» Həzrət İmam Rza (ə) buyurur: «Ərin xoşbəxt anlarından biri odur ki, gözəl həyat yoldaşı ilə üzbəüz oturub xəlvət bir məqamda həyat yoldaşınn paltarını əynindən çıxarsın».

Yenə də Peyqəmbər bu meyarları şərh edən hədisdə deyir: «Ailəyə yaraşmayan gözəl camalı arvadlar seçməkdən çəkinin. Elə arvadlar ki, ətirli və gözəl otlar kimi peyin üzərində bitər. O həmçinin qız sahiblərini təkidlə xəbərdar edir və deyir: «Məbada və maddi meyarlara qapılıb öz əzizlərini fasiq, şərab içən və yolunu azmış olanlarla evləndirəsiniz.

Çünki bu çür adamlar yaşı da, qurunu da yandıran oda bənzəyir. Sonra o təkidlə qeyd edir: «Belə xoşa gəlməz evlənənlərə rəvac verən şəxslər övladları ilə əlaqələrini kəsmiş olar. Onu sanki faişəxanaya göndərmiş və ya da odla yandırmış olar».

Deyilənlərdən belə nəticə çıxarırıq: «Gəlin və kürəkən seçməkdə ayıq olmaq və layiqli şəxslər seçmək lazımdır».

## Ləyaqətli həyat yoldaşının vəsfi

Qadın və kişi həyat yoldaşının vəsfinin xüsusiyyətləri haqqında çoxlu rəvayətlər nəql edilmişdir. İndi isə biz onlardan bir hissəsinin nəzərnizə catdırırıq. Sizə yaxşı gəlinin əlamətləri haqqında söhbət açırıq.

Allah elçisi buyurub: «Allah belə buyurur: «Əgər müsalman bəndəsini dünya və axirətd xeyir-bərəkətindən bəhrələnmək istəsəm, ona bir imanlı bir arvad qismət edərəm. Həmin şəs onu görməkdən xoşhal olar və kişi olmayan vaxtı onun mal-dövlətini və namusunu qoruyar».

Başqa bir hədisdə Peyqəmbər (s) buyurur: «Heç bir müsalman İslami nemətdən sonra mömin və müsalman həyat yoldaşından bəhrələndiyi qədər heç bir başqa şeydən bəhrələnməyib. Kişi onu görməkdən xoşhal olar. Qadın onun buyuruq və fərmanlarını itaətkarlıqla yerinə yetirər, ər olmayanda onun mal-dövlət və namusunun keşiyində dayanar. Bu hədisdə əvvəlki hədisin məzmunundan fərqli olaraq mühüm bir xüsusiyyətə işarə edilmişdir. Bu da qadının kişiyə qarşı təvazökar və itaətli olmasıdır».

Cabir ibn Əbdullah Ənsari deyir: «Biz Allah elçisinin yanında əyləşmişdik. Qadınların mənfi və müsbət keyfiyyətləri haqqında mübahisə edirik. Sizdən böyük Peyqəmbər söhbətə başlayıb belə buyurdu: «İçazə verirsinizmi yaxşı və layiqli gəlinlərin müsbət xüsusiyyətlərini açıqlayam? «Əshabələr cavab verdilər: «Bəli, ey Allahın Peyqəmbər buyurunuz». Həzrət buyurdu: «Sizin ən yaxşı həyat yoldaşınız o kəsdir ki, aşağıdakı xüsusiyyətlərə malik olur:

1. Doğan olsun
2. Mehriban olsun
3. Hicaba əməl etsin
4. Həyalı və təmiz olsun
5. Ailə arasında hörmətli olsun
6. Ərinə qarşı təvazökarlıq göstərsin

7. Əri qarşısında təmiz və bəzəkli görünsün
8. Əcnəbilərə etinasız olsun
9. Ərinə müti olsun
10. Ərinin şəriətlə müəyyən edilmiş cinsi istəyinə təsli olsun».

## Yaxşı və pis xüsusiyytlərə malik olan kürəkənlərin vəsfi

Bir nəfər İmam Həsən Müctəbanın yanına gəlib belə ərz etdi: «Qızım ərə getmək yaşına çatıb. Onu istəyən çoxdur. Necə bir şəxsi kürəkənliyə qəbul edim?» Həzrət buyurur: «Çalış imanlı, etiqadlı bir kürəkən seçəsən. Çünki əgər o, qızını sevirsə hörmət edəcək, ona qarşı soyuq olsa belə ona zülm etməyi rəva bilməz».

Həzrət Peyqəmbər (s) bu barədə belə buyurub: «Yaxşı və ləyaqətli kürənin əlamətləri bunlardır:

1. Allaha inanan
2. Pakizə
3. Səxavətli
4. Nəcabətli, əsilzadə
5. Ata-anasına qarşı müti
6. Ailənin ehtiyaclarını təmin edən
7. Öz səy və bacarığı ilə başqalarının ailəsinə, onun işlərinə qarışıb nüfuz etməsinin qarşısını alan.

Ləyaqətsiz kürənin əlamətləri aşağıdakılardır:

1. Töhmət və iftira
2. Paxıl
3. Dili acı və söyüş söyən (pis söz danışan)
4. Qarnının əsiri olan (qarunqulu), ailənin iqtisadi çətinlik və ehtiyaclarına diqqət etməyən
5. Qonaqdan qaçan
6. Ailənin anında cürətli, başqalarının yanında zəif və alçalan
7. Özünnü təmin edə bilməyən, tənbəl və özünü bəsləyən
8. Duz-çörək tanımayan, nankor (hətta ata-anaya qarşı).

Yaxşı kürəkən mərdanəlik keyfiyyətlərinə malik olmalı, ailəsinin ehtiyaclarını yerinə yetirməyə çalışmalı, danışıq və hərəkətinə fikir verməlidir. Günahsız həyat yoldaşını və övladlarını döymək, nəlaiq sözlər danışmaqla mərdanəliyə xas olan keyfiyyətləri ləkələməməlidir. Bunu da

bilməlidir ki, subaylıq illəri ailə qurduğu zaman arasında böyük fərq vardır. O bütün gözlənilməz çətinlikləri qarşılamağa və ailə məsuliyyətini çiyinində daşımağa hazır olmalıdır.

## HƏYAT YOLDAŞI SEŞMƏMİŞDƏN ÖNCƏ NƏ ETMƏK LAZIMDIR?

Ailə qurmaq məsələsi mühüm və həyati bir məsələ olduğundan bu müqəddəs işə girişən hər bir şəxs Böyük Allahdan kömək diləmək Allahın böyüklüyü və lütfünə təvəkkül etməklə özünə ömür-gün yoldaşı seçməyə borcludur.

Möminlərin əmiri Əli Əleyhissalam buyurur: «Bəla və çətinliklər baş verməmişdən öncə Allaha dua edin və yalvarışla onun qarşısını alın. Şübhəsiz ki, arzuolunmaz və nəlaiq həyat yoldaşı ən kədərli və dərdli müsibətlərdən sayılır. Əksinə, əməli saleh, ləyaqətli həyat yoldaşı İlahinin ən böyük nemətlərindəndir. Dünyəvi nemətlərdən heç biri ona çatmaz!!!»

İmam Baqirin (ə) bir hədisindən deyilir: «O Həzrət Əbu Bəsirdən soruşdu: «Sizlərdən biriniz evlənmək əzmində olsa bu işə necə başlayırsınız?» Cavabında dedi: «Bilmirəm». Həzrət göstəriş verdi: «Əgər ailə qurmaq qərarına gəlsəniz, əvvəlcə iki rükət namaz qılın, Allaha şükr edin sonra dua edib deyin: «Ey Allah! Mən evlənmək istəyirəm. Mən ismətli və həyalı bir arvad əta et ki, namusumu, mal-dövlətimi qorusun, ayağı bərəkətli, ruzili olsun. Ondan mənə sağlığımda və ölümümdən sona əməli saleh olan layiqli bir övlad bəxş et». Həzrət İmam Sadiq (ə) bir qədər fərqli fərqli olaraq belə buyurub: «Evlənmək qəsdiniz olsa, əvvəlcə iki rükət namaz qılın sonra İlahiyə həmd və şükürlə deyin: «Xudaya, mən evlənmək istəyirəm. Mənə sözü özündə, iffətli bir arvad əta et. Elə bir arvad ki, namusumun, mal-dövlətimi qoruyucusu, ruzisi firavan, bərəkəti əzəmətli olsun. Ey Allah! Ondan mənə gözəl bir övlad bəxş et. Elə bir övlad ki, ömrüm boyu və mən öləndən sonra mənim əməli saleh övladım kimi ad çıxarsın».

Nəhayət, İmam Rzadan (ə) 3-cü hədisdə deyilir: «İlahi, evlənmək istəyirəm. Bu işin baş tutması şəraitini mənim üçün asanlaşdır. Təbiəti və əxlaqı laiqli olan, özünü naməhrəmdən qoruyan, namusumu, şərəfim və mal-dövlətimi qoruyan, övlad doğan, gözəl camala malik olan bir qadın qismət et». Baxmayaraq ki n, bu hədisdə arvad seçmək haqqında deyilib.

Lakin qızlar da laiqli oğlan seçməkdə böyük Allahla razu-niyaz etmək huququna malikdirlər. Onlar Allahdan təvəqe edə bilərlər ki, onlara əqidəli, sakit, başa düşən bir həyat yoldaşı nəsib etsin.

### Müsalman alimlərinin bu məsələyə münasibəti

Müsalman alimlər və mütəxəssislər keçmişlər və müasir əsrdə hədislər əsasında fitva verilmiş, öz sələflərinə bu sahədə yol göstərmişlər. «Cavahir sahibi» adı ilə məşhur olan mərhum Şeyx Mühəmməd Həsən Nəcəfi-adlı-sanlı şiə alimlərindən biri bizim üçün üçün ən yaxşı mənbə sayılan «Cavahir» adlı dəyərli kitabında yazır: «Evlənmək qərarına gələn şəxs öncə iki rükət namaz qılmalı, Allaha həmd və sitayiş etməli və bunlardan sonra dua etməli və Allahdan ona gözəl, ismətli, ləyaqətli, ayağı ruzili bir qadın qismət olmasını diləməlidir».

Şiə dünyasının sayılan və görkəmli alim mərhum Təbatəbai özünün «Urvətul-Vussqa» kitabında belə qeyd edir: «Evlənmək əzmində olan hər bir şəxs yaxşı olar ki, gələcək həyat yoldaşını seçib təyin etməmişdən əvvəl iki rükət namaz qılsın və bundan sonra Allaha dua etsin ki, ona arzu olunan müsbət keyfiyyət və sifətlərə malik bir arvad nəsib olsun». Bu hədislərdən və alimlərin nəzəriyyələrindən məlum olur ki, həyat yoldaşı seçmək istəyən hər bir şəxs xeyirxah insanların məşvərətindən başqa vacibdir ki, həkim və mehriban Allaha dua etməklə, onun lütf və kəraməti ilə gələcək ideal həyat yoldaşına çatsın.

## ƏGƏR EVLƏNMƏK MÜMKÜN OLMASA, NƏ TƏKLİF OLUNUR?

Heç şübhəsiz evlənmək cinsi ehtirası müalicə edən, insana rahatlıq bəxş edən bir dərmandır. Başqa heç bir şey onu kamil şəkildə əvəz edə bilməz. Buna görə də əzizi cavanlar böyük rəy və ağılla çalışmalıdırlar ki, evlənmələri üçün lazımi zəmin yaradıb daxili aləmlərinə rahatlıq bəxş etsinlər. Burada belə bir sual meydana çıxır: Əgər insanın evlənmək üçün zəmin yaratmaq cəhdləri baş tutmazsa nə etmək lazım gəlir? Hansı yollarla cinsi ehtirasını söndürüb və arzuolunmaz hadisələrin qarşısını almalıdır?

Bu dolaşıq və çətin suala cavab tapmaq üçün Qurani-məcidə, İslam hədislərinə, psixoloqlara müraciət etməli oluruq. Vəhy məktəbınə istinad edərək bu suala cavab axtarır və xülasə şəkilində subay cavanlara bir neçə tövsiyə təqdim edirik:

Quranın göstərdiyi yollar:

Cavnları pis yolldan çəkindirmək, ailələrin şərəfini qorumaq, İslam cəmiyyətinin toğunulmazlığını təmin etmək məqsədi ilə Qurani-kərim bir sıra göstərişlər verir və tələb edir ki, bu göstəriş və hökümlər xırda detallarına qədər yerinə yetirilsir.

İndi biz ayələrdən bir neçəsinə müraciət edək:

1. «Subayları (kişi və qadınları) evləndirin. Qul və kənizlərinizə də yol göstərin. İmkanlı olmayan şəxslər öz namus və iffətlərini qorusunlar». Bu ayələrdə arvad seçmək məsələsinə işarə edildikdən sonra (vurğulandıqdan sonra) imkanlı olmayan şəxslərə xəbərdarlıq edilir ki, məbadaonlar yoldan çıxıb əxlaqa və namusa zidd hərəkələr etsinlər. Onlara tövsiyə edilir ki, nəfsini boğmaq və ismətini gözləməklə özlərini sakitləşdirsinlər.

2. Şüeybin iki qızından biri: «Ata, Musanı xidmətə qəbul et. Çünki o həm güclüdür, həm də inanılmış və etibarlı bir şəxsdir».

Musa (ə) qoyunları su verərkən subay və güclü bir gənc olmasına baxmayaraq qızlara baxmırdı. Şüeybin çağırışı ilə onun qızı ilə birlikdə evə getdiyi zaman onun qabağında getdiyini görüb dedi: «Ey Şüeybin qızı, lütfən mənim arxamca gəlin və işarə ilə məni evinizə ötürün. Çünki mən Yəqubun övladlarındanam və qadının arxasınca baxmaram..».

Bu ayə və hədislərdən aşağıdakı nəticəyə gəlmək olur: Musanın cavan, güclü və subay olmasına bxmayaraq və Şüeybinqızları ilə su quyusunun başında söhbət etsə də, özünü ələ almaq, nəfsini cilovlamaqla iffət və ismətini qorudu. Həzrət Şüeybbu qəziyyədən xəbər tutduqdan sonra «Kərim Allahı» özünə damad secdi.

Allah Quranda İslam Peyqəmbərinə (s) buyurur ki: «Ey Allahın elçisi! Öz yoldaşına, qızlarına və mömin bəndələrin arvadlarına de, uzun yaylıqlarını başlarına və bədənlərinə örtsünlər və özlərini naməhrəmlərdən qorusunlar. Münafiqlərə, ürəyi xəbis kəslərə, şaiyə, fitnə-fəsad yayanlara xəbərdarlıq et ki, şeytanı əməllərindən əl çəksinlər. Əks təqdirdə səni onlara qarşı məmur etdik və o zaman onlar sənin

qonşuluğunda qala bilməzlər. Onlar hər yerdən qovulurlar, harada görünsələr tutular və edam edirlər».

Əziz oxucular diqqət edirlər ki, ulu TANRI bu ayələrdə əvvəl o vaxt ki, mühitin sağlamlığı, qadınların hicab və ismət məsələlərini vurğulamış Peyqəmbərin övrətlərinə və qızlarına üstünlük vermiş, onlara mane olanları xəbərdar etmiş, edam olunmaq həddinə qədər cəza tədbiri müəyyənləşdirmişdir.

İslam üsuli-idarəsinin rəhbərləri daha artıq məsuliyyət hiss etməlidirlər. Onlar öncə özlərinin arvad və qızlarınını İsalam meyarlarına uyğunlaşdırmalı hicab məsələlərinə riayət etmək yolunda hamıdan qabaqda getməli, bundan sonra xüsusi göstərişlərlə qadınları cinsi əlaqəyə təhrik olmaqdan uzaqladırmalıdırlar. Bir sözlə əvvəlcə cəmiyyətdə mövcud olan azma hallarının kökünü kəsməli və bundan sonra əməl etməyənləri etdiyi günaha uyğun olaraq cəzalandırmalıdırlar.

## Orucluq və cinsi şəhvət

Bir çox İslami hədislərdən məlum olur ki, oruc tutmaq şəhvətə qalib gəlir. Oruc tutan adam aclıq və böyük Allaha dua etmək yolu ilə cinsi böhrandan nicat tapır və ruhi sakitlik əldə edir.

İndi isə nəzər diqqətinizi böyük Peyqəmbər (s) kəlamlarına çəlb edirik:

1. Allahın elcisi buyurur: «Hər kəsin lazımınca imkanı olsa ailə qursun və kimin bunaimkan və şəraiti yoxdursa, oruc tutsun. Çünki oruc tutmaq cinsi şəhvəti azaldır».

Bu hədisdə oruc tutmaq cinsi şəhvəti yox etmək üçün təsirli vasitə sayılır.

2. Peyqəmbər (s) buyurdu: «Ey cavanlar, sizə evlənmək və ailə qurmaq qismət olsun. Buna kimin maddi imkanı olmasa oruc tutsun. Çünki oruc tutmaq cinsi xətanı aradan qaldırar və oruclu adamı sakitlik bəxş edər».

3. Bu hədisdə deyilir: «Bir şəxs Allah elçisinin hüzuruna gəlib belə ərz etdi: «Ey Allahın Peyqəmbəri! Cinsi böhrana düçar olmuş bir cavanam. Evlənmək ümün maddi imkanım yoxdur. Mən bu əziyyətdən Sizə şikayət etməli oldum. Peyqəmbər (s) buyurdu: «Bədənindəki tükləri

bir qədər azalt və oruc tutmağa başla. Həmin cavan bu tövsiyələrə əməl etdikdən sonra şəhvəti söndü».

Bu hədisdə oruc tutmaq və bədənin tüklərini azltmaq ehtirası söndürən amillər kimi ktəsvir edilmişdir.

Yuxarıda qeyd edilən hədislərdən başqa din alimlərinin kitablarında da bu mövzuya toxunulur. Cavanlara öz ehtiraslarını cilovlamaq üçün oruc tutmaq və bədənin tüklərini azltmağı tövsiyə etmişlər.

Bütün bu hədislərdən belə nəticəyə gəlirik. Oruc tutmaq və onu davam etdirmək, bədənin tüklərini təmizləmək şəhvətin coşmasınıb qarşısını alır. Cavanlar bizim tövsiyə edəcəyimiz digər məsləhətlərlə yanaşı bu iki mühüm amildən istifadə etsinlər.

## Allaha inam və onu yad etmək

Cinsi ehtirası nizama salmaq, hisslərini cilovlamaq Allha inam və ona söykənməklə mümkün olar. Cavanlar bilməlidirlər ki, cinsi etirasın cılovunu buraxmaq onları mənəvi əxlaqın suqutuna gətirib çıxardar və onların ictimai şəxsiyyətinə ləkə vurar. Bu hal o qədər qorxuludur ki, hətta yırtıcı əjdahaları belə gölgədə qoyur. Belə ki, Həzrəti Davud belə sifariş edir: «Ey ğvladım, qadınların dalına düşmək qorxusu yırtıcı şirlərin və adamları udan əjdahanın qorxusundan çoxdur. Bəli, nəfsin qurbanı olmaq (istər arvad və istərsə də kişi üçün) acı nəticələr verər, cana, mal və dövlətə böyük ziyanlar vurar. Bunu yeganə carəsi nəfsi cilovlamaq və Allahı yada salmaqdır».

Diqqətinizi bir neçə tarixi hədis və hekayəyə cəlb edirik:

1. İmam Baqir (ə) buyurur: «Faişə bir qadın «Bəni-İrail» cavanlarını təqib edirdi və onları toruna salırdı. Bir gün cavanlardan biri dedi: «Biz cavanıq. Ancaq Allaha inanan və ona sitayiş edən filan abid bu qadını görərsə onun eşqinə mübtəla olar və onun toruna düşər.

O nanəcib qadın bu sözləri eşidən kimi onu axtarmağa getdi. Gecə abidin ibadət etdiyi evin qapısını döydü. Lakin bu Alla adamı onu evə buraxmadı. Əxlaqsız qadın dedi: «Əyyaş cavanlar məni təqib edirlər. Həyatım təhlükədədir. Allah xatirinə mənə pənah dur. Biçarə Abid bu sözləri eşitdikdən sonra komanın qapısını acdı. Qadın icəri daxil olan kimi dərhal paltarını soyunmağa başladı və özünü Abidə təslim etdi. Abidin gözləri qadının gözəl camalına sataşan kimi nəfsinin əsiri oldu.

İxtiyarsız əlini qadının bədəninə toxundurdu! Lakin Allahı və ona qarşı olan inamını yadına salıb özünə ələ aldı. Tutduğu işdən peşman olub bir ocaq qaldı əlini ada salıb yandırdı. Fahişə qadın soruşdu: «Ay kişi nə edirsən?» Abid cavab verdi: «Bu əlimi cəzalandırmaq istəyirəm. Çünki o günaha batıb!!» Bu halı görən qadın sürətlə komadan çıxdı. Bəni İsrail adamlarının yanına gəlib dedi: «Gedin Abidə kömək edin, o əlini yandırıb». Adamlar komaya gəlib Abidin əlini yanmış gördülər.

Bəli, Allahı yad etmək və axirət atəşində yanmaq qorxusu günaha batmaq və şəhvətə uymağın qarşısını alır.

## Abır və həya çəkindirici amillər kimi

İnsanı cinsi şəhvətdən çəkindirən amillərdən biri abır və həyadır. Bu mövzu geniş bir bəhsdir. Ər və arvad ünsiyyət zamanı bu amilləri kənara qoymalı, lakin ailə məsələlərində onun müsbət tərəflərinə və keyfiyyətlərinə əməl etməlidirlər.

Əziz cavanlar bilirlər ki, əgər abır və həya cəmiyyətdən uzaqlaşsa və o biri tərəfdən insan Allah qarşısında günahlardan cəkinib utanmazsa günaha batmaq və fəsad kimi mənfi hallar rəvac tapıb yayılacaq. Əgər Əbdurahman ibn Mülcəm Muradi (ona lənət olsun) müttəqilərin mövlası, möminlərin əmiri Əlini zəhərləyib öldürdüsə (zəhər zərbəsi ilə), onu bu həyasız hərəkətinə səbəb Bəni Teym Ər-rəbab qəbiləsindən olan Əxzərin qızı Qəttam idi. Onu dəlicəsinə sevdiyindən bu addımı atmışdı. Əgər Yahya Peyqəmbərin mübarək başı bədənindən ayrıldısa bu həyasız hərəkətin başında Fələstin diktatoru Hirudis və onun qardaşı qızı Hirudya dayanırdı. Həzrət Yahya onlara qarşı mübarizə aparırdı. Hirudiya Qəttam kimi belə şərt kəsdi: «O halda sənin dediklərini qəbul edəcəyəm ki, yahyanın başını bədənindən ayırasan!»

Hirudis rüzgarın ən gözəl qızlarından olan qardaşı qızının vüsalına yetişmək üçün abır ayanı kənara atıb nahaqdan o böyük Peyqəmbərin başını bədənindən ayırdı. Cəmiyyətdə o vaxt namus olar ki, orada abır-həya, hicab hakim olmuş olsun. İmkan daxilində qadınlar və kişilər yersiz qarışılıqdan uzaq gəzsinlər. Növbələrdə, ictimai yerlərdə və müxtəlif məclislərdə, hətta dua məclislərində, namaz və ibadət zamanı gözlərini bir-birinə dikməsinlər. Abır-hayanı gözləyib qorusunlar. Təsadüfi və əbəs deyil ki, ulu Tanrı həya və isməti qadınlarda çox nəzərdə tutmuş və bu

xüsusiyyətləri onlarda kişilərə nisbətən daha artıq etmişdir. Çünki qadınlarda ismət, abır-həya və hicab olarsa, ictimai fəsad və yoldan çıxma hallarına zəmin yaranmaz. Yaransa da çox nadir hallarda baş verər. Buna görə də İslami hədislərdə buyurulur: «Qadınlarda abır-həya kişilərdəkindən bir neçə dəfə artıqdır. Çalışın ki, onlar bu xüsusiyyətləri əldən verməsinlər, yoxsa cinsi şəhvət cəmiyyətə hakim kəsilər».

Həzrəti İmam Sadiq (ə) buyurub: «Həya 10 hissədən ibarətdir. Onun doqquz hissəsi qadınlarda və yalnız bir hissəsi kişilərdədir». Bu hədisdə daha sonra deyilir: «Qadınların abır-həyasının dörd hissəsi aşağıdakı hallarda: aybaşı, evlənmə, zəfaf gecəsi və doğuş vaxtı gedir və ismət-həyaya xilaf zidd hərəkət etməzlərsə, onun 5 hissəsi qadında qalır».

İmam Sadiq (ə) başqa bir hədisdə buyurur: «Böyük Tanrı hər bir qadına 10 (on) kişinin abır-həyasını əta etmişdir. Lakin o təhrik olan vaxt 20 kişiyə bərabər şəhvət gücünə malik olur».

Nəhayət 3-cü hədisdə deyilir:

«Qadın cinsi əlaqədən ləzzət almaq nöqteyi-nəzərindən kişi ilə müqayisədə 99 dəfə artıq həzz alır. Fərq ondadır ki, Allah abır-həyanı ona fateh xəlq etmişdir (yəni, o ehtiyacını biruzə verə bilmir)». Bu hədislərdən belə nəticəyə gəlmək olur ki, abır həya cinsi məsələlərdə bir çox şeylərin qarşısını alır. Bu xüsusiyyətlər cəmiyyətdə hökmrandır insanlar daxilən rahatdırlar. Əgər həya cəmiyyəti tərk edərsə, mənəvi cəhətdən qara günlər başlayar.

## Abır-həya olmazsa, nə etmək lazımdır?

Yolxucu xəstəliklərin qarşısını almaq üçün peyvənd etmək zəruri olduğu kimi İsdlam cəmiyyətdə qeyri-qanuni cinsi yaxınlığın qarşısını almaq üçün göstəriş verir ki, siz imanınızı və Allaha etiqadı gözü-könlü tox olmaqla müxtəlif ictimai yerlərdə iştirak edər və özünüzü arzuolunmaz hadisədən qoruya bilərsiniz.

Müqəddəs Quran bu bairədə yazır: «Mömin kişilərə deyin:

- Naməhrəmə baxmasınlar, yollarını azmasınlar. Həmçinin imkanlı qadınlara çatdırın ki, onlar da gözlərini naməhrəm kişilərdən çəkinsinlər, öz namuslarını qorusunlar və bədənlərini başqa admlara göstərməsinlər».

Doğrudan da naməhrəm qadın və kişilərin bir-birinə baxmaqdan çəkinməsi, hicaba riayət etmək cəmiyyəti pis və bədbəxt əməllərdən çəkindirir.

Lakin şorgözlük, bədənini nümayiş etdirmək, əyyaşlıq məclisləri və yığıncaqları, naməhrəm qadın və kişilərin bir yerə yığışması və digər mənfi halların nəticələri peşmançılıq və təəssüf hissinə səbəb olur. Bu gün baş verən yüzlərlə hadisə onun fəsadlarından doğru.

İmam Səccad (ə) «Cəmiyyətin huquqları» haqqında belə buyurur: «Cinsi yaxınlıq və ehtiras hissinin sənin boynunda haqqı budur ki, onu haramdan qoruyasan və bu müqəddəs vəzifəni yerinə yetirmək üçün gözü-könlü tox olmalısan. Bu hadisələrin qarşısını almaq naməhrəmə baxmamaq ən yaxşı vasitədir».

Həzrət İmam Cəfər Sadiq (ə) buyurub: «Hər kəs gözü əcnəbi qadına sataşan zaman baxışlarını gizlətmək üçün göyə və yerə baxsa bir göz qırpımında ulu Tanrı bu hərəkətə mükafat olaraq onu behişt hüriləri ilə evləndirər».

Bu ayə və hədislərdə gözü yummaq şəhvətin qarşısını alan ən yaxşı vasitə kimi təqdim edilmişdir».

## Qeyrət hissini gücləndirilməsi

Cavanları əxlaqi pozğunluq, yoldan çıxmaq kimi pis şeylərdən uzaqlaşdıran amillərdən biri də qeyrət hissidir. Çünki hər kəsin nəzəri başqasının namusuna yönələrsə, onun öz namusu başqalarının baxış hədəfinə çevrilər. Belə bir hədisdə buyurulur: «Bir cavan, Allahın Elçisinin hüzuruna gəlib belə ərz etdi: «İcazə verin zina edim?!»

Allahın Elçisi buyurdu: «Yaxın gəl». Cavan dərhal ona yaxınlaşdı və Peyqəmbərin qarşısında əyləşdi. Həzrət buyurdu: «Sənin xoşuna gələr başqası ananla zina etsin?»

- Cavan cavab verdi: «Xeyir, Ya Rəsul Alllah».- Peyqəmbər: «Eləcədə adamlar istəmir ki, onların anası ilə zina etsinlər. Ey cavan, sən istəyərsən ki,başqaları sənin istədiyin qızla namusuzluq etsinlər?»

- Cavan: «Xeyir, sənə fəda olum».

- Peyqəmbər: - «Eləcə də başqaları razı olmaz ki, onun qızı ilə pis rəftar edələr. Sən istəyirsənmi ki, başqaları sənin bacını qoynuna alsın?»

- Cavan: «Xeyir, ya Peyqəmbər».

- Cavan verdiyi suala görə tam peşman oldu. Ona dua edilməsini xaiş etdi. Peyqəmbər ona dua etdi və bu əmələ nifrət etdi.

Maraqlıdır ki, Peyqəmbər həmin cavanı qeyrət hissi vasitəsilə bu əmələ görə peşman etdi. Həzrət Əmirəl-mömінin bu məsələyə işarə edərək buyurur: «Qeyrətli adam zina etməz. Çünki öz işinin aqibətindən və adamların intiqamından qorxar. O bilir ki, başqaları ilə zina edənlərin aqibəti həmin şəxslərin də onun məhrəmləri ilə zina etməyi ilə nəticələnər».

İmam Sadiq (ə) xəbərdarlıq edib bildirir: «Əgər həyalı və təmiz əqidəli olasanız, arvadlarınız və məhrəmləriniz də təmiz olar. Əgər siz başqalarına təcavüzə məruz qalar».

Bu hədislərdən belə nəticə çıxarmaq olur ki, qeyrətli cavnlar ən kiçik əxlaqsızllıqdan belə çəkinirlər, qorxurlar və razı deyillər ki, arvadları, bacıları, ansları və qızları onun-bunun təcavüzunə məruz qalsınlar. Ona görə də onların özləri əxlaqa zidd hərəkətlərdən qorxurlar... Qərbin və qərbpərəst kəslərin qeyrətsizlik simvolu olan mədəniyyətinin təsiri altına düşmürlər.

**Ailəli şəxslər nə üçün yoldan çıxırlar?**

Qeyd edildiyi kimi evlənmək və ailə qurmaq cinsi böhrandan çıxmağın şəri yoludur və insanlar bu müqəddəs birlik vasitəsi ilə və həyat yoldaşı seçmək yolu ilə özünü bu qüdrətli instinktin (cinsi böhranın) verdiyi əziyyətlərdən qurtarar, əxlaqsızlığa yuvarlanaraq və ictimai fəsaddan xilas olurlar.

Burada belə bir sual meydana çıxa bilər ki, əgər evlənmək insanları belə hərəkətlərdən xilas edir, bəs nə üçün bir qrup ailəli qadın və kişi cinsi yoldan azmaqdan (pis yola düşməkdən) çəkinməmiş və fəsad bataqlığına girmişlər (qərq olunmuşlar).

Bunun cavabında demək lazımdır:

- Onların öz yolundan çıxmaları aşağıdakı amillərin təsirindən baş verə bilər.

a) Tərəflərin birinin cinsi zəifliyi;

b) Müxtəlif və yeni-yeni adamlarla yaxınlıq etmək həvəsi;

c) İntiqam almaq hissi (ər fəsad işlərlə, xəyanətlə məşğul olur və arvad xəyanətə əl atır);

ç) İqtisadi çətinlik və qadının maddi çəhətdən təmin olunması;

d) Həyat yoldaşının etinasızlığı və meylinin olması;

e) Baçqaları tərəfindən məcbur və təhrik olunması;

ə) Həvəs, ehtiras məcburiyyətində qalmaq.

Bu yeddi amil və digər daxili səbəblər ailəli kişi və qadınları bəzi hallarda əxlaqsızlıq və cinsi təhlükə ilə üz-üzə qoyur.

## Bu barədə İslamın fikir və nəzərləri

İslam ailənin müqəddəsliyinə ehtiramla yanaşıb və onun sərhədlərinə təcavuz etməyi məhkum edir və pisləyir. Ailənin müqəddəs ocağını qorumaq məqsədi ilə İslam ər və arvadlara bir sıra göstərişlər və xüsusi tövsiyələr vermişdir. Bunlara əməl olunması ailələrin birliyini möhkəmləndirir və ər-arvadın bir-birinə qarşı olan məhəbbətinin bir neçə dəfə artırır.

Ailəli adamların duçar olduqları fəsadlara qarşı İslamın baxışı başqa cürdür. Əksinə, İslam bu məsələləri onun kökləri, baş vermə zəminləri və şəraiti nöqteyi-nəzərindən araşdırır.

Qadının cinsi zəifliyi barəsində: Əgər əlacı yoxdursa, kişi yenidən (başqası ilə) evlənmək yolu ilə bu problemi aradan qaldıra bilər. Əgər bu catışmamazlıq kişinin tərəfindən olsa onda kişi arvadını boşalmalı və arvadını yenə ər seçməkdə azad buraxmalıdır. Əgər əxlaqsızlıq yeni və başqa-başqa adamlarla yaxınlıq etməklə bağlı olarsa başqa üsul və yollarla geyim, xarici görünüş ər və arvadın mehriban və təsiredici söhbətləri, bütün insanların bir-birinə oxşaması, ancaq zahiri görünüşə görə fərqli olması kimi yollarla arzu edilən və istınilən nəticələ əldə etmək olar.

Diqqətinizi iki hədisə cəlb edirik: Allahın Rəsulu (s) buyurur: «Əgər gözəl simalı bir qadın görüb yoldan çıxsanız (təhrik olsanız) ailənizin yanına gedin. Çünki qadınlar ərlərini təmin etmək nöqteyi-nəzərindən bir-birinə bənzəyirlər».

Əli (ə) belə nəql edir: «Bir kişi Allahın Peyqəmbərindən soruşdu: «Anamın otağına daxil olan vaxt ondan icazə almalıyam?» Əziz Peyqəmbər (s) buyurdu: «Onu paltarsız görmək istəyərdinmi?» Cavab verdi: «Xeyir». Peyqəmbər (s) buyurdu: «İcazə al». Cavan soruşdu: «Bacım yanımda başını açır və saçlarını darayır» Həzrət buyurdu: «Nə

üçün?» Peyqəmbər cavab verdi: «Qorxuram onun gözəlliklərini görüb şeytanın toruna düşəsən».

Əziz oxucular bilirlər ki, şəriət qanunları ilə qardaşın bacısının saçlarına baxması qadağan edilmir. Allahın Elçisi əxlaqı qadağan məqsədi ilə bu göstərişi verib. Buna «Əlmənsus-əl-İllət» hədisində işarə edilib. Yəni qadağan olunmanın səbəbi hədisin özündə əks olunmuşdur və bu şeytanın aldatmasıdır.

Belə olanda xarici kinolara və dəniz qırağında olan abır-həyasız səhnələrə baxmağın acı nəticələri çox aydındır.

## Cinsi ehtirası tənzimləyən və kontrol edən faktorlar

Cinsi ehtirasın tənzimlənməsi və kontrol edilməsi istiqamətində haqqında bəhs edilmiş amillərdən başqa idmanlada ona qarşı mübarizə aparmaq olar. Evlənmək üçün hələlik zəmin və şəraiti olmayan bir cavan bekar qalmaqdan uzaq olmalıdır. Həmin vasitə ilə olursa-olsun özlərini məşğul edib bilməlidirlər ki, cavanlıq dövründə hər nə qədər istəsələr inkişaf edə bilərlər. İctimai, iqtisadi və elmi sahələrdə mərhələlər fəth edə bilərlər. Digər tərəfdən bu cür işlər onları arzuolunmaz cinsi əlaqədən çəkindirər.

Qidalanmanın növü, onun kəmiyyəti və keyfiyyəti şəhbətin şiddətlənməsində və sakitləşməsində böyük təsirə malikdir. Buna görə də cavanlar çox yeməkdən uzaq olmalı və bu zəmində təsiri olan cinsi şəhvətdən uzaqlaşmağa kömək edən yeməklər yeməlidir. Misal üçün limonlu yeməklər, dişi heyvan əti, ədviyyə, turşu, qəhvə. Müxtəlif qida yeməkləri və cinsi əlaqə haqqında yazılan kitablarda qeyd olunduğu kimi müsbət təsiri vardır. Hər şeydən öncə sağlam istirahət, alpinizm, elmi müsabiqələr, lazımı miqdarda gündəlik idman və başqa proqramlar cinsi etirasın sakitləşməsindən fövqaladə əhəmiyyətə malikdir.

Müqəddəs İslam dinində bütün bunlar haqqında xüsusi göstərişlər vardır. Məsum İmamlarımızız və Peyqəmbər idmançıları sevmiş və bir çox hallarda özü şəxsən yarışlarda iştirak etmiş və qaliblərə özü şəxsən hədiyyələr təqdim etmişdir.

Nəhayət, subay cavnlar başqalarına nisbətən şəhvətləndirici səhnələrdən uzaq olmalı, qorxulu kinolara, evlənmək haqqında olan seriallar, seksual mövzuda olan şəkillər, qadınların və qızların

həyacanlandırıcı səslərini eşitməkdən çəkinməkj, münasib olmayan filimlərə tamaşa etmək, şəhvətin artmasına səbəb olan mövzular oxumaq, şəhvətpərəst dostlarla oturub-durmaqkimi hallardan çəkinsinlər.

Əks təqdirdə şeytan və şeytan cilidində ola insanların toruna düşəndən sonrakı peşmancılıq fayda verməz.

Biz bir daha cinsi ehtirasın qarşısını alan amillərin sayahısını təqdim edirik:

1. İsmətli olmaq və özünü saxlamaq;
2. Hicaba riayət etmək və sağlam şərait yaratmaq;
3. Biganə həyasızlıq mədəniyyətinin qarşısını almaq;
4. Oruc tutmağı davam etdirmək, çox yeməkdən çəkinmək;
5. Bədənin tüklərini az saxlamaq;
6. Qeyrət hissini canlandırılması;
7. Naməhrəmə baxmaqdan çəkinmək;
8. Alldan və insanlardan abır və həya etmək;
9. Sağlam əyləncə, idman, qidalanma, şəhvət yaradan ictimai yerlərdən uzaq olmaq;
10. Bütün hallarda və hər zaman Allahı yad etmək və təqvalı olmaq.

## QADINI SEVİN VƏ BU SEVGİNİ ONA BİLDİRİN!

Xudavəndi-aləm buyurmuşdur: «Allah-Təalanın varlığının nişanələrindən bir də budur ki, sizin üçün Sizin öz cinsinizdən (insan) olan qadınları yaratmışdır ki, onların yanında istirahət edəsiniz; qadın və kişi arasında dostluq yaratmışdır. Bu işdə düşüncəli, ağıllı adamlar üçün müəyyən nişanələr vardır».

1. Peyqəmbər (s) buyurur: «Mən sizin dünyanızda qadından və ətirdən başqa bir şeyi sevmirəm».

2. Yenə o Həzrət buyurur: «Əgər kişi qadına: «Mən səni sevirəm» deyirsə, bu söz əsla qadının ürəyindən (yadından) çıxmır».

3. Həzrət Sadiq (ə) buyurur: «Qadınlara məhəbbət nə qədər çox olsa, onun fəziləti və imanı bir o qədər çox olar»

**QEYD:** *Bu rəvayətdə qadına olan məhəbbət təriflənsə də, əsas məqsəd budur ki, qadınla kişi arasında məhəbbət hökm sürməlidir, həyat soyuq və quru keçməsin ki, ailənin acağı səmimiyyətindən və səfadan faydalana bilsin və ər-arvadlığın kökü kəsilməsin.*

Ancaq belə də yox ki, kişi qadına elə vurulsun və bağlansın ki, tamamilə onun ixtiyarında olsun, qul kimi onun hər əmrinə tabe olsun, özünün və övladlarının ixtiyarını qadının çirkin və sərbəst əlinə tapşırsın. Qadına bəslənən bu ifrat məhəbbət və vurğunluq şəriət tərəfindən aşkar sürətdə möhkəm məzəmmət edilmiş və qəti sürətdə qadağandır.

1. Əmirəl-möminin (ə) buyurur: «Fitnənin mayası üç şeydir: Şeytanın qılıncı olan qadın məhəbbəti; şeytanın toru olan şərab, şeytanın oxu olan pul məhəbbəti (yəni qadının elə məhəbbəti ki, onu günaha batır)».

2. Həzrət İmam Sadiq (ə) buyurur: «Allaha tabe olmamağın səbəbi altı şeydir: onlardan biri də qadın məhəbbətidir».

3. Yenə o Həzrət buyurur: «Mömin bədənin ən qorxulu düşməni pis həyat yoldaşıdır».

## Qızın dəyəri

Allah-Təalanın buyurmuşdur: «Onlardan (Müşriklərdən) birinə qızı olması münasibəti ilə müjdə verdikdə qəzəblənib üzü qapqara qaralır. Vertilən bu bəd müjdəni eşitdikdə öz tayfasından qaçıb gizlənər. Görəsən bu körpəni zillət içində saxlayacaq, yoxsa torpağa köməcək? Bir görün onlar necə pis mühakimə yürüdürlər?»

1. Bir kişi Peyqəmbər hüzurunda oturmuşdur. Bir nəfər gəlib övladının doğulduğu xəbəri verdi. Kişinin sifəti dəyişdi, Peyqəmbər (s) buyurdu: «Nə oldu?» Dedi: «Xeyirdir». Buyurdu: «Söylə!» Dedi: «Mən evdən çıxanda arvadım hamilə idi. İndi xəbər gətirdilər ki, qız doğub». Peyqəmbər buyurdu: «Torpaq yükünü çəkər, asiman üstünə kölgə salar, Allah ruzisini verər. Özü də bir dəstə reyhandır, sən qoxlayarsan!»

2. «Qız yaxşı övladdır: mehriban, dadaçatan, munis, mübarək və uşaq doğub tərbiyə edəndir».

3. «Allah oğlanlara nisbətən qızlara daha mehribandır. Kim öz qohum-əqrəbəsindən bir qadını sevindirsə, Allah qiymətdə onu sevindirər».

4. «Sizin ən yaxşı övladlarınız qızlarınızdır».

5. «Birinci övladı qız olan qadın mübarəkkdir».

6. Həzrət Zeynalabdin (ə) buyurur: «Kim iki qızına, ya iki bacısına, ya iki xalasına himayıdarlıq etsə. Allah onu cəhənnnəm atəşindən hifz edər».

7. Əli (ə) buyurur: «Peyqəmbərə qızının doğulduğu xəbərini verəndə buyurdu: «Bir reyhandır, Allah ruzisini verər, ruzisi Allahdandır»

8. Həzrət Rəsul (s) buyurur: «Kim iki, ya üç qıza himayədarlıq eləsə, behiştdə mənimlə əyləşəcəkdir».

**QEYD:** *Əlbəttə, o şəxsin iman sahibi olması digər dini vəzifələrinini yerinə yetirilməsi və qızlarına İslami tərbiyə verməsi və cəmiyyətdə əməlisaleh qadınlar verməsi şərti ilə yalnız belə olduqda Peyqəmbəri-Əkrəmin divar qonşusu olacaqdır. Çünki o həzrət də qəsdən qız tərbiyə etmişdir və mübarək nəsli qızın vaditəsilə artıb çoxalmış və yaşamışdır.*

9. «Qızı olan hər adam Allahın köməyi, bərəkəti və bəxşışı nəsib olacaqdır».

10. «Üç qıza hamilik edən adamın behişdə üç bağı vardır ki, hər biri dünyadan və dünya olan hər şeydən daha genişdir».

11. «Qız yaxşı övladdır, kimin ki, bir qızı var, o, onu cəhənnəmdən hifz edər. Kimin ki, iki qızı var Allah onu behiştə daxil edər. Kimin ki, üç qızı var, ya üç bacısına himayədarlıq edir, cihaddan və sədəqədən azdır».

**QEYD:** *«Çünki çox hallarda o, ailə sahibi olur, ancaq çörək qazananı olmur və ailəni dolandırmaq onun üzərinə düşür. Nəticədə kifayət qədər vacib və bəzən müstəhəbb olan cihad, vacib zəkat verməkdən o, azad olunur».*

12. Bazara gedib arvad-uşağına töhfə alan adam ehtiyacı olanlara sədəqə vermiş çəxsə bənzəyir: qızları oğlanlardan üstün tutmaq lazımdır, çünki bir qızı sevindirən hər kəs sanki İsmayıl nəslindən olan bir qulu azad etmişdir».

13. «Qızı olan, onu özündən uzaqlaşdırıb incitməyən və oğlanlarını ondan üstün tutmayan adamı Allah behiştə göndərir».

14. Həzrət Sadiq (ə) buyurur: «Yaranmışların ən şərəflisi olan Peyqəmbər bir neçə qız atası olmuşdur».

15. «Bir kişi qızlarının qüssəsindən İmam Sadiq (ə) yanında nalə edirdi. Həzrət buyurdu: «Məgər xəbərin yoxdurmu ki, Peyqəmbər (s) belə buyurmuşdur: «Merac gecəsi «Sidrətul-müntəhadan» keçəndə Allah tərəfindən xitab gəldi «Ey Mühəmməd, qızı olanlara de: «Bu yeni fidanlara görə qəmkin və dilxor olmasınlar. Mən necə yaratmışamsa, eləcə ruzilərini də verərəm».

16. Altıncı İmam (ə) buyurur: «Qız gözəldir, oğlan nemətdir. Gözəlliyin savabı var, nemətin hecabı!»

17. Biri Həzrət Sadiqə (ə) şikayət edərək deyirdi: «Mənim bir neçə qızım var». Həzrət buyurdu: «Elə bil ki, ölməklərini gözləyirsən! Buil ki, onların ölümlərini arzulasan və onlar ölsələr, qiyamət günü heç bir savabın yoxdur, əməlinin günahını Allahdan görərsən».

## ELÇİLİK MƏRASİMİ

Müqəddəs İslam dinində elə bir hədisə rast gəlinmir orada qeyd edilsin ki, elçilik ancaq kişi  tərəfindən icra edilməlidir və gəlin  tərəfion buna haqqı yoxdur. Lakin qadının və kişinin təbiət və xilqəti tələb edir ki, elçilik həmişə tərəfindən həyata keçirilsin. Bununla da qadının həysiyyyat və məhdudiyyəti ləkələnmir və bəy bir pərvanə kimi məşuqunun başına fırlanır. Çünki kişinin təbiətində istəmək və ehtiyacı təmin etmək mövcuddur. Lakin gəlinin zərif vücudu işvə və naz simvoludur. Bu qanun bütün canlılara o cümlədən heyvanlara da aid olduğu üçün erkək tərəf həmişə dişi tərəfə cəzb edilmiş və öz2ünü cəzb olunan tərəfin vurğunu və aşiqi kimi nümaiş etdirmişdir. Lakin dişi tərəf bu yoldan çəkinmək, işvə və naz etməklə aşiqin ürəyini ovlamış və həmişə onu arxasınca çəkmiş və sürünmümdür.

Həzrət İmam Baqirdən olan bir hədisdə qeyd edilir: «Mədinə əhlndən olan bir qadın Peyqəmbər hüzuruna gəlib ərz etdi: «Ya Peyqəmbər! Qaydaya görə qadın kişinin arxasınça düşməz. Lakin mən kimsəsiz bir qızam. Bu dünyada nə ərim var, nə də bir övladım. Əgər mənə bir ehtiyacınız olsa özümü sizə bağışlar və ixtiyarsızda olardım». Böyük Peyqəmbər ona dua edib dedi: «Allah-Təala sizi mükafatlandırsın. Sizin kişiləriniz mənə kömək etdi və qadınlarınızın mənə tamahı düşdü» Bu zaman «Tövbə» surəsinin 50-ci ayəsi nazil oldu: «Əgər imanlı bir qadın özünü Peyqəmbərə bağışlayırsa və Allahın Elçisinin evlənməyə meyli olsa heç bir manesi yoxdur. Lakin başqa adamların buna haqqı olmaz».

Əziz oxucu kördüyü kimi bu tarixi hekayətdə qadının kişiyə elçilik etməsi yaxşı hal kimi göstərilmir. Hərçənd ki, İsalam bunu rədd etmir.

### Elçilik zamanı diqqətli olun

Kişinin qadına elçi getməsi ailə səadətinə qovuşmağın birinci mərhələsidir. Oğlan və qız həmin anda qarşılıqlı həyatın əsasını qoyur.

Buna görə elçilik mərasimi hər cür bər-bəzəkdən uzaq olmalı, oğlan və qızın böyükləri və yaxud onların özü bir-birinin əxlaqının xüsusiyyətlərini öyrənməlidirlər. Bu mərasim kor-koranə və yaltaqcasına olmamalıdır. Həmin məsələyə olan maraq nə qədər dəqiq olarsa gözlənilməz təhlükə və gələcəkdə baş verə biləcək çətinlikləri aradan qaldırılar. Məsum İmamlarımız və xüsusilə Peyqəmbər haqqında bu bairədə maraqlı söhbət və məlumatlar mövcuddur. Həmin qısa söhbətlərdən bir neçəsinə nəzər salaq. Hədisddə deyilir ki, Peyqəmbər özünün və başqalarının evlənmə mərasimlərində çox ehtiyatla hərəkət edərdi. Özü tərəf müqabili tanımadığından əlavə bu məqsədlə ağıllı və zirək bir qadından da istifadə edirdi. Ona belə sifariş verirdi. Qadının boynunu iylə. Əgər onun boynunun iyi yaxşı olarsa o qadın ətirli və gözəl qoxulu olacaqdır. Həmçinin həmin qadının ayaqlarının üz hissəsinə diqqət yetir. Çünki ayağı həmin yerinin böyük və ətirli olması daxili və cinsi ləzzətlə bir başqa mütanasibli təşkil edir.

İmam Sadiqin digər hədisində oxuyuruq: «Bir şəxs o Həzrətdən soruşur: «Bir qadınla ailə qurmaq istəyən şəxs dərhal onunla təmasda olub və onun üzünə, arxasına baxa bilər?» Həzrət buyurdu: «Heç bir manesi yoxdur. Əgər onunla evlənmək qəsdi varsa, adı çəkilən yerlərə baxa bilər». Bu hədisdən başqa həmin məzmuna yaxın olan on hədis nəql edilib. Həmin hədislərdən də məlum olur: «Elçiliyi sadə bir hal kimi qiymətləndirməyin böyük dəqiqlik və zərifliklə bir-birinizin xüsusiyyətlərini öyrənin. Bu üsul hər iki tərəfin bəhanələrini kəsər. Bütün ömürləri boyu onlar bir-birinə etiraz edib bəhanə gətirə bilməzlər».

## Elçiliyə görə mükafat

İslamda evlənmək məsələsinə böyük əhəmiyyət verilir. Buna görə də ailə qurmaq və müqəddəs ocağa qovuşmaqğı imandan sonra bütün nemətlərdən üstün tutur. Elçilik müqəddəs və mühüm ailə həyatının başlanğıcı olduğu üçün ona ikiqat mükafat nəzərdə tutulur. Peyqəmbər bu xüsusda belə buyurur: «Hər kəs lazımi səylə iki nəfər - bəy və gəlini halal evlənməyə sövq edərsə, ulu Tanrı buna mükafat olaraq həmin şəxsi behiştin huriləri ilə evləndirər. Onun atdığı hər bir addım və danışdığı hər bir sözü bir illik ibadət kimi qəbul edər. Nə gözəl mükafatdır. İmam Sadiqdən (ə) olan bir hədisdə oxuyuruq: «İki pak qəlbi bir-birini

qovuşdurmaq üçün çalışan və iki subay cavanı tənhalığın əzab-əziyyətindən qurtaran hər kəsə Allah-Təala qiyamət günündə lütf və mərhəmət gözü ilə baxar!!!»

## Həzrət Əlinin Fatimənin elçiliyinə getməsi (Əlinin Fatiməni istəməsi)

Hicrətin ikinci ilində Bədr müharibəsi başlandı. Əlinin (ə) igidliyi və rəşadəti sayəsində bu müharibə İslam ordusunun qələbəsi ilə başa çatdı.

Peyqəmbər çox xoşhal idi. O Həzrətin əsabələri də bu sevinc və şadlığı onun mübarək çöhrəsində müşahidə edirdilər. Buna görə də bayram və toy mərasimləri başlanırdı. Bu tərəfdən də Həzrəti Fatimə (s) evlənmək yaşına çatmışdır. Onun on yaşı var idi. Hər bir kəs Peyqəmbərin kürəkəni və o misilsiz xanımın əri olmaq arzusunda idi. Ona görə də əshabələrdən və müxtəlif təbəqələrdən olan adamlar Peyqəmbərin evinə gəlib qızı Zəhranı istəyirdilər. O böyük və zəmətli Peyqəmbərin bütün elçilərə bir cavabı var idi. O da bu idi ki, Fatimənin əmri Allahın əlindədir. Hədis və tarix kitablarının yazdığına görə əhli-sünnət, birinci və ikinci xəlifələr də böyük xahiş və minnətlə Zəhrayi-Mərziyyəni istəmək məqsədi ilə Peyqəmbərin mənzilinə gəlmiş və özlərini tariflədikdən sonra Peyqəmbərdən yalnız bir cavb almışlar. Həmin cavbı onlar artıq eşitmişdilər. Buna görə də həmin şəxslər Müttəqilər Mövlası Əmirəl-möminin hüzuruna gəlib ona dedilər: «Ya Əli! Peyqəmbər Fatimə ilə evlənmək istəyənlərin hamısı hamısını məyus etmişdir. Deyəsən onun nəzərində sənsən. Yaxşı olar ki, sən də Fatimeyi-Zəhranın elçiliyinə gedəsən. İbn Malikin nəql etdiyi hədisdə deyilir: «Mən Peyqəmbərin yanında idim. Birdən vəhy mələyi nazil oldu, Həzrətin əhvalı qarışdı. O, gözlərini acan kimi bururdu: «Ey Ənəs, sənsən bilirsən Cəbrail nə üçün gəlmişdir». Dedim: «Atam-anaam sənə qurban nə olmuşdur?» O belə buyurdu: «Allah-Təala məni vəkil edib ki, Fatiməni Əliyə kəbinləyim. Elə bu saat Əbu Bəkr, Ömər, Osman, Təlhə və Zübeyri və Ənsardan bir hissəni çağır gəlsinlər. Onlar Peyqəmbərin huzurunda hazır olduqdan sonra Həzrət məcaranı onlara danışdı. Bu işdən çox seviniyini bildirdi. Sonra Əlinin dalınca adam göndərib hüzuruna çağırtdırdı. Əli onun hüzurunda hazır oln kimi Peyqəmbər gülümsəyərək Cəbrailin gəlişinin səbəbini (Fatimə ilə evlənməsini) ona söylədi».

## Nurun Nura qovuşması

Təkrar edilən sünni və şiə hədislərindən deyilir ki, Əli və Fatimənin həqiqi evlənməyi Allah-Təala tərəfindən olubdur. Cəbrail bu Nurun-Nura qovuşması xəbərini Peyqəmbərə çatdıraraq və o Həzrətə elan etdi: «Mən Nurun-Nura qovuşub evlənməsinə məmur edilmişəm. Onlar Əli və Fatimədir. Bəli iki məsum (Əli və Fatimə) qəlblərinin qovuşması ilahi bir qovuşma idi». Bu bairədə Peyqəmbər belə demişdir: «Əli olmasaydı Adəmin vaxtından bəri Fatiməyə laiq ər tapılmayacaqdır». Peyqəmbər Fatiməni istəyən bütün şəxslərin qarşısında elan etdi: «Mən sizin kimi Allahın bəndəsiyəm. Sizlərdən arvad alır və sizlərə qız verirəm. Lakin Fatimənin evlənmək talehinin hökm Allahın əlindədir. Onun evlənmə mərasimi göylərdə icra olunacaq».

Bütün bu sözlər Əlinin qulağına çatdı. İlahi əmr də ona elan edildi. Lakin zahiri olarqa müsalman adəti ilə elcilik və evlənməmərasimi yerinə yetirməli idi. Buna görə də Əmirəl-möminin Peyqəmbərin evinə yola düşdü. Evə çatıb bir küncdə əyləşdi. Onun ürək istəkləri böyük Peyqəmbərə əyan olundu. Allahın Rəsulu buyurur: «Ya Əli, deyəsən nə isə demək istəyirsən? Fatiməni almaq istəyirsən. Əlbəttə bilməlisən ki, bir çoxları bu haqda mənə müraciət ediblər və mənfi cavab alıb tənə vurublar. Lakin sən narahat olma, mən bu saat Zəhranın yanına gedib sən tərəfdən onunla danışaram».

Peyqəmbər, qızı Fatimənin otağına daxil olub və Əlinin sifarişinin ona çatdırdı. Başqa elçilərin təklifinə etiraz əlaməti olaraq üzünü çevirən Fatimə bu dəfə bir söz demədi. Razılıq əlaməti olaraq susdu. Əziz Peyqəmbər təkbir deyərək Fatimənin yanından çıxdı. Qızının razı olduğunu elan etdi. Şəriət qanunu və Yaradanın hökmü ilə iki nurun evlənməyi həyata keçdi.

Müttəqilərin mövlasının üstün cəhətlərindən biri də artdı. Heç kəs bu həqiqəti inkar edə bilmədi. Həzrət Əli və Fatiməyi-Zəhranın evlənməyi Peyqəmbər böyük iftixarlarından sayırdılar.

Bu hədisdən belə nəticəyə gəlmək lazımdır ki, elçilik zamanı pis adətlərdən uzaq olub bu işi sədaqət, mehribançılıq və dostcasına yerinə yetirimək lazımdır. Elə etmək lazımdır ki, tərəflər bir-birini başa düşüb hörmətlə yanaşsınlar.

## Evlənmək hansı yaşda münasibdir?

Müqəddəs ailə qurmaq və ona qovuşmaq səadəti o dərəcədə İslamın diqqət mərkəzindədir ki, heç bir ictimai və bəşəri mövzu bu qədər əhəmiyyət kəsb etmir.

Peyqəmbər valideyinlərinin diqqətinə çatdırır ki, övladlarının cinsi problemlərini başa düşsün və özlərinin də bir zamanlar belə böhran icərisində olduğunu unutmasınlar.

Bu güdrətli gücün qarşısında (cinsi böhran nəzərdə tutulur) necə aciz və şətinlik çəkdiklərini yada salsınlar. Bu bairədə deyilir: «Əgər övlad evlənmək yaşına çatır və ailə başçısı onu evləndirmək imkanına mailkdirsə, ancaq səhlənkarlıq edərsə və bunun nəticəsində övlad günah işlədirsə, ailə başçısı da o günaha şərik olur».

Bəli, İslam qayda-qanunu təkid edir ki, övladlarınızı ilk münasib fürsət düşən kimi evləndirin. Onların pis yola düşməsinin, əzab-əziyyətə düçar olmasının qarşısını alın. Həzrət İmam Sadiq (ə) buyurur: «Kişinin xoşbəxtliyindən biri də odur ki, onun qızı aybaşı olmamış ər evinə köçürülsün və şirin ailə həyatı başlasın».

Peyqəmbərdən olan müfəssəl hədisdə deyilir: «Ey insanlar, bu gün nagahan Cəbrail nazil olub Allahın buyuruğunu mənə belə çatdırdı: «Bilin ki, oğlanlar və qızlar meyvə ağaclarının ləzzətli və ətirli meyvələri kimidirlər. Onları yetişən vaxtı yığıb istifadə etmək lazımdır. Yoxsa onlar isti günəşin və soyuq küləklərin qarşısında davam gətirə bilməz və torpağa tökülərlər. Zaman keçdikcə çürüyər və istifadəsiz olarlar».

Ey kişilər (adamlar), ayıq olun, qızlarınızı həddi-buluğaçatan vaxtı ərə verin və bilin ki, onlartın ərə getməkdən savayı başqa çarəsi yoxdur. Yoxsa onlar əzab və fəsaddan qurtara bilməyəcəklər. Çünki onlar da bəşərdilər (canlı varlıq), cinsi böhrana duçar olurlar.

## İZDİVAC VƏ TƏLAQ MƏSƏLƏSİNDƏ VASİTƏÇİLİK

Tərəflər arasında izdivac işində buna şərait yaratmaq və razılıq əldə etmək məsələsində vasitəçilik etmək müstəhəbbdir.

1. Həsən ibn Salem deyir: «Həzrət ibn Musa Cəfər (ə) yazdığı məktubda bibisindən xaiş etdi ki, səndən olan filan malı (şeyi)

Mühəmməd ibn Cəfərin əyanlının mehriyyəsinə kömək üçün göndər». Məktubu həmin xanıma təqdim edən kimi oxudu və dərhal o malı mənə verdi.

Məktubun mətni belə idi: «Qiyamət günü Pərvərdigarın elə bir kölgəsi vardır ki, Peyqəmbərdən, onun hamisindən, ya mömin bir qulu azad edən, ya bir mömin bəndənin borcunu ödəyən, ya qadını olmayan birv mömini evləndirən şəxslərdən başqa heç kəs ondan faydalana bilməz».

2. İmam Sadiq (ə) Əhvaz hakimi Nəcaşiyə yazdı: «Hər kəs özünün mömin qardaşını, tənhalığının munusi, həyatının köməkçisi və rahatlığının əsas olan bir qadınla evləndirsə, Allah ona bir behişt hurisi əta edəcək və onu çox sevdiyi Peyqəmbərin pak əhli-beyti və onunmömin qardaşları şəxslərlə munis edəcək və onlarla dostlaşdıracaqdır».

3. Əli (ə) buyurmuşdur: «Ən böyük oğurluq hökmdarın dilini oğurlamaqdır (yəni, kimsə onun sözündən öz xeyrinə istifadə edir), ən böyük günh müsalmanın malına təcavuz etmək və ən yaxşı vasitəçilik evlənmək məsələsindəki vasitəçilikdir».

4. Yenə İmam Sadiq (ə) buyurub: «Qiyamət günü dörd qisim adam Pərvərdigarın diqqət mərkəzindədir: 1. Peşman olub aldığın malı geri qaytarsan; 2. Bir ürəkdən kədəri silən; 3. Bir qulu azad edən; 4. Bir subayı evləndirən kəslər».

5. Yeddinci İmam (ə) buyurub: «Qiyamət günü ərşin pənahında başqa başının üstündə heç bir kölgə olmayan üç qisim şəxs ilahi asimanın altındadır: 1. Müsalman qardaşını evləndirən kəs; 2. Onun üçün bir xidmətçi tapan; 3. Qardaşının sirrini faş etməyən şəxs».

6. Peyqəmbər (s) buyurmuşdur: «Ər-arvadı bir-birindən ayıran kəs bu dünyada və axirətdə Allahın qəzəbinə və lənətinə düçar olar».

## İzdivaca vasitəçilik etməyin fəziləti

Həzrət Rəsuli-Əkrəm (s) buyurur: «Hər kəs öz vəsaiti ilə bir subay şəxsi evləndirsə, qiyamət günü Allah-Təal ona rəhəm gözü ilə baxacaq».

Həzrət Əli (ə) buyurur: «Ən yaxşı vasitəçilik və xeyiriyyəçilik odur ki, öz səy və çalışqanlığınla iki nəfərin xoşbəxt ailə qurmağa səbəb olasan».

Yuxarıda oxuduğumuz bu kimi hədislər, xüsusi ilə gənc nəslin ailə quruculuğuna səy göstərən və kömək edən insanlara verilən qiymət və mükafatların nümunələridir. Digər hədislərdə həmçinin varid olub ki, bu cür xeyirxah insanların qisməti – behiştin əla mərtəbələri («Bərin», «Firdovs») olacaq, onlar Peyqəmbər və övliya ilə həmnişin və həmsphbət olacaqlar. Eyni zamanda o kəslər ki, iki nəfərin ayrılığına, bədbəxçiliyinə bais olacaq dünya və axirətdə üzləri qara, lənət və nifrətə layiq olacaqlar. Necə ki, Rəsuli-Əkrəm hədisi şərifində buyurur: «Hər kəs, ərlə-arvad arasında təfriqəyə, ayrılığa səbəb olarsa o adam, dünya və axirətdə Allahın qəzəbinə və lənətinə gəlsin».

Bəzi nanəcib adamların bəd niyyətləri o qədər xətərli olur ki, cavan və təcrübəsiz ailə başçılarını yoldan çıxardır və onları talaq verməyə, ayrılmağa təhrik edirlər və bəzən öz çirkin niyyətlərinə nail olurlar, bununla da özlərinə Allahın qəzəbini və cəhənnəm atəşini qazanmış olurlar. Bu cür ikiüzlü, riyakar adamlar əslində insan cildində girmiş canavarlardır.

Buna münasib bir rəvayəti istəyirik siz əziz oxucuların nəzəri-mübarəkinə çatdıraq:

Əliyyibn-Yəqtin, İmam Museyi Kazımin (ə) xas şiələrindən biri idi və İmamın icazəsi ilə Xəlifə Harun-ər-Rəşidin sarayında vəzirliyi öz öhdəsinə götürmüşdü.

Bir gün İbrahim Cəmmal adında bir nəfər miskin və fəqir şəxs ehtiyac üzündən onun qapısına pənah gətirdi və öz məqsədini ona söylədi, lakin bir fayda hasil olmadı. Günlər, aylar ötdü, həcc mərasimi yaxınlaşdı. Əliyyibn-Yəqtin Allah evini ziyarət etmək və mövlası İmam Museyi Kazımin görmək məqsədi ilə Bağdaddan Mədinəyə gəldi və İmamın hüzurunda şərəfyab oldu. Amma İmam da öz evinin qapısını onun üzünə açmır, Əliyyibn-Yəqtin kor-peşman bir halda küçədə sərgərdan qalır. Ocəhətdən ki, Əli İbrahimin üzünə qapını bağladı, İmam da öz evində ona yer vermədi və ona buyurdu: «Allah əməlını qəbul etməz, o vaxtadək ki, İbrahimi özündən razı salasan».

Əliyyibn-Yəqtin məyus və peşman bir halda Küfəyə qayıdır və durmadan İbrahimin evinə gedir və ona belə söylədi: «Öz ayaqlarını mənim üzümə qoy, ta ki, mən bir də belə bir xətaya yol verməyim, məhrum və sitəmdidələri bir də öz qapımdan məyus və əliboş geri qaytarmayım». Əlbəttə, İbrahim bu işi görməkdən boyun qaçırdı, lakin

Əlinin təkidi ilə məcbur olub (tozlu) ayağını onun üzünə sürtdü. Onda Əli üzünü Allahın dərgahına tutub dedi: «İllahi, özün şahid ol!» İbrahimi özündən razı salandan sonra dübarə Mədinəyə qayıtdı və İmamın qürbi mənzilətində hörmət və etirama çatdı.

Hərçənd ki, bu rəvayətin izdivac bir o qədər də aidiyyəti yoxdur. Lakin ehtiyacı olan kəsləri qapıdan naümüd yola salmağın acı nəticələrinin və sonradan insan öz əməlindən peşman olub səhvini düzəldərsə Allahın rizasını, İmamın hörmət və ehtiramını qazanırsa, həyatda yaxşılıq etməyin, xeyirxahlığın insan üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyinin bir daha şahidi oluruq.

## İzdivaca dair hakim qüvvələrin rolu və məsuliyyət

Islam hökumət qurluşu hansı ki, bünövrəsi Peyqəmbər-Əkrəm (s) və əimmeyi-əthadan vücuda gəlib və inda əlimiz daha onlara çatmır, gərəkdir ki, hökümət idarələrinə millətin ləyaqətli və görkəmli nümayəndələri rəhbərlik etsinlər. Gərək ki, onlar rəiyyətlə olduqca mehriban davransınlar. Fəqir, miskin insanların ehtiyavından xəbər tutub onlara bir ata kimi qayğı göstərsinlər ta ki, məsum İmamlarımızın tutduqlarıyol ilə gedib həm Allahın rizasını qazansınlar, həm də ki, el-oba arasında hörmət və ehtirama çatsınlar, ictimaiyyət içərisində əmin-amanlığa nail olsunlar.

Rəsuli-Xuda bu xüsuda öz hədisi-şərifində buyurur: «Ali, insani sifətlərə malik olmayan heç bir kəsə rəhbərlik caiz deyil. Yalnız insanlara ata kimi mehriban, təəssübkeş və fədakar olan şəxslər rəhbər kimi məsul və şərəfli bir ada laiqdirlər» («Üsul-kafi» c-1, s. 407)

Ağa Əmirəl-möminin (ə) Malik Əştər yazdığı naməsində buyurdu: «Görək insanlara qarşı olduqca həssas, ata qədər qayğıkeş və mehriban olasan. Onların bir ehtiyacları varsa, çalış hacətlərini rəva eylə, bir çətinliyə düşüblərsə, dərdlərinə çarə qıl».

Digər bir naməsində Həzrət buyurur: «Aya, rəvadırmı ki, xalq mənə «Əmirəl-möminin» deyə müraciət etsin, mən isə onların sosial vəziyyətləri ilə maraqlanıb dərdlərinə çarə etməyim?»

İslam Peyqəmbər Rəsuli-Xuda (s) və cənab Əmirəl-möminin Əli (ə) xalqa rəhbərlik haqqında bu dəyərli kəlamlarını oxuyarkən belə nəticəyə gəlmək olar ki, İslam ölkəsində rəhbərlik insandan olduqca böyük

məsuliyyət tələb edir. Görək hökümət rəhbərləri çalışsınlar ki, imkan dairəsində xalqın təlabatını ödəsin və onların dərd-sərinə şərik olsunlar, məxsusən gənclərin əxlaqına və ailə quruculuğuna diqqətlə yanaşsınlar.

İmam Sadiq (ə) buyurub: «İstimnayə mürtəkib olan bir nəfəri Həzrət Əmirəl-möminin (ə) hüzuruna gətirdilər. Həzrət vəziyyətdən agah olduqdan sonra İslam hökmlərin icrasına müvafiq sürətdə onu cəzalandırdı və daha sonra beytul-maldan izdivaca əncam verə biləcək miqdarda pul ayırıb onu evləndirir».

Əgər bu hədisin fərqinə varsaq görərik ki, cənab Əmirəl-möminin həmin cavan oğlana ailə qurmaqla onu günaha batmaqdan, pis yola düşməkdən xilas etdi.

İslam rəhbəri əziz Peyqəmbərimiz özü dəfələrlə izdivaca ehtiyacları olan, lakin buna imkanları çatmayan insanlara ailə qurmuş və onlara əlindən gələn köməkliyi göstərmişdir.

Idivacla bağlı tarixi, həm də İslami bir hadisəni qısa şəkildə sizin diqqətinizə çatdırırıq:

İslamıyyətin ilk dövrlərində Mədinə şəhərində fəqir, naçar insanların ev-eşilkəri yox idi. Onlar şəhərin bir kənarında çadır qurub orda yaşayırdılar. Bunlar «suffə» əhli adı ilə tarixdə məşhurdurlar və Quranın «Bəqərə» surəsinin 273-cü ayəsini Xudayi-izzüvəcəll onların şəninə ayə nazil etmişdir.

Bir gün Rəsuli-Xuda (s) baş çəkmək üçün bu hünərpərvər insanların yanına gəlir.

Bunların arasında Cüveybir adında, zahiri görkəmi çox eybəcər olan və tək yaşayan bir əsgər də olur. Peyqəmbər (s) onunla salamlaşıd hal-əhval tutub, ona evlənməyi tövsiyə edir. Subay qalmağının səbəbini ondan soruşanda o deyir: «Ya Rəsuləllah, mən fəqir bir adamam, malım-dövlətim yox, zahirigörkəmim yox, mənə kim qız verər». Rəsuli-Xuda Cüveybirin bu sözlərindən mütəssir olur. Peyqəmbər (s) Ziyad ibn Lubeyd adında bir nəfərin evinə elçiliyə gəlir və Ziyad öz gözəl qızı Zülfanı Peyqəmbər (s) məsləhəti ilə Cüveybirə ərə verir və onlar xoşbəxt bir ailə həyatı qurub ömürlərini səadətlə başa vururlar.

Bununla bir daha biz İslami hökümətin və onun rəhbərinin izdivac məsələsinə nə qədər diqqət və məsuliyyələ yanaşdığının və ehtiyacı olanlara qayğıkeş bir ata kimi imkan yaratdıqlarının şahidi oluruq.

## «Xeyir işə» tələsmək

Xulavəndi-Mütəal mənafeyinə xidmət edən bir çox xüsusiyyətləri cəmləşdirmişdir. Bu xüsusiyyətlərdən biri «özünü istəmək», «özünü bəyənmək»dir ki, onun vasitəsi ilə öz mənafeyini qoruyur və özü üçün zərərli hesab edən amillərdən uzaq olmağa çalışır. Maddi mənafeyi güdmək insan üçün asan və cəlbedici olduğuna görə o sahəyə daha çox rəğbət bəsləyir və meyl göstərir. Mənəvi və uxrəvi mənafeyə gəldikdə isə bu sahə insanlar üçün bir vo qədər də aydın olmadığına görə onlar bu kimi məsələlərə bir o qədər də əhəmiyyət vermir və ona laqeyd münasibət göstərirlər.

Müqəddəs İslam dini, Qurani-şərif insan mənəviyyatında olan bu kimi çatəşmamazlığı və nöqsanı aradan götürmək üçün insanları ayıq-sayıq olmağa çağırır və mənəvi mənafeylərini qorumağa və zənginləşdirməyə çalışır.

Qurani-şərif «Ali-İmran» surəsinin 133-cü ayəsində buyurur: «Tələsin Rəbbinizin məğfirətinə yaxşı əməllərinizlə aqibətinizi də xeyirli və uyurlu edin».

Gördüyünüz kimi bu ayədə Allah-Təala insanları axirətdə şəfaətə və məğfirətə nail olmaq üçün xeyir işlər görməyə sövq edir və tələsdirir. Buna görə də irfan sahibləri bilirlər ki, insanların ali və şərəfli vəzifələrindən biri ailə quruculuğu kimi müqəddəs bir işdir, onun üçün də xalqı bu cür xeyirli bir işə təhrik edir və tələsməyə məsləhət bilirlər. Təsadufi deyil ki, el arasında deyərlər: «Xeyir işi təxirə salmq olmaz».

İmam Sadiq (ə) buyurur: «Mömin insanın səadəti üçün necə amil mövcududdur: 1. Geniş ev-eşik; 2. Xoş xislətli qadın və saleh övlad».

Bu hədisin bəyanında görürük ki, qızları münasib fürsət düşən kimi xeyir-dua verib, təzvic etmək lazımdır. Bu həm özlərinin, həm də valideyinlərinin xeyrinədir. Çünki izdivac həddinə çatan qız evdə qaldıqca bir sıra problemlər ortaya çıxır, vaxt ötdükcə onların üzərində valideyinlərin nəzarəti və məsuliyyəti artır, onların dərd-səri başqa problemləri üstəliyir. Eyni zamanda ailədə təşviş və nigarançılıq artır, tərəddüd və şübhə, bəzən bədbinliyə də gətirib çıxarır. Belə hallarda həya və isməti qorumaq istər valideyn, istərsə də qızlar üçün səbir və təmkin tələb edir.

## Valideyinlərin vəzifələri

Doğrudur, bu mulahizələr və söhbətlər bir o qədər də gönül oxşayan deyil, lakin həyat həqiqətləridir. Ona görə də qızı olan hər bir valideyn istər ata, istərsə də ana olsun, gərək qızının lap erkən yaşlarından təlim tərbiyəsi ilə ciddi məşğul olsun, onu gələcək ailə həyatı üçün hazırlaşdırsın, izdivac həddinə yetişəndə onu ərə verməyə tələssin. İstər qız, istərsə də oğlan izdivac həddinə çatan kimi onların ailə məsələləri ilə ciddi məşğul olmaq lazımdır. Lakin qızlar gələcək nəslin analarıdır və gənc nəsil onların qoynunda tərbiyə alır. Həmin qızlar bir növ cəmiyyətin mürəbbiləri və pərvəriş verənləri olurlar. Eyni zamanda ictimaiyyətin yarısından çoxunu təşkil etdiklərindən qızların erkən yaşlarından gərək ata-ana tərbiyələri və əxlaqı ilə ciddi məşğul olsunlar.

Nəzərə alınmalıdır ki, qızlar (təbii qanunlara müvafiq sürətdə) oğlanlara nisbətən daha tez həddi-buluğa yetişirlər, şəhvət hissi də onlarda tez oyanır və oğlanlara nisbətən qat-qat güclü olur. Lakin eyni zamanda həya və iffət hissi də onlarda daha artıq olduğundan öz cinsi xüsusiyyətlərinə nəzarət edir və pərdə çəkirlər. Bu səbəbdən də izdivaca tələsmək və meyl göstərməmək kimi zahiri əlamətlər aşkara çıxır və əgər (Allah eləməsin) bu həya-abır üzündən götürülsə onda fəsad və rusvayçılığına səbəb olar, cəmiyyətin əxlaqına və mənəviyyatına böyük ziyan dəyə bilər.

İnsan əxlaqına və mədəniyyətinə zidd olan belə nalayiq hərəkətlərin qeyri-İslami ölkələrdə xüsusi ilə qərb ölkələrində inkişaf edib geniş qol-qanad açdığının şahidi oluruq, lakin çox təəssüflə qeyd etmək lazımdır ki, bu zərərli hal İslam ölkələrində də yayılmaqdadır ki, buna heç bir vəch ilə yol vermək olmaz, əks təqdirdə İslam milləti böyük fəlakət və ictimai bəlalarla üzləşə bilər.

## IZDIVAC-İMAN VƏ ƏXLAQ ƏSASINDA

Əgər bu kişinin qismətində xoşxislət, ləyaqətli bir qadın düşürsə, o kişi üçün bundan böyük və gözəl ilahi nemət ola bilməz. Bu nemət ailə səadəti, övlad tərbiyəsi, xoş güzaran və əhvali-ruhiyyə üçün ən mühüm atributdur.

Bunu da yadda saxlamaq lazımdır ki, evlənmək, ailə qurmaq, ev tikmək, onu təmir etmək və ya lazım gəldikdə o evi dəyişmək kimi sadə bir məsələ deyil və yaxud gözəl bir rəsm əsəri deyil ki, o mənzərəyə tamaşa etməklə kifayətlənəsən. Kişi qadın ilə evlənərkən ömürlük olaraq birgə həyat yaşamaq nəzərdə tutulur. Kişi ev işlərini, ailə büdcəsini və övlad tərbiyyəsini ona etibar edir, ev bütünlüklə demək olar onun ixtiyarında olur. Onun üçün də izdivaca girməzdən əvvəl ciddi surətdə düşünməli, Allaha pənah aparmalı, ondan kömək diləməlidir ki, ona saleh və ləyaqətli ömür-gün yoldaşı nəsib eləsin. Əvvəlcə valideyinlərlə və ya aqil, ağsaqqal və dindar adamlarla məsləhətləşib evlənmək yaxşıdır, nəinki zahiri əlamətlərə uyub, şəhvani hisslərinin əsiri olmaq. Çünki qadının isməti, əxlaqı, ailə üzvləri ilə davranma qabiliyyəti və evdarlıq bacarığı və Allaha yaxın olmağı bütün gözəlliklərin fövqündə durur.

Bir nəfər dindar şəxs nəql edir ki, izdivac həddinə çatmış bir qızı vardı, onun münasib bir kişiyə ərə verməkdən ötrü çox təlaş və həyacan keçirirdi.

Beləliklə də izdivacdan ötrü ən ümdə şərt həyat yoldaşının ləyaqəti, mərifət, əxlaqı və dinəolan münasibəti əsas götürülür.

İmam Baqir (ə) buyurur: «Bir nəfər Həzrət Rəsuli-Əkrəmin huzuruna təşvif gətirdi və izdivac məqsədi ilə ondan xeyir-dua və məsləhət istədi. İslam Peyqəmbəri ona buyurdu: «Əgər evlənmək istəyirsənsə təqva və dəyanət olan bir qızla evlən».

## Maddi imkan və şəhvət əsasında izdivac

Var-dövlətə, həvayi-həvəsə uyub evlənməyin aqibəti çox zaman bədbəxtçilik və peşmançılıqla nəticələnir. Çünki bi qəbildən olan izdivac qeyri-məntiqi və möhkəm, etibarlı zəncirlə bağlanmadığından cüzi bir təsir nəticəsində qırılıb dağıla bilər.

Sərvətə sahib olan bir qadın əgər lazımi keyfiyyətlərə malik olmasa, öz mal-dövlətini hər an ərinin gözünə soxacaq, ona əzəb-əziyyət verəcək. Bu böyük ixtilaf, hətta mümkündür ki, ailənin dağılmağına səbəb olsun.

Həmçinin zahirən gözəl və yaraşıqlı qadın əgər təqva sahibi olmayıb ismətini qorumasa, onda əyyaş və fasid adamların təsiri altına düşər, onların əlində oyuncağa dönər və nəticədə öz ərini bir sıra fəlakət və çətinliklərlə qarşı-qarşıya qoyar. Amma əxlaqlı, imanlı və isməрli qadınla

evlənməyin nəticəsi səadət və əmin-amanlıq olar. Bu cür qadınlar öz ərləri ilə mehriban olar, onun işlərinə kömək edər və öz övladlarına da gözəl tərbiyə verər. Həmçinin öz ərinin qazancını nəyə gəldi məsrəf etməz, ondan qənaətlə və səmərəli istifadə edər. Nə vaxtsa ailədə maddi və s. çətinliklər ortaya çıxsa, onda səbir və təmkinlə işinə əncam verər. Çünki əvvəlcədən də qeyd etdiyimiz kimi İslamda izdivac, şəhvət və sərvət arasında deyil. Allah rizasına və onun hökmünə əncam verməkdən ötrü olmamalıdır.

Bəni-İsrail zamanı bir nəfər müqəddəs və imanlı şəxsə yuxuda ilham oldu ki, «sənin üç hacətin müstəhəbdir. Allahdan hansını istəsən verəcək». Kişi evli olduğundan bu yuxunu öz arvadına da danışır. Arvadı çox xaiş edir ki, onunçün Allahdan gözəllik istəsin. Elə bir gözəllik varsin ki, o əsdə ondan gözəl bir qadın olmasın. Kişi Allaha dua edib öz arvadının gözəl olmağını istəyir və Allah da onun hacətini verir. Həqiqətəndə qadın çox gözəl bir şəklədüşür. Onda elə bir gözəllik peyda olur ki, hamının gözü qadında qalır. İkanlı adamalar pul və qızılla yol tapıb qadını yoldan çıxarırlar. Qadın artıq ərini saymır, onunla kobud və amansızolur. Aravdının bu nalaiq hərəkətlərinin şahidi olan kişi vaxtından əvvəl qocalır, qəm-qüssəyə düçar olur. Qadının bu əxlaqsız işlərdən əl çəkməyəcəyini görən kişi arvadı lənətləyir və nifrin edir. Nəticədə arvad nə inki gözəlliyini itirir, hətta insan sifətindən dönüb it şəkilinə düşür.

Belə olduqda bu arvadın uşaqları da camaaat tərəfindən təhqirə məruz qalırlar. Qonşu uşaqları onları incidir və lağ edirlər. Buna dğzməyən uşaqlar öz atasının yanına gəlir və yalvarıb-yaxarırlar ki, Allaha dua etsin ta ki, anaları öz əvvəlki halına qayıtsın. Bu kişinin üçüncü və həm də axırıncı hacəti idi ki, Allahdan nə istəsəydi verəcəkdi. Lakin kişinin ürəyi təmiz və rəhimli olduğundan öz uşaqlarına yazığı gəlir və onların mətləbini Allahdan diləyir və arvad öz əvvəlki halına qayıdır.

Bu əhvalatdan belə nəticəyə gəlmək olar ki, gözəlliyə və sərvətə uyub izdivaca girmək əgər özündə təqva, əxlaq və dəyanət kimi keyfiyyətləri daşımasa onda şübhə yox ki, bu cür ailə tez bir müddətdə tənəzzülə uğrayar və peşmançılıqla nəticələnər.

## Həyat yoldaşı secməkdə ehtiyatlı olmaq

İslam dini evlənərkən qız seçməkdə olduqca ehtiyatlı və məsuliyyətli olmağı məsləhət bilir. Çünki kişinin qadınla əqdi oxunduğu anda etibarən onlar bir-biri ilə sanki zəncirlə bağlanmış olurlar. Bu zəncirin nə dərəcədə möhkəm olub-olmamağıa tam əmin olmadan ailə qurmaq öz bəhrəsini verməz.

Həzrət Rəsul (s) buyurur: «Qızın valideyinləri bilməlidirlər ki, ərə verməklə qızını kmin ixtiyarına qoyurlar. Həmçinin oğlanın da atası izdivacdan qabaq düşünüb-daşınmalıdır ki, öz oğlunu kim ilə və kimlərin qızı ilə evləndirir».

## Həyat yoldaşı secməkdə müşahidə və təhqiqat aparmaq

Uzun illərin təcrübəsi və məsum İmamlarımızın fərmayişinə binaən görünür ki, izdivacdan əvvəl həyat yoldaşının zahiri və batini aləmi ilə dərindən tanış olub sonra evlənənlərin ailə həyatı xeyirli və rizayətbəxş olur. Əlbəttə, bu işdə həddən ziyadə vasvasılıq da istənilən nəticəni verməz.

Əvvəlcə qızın zahiri görkəminə baxmaq, onu dindirmək İslami cəhətdən zəruri sayılır. İmamlar və müctəhidlərin, dinin görkəmli xadimlərinin də bu barədə dəqiq fitvaları və göstərişləri var.

İmam Sadiq (ə) buyurur: «Əgər sizlrdən hər hansı biriniz evlənmək fikrinə düşsə lazımi qaydada təhqiqat aparsın, saçının ətri, rəngi və hətta forması ilə maraqlansın, çünki qadının gözəlliyinin tən yarısı onun saçı ilə əlaqəli olur».

İslam Peyqəmbəri Rəsuli-Əkrəmin və məsum İmamlarımızın biz müsalmanlara ciddi tapşırıqları və göstərişləri var ki, övladlarımızın izdivac məsələsinə olduqca ciddi və məsuliyyətlə yanaşaq, onlara ailə qurmazdan əvvəl necə deyərlər yüz ölçüb, bir biçmək lazımdır ki, cavan, sərbəst həyata yeni qədəm qoyan balalarımız mənəvi cəhətdən ömürlük olaraq şikəst və bədbəxt olmasınlar.

## Zahiri əlamətlər

İzdivacın əsas hədəflərindən biri cinsi ehtiyacın təmin olunması, qadınla kişi arasında ruhi asyişin bərqərar olmasıdır. Nə qədər kişi və qadın təqva, dəyanət və s. müsbət keyfiyyətləri ilə bir-birinə uyuşur,

xasiyyətcə bir-irini bəyənirlərsə, zahiri cəhətdən də bir-birinə münasib və uyğun olmalıdır. Bir sözlə, kişi qadın üçün «ideal ər» qadın kişi üçün «ideal qadın» olub-olmamaqlarını özləri müəyyənləşdirməlidirlər.

Bu bairədə məsum İmamlarımızın hədislərində faydalı məsləhətlər və göstərişlər var.

Həzrət Əli (ə) buyurur: «Orta boylu, qarabuğdayı, iri gözlü və mütanasib bədəni olan bir qızla evlənin. Əgər belə izdivacdan peşman olsanız, mehriyyə üçün verdiyiniz pulu ödəməyə hazıram».

Rəsuli-Xuda (s) buyurur: «Gözləri göy və ya yaşıl olan qızlarla evlənin, onlarda xeyir-bərəkət var».

Həzrət Əli (ə) buyurur: «Özü gözəl, yaraşıqlı və əndamı mütanasib olmaq qız üçün ilk xoşbəxtlikdir».

İmam Rza (ə) buyurur: «Kişinin xoşbəxtliyinin nişanələrindən biri budur ki, arvadı gözəl və ağ bədənli olsun».

Bu hədisin mahiyyətinə diqqət yetirdikdə gördük ki, məsum İmamlarımızın və İslam Peyqəmbər (s) qızların digər indivudual xüsusiyyətləri ilə yanaşı, zahiri gözəlliklərini də yüksək qiymətləndirir və bu nişanələri kişinin, həm də qadının özü üçün xoşbəxtliyə yetməyin, xeyir-bərəkətə nail olmağın əsas amilləri kimi səciyyələndirirlər.

## Qadınların evdarlıq qabiliyyəti

Müqəddəs İslam dinində gənc ailə quruculuğunda qadınınrolunu yüksək qiymətləndirir, qadının əri, qaynata-qaynana və yeni qoohumlaerı ilə münasibəti, səliqə-səhmanı, təmizkarlığı, aşpazlığı, həyalı-ismətli olması, evin daxiliişlərinə nəzarət etmək və onu idarə qabiliyyəti, övlad tərbiyyəsi və s. bu kimi müsbət keyfiyyətləriailənin möhkəm bünövrə üzərində qurulması və uzunömürlü olması üçün əsas amillərdən sayılır.

İmam Sadiq (ə) evdar qadının keyfiyyətlərindən bəhs edərək buyurur: «Sizin qadınlarınızın ən yaxşısı odur k, xoş qoxulu və ətirli olsun. Evin həm dəyanətli xanımı, həm də onda aşpazlıq məharəti olsun. Qonaqlarla, qonşularla və qohumlarla münasibətində səmimi və xoşrəftarolsun. Bihudə yerı pul xərcləməkdən və israfçılıqdan çəkinsin. Əgər belə olarsa qoy o qadınlar bilsinlər ki, heç vaxt ziyan çəkməzlər və peşman olmazlar, bəlkə də Allahın rizayətini qazanmış olarlar».

Əlbətdə, onu da etiraf etmək lazımdır ki, bütün bu gözəl sifətlərə malik bir ideal qadın əvvəlcədən soraq edib tapmaq özü müşgül bir məsələdir, lakin bunları fərqinə almayıb qadınla nigah bağlayan kəs sonrakı dözülməz və məşəqqətli həyatı təsəvverə gətirə bilsə, rlə bilərik ki, evlənmək niyyətində olan hər hansı bir şəxs özünü öz taleyinin ixtiyarına buraxmaz.

## Ünsiyyət və rahatlıq

İsanın təbii xüsusiyyətlərindən və ehtiyaclarından biri ünsiyyət, mehribançılıq və dostluqdur. Təklikdə yaşamaq çox ağır və cansıxıcıdır. Hər bir insanın başqa birisinə ehtiyacı vardır. Elə bir insan ki, sədaqətli, mehriban və siradaş olsun. Onunla ünsiyyət yaradıb, dərd-qəmini söyləyəsən, ürəyindəki sirləri açıb-deyəsən və onun verdiyi təsəllilərdən faydalanasan. Beləliklə, rahatlıq tapıb sakitləşə biləsən. Hər bir insanın təmiz və etibarlı dosta ehtiyacı vardır. Dost da öz növbəsində dostluğunu, məhəbbətini əsirgəməməlidir.

Bütün bu təbii ehtiyacları təmin edə biləcək ən yaxşı şəxs həyat yoldaşıdır. Bu həm qadına həm də kişiyə aiddir. Bütün məhəbbətlər və dostluqlar müvəqqəti və məhduddur, yalnız arvadla kişi arasındakı dostluq və məhhəbbətdən başqa. Bu dostluq və məhəbbət əbədi olub, qeyri məhduddur. Çünki onlar eyni bir qurumu təçkil edir və müştərək məqsədə malikdirlər. Onlar hər bir kəsdən daha çox bir-birlərinə ehtiyac duymurlar. İzdivac nəticəsində yaranan rahatlıqvə asudəlik o qədər mümkündür ki, Allah-Təala onu özünün böyük əlamətlərindən biri kimi təqdim etmişdir. Bu da doğrudur ki, izdivac etməsə də digər mənafelər, o cümlədən cinsi instinktin təmin edilməsi də mövcuddur, lakin ən böyük və ən dəyərli fayda həmin rahatlıq, asudəlik və mehribançılıqdır. Bu keyfiyyətlər qadınlarda və kişilərdə izdivac etmə nəticəsində meydana gəlir. Buna görə də qeyd etmək olar ki, bir insana nəsib olan ən yaxşı nemət layiqli yoldaşıdır.

## Əxlaqi təmizlik və günaha batmaq

İzdivac etmə nəticəsində yaranan cinsi instinkt (insanın ən qüvvətli instinktlərindən biridir) öz yolunu davam etdirir və kənar çıxmalardan,

günahlardan yayınır. Hər bir insanın varlığına hakim kəsilmiş cinsi instinkt çox qüvvətli instinkdir. Əgər o doğru yola istiqamətləndirilərsə, öz təbii və real istiqamətini tutacaqdır. Belə olduqda o nəink kizərər verməyəcək, əksinə çoxlu fayda gətirəcəkdir.

Əgər onun üçün şəraitlə icazə verilmiş qayda hazırlanmazsa, hər bir insanı öz təbii nizamlanma vasitəsi izdivac etmə və ailənin təşkil olunmasıdır. İnsan izdivac etdikdən və cinsi instinkti şəriətlə icazə icazə verilmiş təmin etmə vasitəsinə malik olduqda sonra, öz inamının köməkliyi ilə əxlaqını qoruya bilər və özünü müxtəlif günahlardan, o cümlədən naməhrəmlərə baxmaqdan qoruya bilər. Bu baxımdan izdivac etməyən insanların öz nəfslərinə və cinsi instinktlərinə nəzarət etməsi çox çətindir. Buna görə də nigah etdirməni dinin mühafizə olunmasının mühüm bir amili kimi təqdim etmək olar. Hədisdə də bu məsələyə diqqət yetirilməlidir.

Həzrət Peyqəmbər (s) buyurmuşdur: «Gənclik illərinin başlanğıcında nigah etdirən hər bir şəxsə göndərilmiş şeytan fəryad edəcəkdir: «Heyhat! Dininin üçdə ikisini mənim əlimdən çıxardı və qalan digər hissəsində möminliyə riayət etmə imkanına malikdir».

## Rahatlıq və əsəblərin tarazlığı

Alimlər yazırlar ki, cinsi instinktin vaxtında və düzgün təmin edilməsi, habelə toxumların mülayim şəkildə ayrılması hər bir adamın orqanizminin sağlamlığı üçün zəruridir. Ondan imtina edilmə bir sıra ruhi və bəzən də cismani xəstəliklərə səbəb olur. Əgər cinsi instinkt vaxtında təbii yolla və düzgün üsullarla təmin edilməzsə, bu bir sıra xəstəliklərin o cümlədən əsəb zəifliyi, iztirab, gərkinlik, acı xəsiyyət, bədbinlik, güşıninşinlik, saralıb-solma, əzginlik, həyacanlanma və bəzəndə mədə xorası, həzmetmə sisteminin pozulması və baş ağrısı kimi xəstəliklərin baş verməsinə gətirib çıxarır. Cinsi instinktin təbii və şəriətlə icazə verilmiş təmin edilmə yolu nigahdır. Bu istiqamətə istifadə olunan digər yollar qeyri-təbii olub, günah və icazə verilmiş qaydalardan kənarlşma hesab edilir. Bu yollar özündən sonra hay-küylü və təhlükəli təsirlərə malik olacaqdır. Buna görə də öz sağlamlığı barədə düşünən hər bir kəs imkan olan kimi nigah etdirməlidirlər.

## Nəslin artırılması

Nigah etdirmənin ən böyük faydalarından biri övladın dünyaya gətirilməsi və insan nəslinin əbədiliyinin təmin edilməsidir. Nəslin artırılması məsələsini əhəmiyyətsiz bir məsələ kimi qəbul etmək olmaz, çünki dünyanı Yaradanın əsas məqsədi insanın dünya gətirilməsi, onun tərbiyə olunması və inkişafı ilə bağlıdır. Allah inam bəsləyən, sağlam, yaxşı niyyətli insanların artırılması və onların tərbiyə edilməsi dünyanı yaradan Allaha məxsusdur. İslam dini nöqteyi-nəzərindən sağlam övladın dünyaya gətirilməsi ata və ana üçün sağlam bir əməl hesab edilir. Övladın dünyaya gətirilməsi valideyinləri müəyyən sağlam məqsədlə yönəldir və onların müştərək həyatını rövnəqlədirir. Övladın dünyaya gətirilməsi izdivac etdirmənin faydalarından biridir. Buna görə də övladın dünyaya gətirilməsi, habelə nəsil artımı məsələləri hədislərdə nigah ən əsas məqsədi kimi irəli sürülmüşdür.

Peyqəmbər (s) buyurmuşdur: «Mömin bir şəxsi özünə həyat yoldaşı

Seçməsinə nə mane olur. Belə olduğu təqdirdə Allah ona övlad bəxş edər və o da «La İlahə İlləllah» sözlərini tələffüz etməklə dünyanı zinətləndirər».

## Cəmiyyətin sağlamlığı və əminamanlığı

Izdivac etmə və ailənin təşkili olunması cəmiyyətin sağlamlığı, əmin-amanlığı və xoşbəxtliyi üçün çox zəruridir. Yeni qurulan ailənin bünövrəsi möhkəm olarsa, cavanlar vaxtlı-vaxtında ailə qurarlarsa, səmimi ailə münasibətlərinə girərlərsə onda sözsüz ki, cəmiyyətdə baş verə biləcək mənfi hallar, o cümlədən avaracılıqlar, qatilik, oğurluq, qarətçilik və bu kimi cinayətlər bir o qədər azalacaqdır. Çünki satatistikanın da göstərdiyi kimi, bu əlamətlərin əksəriyyəti ailə cəmimiyyətindən məhrum olan şəxslər tərəfindən törədilir.

## Izdivaca mane olan amillər

Baxmayaraq ki, İslam dinində ailə qurmaq ilahi bir əmr müqəddəs və şərəfli bir vəzifə sayılır, lakin çox təssüf ki, bəzi hallarda izdivac həddinə çatan bir-birini sevən iki gəncin qovuşmaları, ailə səadətinə yetişməkləri,

o məqamda bir sıra çətinliklər və maneələrlə üz-üzə durur. Belə bir xeyir işə, ilahi müqəddəs əmrin icrasını bəzən on yox, yüzlərlə əngəl törənir və mane olur. Bunlardan biz yalnız bir neçəsini ki, mühüm və daha qlobal problemlərə aparıb çıxardır, diqqətinizə çatdırmaq istəyirik.

1. Ağır toy xərcləri

Izdivac ərəfəsində cavanların əl-qoluna buxov vuran, xeyir işlərinə əngəl olan manelərdən biri də mərasim xərcləri, cehiz və bər-bəzək əşyalarından iddiaların tuğyan etməsidir. Bu, ictimai br bəladır ki, tərəflərin ağır tələblər irəli sürdüklərindən bəzən nigah ya heç baş tutmur, ya da bir çox çətinliklər və müşkulatlara səbəb olur.

İctimaiyyətdə özünə yer tapan bu kimi qusurlu cəhəti aradan götürmək üçün gərək Qurani-şərif nə fərmaiş edir:

«Əhzab» sürəsi, 21-ci ayəsində Xudavəndi-mütəal buyurur: «Ey müsalmanlar! Bütün işlərinizdə (ictimai, dini, ailə məsələləri və s.) Allahın Rəsulu sizinçün ən gözəl nümunədir. Onun həyat yolu öyrənin və onun qoyduğu yol ilə gedin».

Görün Allahın Rəsulu (s) bu ilahi və müqəddəs əmrə necə sadə və təmtəraqsız əncam verib, dünya və axirət səadətinə yetişib.

İmam Sadiq (ə) buyurub: «Bir şəxs atam İmam Baqir (ə) xidmətində idi. İmam soruşub biləndə ki, subaydır, evlənməyə imkanı çatmır. Ona 7 dinar məbləğində pul verib, buyurdu: «Bu pulla özünə sadə bir toy edib, gəlin gətirə bilərsən. Di durma, toy tədarükündə ol».

Həzrət Əlinin (ə) xilafəti dövründə, bir gün cənab Əmirəl-möminin bir kasıb qadınla rastlaşır və ondan soruşanda ki, evlidir ya yox, qadın cavab verir ki, «subayam, qardaşlarımın himayəsində dolanıram». Həzrət Əli (ə) onun qardaşlarını yanına çağırıb deyir: «Mənim sözlərimi öz haqqınızda və bacınız haqqında qəbul edirsinizmi?» Cavab verdilərki, bəli qəbul edirik. Həzrət Əli (ə) buyurur: «Allahı və burda olanları şahid tuturam ki, bu qadını 400 dirhəm mehriyyəilə bu oğlana təzvic edirəm və onun mehriyyəsi öz malımdan olacaq».

Bu hədis bir daha hakim dairənin, rəhbərliyin izdivac olan ciddi münasibətlərindən və məsuliyyətlərindən xəbər verir. Həm də hakim dairələrin izdivac məsələlərinə nəzarət etməyi lazım gəldikdə onlara yardımçı, arxa-kömək olmaqlarını tövsiyə edir.

Bu hədislərin mahiyyətinə diqqət yetirdikdə, körürük ki, məsum İmamlarımız şan-şöhrətli, təmtəraqlı nigah, toymərasimindən həmişə

uzaq olublar. Biz müsalmanlara da göstəriş veriblər ki, belə mərasimlərdə möminlərin qohum-qardaşlarını dəvət edib, ziyafət vermək, şənlik etmək və caizdir. Amma şan-şöhrətə uyub həddən ziyadə xərc çəkmək və qarşı tərəfi də bu işə cəlb etmək özü bədbəxtcilik israfçılıqdır ki, Allah-Təala Qurani-Kərimdə israf edənləri sevmir və onları bu yoldan çəkinməyə çağırır.

İzdivac şəri məsələ olduğundan görəkdir ki, ona Quranın və dinin göstərişlərinə müvafiq bir tərzdə əncam verilə. Çünki cəmiyyətimizdə hər cür təbəqələr – imkanlı və imkansız insanlar yaşayır. Izdivac isə cinsi tələbatdan irəli gələn təbii və müqəddəs bir ailə quruculuğudur ki, hamının ona  ehtiyacı var, lakin hamının imkanı yoxdur ki, onu ali səviyyədə, şan-şöhrətlə, dəbdəbə ilə həyata keçirsin.

İmkanlı olan və öz övladlarının xoşbəxtliyini istəyən hər bir valideyin düşünməlidir ki, təkcə onun balaları yox, başqaları üçün də bu toy-busatdan var, lakin bəzilərinin imkanı yoxdur ki, toya lazım olan ən cüzi vasaitləri alıb kənara qoysun. Və bu kimi yüzlərlə problemlərin qarşısında fəqir, miskin ata-analar və ya yetim, kimsəsiz cavanlar aciz naçar qalırlar.

Yaxşı olmazmı ki, imkanı olan şəxslər toyda, ziyafətdə, restiranda cürbəcür yeməklərə və içkilərə çəkdikləri xaərci heç olmasa müəyyən hissəsini imkansız adamların oğlunu evləndirmək, qızını köçürtmək üçün ayırsınlar? Axı onlarda həyatda ailə qurmaq, xoşbəxt olmaq istəyirlər. Axı bilməlidirlər ki, o var-dövləti də onlara Allah verib və istəyir ki, o səxavət və mərhəmət ki, özündə var, öz bəndələrində də olsun. Əgər belə olmasa, Quran xəbər verir ki, - «bir gün gələr Allah onlardan hesab tələb edər».

Odur ki, müsalman gərək şan-şöhrətə çox meyl göstərməsin, imkanı varsa imkansızlara da əl yetirsin, yoxdusa borc-xərclə, yüksək dəbdəbə ilə övladlarının xeyir işinə rəvac verməsinlər, çünki ailə səadətinin bu dəm-dəsgahla heç bir əlaqəsi və aidəti yoxdur. Atalar deyiblər ki,- «bir qız bir oğlanındır». Allah-Təala bu kimi xeyir işlərdə hamıya kömək olsun. Bütün subaylarımız xoşbəxt olsun, inşəllah!

2. Şöhrətpərəstlik

Normal ailə quruluşuna mane olan səbəblərdən biri də şöhrətpərəstlikdir.

Bəzən elə olur ki, ailə səadəti üçün əsas rol oynayan qarşılıqlı məhəbbət, əxlaq, dəyanət və s. əsas məsələlər qalır bir kənarda, mənsəbpərəstlik və şan-şphrət sorağı ilə gəzirlər. Bəzi vaxt öz istəklərinə

nail olsalar da izdivacdan sonra gənc ailə bunun ağrı-acısının öz üzərində duyur və peşmançılıq çəkirlər.

Əksinə, əgər ailə həyatı şəriətin hökümlərinə uyğun bir tərzdə qurulursa, arada sevgi, məhəbbət, bir-birinə sədaqətvə səmimi münasibət əsas götürülürsə, belə ailə möhkəm özül üzərində qurulur və Allah-Təala öz mərhəmətini, xeyir-bərəkəti o ailəyə inayət edir.

Məsum İmamlarımız çox zaman fəqir ailə qohum olub, hətta əvvələr kəniz olan qadınlara ailə qorublar və ya dövlətli qızını kasıb oğluna və ya əksinə kasıb qızını dövlətli oğluna təzvic ediblər ki, cəmiyyətdə təbəqələşmə getməsin və xalq arasında mütənasiblik yaransın. Çünki mənsəbpərəstlik əsasən cahiliyyət dövründə hökm sürən sadə insanları alçaldan mənfi xüsusiyyətlərdir. Çox təəsüüf ki, bu günün özündə də müsalmanlar arasında bu cür eybəcər və mənfi faktlar rast gəlmək olur ki, bu da bir sıra əxlaq pozuntuları ilə nəticələnir.

Rəsuli-Əkrəm (s) müsalmanların bir-birinə olan münasibətlərindən bəhs edən hədislərinin birində buyurur: «Bütün müsalmanlar biri digərinə laiq və müvafiqdirlər və heç bir fərq qoymadan biri digəri ilə ailə qura bilərlər».

İmam Səccad (ə) özü kəniz və fəqir qadınlarla evlənərdi. Bunu görən Əbdül-Məlik Mərvan və digərləri irad tutaraq öz etirazlarını bildirirdilər. İmam Səccad (ə) isə onlara buyurardı: «Biz gərək Rəsuli-Xudadan nümunə götürək və onun qoyduğu adət-ənənələrə riayət edək. Çünki o özü əmisi qızı Zeynəbi öz qulamı Zeydə nigah etmişdi. Həzrət Rəsul (s) özü də səfiyə adlı bir kənizlə (hansı ki, Xeybər davasında əsir düşmüşdü) evlənmişdi.

İmam Sadiq (ə) buyurub: «İslam Peyqəmbəri (s) cahiliyyət dövründən qalan pis adət-ənənələri tərgitmək üçün qara dərili və çox kasıb olan Miqdad adlı qulamını mənsəb sahibi olan Zəbaənin (hansı ki, tanınmış şəxsiyyət olan Zubeyr ibn Əbdül-Müttəlibin oğlu idi) qızına evləndirdi ki, Allah yanında ən şərəfli insan, sərvət və mənsəb sahibləri yox, mötəqid və pəhrizkar olanlardır»

Bu qəbildən çoxlu hədis və rəvayətlər var. Lakin onların hamısını xidmətinizə çatdırmağa imkanımız yoxdur. Elə bilirik ki, yuxarıda zikr etdiyimiz hədis və rəvayətlər kifayətdir ki, izdivac məsələlərində Peyqəmbər və məsum İmamlarımızın getdikləri yolu davam etdirməyin

lazım olduğunu anlayaq və cahiliyyət dövründən qalmış müsalmançılığa yabançı olan pis adətlərin dalınca getməyəcək.

3. Qanunsuz cinsi əlaqə

Qanunsuz cinsi əlaqə və faişəliyin yayılması izdivaca mane olan amillərdəndir. Zinakarlıq İslamiyyətə zidd olan, cəmiyyəti fəlakətə sürüyən, gənc nəslin əxlaqına və tərbiyyəsinə çox pis təsir göstərən nalaiq hərəkətlərdir. Qanunsuz cinsi əlaqənin əlaqənin İslam ölkələrində yayılıb genişlənməsi olduqca pis və dözülməz haldır ki, bunun da yayılma səbəbi əsasən kafirlər, İslam düşmənləri və dinsiz, imansız adamlardır. İctimaiyyət üçün çox xətərli olan bu cür mənfi ünsürlər, cürbəcür videokasetlərə çəkilmiş seksual kinolar, parnoqrafiya, foto və jurnalları yaymaqla insanları, xüsusilə gəncləri yoldan çəxardır, həya-abır itir, insan mənəviyyatına və əxlaqına çox böyük zərbələr vurulur. Bu cür batil yolda gedən kişi və yaxud qadın bilavasitə izdivacdan, həqiqi, ya xoşbəxt ailə həyatı qurmaqdan uzaqlaşır və ya evlənməyə bir o qədər daha meyl göstərmir. Əgər belə əxlaqsızlıqla məşğul olanlar ailə sahibidirsə, çox çəkmir ki, ailədə ərlə arvad arasında münaqişə və söz-söhbət yaranır, bu da uşaqların tərbiyəsinə pis təsir göstərir və bəzən də ailənin dağılması ilə nəticələnir.

Bundan əlavə faişəlik və zinakarlıq nəinki təkcə ailə üçün hətta bütöv bir cəmiyyət üçün sağalmaz dərd olan bir çox xəstəlikləri (SPİD və s.) törədir.

İslam dini, Quran bu iyrənc hərəkətləri nəhy edir və qiyamət əzabı ilə təhdid edir. Buna görə də müsalmanlar, xüsusi ilə cavanlar diqqətli və ayıq olamlıdırlar ki, Qərbdən gələn bu cür nalaiq işlərin dalınca gedib onları təqlid etməsinlər, çünki Qərb (Avropa ölkələri) artıq bu ictimai bəlaya giriftarolublar. Ailə şərəfi, qeyrəti və heysiyyəti onlar üçün mənasını və əhəmiyyətini itirmiş bir məfhuma çevrilmişdir.

Quranın bu cür yaramaz və əxlaqsız işlərə olan münasibətini bildirmək üçün aşağıdakı rəvayətə diqqətinizi cəlb etmək istəyirik.

Əbdullah Ubəy münafiqlərin başçısı idi. Peyqəmbər Rəsuli-Xudanın dövründə təzəcə dirçələn İslam dininə zərbə vurmaqdan ötrü altı kənizini zina və faişəliyə sövq etdi. Bu yolla istəyirdi ki, mömin və İslama rəğbət bəsləyən cavanları dindən ayırıb pis yola cəlb etsin. Lakin Allah-Təala «Nur» surəsinin 34-cü ayəsini nazil etməklə onu rusvay etdi və bu biabırçılığın qarşısı alındı.

4. Valideyin etinasızlığı

İslamın mühüm göstərişlərindən biri ağsaqqal sözünə qulaq asmaq, valideyinlərlə məsləhətləşmək, onların öyüd-nəsihətinə əməl etməkdir ki, bu da cavanların zərərli və təhlükəli yola getməklərinin qarşısını alır.

Eyni zamanda valideyinlərin də ümdə vəzifələri odur ki, cavanların hərəkətlərinə nəzarət etsinlər, onların təlim tərbiyələri ilə ciddi məşğul olsunlar. Əks təqdirdə gənclər faydalı əməkdən, dərsdən və təhsildən yayınır və nalayiq işlərlə məşğul olurlar.

Buna misal olaraq bu yaxınlarda baş verən kədərli bir hadisəyə diqqətinizi cəlb etmək istəyirik.

Yuxarı sinif şagirdlərindən biri (oğlan uşağı) özünü evdə nəzarətsiz və sərbəst hiss edib qumara qurşanır. Pulu olmayanda arabir evdə də pul oğurlayıb aparırmış. Nə vaxtsa valideyinləri bundan xəbərdar olub onu cəzalandırır və xəbərdarlıq edirlər. O da söz verir ki, bir daha bu işi görməyəcək. Lakin görünür valideyinləri tərbiyə çubuğu yumşaq imiş, övlada təsir göstərə bilməyib və bir vaxt xəbər tuturlar ki, uşaq anasının qızıl üzüyünü də qumara qoyub.

Bu və buna bənzər kədərənləndirici hadisələrə təəssüf ki, cəmiyyətdə çox rast gəlmək olur. Adətən belə hallar dindən, Qurandan kənarda qalan ailələrdə, şəriəti öyrənib və öz uşaqlarına onun hökümlərini öyrətməyən insanların dairəsində baş verir. Buna görə də möminlərlə, din xadimləri ilə məşvərət etmək, şəriətin qayda-qanunlarını öyrənmək və öz övladlarını da İslami ruhda tərbiyə etmək lazımdır.

Həzrət Əli (ə) bu bairədə buyurur: «Hər kəs təkəbbür və lovğalıq üzündən başqalarının nəsihətinə qulaq asmasa həlak olar və hər kim başqaları ilə məsləhət etsə, onlardan fayda görər».

## ATANIN NÜFUZU ÜSTÜNDÜR, YOXSA QIZIN SƏRBƏSTLİYİ?

Allah bütün insanları azad yaratmışdır. Bu qanuna uyğun olaraq əsası və səbəbi olmadan heç bir kəs digərindən üstün deyildir və onun ixtiyarı yoxdur ki, başqasının həyatını təhlükəyə məruz qoysun. Bu xüsusi hətta Peyqəmbərlər, dahi şəxsiyyətlər və onların hamısının sərvəri olan Peyqəmbər (s) də bu ixtiyara malik deyildir. Quran-Kərimdə Peyqəmbər mütləq hakim («Əhzab» sürəsi, ayə 6) adı verilməsinə baxmayaraq o da

şəxsi azadlıq hökmünü poza bilməz. Ancaq Allah Quran-Kərimdə bu həqiqəti şərh edib, Peyqəmbərə (s) buyurub: «Sən yalnız müjdə verən və qorxu gətirən və insanlardan üstün də deyilsən» («Faşiyə» sürəsi, ayə 21-22) («Əhzab» sürəsi, ayə 6).

Müqəddəs İslam şəriətində xüsusi adamlara ictimai məsuliyyət və xalq kütlələrinin idarə edilməsində məsləhət xarakterli üstünlük verilmişdir. Ailədə də analar və atalar xüsusi şəraitdə həmin böyüklüyə malikdirlər. Bu böyüklüyün fəlsəfəsi səhvlərin qarşısını almaq, hüquqları bərpa etməkdir. Bu məsləhət xarakterli qanundan sui-istifadə olunarsa, üstünlük də öz-özünə qüvvəsini itirər.

## Ata ailənin bütün üzvləri üzərində mütləq hakimdirmi?

Ailə üzvlərinin borcudr bir-birinə ehtiramla yanaşsınlar, böyüklərin, xüsusilə valideynlərin təcrübəsindən istifadə etsinlər və imkan daxilində bacardıqları qədər onların göstərişlərinin əksinə hərəkət etməsinlər. Lakin eyni halda həddi-buluğa çatmış bütün ailə üzvləri şəxsən azad olub iqtisadi, ictimai və mədəni məsələlərdə onlar bir-başa qərar qəbul edə bilərlər və evlənib ailə qurmaq məsələsində eyni hüquqa malikdirlər. Ata bakirə qızların məsələsində mütləq hakim deyil. O, övladları ilə zəruri və lazımlı məsələləri müzakirə edib öz fikirləri ilə onlara məsləhət verə bilər.

Həzrət İmam Sadiq (ə) buyurur: «Əgər bir qadın əvvəllər ərə getmiş olsa 2-ci dəfə atanın rzılığı olmadan ailə qura bilər. Bu iş o vaxt manesiz həyata keçirilə bilər ki, aqibəti zərərli və qorxulu olmasın və şəriət qanunlarına uyğun gəlsin».

Həzrət İmam Rza (ə) buyurur: «Qızlardan icazə istənilən vaxt onlar susarlarsa bu razılıq əlamətidir. Lakin bakirə olmayan qızlar öz işlərinin sahibidirlər».

Peyqəmbər özü bu barədə belə buyurur: «Bakirə olmayan qız evlənmək məsələsində öz qəyyumundan (hakimindən) qabaqdır. Bakirə qızdan da icazə alınmalıdır. Onun icazəsi susmasıdır».

Nəhayət Həzrət İmam Sadiqdən bir hədisdə oxuyuruq: Dul qadın haqqında olan sualın cavabında buyurur: «O öz nəfsinin sahibidir. Qadın ərini saçməkdə azaddır. Bir şərtlə ki, əvvəllər evlənmiş olsun».

Əziz oxucular diqqət edirlər ki, bu hədislərdə birdəfə ərə getmiş qızlar iinci dəfə ərə gedərsə heç kəsdən icazə almamalıdır. Birbaşa qəbul etmək hüququna malikdirlər.

Əvvəlcədən qeyd edildiyi kimi, bütün övladlar həm qız, həm də oğlanın (bakirə qızlardan başqa ancaq evlənmək məsələsində) heç kəsin icazəsinə ehtiyac yoxdur. Doğrudur ki, ədəb qaydalarına riayət İslam nöqteyi-nəzərindən tövsiyə edilmişdir.

## Böyüklükdən sui-istifadə

Təbiidir ki, bütün ata-analar öz övladlarını böyük məhəbbətlə sevərək, gecə və gündüz çalışmaqla onların bütün mürəkkəb məsələlərini həll edir və ehtiyaclarını təmin edirlər. Buna görə də müqəddəs İslam şəriəti bakirə qızların heysiyyatını qorumaq üçün onların evlənmək yükünü atanın üzərinə qoymuşdur ki, qızlar əyyaş oğlanların saxta və yalan hissləri qarşısında alçalmasınlar və laiq olmayan oğlanlarla ailə qurmasınlar. Əgər onlar zorla qızlarını münasib olmayan kəslərə ərə vermək istəsələr, onların hökmü qüvvəsini itirmiş olur. Belə hallarda bakirə qızlar xəbərdarlıq etmədən, onlarda icazə almadan özləri qərar qəbul edə bilərlər.

Müqəddəs İslam dini məcburi evlənməni haram etmiş, qızlardan sui-istifadə hallarını qadağan etmişdir.

Bu münasibətlə diqqətinizi bir neçə hədisə cəlb edirik:

1. Əbdullah ibn Əbbas belə nəql edir ki, bir qız Peyqəmbərin hüzuruna gəlib belə ərz etdi: «Atam məni zorla ərə verir». Peyqəmbər məsələni qızın ixtiyarına verdi ki, özü qərar qəbul etsin.

2. Əgər kamal çatmış və ağıllı qız bu təklifi qəbul edərsə, atanın icazəsi olmadan onunla evlənmək olar.

Mərhum Sahib Urvə belə buyurur: «Əgər qızın atası və anası qızının münasib olan şəxslə evlənməsinə mane olarsa, onların böyüklük hökm əhəmiyyətini itirər».

## Peyqəmbər (s) qızından icazə istəyir

Əmirəl-möminin Fatimeyi-Zəhranın elçiliyinə gələndən sonra məqsədini Peyqəmbərə ərz etdi. Peyqəmbər (s) buyurdu: «Ya Əli, səndən

əvvəl başqa elçilər gəlmişdirlər. Mən Fatiməni onların gəlişi və məqsədindən agah edəndə onun çöhrəsində narazılıq əlaməti müşahidə edirdim. İndi sən də gözlə, sənin gəlişinin məqsədini ona deyim». Peyqəmbər Fatimənin otağına varid olub Əmirəl-möminin sifarişini ona yetirib soruşdu: «Fikrin nədir?» İki aləmin xanımı (Fatimə) keçmiş elçiliklərin əksinə olaraq üzünü qırışdırmadı. Öz razılığını əzəmətli və vuqarlı çöhrəsində büruzə verdi. Buna görə Peyqəmbər sevinclə yerindən qalxdı, dodaqlarından «Allahu Əkbər» sözü Əlinin yanına gəlib Fatimənin razılıq cavabını elan etdi.

Bu hədislərdən aşağıdakı nəticələr əldə edirik.

1. Əgər bir ata qızının böyüyü və ağsaqqalıdırsa, bu o deməkdeyilir ki, o onun hakimidir. Bu böyüklük övladının mənafe və huquqlarınıtəin etmək üçündür. Əgər bu şəri qanunun ixtiyarından sui-istifadə edilərsə, o böyüklük və qüvvə əhəmiyyətini itirər. Belə halda qız özü bir başa qərar qəbul edib ailə qura bilər.

2. Əgər bir ata ailə başçısı kimi üstünlüyə malikdir və onun icazəsi əsas şətdirsə, şübhəsiz əsas qızın öz əlindədir.

Hədisdən gördüyünüz kimi bütün bütün yer kürəsinin Peyqəmbəri Fatimənin ailə qurması məsələsində birbaşa qərar qəbul etmədi. Əvvəlcədən Fatimənin icazəsini aldı. Onun razılığını hiss edəndən sonra müsbət cavab verdi. Bütün hökmranlar, atalar və analar övladlarını evlənməkdə məcbur etmirlərsə bu düzgün haldır. Əsas şərt oğlan və qızın evlənməkdən əvvəl qəbul etdiyi qərardır və onların qərarı valideyinin icazəsindən üstündür.

## Qızlar atanın icazəsi olmadan evlənə bilərmi?

Minnətdarlıq hissi bir tərəfdən, valideynin xüsusən atanın uzaqgörənliyi digər tərəfdən bütün övladların ata və ana qarşısında müti olmalarına səbən olur. Onlar valideynin bütün əmrlərini itaət və etiramla yerinə yetirsinlər və onların məsləhəti olmadan heç bir iş görməsinlər. Əxlaqi və hüquqi vəzifələrlə yanaşı İslam bütün bakirə qızların atalarının icazəsi olmadan ailə qurmağı məsləhət görmür. Əgər bu iş atanın razılığı olmadan baş verərsə, ataların haqı var ki, belə bir mərasimi rəsmi tanımasın və öz etirazını bildirsin.

İndi isə diqqətinizi bir neçə hədisə və müasir fiqh alimlərinin nəzəriyyəsinə cəlb edirik.

Həzrət İmam Baqir (ə) buyurur: «Ailə qurmağı atadan savayı heç kim poza bilməz. Bu hədis evlənmək məsələsində atanın tam üstünlüyə malik olduğunu göstərir. Bu məsələdə atanın nöqteyi-nəzəri mötəbər sayılır».

İmam Sadiq (ə) buyurub: «Atası olan bakirə qız onun icazəsi olmadan ərə gedə bilməz».

Çox görkəmli müasir alimlər də bu barədə belə deyirlər: «Həddi-buluğa çatmış qız öz məsləhəti ilə hərəkət edə bilər. Əgər qız bakirə olarsa, atanın və ya babanın icazəsi ilə ərə getməsi məsləhətdir».

Ailələr, onların övladları, valideyinlər bi-birinə elə bağlı olmalıdırlar ki, hətta ən kiçik anlaşılmazlıq onlar üçün əhəmiyyətsiz olmasın. Onların heç bir tədbiri ailə başçısının xeyir-duası olmadan icra olmasın.

Allah eləməmiş əgər bu zəmində ailə üzvləri arasında anlaşılmazlıq baş verərsə çalışsınlar ki, ata və anaın göstərişlərinin əksinə hərəkət etməsinlər. Əgər onun göstərişlərinin əksinə hərəkət etmiş olsalar, heç şübhəsiz şəriətə və əxlaqa zidd amillər təzahür edəcəkdir.

Ulu Tanrı bütün ailələrə mehribançılıq, səadət və vəfa qapılarını açsın. Ailə qurmaq və digər məsələlərdə onlara yad olsun.

## AİLƏ QURMAQDA İKİ QANUN ƏSASDIR

1.Biri tənasub qanunu. Yəni oğlan ilə qız evlənməmişdən əvvəl ruhi, sinni (yaş), elmi, mədəni və başqa cəhətlərdən bir-birinə uyğunola.

2. İkinci qanun təvafaqdır. Yəni ailə qurandan sonra bir-birinin səhvlərini bağışlayalar. Quran «Hicr» surəsinin 22 ayəsində, «Zariyat» surəsinin 49 ayəsində, «Qaf» surəsinin 7 ayəsində ailə qurmaq nizamında bəhs edir və deyir ki, Allah bütün mövcudatı erkək və dişi yaradıbdır.

### Ailə qurmaqda diqqət etmək lazimdir

İslam Peyqəmbər (s) buyurdu ki, kişi dörd cəhətin birinə görə bir qadın ilə evlənər. Malına, gözəlliyinə, tayfasına, dininə görə. Diqqət edin dininə görə. Din sizə əsas olsun. Dünyanın ən gözəl varlığı salehə qadındır və ən pis varlığı pis qadındır.

## GƏİLN MƏCLİSİ, QONAQLIĞI

1. Peyqəmbər (s) buyurmuşdur: «Qonaqlıq ancaq 5 halda caizdir: izdivac zamanı, övlad doğulduqda, uşaq sünnət edildikdə, ev aldıqda, həcc səfərindən qayıtdıqda».

2. Həzrət İmam Baqir (ə) buyurur: «Qonaqlıq bir gündür, ikinci gün qonaqlıq verirsənsə böyüklük və kəramətdir, üçüncü gün qonaqlıq verirsənsə, bu, özünü göstərmək və zahiri təmtəraqdır».

3. Həzrət İmam Sadiq (ə) buyurur: «Peyqəmbər (s) həyat yoldaşı, Harisin qızı Meymunənin toyunda qonaqlıq verdi: yemək-xurma, yağ, süzmə, bir az çörəkdən ibarət idi».

4. Həzrət Rza (ə) buyurur: «Peyqəmbər

«İzdivac günü qonaqlıq vermək Peyqəmbərin adətidir».

5. Həzrət Zəhranın (ə) toyu haqqındakı hədisdə nəql olunmuşdur ki, Peyqəmbər (s) buyurdu: «Ya Əli, həyat yoldaşına etiram əlaməti olaraq bir yaxşı yemək hazırla». Sonra əlavə elədi və dedi: «Ətivə çörəyi bizdən, xurması və yağ aldım».

Əmirəl-möminin buyurur: «Mən xurma və yağ aldım».

Peyqəmbər (s) qolunu çırmayıb xurmanı yağa doğradı və qarışdırdı. Bir qoç göndərdi, başını kəsdik. Çoxlu çörək bişirdilər. Buyurdu: «Ya Əli, kimi istəyirsən dəvət et». Mən məscidin qapısına getdim və çağırdım: «Fatimənin toy qonaqlığına dəvətimi qəbul edin».

6. Həmad ibn Osman deyir: «Həzrət Sadiqin oğlu cənab İsmayıl qonaqlıq vermək istədi. Həzrət Sadiq (ə) buyurdu: «Kasıbları dəvət et və ac qarınları doydur».

Hədis ünuni qonaqlıqların qaydasını aydınlaşdırır: əgər İmam toy, ev tikmək, övladı sünnət elətdirmək, həcc səfərindən qayıtmaq kimi məqamlarda qonaqlıqlar təşkil etmə haqqında göstəriş vermişsə, burada əsas məsələ yoxsullara nəvaziş göstərmək və acları doydurmaqdan ibarət olmuşdur. Qoy kasıblar da dövlətlilərin şənliklərində iştirak etsin. Ancaq İslam burada  qonaqlıqlara dövlətlilərin də dəvət olunması qadağan etməmişdir.

## MEHRIYYƏ

Deyəri və qiyməti olan hər bir şey qadının mehriyyəsi ola bilər. Bu mal da ola bilər. Məsələn: bağ, mülk, xalça və s.

Bu işdə ola bilər. Məsələn: imarət tikmək, torpağı şumlayıb əkinə hazırlamaq, quyu qazmaq, yaxud elm öyrətmək...

Ancaq mehriyyənin 10 dirhəmdən az olması məsləhət deyil. Çünki Əmirəl-möminin (ə) buyurmuşdur: «Mən mehriyyənin 10 dirhəmdən az olmasını sevmirəm ki, zina üçün ödənilən pula oxşamasın. Yaxşı olar ki, mehriyyənin Peyqəmbər qadınlarının mehriyyəsi olan 500 dinardan az, ya elə o qədər olsun və bundan artıq olması məsləhət deyil».

1. Peyqəmbər (s) buyurur: «Mənim ümmətiminən yaxşı qadını gözəlliyi daha çox , mehriyyəsi daha az olan qadındır».

2. Əmirəl-möminin buyurur: «Mehriyyələrin qiymətini artırmayın ki, düşmənçiliyə səbəb olar».

3. Altıncı İmam Sadiq (ə) buyurur: «Xərci az olan və asan doğmaq qadının ruzili olmasından, bərəkətindəndir, xərcinin çoxluğu və çətin doğması onun bədbəxtliyindəndir».

**QEYD:** *Əgər qadın özü izdivac və mehriyyə xərçinin çox olmasını istəyirsə əqidə və əxlaqi çəhətdən razılıq olmasına baxmayaraq az mehriyyəyə qane olursa, demək, onun çoxluğunu öyünmək, fayda götürmək xatirinə tələb edir. Belə olduqda qadının pisliyində, bədbəxtliyində və rəvayətlərdə göstərilən töhmət və tənbehdə özü günahkar olaçaqdır. Amma əgər qadının atası və anası belə bir şeyi ərdən-kürəkəndən tələb edirlərsə, onda bütün iradlar onlara aid olaçaqdır.*

Lakin qadın çətin doğmasının bədbəxtliyi bu mənadadır: bu iş təbii eyiblərdən biridir və burada qadın elə mühüm bir məsuliyyət daşımır.

4. İmam Rza (ə) buyurur: «İzdivac zamanı diqqət yetir ki, mehriyyə 500 dirhəmdən çox olmasın. Çünki bu mehriyyə Peyqəmbərin qızının və qadınının mehriyyəsidir».

5. Bir nəfər deyir: Həzrət Cavadın nigah məclisində idim. Həzrət xütbəni oxuyandan sonra buyurdu: «Əmirəl-möminin Məmun Allahın təyin etdiyi qaydalarda öz qızını mənə verdi. Bu qaydalar da belədir ki, qadını qəbul olunmuş adi şəkildə saxlayırlar, ya da əgər belə yaşamaq istəmirlərsə, rahatca azad edirlər».

Mən onun mehrini Peyqəmbər qadınlarının mehriyyəsi olan 500 dirhəm məbləğində ödədim. Bundan əlavə öz şəxsi sərvətimdən ona 100 min dirhəmdə bağışladım.

**QEYD:** *Yaxşı olar ki, kişi mehriyyədən əlavə öz həyat yoldaşına hədiyyə adı ilə bir şey də bağışlamasın. Bu hərəkət onun qadına daxili bağlılığını aşkar edir, ər-arvadlıq əlaqələrinin gözəlliyidir və ya bu hissin yaranmasına səbəb olur.Daha münasib olar ki, bağışlanan şeylər yalnız formal xarakter daşıyan şeylər olmasın, əksinə, yaşayış vasitələri, ticarət üçün kapital və ya İslam təbliğ etmək üçün vasitələr olsun.*

6. Peyqəmbər (s) buyurmuşdur: «Mehriyyələrin qiymətini artırmayın, mehr və məhəbbəti Allah özü yaradır, bel sındıran nigah sənədi yox!»

7. Həzrət Baqir (ə) buyurur: «Bir qadın Rəsulullahın hüzuruna gəlib dedi: «Məni ərə ver». Həzrət buyurdu: «Kim onu almaq istəyir?» Bir kişi ayağa qalxıb dedi: «Mən!» Buyurdu: «Mehriyyə olaraq nə verirsən?» Kişi dedi: «Heç bir şeyim yoxdur!» Buyurdu: «Mehriyyəsiz olmaz» Həzrət Peyqəmbər yenə o təklifi təkrar etdi. Ancaq o kişidən başqa heç kəs yerindən qalxmadı. Üçüncü dəfə Peyqəmbər kişiyə buyurdu: «Qurandan bir şey bilirsən?» Dedi: «Bəli!» Peyqəmbər (s) buyurdu: «Qurandan bildiyin öyrətmək müqabilində bu qadının kəbinini sənə kəsdim».

İnsafla demək lazımdır ki, belə sadə və əziyyətsiz bir şəkildə evlənən, ailə qurmaqda tanışlığın lap əvvəlindən əzab və məşəqqət hiss etməyən qadın və kişi çox xoşbəxtdir. Nə qız, nə oğlan bu ağır şərtlərin təsiri altında izdivacdan qaçır və subaylığı bütün əxlaqi fəsadlardan və bəlalaradan üstün tutur, nə bundan meydana gələn cismani və mənəvi çirkinliklər və xəstəliklər onları yaxalayır, nə onların uşaqları ata-analarının ömrünün xəzan və cavanlıq sevinclərinin əldən çıxması nəticəsində tərbiyədən məhrum olurlar.

Maraqlıdır ki, müqəddəs dinin təlimlərinin işığında və onun səadət bəxş edən proqramlarında belə asan və sadə şəkildə baş tutan izdivaclar bu günün əzablı və üzücü izdivaclarına nisbətən daha gec ayrılıqla sona çatır. İslamda təlaqın, boşanmanın əxlaqi qanunları və ağır şərtləri və onun çoxlu çəzəmmətləri, qadağaları ailə ittifaqının qadın və kişi birliyinin pozulmasının qarşısını almışdır.

8. Həzrət Kazım (ə) buyurur: «Vaxt olub ki, Peyqəmbərin (s) hüzurunda bir kişi bir qadınla evlənib və mehriyyəsi Quranın bir surəsinin öyrədilməsi, ya bir dirhəm pul və ya bir ovuc buğdadan ibarət olub».

9. Əli (ə) buyurmuşdr: «Bir kişi Peyqəmbər (s) yanına gəlib dedi: «Ya Rəsulullahın, bu qadınla evlənmək istəyirəm». Buyurdu: «Nə qədər mehriyyə verirsən?» Dedi: «Heç nəyim yoxdur». Buyurdu: «Barmağındakı o üzük sənin özünündür?» Dedi: «Bəli». Buyurdu: «Elə həmin o üzüklə kəbininin kəsdir!»

10. Hüseyn ibn Xalid deyir: «Həzrət Kazım (ə), ya İmam Rza (ə) buyurub: «Əgər bir mömin başqa bir mömin qadaşından qız istəyirsə, 500 dirhəm mehriyyə verirsə, o isə həmin mehriyyəni az hesab edib qəbul etmirsə, ona zülm etmiş olur. O buna laiq dir ki, Allah onu behişt hurisindən məhrum etsin».

11. İbn Sənan Həzrət Rzaya (ə) buyurur: «Kişinin qadına mehriyyə verməsinin sirri nədir? Nə üçün qadın mehriyyə verməsin?» Buyurdu: «Ona görə ki, qadın evdarlıq işləri və övlad tərbiyəsi ilə məşğul olduğundan pul qazanmaq və ticarət etməkdən tamamilə məhrumdur və onun heç bir qazanc yolu yoxdur. Əlbəttə, bunun bir çox başşqa səbəbləri də vardır».

İslam qadına pul qazanmağıvə ticarət etməyi ayıdın şəkildə qadağan etməmişdir. Lakin onun vəzifəsi belədir ki, öz-özünə belə işlərdən məhrum olur. Buna görə bilirik ki, bu məsələ barəsində qadının münasib bir fikiri də yoxdur. Çünki qadın allahın hökmü ilə ərinin icazəsi olmadan evdən çıxmamalıdır və ona, ərinə qulluq eləmək və uşağa, özü də mümkün qədər daha çox və müəyyən edilmişdir və bu işlər onun bütün vaxtını əlindən alır, buna görə o, başqa məşğuliyyət üçün heç bir fürsət tapmır.

Bəli, əgər qadın subaydırsa, bu da İslamın nöqteyi-nəzərinə ziddir - əgər zərurət meydana gəlirsə və o, öz ismət və təqvasını hifz eləyə bilirsə və qadına uyğun münasib bir məşğuliyyət taparsa, İslam dini onun işləməsini qadağan etmir. Ancaq aydındır ki, bu, tam istisna təşkil edir, ümumi hal ola bilməz. Belə ki, qadına kişilər cərgəsində iş həvalə edilməsi və onun kişinin gördüyü işləri öz öhdəsinə götürməsi Peyqəmbərin (s) sünnəsinə, İmamların (ə) və qadının müxtəlif vəzifələri barədə nəql olunmuş çoxlu rəvayətlərə tamamilə ziddir.

**İZAH:** *Qadın mehriyyəsi barədə bunu demək olar. İslamda keçmiş əsrlərdə adi və geniş yayılmış bir qayda olan fəlsəfə və ya onun sahələrindən biri tərəfindən təsdiq edilmiş mehriyyə, nigah və ər-arvadlıq əlaqələrini möhkəmləndirilirdi. Çünki gəbin və müqavilədə artırılan*

*şərtlər və öhdəliklər izdivacın əsl səbəbinin alqı-satqı olduğunu deyil, bu məsələnin nə qədər böyük əhəmiyyətə və qüdrətə malik olduğunu göstərir. Rəvayətlərdə alqı-satqı istehsalı nəzərə çarpırsa da, bu həqiqi alver mənasında deyil, sadəçə olaraq bir təşbih və bənzətmədir.*

Mehriyyənin qadınların öhdəsində deyil, kişilərin öhdəsinə və ya hər ikisinin öhdəsinə buraxılmasının fəlsəfəsi bəşər cəmiyyəti həyatının gedişi ilə bağlıdır. Ümumiyyətlə, qadınlar sağlamlıqları və ya evdarlıqla, övlad tərbiyyəsi ilə məşğul olmaları üzündən kişilər kimi qazanc əldə bilməmişlər. Nəhayət, İslam şəriətində bu məna təsdiq və qəbul olunmuşdur.

## Mehriyyənin miqdarı

İslamda mehriyyənin miqdarı müəyyənləşdirilməyib. Nə Qurani-Kərim və nə də hədislər bu məsələni qətişəkildə məhdudlaşdırmır. Bu hər iki tərəfin razılıq və qərarı ilə həyata keçirilir.

Peyqəmbər (s) buyurur: «Mehriyyələrin miqdarını adət və ənənələrin əksinə olaraq artırmayın. Belə bir hərəkət ər-arvada və ailədə kin-küdurətə səbəb ola bilər».

Bu barədə tarixi rəvayətlər və hədislərdə məlumat verilir. Qurani-Kərim də bu məsələni rədd etməmiş və ona işarələr edilmişdir.

Qurani-Kərim Həzrət Şüeybin qızlarından biri ilə evlənmə mərasimindən söhbət açılır. Onun 8-10 il işlənməsi, fəhləlik etməsi vurğulanır. Verilən mehriyyə miliyonlarla hesablanır.

Quranın başqa yerində buyurur: «- Əgər arvadlarınızın boşanması qərarına gəlmişsinizsə və mehriyyə olaraq ona bir öküzün dərisinin həcmi boyda qızıl və gümüş vermişsinizsə, onu geri almayın» («Nisə» sürəsi ayə 20)

Peyqəmbərin şəxsi həyatından belə nəql edilir:

- O Həzrət əri Nəsraniliyi qəbul etdiyinə görə mürtəd sayılmış Əbu Sufiyanın qızı Ümm Həbibəyə 4 min dirhəm məbləğində mehriyyə göndərdi, ona etimad göstərib müfəssəl ziyafətlə qarşıladı. İmam Həsənin evlənmə mərasimlərindən belə nəql edirlər: O, arvadlarından birinə 100 kəniz və bir min dirhəm mehriyyə verdi. O, Həzrəti qətlə yetirən İbn Qeysin Cudə adlı qızı haqqında deyilirki, Həzrət ona mehriyyə olaraq 100 dinar mehriyyə göndərmişdir. Hədə-qorxu və güc tətbiq etməklə Əmirəl-

möminin qızı Ümm Gülsümlə evlənən ikinci xəlifə qırx min dirhəm məbləğində mehriyyə vermişdir.

Həzrət İmam Rizadan belə bir hədisdə oxuyuruq: «Əgər bir şəxs arvadının atasına 20 min dirhəm mehriyyə təyin etmiş ola və arvadının atasına isə min dirhəm verə. Atanın payına düşən pul haramdır. Lakin qıza verilən pul isə halal və caizdir».

## Hədislərdən əldə olunan nəticələr

Qurani-Kərimdən və hədislərdən belə nəticəyə gəlmək olur ki, mehriyyə təyin edilərkən hədindən artıq ifrata varmaq cəmiyyətin, ata və ananın məsləhətinə uyğun olmayan hallar olsa da, hər şeyə istisna hallar kimi icazə verilmiş şəriət qaydaları ilə həyata keçirilir və əxlaqa zidd addımlar atılmır.

Böyük məbləğdə olan mehriyyələr öz növbəsində ictimai və əxlaqi məna kəsb edir. Məsələn, Peyqəmbər tərəfindən Ümm Həbibə üçün təyin edilən 4 (dörd) min dirhəm ona görə idi ki, o xristian ölkəsində mürtəd əri tərəfindən atıldı. Atası Əbu Sufyan da kafir bütpərəst müşriklərin başçısı idi.. Qızı onun yanına qayıda bilməzdi. Həzrət Peyqəmbər belə bir evlənməyə razılıq verməklə onu ruhi əzabdan qurtarıb böyük məbləği mehriyyə və ziyafətlə özünə arvad etdi.

## «Mehrül-sünnə» nədir?

«Mehrül-sünnə» müəyyən bir mehriyyə olub, Peyqəmbər (s) tərəfindən bütün arvadları və qızları üçün təyin edilmişdir. Onun məbləği 500 dirhəmdir.

O, Həzrət həmin məbləği qızı Fatimeyi-Zəhra və başqa arvad-qızlarına vermiş, bu hərəkət digər müsalmanlar üçün ölçü və meyara çevrilmişdir. Bundan üstün olan nadir mehriyyələr hədiyyə kimi qəbul edilmiş və mehrül-sünnə ilə müxalif deyil.

Bu bairədə bir çox rəvayət və hədislər mövcuddur. Onlardan ikisini nəzər diqqətinizə cəlb edirik:

1. İmam Baqir (ə) buyurur: Peyqəmbər qızlarından və arvadlarından heç biri 500 dirhəmdən artıq məbləğlə nigah etmədi. Bu hədisdə açıq-aydın görünür ki, o Həzrətin nəzəri altında bağlanmış nigahlar «Mehrül-

sünnə» olmuş və bundan arrtıq olan mehriyyə Həzrət İmam Sadiqin hədisində deyildiyi kimi, bəxşiş adlanır.

Bir məsələnidə qeyd etmək lazımdır. Əgər rəhbər və məsul işlərdə olan şəxslərin, dini, siyasi və ictimai şəxslərlə ailə qurmaq mədəniyyəti və ona çəkilən maliyyə xərclərinin düzəlməsini, islah olmasını istəyirlərsə, yaxşı olar ki, bu işi özlərindən və qohumlarından başlasınlar. Radio və televizor vasitəsilə təbliğat xarakterli verlişlər yaysınlar və insanları başa salmağa çalışsınlar ki, həddən artıq dəbdəbəli və ağır yükü mehriyyələr qiymətsiz və xoşagəlməz olar. Əks təqdirdə evlənmək xərclərinin sürətlə yuxarı qalxmasına narazılıq, incikliyə səbəb olar.

## Toydan öncə mehriyyənin ödənilməsi

İslamın mədəni və huquq qanunlarından açıq şəkildə göstərilir ki, kişi toyda və zifaf geçəsinə qədər bütün mehriyyəni gələcək həyat yoldaşına verməlidir. Fiqh kitablarında göstərilir k, qadın mehriyyə ödənilmədən yaxınlıq etməkdən və bəyin qadını olmaqdan imtina etmək hüququna malikdir.

Əgər böyük Peyqəmbər və məsum İmamların həyat yoluna, adətlərinə, hədislərinə nəzər salmış olsaq görərik ki, bu böyük şəxsiyyətlər də mehriyyə ödəmədən heç bir arvadı evlərinə gətirməmişvə ona toxunmamışlar. Bu barədə onların hədis və göstərişlərinin mahiyyətinə varmış olsaq görəcəyik ki, meyriyyə vermədən qadına yaxınlıq etmək məkruh və düzgün hərəkət sayılmır.

İndi isə bu barədə bir neçə hədisə nəzər salaq:

İmam Sadiq dövrünün inanılmış fəqihlərindən olan Zurarə Həzrətdən soruşdu: «Qadınla evlənən şəxs toya qədər mehriyyədən heç nə vermədən evlənə bilər?»

Həzrət buyurur: «Xeyir. Mehriyyədən bir miqdar ödəməlidir. Bu hədislərdən görünür ki, mehriyyəsiz zifaf mətləbə uyğun deyildir. Mehriyyənin müəyyən hissəsi ödənilməlidir».

## Mehriyyəsiz ailə qurmaq

Müqəddəs İslamın şəriət qanunlarına əsasən mehriyyə olmadan ailə qurmaq, toydan əvvəl və sonra mehriyyə ödəmək və bundan imtina etmək

onun zifafı (evlənməsi) İslamı rəvayətlərə görə şəriətə uyğun olmayıb, zina səviyyəsindədir. Bu barədə bir neçə hədisə nəzər salaq:

1. İmam Sadiq (ə) buyurub: «Evlənərkən mehriyyə vermək istəməyən hər bir şəxsin evlənməsi zinaya bərabərdir».

2. Əmirəl-möminin və onun oğlu İmam Sadiqdən olan hədislərdə deyilir:

«Toy mərasimində mehriyyə verməkdən boyun qaçıran hər bir şəxsin ailə qurması Allah yanında zinaya bərabərdir».

Peyqəmbər (s) buyurur: «Qadını mehriyyə ilə alan ancaq tamahı ucbatından onu verməmək fikrində olan şəxslər qiyamət günündə zina etmiş şəxslər qiyafəsində zuhur olarlar».

Bu hədislərdən məlumolur ki, mehriyyəsiz nigah doğru nigah deyildir. Zahirdə və kağız üzərində mehriyyə verməyə razı olan, lakin batində onu ödəmək fikrində olmayan şəxsin evlənməyi zinaya bərabərdir.

## QADININ KƏBININƏ TƏCAVUZ ETMƏYIN

1. Qurani-Kərim buyurur: «Əgər bir arvadın yerinə başqa bir arvad almaq itəsəniz və onlardan birinə (birinciyə) çoxlu mal vermişsinizsə, ondan heç bir şey geri almayın! Məgər bu malı böhtan atmaq və aşkar bir günah iş görməklə gerimi alacaqsınız?! Siz onu necə geri ala bilərsiniz ki, (vaxtilə) bir-birinizlə yaxınlıq etmişdiniz və onlar (qadınlarınız) sizdən möhkəm əhd-peyman almışdılar». (Quran, «Ən-Nisa» surəsi, ayə 20-21)

2. Qadınlarınızın mehrlərini könül xoşluğuyla verin! Əgər onlar qəlbən, öz razılıqları ilə bundan sizə bir şey bağışlasalar, onu halal olaraq, nuşcanlıqla yeyin!

3. Peyqəmbər (s) buyurmuşdur: «Qadının mehrini zülümkarcasına verməyən adam Allahın dərgahında zinakardır: qiyamət günü ona xitabən deyəcəklər: «Ey mənim bəndəm! Səninlə bağladığım əhd-peyman əsasında öz kənizini səninlə evləndirdim: ancaqc sən mənim əhdimə vəfa etmədin və ona zülm etdin! Onda qadının haqqı qədərincə kişinin gözəl və yaxşı əməllərindən alırlar və arvadına verirlər. Kişinin yaxşı əməllərindən onun üçün daha heç bir şey qalmadığından, onu əhd-peymanı sındırdığı görə cəhənnəmə». (Əhd-peymanın məsuliyyəti vardır. Quran ayəsi).

4. Həzrət İmam Sadiq (ə) buyurur: «Oğrular üş qrupdur: 1. Zəkat verməyənlər; 2. Qadının mehrini ödəməyənlər; 3. Borc alan, ancaq qaytarmaq fikrində olmayanlar».

5. Peyqəmbər (s) buyurur: «Allah-Təala qadının mehrini inkar edəndən, muzdurun haqqını qəsb edib verməyəndən və azad bir insanı satan şəxslərdən başqa hər kəsi bağışlaya bilər».

6. İmam Sadiq (ə) buyurur: «İnsan öldürmək, qadının mehrini verməmək, muzdurun zəhmət haqqını ödəməmək günahların ən çirkinidir».

## NİŞANLIQ DÖVRÜ

Bəylə gəlinin razılığından, siğə oxunub kəbin kəsilmə mərasimi bitdikdən sonra şirin və unudulmaz nişanlıq dövrü başlayır. Bəylə gəlinin və onların ailələrinin bir-birinə qarşı olan hörmət və məhəbbəti bir neçə dəfə artır.

Ulu Tanrı ər və arvad arasında əvəzi olmayan eşq və yaxşı ünsiyyət yaratmışdır. Bu yaxınlıq və məhhəbət nişanlıq dövrünün ilk günlərindən təzahür edir. Iki gənc bir-birini görməkdən xoş hisslər duyub daxili aramlıq tapırlar.

Ər və arvadın bir-birinə qarşı olan bağlığı və qırılmaz münasibəti xüsusən nişanlı vaxtında fövqaladə dərəcədə çox olur. Lakin onu qoruyub saxlamaqdan ötəri əxlaq qaydalarına riayət etmək lazımdır ki, onun şölənən alovunun şuası sönməsin və ailə telləri qırılmasın. Biz evlənmək dövrünü yaşayan və bir müddət nişanlı qalmaq məcburiyyətində olan, bu xoş anların onların həyat boyu faydalı və təsirli iz qoymasını istəyəsən əziz cavanlara bir sıra şərtlər və məsləhətlər veririk.

1. Bəy və gəlin çalışmalıdırlar ki, bir-biri ilə xoş rəftar edib münasib olmayan söz və hərəkətlərdən çəkinsinlər.

Tərəfi-müqabilin eşq ilə dolu olan ürəyini çirkləndirməsinlər. Ən xırda inciklik bu həssas dövrdə acı bir sonluğa çevrilər və onun ayrılmaqdan başqa çarəsi olmaz.

2. Bir-birinə həddən artıq iddialar irəli sürmək, tez-tez gedib-gəlmək əlaqələrin soyumasına gətirib çıxarar. Bəylə gəlinin nişanlılıq dövründə bir-birinin xasiyyətinə tam bələd olmadığı üçün bilməzlikdən elə bir iş edə bilər ki, tərəflərdən birinin xətrinə dəyər. Bu dövürdə tələbat, gedib-

gəlmək halları çox olarsa nişanlı zaman müəyyən səhvlər üzə çıxar, onları peşman edər və kədərləndirər.

3. Bəy və gəlinin bir-birini sevməli və etimad göstərməlidir. Onlar danışdığı sözlərin mahiyyətinə Əks təqdirdə sözgüdənlər və şeytan adamlar onların əlaqələrini zəiflədib qıra bilərlər.

4. Nişanlılıq dövrü nə qədər qısa olsa bir o qədər şirin olar və bəyin evində - zifaf otağında özünəməxsus bir ləzətlə bitər. Əksinə bu həyati an nə qədər uzun çəkərsə bir o qədər yorucu olar və həyat çətinliklər də tərədə bilər.

Çoxlu sayda oğlan və qız göstərmək olar ki, həmin dövrün uzun sürməsi nəticəsində bir-birindən ayrı düşmüşlər.

5. Gəlin çalışmalıdır ki, bəyin evinə gəlməzdən əvvəl öz gövhərini qorusun. Çünki zifaf gecəsinin şirinnikləri ondan asılıdır. Başqa sözlə desək, əsil toy zifaf gecəsi olar, gəlinin evində olmaz.

## Əli-Əleyhisalamin Fatimeyi-Zəhra ilə nişanlıq dövrü

Əmirəl-möminin Əli (ə) buyurur: Peyqəmbərin qızı Fatimə ilə nişanlandıqdan sonra mənim Peyqəmbərlə məsciddə namaz qılmağından başqa heç bir əlaqəm yox idi. O, Həzrətin evinə heç bir gediş-gəliş yox idi. Bizim nişanlanmağımızdan bir ay keçirdi. Lakin Fatimə ilə görüşmək mümkün olmurdu. Çünki mən Peyqəmbərdən həya edirdim. Hətta Zəhra haqqında bir söz də danışmırdım. O Həzrət xüsusin hallarda məni gördükdə deyirdi: «Müjdə olsun. Sənin həyat yoldaşın Fatimə nə qədər gözəldir?! Sən dünyanın ən gözəl qadınlarından biri ilə evləndin..».

Kəbin mərasimindən bir ay keçmişdir. Əlinin qardaşı Əqil ibn Əbi Talib gəlib dedi: «Qardaşım Əli, nə üçün Peyqəmbərdən istəmirsən ki, sizin toy mərasiminizə hazırlıq görüb Fatiməni sənin evinə köçürsün? And olsun Allaha, heç bir şeyə səninlə Fatimənin evlənməyi qədər sevinməmişəm».

Əli qardaşının cavabında buyurur: «Allaha and olsun, arvadımı evimə gətirmək istəyirəm. Lakim utandığımdan bu barədə Peyqəmbərə bir söz deyib Fatimənin adınıçəkə bilmirəm».

Əqil dedi: «Qardaş! Səni Allaha and verirəm hazırlaş, mənimlə bu saat Peyqəmbərin hüzuruna gedək və sənin evlənmə məsələni həll edək».

Əli qardaşı ilə hərəkətə gəldi. Peyqəmbərin yanına getməmişdən öncə onun kənizi Ümm Eymənin yanına gəldi. Əli ürək sirrini kənizə dedikdən sonra o dedi: «Məsləhət bilirəm bu barədə arvadlar işə qarışsın». Bu məqsədlə Ümm Eymənin Ümm Sələmə ilə görüşdü və məsələni onunla müzakirə etdi.

Digər tərəfdən Peyqəmbərin arvadları Əlinin hüzuruna yetişib dedilər: «Məgər istəmirsən ki, Fatimə ilə toyunuzu başlayasan?» O Həzrət cavab verdi: «Münasib olan tərzdə hərəkət edin».

Əlinin bu sözlərini eşidəndən sonra arvadlar Peyqəmbər hüzuruna yetişib dedilər: «Əgər Fatimənin anası Xədicə sağ olsaydı, bu xeyir iş münasibəti ilə bizə göz aydınlığı verib qızının toyuna hazırlaşardı. Ey Peyqəmbər məgər istəmirsinizmi bu xeyirli işi başlayasınız?»

O Həzrət buyurdu: «Yaxşı olar ki, Əmirəl-möminin özü irəli durub toyu başlasın».

Beləliklə hörmətli Peyqəmbər Əlini çağırıb bu məsələni onunla müzakirə etməyə başladı. Sonra arvadlarına belə göstəriş verdi: «Fatiməni zifaf otağına daxil olmaq üçün hazırlayıb bəzəyin». Sonra Peyqəmbər gəlin və bəyi hüzuruna çağırıb onları bir-birinə tapşırdı (təqdim etdi). Sonra Fatimənin işıq saçan üzünü Əliyə göstərdi və əlini Əlinin qızının əlinə qoyub hər ikisini sinəsinə sıxaraq dua etdi.

Onlarla mötəbər hədislərdən xülasə şəkilində təqdim etdiyimiz bu hekayədən belə nəticə əldə edirik ki, uzun müddət nişanlı qalmaq məqsədəuyğun deyil. Cavanlar bu məsələdə Həzrət Əlidən ibrət almalıdırlar.

Digər tərəfdən qız tərəfin evlənməyə cəhd etməsi məqsədəuyğun deyildir. Bu iş bəyin xaişi və arvadlarının vasitəsilə həyata keçirə bilər.

Qız ataları cəhalət hisslərini kənara qoyub, eşq və məhəbbətlə və tez bir zamanda gəlini bəyə təhvil verməlidirlər.

## Nişan mərasiminə bir neçə sual:

1. *Sual:* Oğlanla qız nişanlandıqda hicaba nə dərəcədə riayət etməlidirlər?

*Cavab:* Nişanlı oğlan və nişanlı qız artasında, kəbinlərikəsilməmiş heç bir əlaqəyə yol verilmir və onlar izdivaca girən ana qədər bir-birinə

namәhrәmdirlәrt. Hәtta lәzzәt almaq mәqsәdilә bir-birinә baxmaq vә geyimlәrindә sәhlәnkarlığa yol vermәk caiz deyil.

2. *Sual:* Nişan vә toy mәclisindә oğlanla qız şәkil çәkdirmәk mәqsәdilә namәhrәmlәrin qarşısında vacib sayılan hicaba riayәt etmәlidirlәr?

*Cavab:* Namәhrәmin müqabilindә vacib hicaba hökmәn riayәt etmәk gәrәkdir.

## Nişan üzüyü

*Sual:*Kişi nişan üzüyü adı ilә platindәn (ağ qızıldan) istifadә edә bilәrmi? Vә namaz qılan vaxtı bu cür üzüyün barmaqda olması caizdirmi?

*Cavab:* Kişi barmağında ağ qızıl üzüyün olmasının eybi yoxdur. Sarı qızıl üzüyün hökmü ona aid deyil vә namaza da xәlәl gәtirmir.

## Ağ vә sarı qızıl

1. *Sual:* Qızıl dedikdә ağ qızıldan nәzәrdә tutulur, yoxsa sarı qızıl?

*Cavab:* Kişi haram olan qızıl, yalnız sarı qızıldı

2. *Sual:* Bәzi qol saatlarının әqrәblәrinin rәngi qızıl rәngindә vә ya xalis qıldan olur. Qolda bu cür saatla namaz qılmaq, kişinin namazını batil edirmi? Bir halda ki, bәzәn mәlum etmәk olmur ki, bu saat hәqiqәtәn qızıldandır, yoxsa rәngi qızıl rәngindәdir?

*Cavab:* Hәr halda namazı batil etmir vә әgәr hәmin saatın qızıl olmağı mәlum deyilsә, eybi yoxdur.

## Diqqәt!

Qızıl bәzәk әşyaları ilә vözünә ziynәt vermәk boynundan asılan, qızıl zәncir, barmağa qızıl üzük taxmaq, qızıl qol saatı bağlamaq – kişi üçün haram sayılır vә ehtiyat-vacib odur ki, hәtta qızıl eynәk vә qızıl dişdәn istifadә etmәsin.

Lakin qadın üçün qızıl ziynәtlәrdәn istәr adi vaxtlarda, istәrsә dә namaz qılan vaxtı eyb elәmәz (bu şәrtlә ki, özünü namәhrәmә göstәrmәk mәqsәdi güdmәsin). Bütün hallarda, gәrәk qadın zinәt әşyalarını namәhrәmә göstәrmәsin.

## GƏLİNİN CEHİZİ

Müsalmanlar gəlin cehizi məsələsində iqtisadi vəziyyətlərini nəzərə almalı, yuxarıdan getməməlidirlər. Özlərini nümayiş etdirməyi, riyakarlıq etməyi və öyünməyi-təssüf ki, (bu günnbunlar bir dəb halını alıb və İslamın mahiyyətinə ziddir) –bir kənara qoymalıdırlar. Eləcə də mehr haqqında rəqabətdən, özünü göstərməkdən və s. çəkinmək lazımdır, çünki bu əməllərin heçbirinin xoşa gəlməsindən əlavə, bu ağır tələblər izdivac işini daha da çətinləşdirir və yaşayış xərclərini çoxaldır. Ona görə subay kişilər naçar qalıb bu qorxulu girdabın içinə düşməyə cürət etmirlər. (Cavanların həyat yolu elə gənclik illərinin başlanğıcından əyilir, bünövrəsi əyri qoyulan divar isə düz olmaz.

Allah, Peyqəmbər və İmamlardan bu ilahi sünnənin ehya olunması üçün bu qədər təkidlə edilən bütün rəvayət və tövsiyələr yarımqadağar şəkilində qeyd olunur və bunların hamısı onun üçündür ki, mal halal, qızların çehizi üçün hazırlanan vasitələr şəriətə uyğun olsun. Bundan nə çıxar ki, rüşvət və oğurluqla əldə edilmiş pulla gözünün işığı olan qız üçün stəkan-nəlbəki, qızıl-gümüş, qab-qaşıq alsınlar!

1. Fatimeyi-Zəhra (ə) toy haqqnda olan hədisdə Həzrət İmam Sadiq (ə) buyurub: «Peyqəmbər (s) Əli (ə) buyurur: «Dur get zirehini sat». Əmirəl-möminin buyurdu: «Zirehi bazara apardım, satdım, pulunu gətirib Rəsulallahınətəyinəı tökdüm. Nə o soruşdu nə qədərdir, nə də mən dedim. Sonra o pulardan bir ovuc götürdü, Bilalı çağırdı, buyurdu: «Bunları Fatimə üçün ətir al». İki əlini ovcu dolusu pul götürüb Əbu Bəkrə verib buyurdu: «Paltar və mənzil üçün ləvazimat al».Əmmarı və başqa bir neçə ənsarı onunla yolladı. Aldığı şeylər bunlardan ibarət idi: 1. Bir köynək – 7 dirhəm; 2. Bir çarpaq – 4 dirhəm; 3. Bir qara xeybəri çadır; 4. Kəndir xurma ağacının qabığından toxunmuş bir taxt; 5. Üzü Misir kətanından olan bir cüt döşək; birinin içini xurma lifi ilə, digərinin içini qoyun yunu ilə doldurulmuşlar; 6. Üzü Taif dərisindən olan və içi əzxər otunun samanı ilə doldurulmuş dörd balış; 7. Bir yun pərdə; 8. Həcər toxunuşu olan bir həsir; 9. Bir mis teşt; 10. Bir dəri su tuluğu; 11. Bir süd qədəhi; 12. Bir su dolçası; 13. Bir aftafa; 14. Bir yaşıl rənkli küp; 15. Bir neçə saxsı küzə.

Alınan şeyləri Peyqəmbərin hüzuruna gətirəndə yoxladı və buyurdu: «Alllah Əhli-beyt üçün mübarək eləsin!» (Bu atası fövqəladə altına qızıl-gümüş əvəzinə başlarını nisar eləməyə hazır olan bir qızın cehizinin müxtəsər siyahısıdır. Amma o, nə kürəkənini borc qüssəsi çəkməyə qoydu, nə müsalmanların beytul-malın yetimlərə və ümumi işlərə sərf olunmalı olan vəsaitini özünü nümaiş etdirməyə və yersiz bər-bəzəyə xərclədi, nə izdivacın xərcini çoxaltdı nə də başqalarını zəhmətə saldı! Böyük sadəlik göstərdi ki, xalqa doğru-düzgün bir nümunə versin! (Amma əfsus!...)

## Cehizin hazırlanması

Ata və ananınnn hələ cavan çağlarında öz qızları üçün tədricən cehiz tədarük etməsinnnə baxmayaraq qızın nişanlı olduğu dövr bu vəzifə daha da təkmilləşir və lazım olan əşyalar qızla bərabər oğlan evinə göndərilir. Qıza verilən cehiz və hədiyyələr alicanablıq xüsusiyyətlərindən olub, insanlıq imtiyazı kimi qiymətləndirilir. Bu xüsusiyyətlər daha çox ata və anaya şamil edilir və böyük qiymət kəsb edir. Peyqəmbər (s) buyurur: «Ehsan və bəxşiş kimi əməllərini özündən başla. Artıq malın olarsa ailənə, qohumlarına, qonşu və həmvətənlərinə məsrəf et».

Başqa hədisdə deyilir: «Allah yolunda xərclənən pul və bir qulun azadlığı üçün kasıb adamlaras məsrəf olunan pulun mükafatı ehsan və əhli-əyal üçün xərçlənən pulun əvəzini çıxa bilməz».

Həssas və kövrək qızlar üçün cehiz hazırlamaq çox zəruridir. Belə şəxslərə verilən cehizin miqdarı nə qədər çox olarsa onun savabı da bir o qədər artıq olar. Qızın rifah halının yaxşı olması ata-ananın baş ucalığıdır. Lakin əgər cehiz hazırlamaq indiki zamanda rəqabətin kəskinləşdiyi bir dövrdə çətinliklə başa gəlirsə bu halda imkansız ailələrin narahatçılığına səbəb olar.

Yaxşı sayda valideyinlərə rast gəlmək olur ki, maddi imkanları olmadığından qızlarının ailə qurması üçün hazırlıq görə bilmirlər. Bir çox adamlar da oğurluq, fitnə-fəsad və xəyanət, əxlaqa zidd yollara düşürlər. Qazet səhifələrində belə ictimai həqiqətlər doludur.

Yaxşı olar ki, məsul, görkəmli, ictimai-siyasi və dini şəxsiyyətlər sadə yaşamaq kimi keyfiyyətləri kütləvi informasiya vasitələrində

işıqlandırsınlar. Digər tərəfdən imkansız və ehtiyaclı ailələrə baş çəkib, bəxşişlər etməklə az təminatlı ailələrin ağır yüküü azaltsınlar.

## Cehizin pulu kimin malıdır?

*Sual:* Nigah ərəfəsində qız evinə cehiz tədarükündən ötrü verilən nəqd hökm nədir?

*Cavab:*Əgər pul bir kəsə bağışlanmayıbsa, əvvəlki mül sahibinə məxsusdur.

## Cehizin pulunun xümsu

Bir il müddətində gəlin üçün avadanlıq, ev, paltar, bəzək və yemək şeyləri, həmçinin ziyafətə və bu kimi şeylərə sərf olunan xərcliyin (əgər həddini aşmırsa) xums yoxdur.

*Sual:* Qızın cehizi və ya cehizi üçün nəzərdə tutulmuş pul xums düşürmü?

*Cavab:* Əgər cehizi üçün pul ayrılıbsa, xums düşmür. Mal (paltar və s.) alınsa – xums süşmür.

Əgər qızın cehizini insan bir dəfəyə hazırlaya bilmirsə, məcbur ola ki, ildə bir hissəsini almış olsun. Nəzərə alsaq ki, cehiz almaq el arasında eyib sayılır – belə olan halda xums düşür.

## Evlənməyə dair xütbələr

Nigah mərasiminin proqramlarından biri də siğə duasından əvvəl oxunan xütbədir. Ehtiyatsızlıq edib onu yaddan çıxartmaq olmaz. Həmin xütbədə Allaha sitayiş, Peyqəmbərə və onun Əhli-beytinə salam və salavət göndərməlidir. Xütbə, mətndən asılı olmayaraq yuxarıda qeyd edilən məzmunları əhatə edirsə kifayətdir.

Vacib deyil ki Peyqəmbər və Əlinin nigah mərasimində oxunan xütbələrdən istifadə edilsin. Bu hədislər hədis və fiqh kitablarında mövcuddur.

İndi isə Əmirəl-möminin ilə Fatimeyi-Zəhranın nigah mərasimindən bəzi məqamları siz əziz oxuculara təqdim edirik.

Cabir ibn Əbdullah Ənsari belə söyləyir: «Fatimə Əli ilə evlənməyə razılıq verdikdən sonra Peyqəmbər (s) buyurdu: «Ya Əli, dərhal məscidə get, adamları oraya dəvət et. Sizin nigah mərasiminiz orada oxunmalıdır. Orada iştirak edənlər sənin üstün cəhətlərini bilməlidirlər». Əli son dərəcə bir sevinc içərisində adamlarla bərabər məscidə gəldi. Əziz və hörmətli İslam Peyqəmbəri də özünü təcili adamlara yetirdi və minbərdən xalqa müraciət etdi».

## IZDIVACIN QİSİMLƏRİ

İzdivac prosesində kişi ilə qadın arasında nigah bağlamaqda (kəbin kəsməklə) qadın kişiyə halal olur. Bu cür əqd (nigah) iki qismə bölünür: *daimi və müvəqqəti.*

Daimi əqd odur ki, onda evlənmək müddəti müəyyən olunmur və o qadının ki, əqdini bu cür oxuyurlar – ona kəbin kəsmək deyirlər.

Müvəqqəti əqd – ona deyərlər ki, evlənmək müddəti müəyyən olsun.

Hər iki qismdən olan izdivacın bəzi hökümləri:

1. İstər müvəqqəti, istərsə də daimi nigah zamanı ərlə arvad arasında siğə oxunmalıdır. Bunun üçün təkcə kişinin və qadının razılığı kifayət edir. Əqdin siğəni kişi ya qadın özü, ya da bir başqasını vəkil tutmaqla siğə oxutdura bilər.

2. Kişi ilə qadın yəqin bilməsələr ki, onların vəkili siğələrini oxuyub, bir-birinə məhrəmanə tərzdə baxa bilməzlər. Vəkil özü, -«Mən sizin siğəni oxudum» deməsə, kişi və qadın bir-birinə naməhrəmdirlər.

3. Bir şəxs özünə daimi və ya müvəqqəti əqd siğənni oxutdurmaq üçün digər iki nəfəri vəkil tuta bilər. Həmçinin qadın tərəfindən də, özünə vəkil tuta bilər. Lakin ehtiyat müstəhəb odur ki, əqdi iki nəfər oxusun.

### Daimi əqdin oxumaq qaydası

Əgər daimi əqd siğəsini kişi və qadın özləri oxumalı olsalar, əvvəl qadın deməlidir: «Zəvəctukə nəfsi ələssadaqil-məlum» - (yəni müəyyən olunmuş mehrə (məbləğə) əsasən özümü sənin arvadın sayıram.

Ondan sonra kişi fasilə vermədən desin: «qəbultut-təzvicə» - yəni, izdivacı qəbul etdim.

Belə oxunsa vəqd səhihdir.

Əgər bir başqa adamı vəkil tutsar ki, onların əvəzinə əqdlərini oxusun (məsələn; kişinin adı Əhməd, qadının adı Fatimə olsa) əvvəlcə qadının vəkili deməlidir: «Zəvvəctu muvəkkiləti Fatimətə müvəkkiləkə Əhmədə ələs-sadaqil-məlum».

Sonra kişi tərəfdən vəkil tutulan adam fasilə vermədən deməlidir: «Qəbiltu limuvəkkili Əhmədə ələs-sadaqil-məlum».

## Müvəqqəti əqdin oxuma qaydası

Əgər qadın və kişi istəsələr ki, müvəqqəti bağlanan əqd siğələrini özləri oxusunlar, mehrin müddəti və məbləği müəyyənləşəndən sonra əvvəlcə qadın belə deməlidir: «Zəvvəctukə nəfsi fil-müddətil-məluməti ələl-mehril-məlum (Təyin olunmuş müddətə, məlum mehriyyə müqabilində özümü sənin arvadın sayıram). Sonra kişi fasilə vermədən deməlidir: Qəbul edirəm-(qəbiltu)».

Əgər başqalarını vəkil tutsalar, onda əvvəlcə qadının vəkili, kişinin vəkilinə deməlidir: «Müttətu muvəkkiləti fil-müddətil-məluməti əməl-mehril-məlum».

Sonra kişinin vəkili fasiləsiz deməlidir: «qəbiltu likuvəkkili hakəzə».

## İzdivacın şərtləri

Izdivac zamanı əqdin oxunmsını bir necə şərti vardır:

1. Ehtiyat-vacib odur ki, əqd ərəbcə, oxuna, həm də səhih (düzgün) oxuna. Əgər kişi və qadın «siğə»ni ərəbcə səhih oxuya bilməsələr, onda özlərinə məxsus ləfzlə (əlbəttə ərəbcə) bacardıqları kimi oxusunlar, lakin çalışsınlar ki, «zəvvəctu» və «qəbiltu» kəlmələrini aydın və başa düşüləcək tərzdə tələffüz etsinlər və lazım deyil ki, vəkil tutsunlar.

2. Kişi və ya qadın siğə oxuyarkən qadın deməlidir ki; «zəvvəctukə nəfsi»-niyyəti bu olmalıdır ki, özünü həmin kişinin arvadı qərar versin. Eyni zamanda, kişi deməklə ki, «qəbiltut-təzvicə», -niyyəti, həmin qadını özünə arvad kimi qəbul etmək olmalıdır.

Həmçinin, əgər siğəni kişi və qadınınvəkil tutduqları adamlar oxuyurlarsa; «zəvvəctu» və ya «qəbiltu» dedikdə, niyyətlərini tutsunlar ki, onları vəkil edən kişi və qadının bir-birinə ər-arvadf olsunlar.

3. Siğəni oxuyan şəxs – həddi buluğa çatmış adam olmalıdır, istər özləri üçün oxuyanda, istərsə də, başqaları tərəfindən vəkil tutulanda.

4. Əgər kişi və qadın hər ikisi izdivaca razı olsalar, lakin qadın zahirən, müəyyən səbəblərə görə desə ki, razı deyiləm və məlum olsa ki, qəlbən razıdır – belə halda əqd səhihdir.

5. Əqd (kəbin) oxunarkən, bir hərf də qələt oxunsa (o sürətdə ki, kəlmənin mənası dəyişə bilər) – onda əqd batildir.

6. Əgər bir adam ərəb dilinin xüsusiyyətlərini bilmirsə, lakin qiraəti səhihdirdirsə, əqdin hər bir kəlməsinin ayrı-ayrılıqda mənasını bilirsə, o, kəbin oxuya bilər.

7. Əgər bir qadının, bir kişi ilə razılıqları olmadan evləndirsələr, sonradan qadın və kişi desələr ki, «biz bu izdivaca razılıq» - əqd səhihdir.

8. Əgər kişi ilə qadını, yaxud onlardan birini məcburən evləndirsələr, lakin əqd oxunduqdan sonra desələr ki, bu kəbinə razıyıq – onda əqd səhihdir.

9. Evlənən vaxt kişi və qadın arasında izdivacın şərtlərini poza bilməyən əhd peymanları olsa – o əhdə vəfa etmək hər ikisinə vacibdir.

10. Əgər kişi şərt kəssə ki, evlənəndən sonra arvadını şəhərdən (yaxud yaşadıqları məntəqədən) kənara aparmayacaq – lazımdır ki, o şərtə riayət eləsin.

## İzdivacın barəsində ata-ananın və qohum-qardaşın mövqeyi

1. İzdivac prosesində atanın, babanın (at tərəfdən) və ulu babanın öz övladlarının (istər qız, istərsə də oğlan) işlərinə dəxalət etməyə səlahiyyətləri çatır və onlara üstünlük verilir. Amma ana, ana-babasının, atasının anası (nənəsinin), qardaş, bacı, əmi, dayı və s. qohumların – vilayəti yoxdur.

2. Əgər qız həddi buluğa çatıbsa və istəsə ki, kiməsə ərə ketsin – gərək – gərək atadan və ya ata-babadan icazə istəsin. (Ananın və qardaşın rəyi mühüm deyil).

3. Əgər qızın ata-babası mövcüd olmasalar ki, izni almaq mümkün olmaya və qızın da ərə getməyə ehtiyacı ola və ya bakirə olmaya, istədiyi şəxsə ərə gedə bilər.

4. Qızın ata-babası yoxdur, lakin qardaşları varsa, müstəhəbdir ki, ərə gedərkən böyük qardaşdan icazə istəsin.

5. Əgər izdivaca ata-babanın icazəsi və məsləhətləri pis məqsəd daşımırsa, (məs: mənafe, vəzifə, şöhrətpərəstlik və s.) təqdirəlaiq bir işdir və izdivacın şərtlərinə uyğundur, lakin ata-babanın bu məsləhəti pis niyyətlə olsa, bu cür bağlanan əqd fayda verməz, sanki kənar, aidiyyəti olmayan bir şəxsin iştirakı ilə başa gəlib. Eyni zamanda belə hallar nəinki izdivacın şərtlərinə uyğun deyil, hətta İslam mədəniyyətinə və əxlaqına ziddir.

*Sual:* Əgər normal və həddi buluğa çatmış qız istəyir ki, cavan, dindar bir müsalmanla ailə qursun, lakin maddi vəziyyətin çətinliyi üzündən valideyinləri razılıq vermirlər. Belə halda qız atasından icazəsiz ərə gedə bilərmi?

*Cavab:* Evlənmək məsələsində, atanın icazəsi bakirə qızçün şərtdir, amma əgər qızın ehtiyacı ola ərə getməyə və yəqin etsə ki, əgər həmin şəxsə ərə getməsə, daha onunçün münasib ər tapılmaz – belə olan sürətdə mümkündür ki, icazəsiz ərə getsin.

# II HİSSƏ

# TOY MƏRASİMİ

# NİGAHIN VAXTI VƏ SAATI

Muasir dünya elminin müxtəlif sahələrində - texnika və sənayedə böyük dəyişilik və inkişafın baş verməsinə, bəşəri məchulluqların bir-birinin ardınca reallıqlara çevrilməsinə baxmayaraq elm bəzi suallar qarşısında aciz qalmışlar. Hətta zəka sahibləri olan alimlər etiraf edirlər ki, onların elmi məlum olmayan mətləblər qarşısında bir nərdivana bənzəyir və onlar həmin nərdivanın bir neçə pilləsini fəth etmişlər.

Qurani-məcid bu həqiqətə işarə etmiş və buyurmuş: «Biz insanlara az elmlər mərhəmət etmişik». («İsra» surəsi, ayə 75) Onu heyrətləndirən o cəhətdir ki, bu ayə Peyqəmbər xitabən deyilmişdir. Aydın olur ki, Mühəmməd və ali Mühəmmədin aşıb-daşan elmi o böyüklek və əzəməti ilə kifayət deyil, məhdudur. Buna görə də dünya məsələlərinin hamısının dərk edilməsi mümkün deyildir.

Belə nəticə çıxartmaq olar ki, cəmiyyət və insanlar üçün İslam dinində bir sıra məsələlər təsdiq edilib və məhdud bəşər əqli və elmi dəqiq şəkildə onların rabitəsini kəşf edə bilmirsə bu ilahi din və ehkamın təqsiri deyildir.

Nigah və toy mərasimi üçün xüsusi göstərişlər verilmişdir. Hətta bu mərasimin anı, saatı barəsində də İslamın sələflərinə yollar göstərilir.

## Nigah üçün gecənin münasib olması haqqında

Gecə-gündüz və onun bütün anlarının Allah tərəfindən xəlq edilməsinə zaman və hərəkət nöqteyi-nəzərindən təfavütü olmasına baxmayaraq müxtəlif saatlarda təsirini inkar etmək olmaz.

Mərhum «Sahibi-Cəvahir» buyurur: Yaxşı olr ki, nigah gecə olsun. Bu məqsədlə bir neçə hədisə müraciət edir. Həmçinin mərhum Seyid Kazım Yəzdi nigahın gecə icra edilməsini onun ən yaxşı keyfiyyətlərindən hesab edir.

İndi isə nəzər diqqətinii bu barədə olan bir neçə hədisə cəlb edirik:

1. Evlənmək fikrinə düşsəniz bu məqsədlə gecə vaxtını nəzərdə tutun. Çünki Allah gecəni rahatlıq və sakitlik üçün nəzərdə tutmuşdur [yaratmışdır].

2. Həzrət İmam Rza (ə) buyurur: «İslam adətinə görə evlənmək gecə olmalıdır. Çünki Allah gecəni sakitlik rəmzi kimi yaratmışdır. Adınlar da sakitlik timsalıdırlar».

Daha münasib və daha yaxşı olar ki, əziz bacı və qardaşlar evlənmək mərasimini elə tənzimləsinlər ki, imkan daxilində bu mərasim Məğrib azanı və namaz qılındıqdan sonra icra edilsin. Qeyd etmək lazımdır ki, cümə günü əziz gün və ən böyük bayramlardan sayılır və müttəqilərin Mövlasının rəvayətinə görə istisna olan bir gündür. Bu mübarək gündə icra olunan toy mərasimləri məqsədəuyğundur. Gündüz toy etmək istəsəniz yaxşı olar ki, cümə gününü seçirsiniz.

## Toy etmək üçün münasib olmayan əyyam (zaman)

Rəvayətlərə görə, hər ayın axırının 3 günü və gecəsi və ayın Əqrəb bürcünün üzərinə düşdüyü vaxt toy etmək üçün münasib deyildir. Həmin vaxtlar bu işi icra edən şəxslər xeyir tapmazlar. İndi isə diqqətinii bu barədə olan bir neçə hədisə cəlb edirik.

1. İmam Sadiq (ə) buyurub: Ayın əqrəbin üstünə düşən vaxtı, səfərə çıxan və evlənən şəxs səadətə qovuşa bilməz.

2. İmam Sadiq Əleyhissəlam ayın axırında olan toylara ikrah hissi ilə yanaşırdı.

Hədislərlə yanaşı böyük alimlər də öz əsərlərində bu məsələyə münasibətini bildirmişlər: Ay səkkizinci bürcdə oarsa, çərşənbə günü, nəhs günlər və ayın 3 axır günü münasib olmayan gün sayılırlar. Göründüyü kimi, qeyd edilən hədislərdə və alimlərin əsərlərində qeyd edilən günlərdə evlənmək qorxulu hal kimi qiymətləndirilir.

## Nigah üçün münasib olmayan saatlar

Günortaya yaxın və ondan bir qədər sonra toy mərasiminin icrası çox təhlükəlidir.

İmam Baqirdən olan bir hədisdə deyilir: «Bir kişi günortaya yaxın bir qadınla evləndilər. Atam İmam Səccad belə bir vaxtı qeyri-münasib adlandırdı. Bir müddət keçdi. Lakin kədər doğuran heç bir xəbər eşidilmədi. Mən bundan təccübləndim. Bir gün həmin qadın atamın

hüzuruna gəlib atama kədərli xəbərlər danışdı. Həmin qadından cavabında eşitdi ki, evləndiyiniz günorta vaxtı olub».

İmam Baqirə xəbər verdilər ki, bir şəxs künorta vaxtı evlənib. O dedi: «Onların qarışılıqlı ailə ocağında yaşamasını mümkün hesab edirəm». Uzun çəkmədi bu evlənmə talaqla nəticələndi.

Hədislərdən belə nəticəyə gəlmək olur: Çalışın imkan daxilində toy və zifaf kecəsi mərasimləri axşam icra edilsin. Cümə günləri istisna olmaqla evlənmək mərasinin gündüzlər icra edilməsi məqsədəuyğun deyildir. Həftənin 3-cü günü də münasib deyil.

## Toy - şadlıq mərasimi

Islam dini kamil dindir. Bu din öz sələflərinə həyatın bütün sahələrində yol göstərir. Buna görə də onların yaslı, kədərli günləri şad və xoş günlərindən fərqlənir.

Islamda bütün bunlar üçün müəyyən edilmiş proqram mövcuddur.

Bəy və gəlin bir-biri ilə evlənən vaxtı onların şirin xatiriləri başlayır. Insanlar şadlıq məclisi qurmaq bu müqəddəs qovuşmanı qeyd edirlər.

Peyqəmbər (s) buyurur: «Toy mərasiminin qeyri-şəriət yolu ilə baş vermiş yaxınlığından üstün və imtiyazlı cəhəti odur ki, toyda nağara çalsınlar». Bu hədis tam aydın şəkildə göstərir ki, iki nəfərin evlənməsi Allahın hökmü ilə baş verir. Toy və nağara çalmaqla bu bir növ elan edilir. Hamı bilməlidir ki, bir oğlan və bir qız bir-birinə qismət oldular. Zinalıq əlaqəsindən fərqli olaraq bu iş gizli deyil, hamının xəbər tutduğu bir tərzdə baş verir.

Peyqəmbərin digər bir hədisində belə buyurulur: «Halal və haram rabitə arasında olan fərq bundan ibarətdir ki, şəriət yolu ilə edilmiş toy nağara çalmaq sevinc və səs-küy rəvac olur. [Haram əlaqələrin əksinə olaraq – bu rabitə gizli şəkildə, nəzərlərdən uzaq baş vermir]».

Göründüyü kimi, şəriət toylarında deyib-gülmək nağara çalmaq kimi hallarla təbliğ və tərənnüm edilir.

## Bəyə qızıl üzük hədiyyə edilməsi

Əziz oxuculara məlum olduğu kimi, bir qrup adamların toy və şadlıq mərasimlərində İslam adət-ənənələrinə zidd boş və mənasız proqramlar

icra olunur. Heç vaxt belə hallara yol vermək olmaz. Bir məsələni də qeyd etmək istəyirəm ki, bu proqramlarda gəlinin bəyə üzük hədiyyə etməsi ümumi bir adət şəklıini almışdır. Təssüflə qeyd etmək lazımdır ki, özünə dindar göstərilən adamlar da İslama zidd olan bu adətə qovulmuşlar. Müqəddəs İslam dininin göstərişlərinə əsasən və dinə aid böyük alimlərin risalələrində «Namaz qılanın paltarı» fəslində deyilir: «Qızıl ilə bəzənmək, üzük və qızıl zəncir (boyunbağı) taxmaq, qızıl qol saatı gəzdirmək kişilər üçün haramdır və bu şeylərlə namaz qılmaq onu batil edər». Buna görə də belə şeylərdən çəkinmək və ona qarşı mübarizə aparmaq hər bir müsalmanın borcudur.

## Məscidlərdə evlənmə mərasimi

Ailə qurmaq o qədər müqəddəsdir və o dərəcədə İslamın diqqət mərkəzində yerləşir ki, belə mərasimləri ən müqəddəsc yerlər olan məscidlərdə də qeyd etmək olar. Burada şəmlik mərasimləri icra etməklə məscidləri diqqət mərkəzinə çəkib səssiz bir güşədən xoş məramlı ictimai şənliklərmərkəzinə çevirmiş oluruq. Bununla da insanlara anladılır ki, məscid təkcə quru ibadətgah və namaz qılmaq yeri deyil, ictimai və siyasi fəaliyyət üçün fəal bir mərkəzdir. Peyqəmbərin vaxtında bütün İslami və ictimai proqramların əsası orada qoyulurdu.

Diqqətiniz Peyqəmbərdən olan hədislərdə cəlb edirik:

- Ailə səadətinə qovuşmağı toy-bayram və sevinclə insanlara elan edin. Bu proqramları məscidlərdə də icra etmək olar.

- Toy mərasimlərini özünəməxsus bir şəkildə icra edin, onları məscidlərdə təşkil edib məclisinizi hərarətləndirin.

Nümunə üçün verilmiş bu iki hədis üç mövzunu əhatə edir:

a) Toyun elan və şadlıq mərasimin tərkibi;

b) Toy mərasiminin və şadlıq tədbirinin məsciddə keçirilməsi;

c) Nağara və şəriətlə icazə verilmiş digər musiqi adətlərindən istifadə etmək.

## Ruhani alimlərin bu haqda nəzəriyyələri

Toy mərasiminin bayramsayağı və şadlıqla keçirilməsi məsələsinə İslam dini tam şəkildə təkid edir. Bu adət və ənənə Peyqəmbər və digər

məsumlar tərəfindən icra edilmişdir. Heç bir sünni və şiə alimlərinin bu məsələdə fikir ayrılığı və etirazı yoxdur. Lakin bu şənliklərin keyfiyyəti, müxtəlif musiqi alətlərindən istifadə və mərasimlər icra edilən rəqslər və digər hərəkətlər elə bir şəkildə tənzimlənməlidir ki, belə şənliklər müqəddəs yerlərdə və məscidlərdə keçirilməsi fikir ayrılığına səbəb olmasın.

Mərhum Şeyx Ənsari bu barədə deyir:

- Hər yanda haram buyurulan müsiqinin çalışmasına alimlərimiz iki yerdə icazə vermişlər:

- Dəvə sahibinin dəvəni sürətlə hərəkət etməyə sövq edəndə.

- Xanəndənin toyda oxuduğu musiqi və mahnı.

Bir şərtlə ki, şəriətə zidd olan proqramlarla mərasim haram etməsin və şəriətə uyğun olmayan alətlərdən istifadə edilməsin.

İmam Sadiqin yaxınlarından olan Əbu Bəsir buyurur:

- O Həzrətdən qadın xanəndələr haqqında soruşdular. Cavab verdi: «Məclisdə kişi olarsa, qadının oxuması haramdır. Qadınların iştirak etdiyi toy məclisində oxumaları isə halaldır. Bunun heç bir manesi yoxdur».

Gördüyünüz kimi, İslam şəriəti ilə haram sayılan musiqi çalmaq və oxumaq proqramlarından asılı olaraq toy mərasimlərində və bayramlarda icra olunmasına icazə verilir. Şeyx Ənsari kimi şəxsiyyətlər bunu şəriətə uyğun hesab edir.

Peyqəmbər (s) buyurur: «Bayram və sevinclə iki nəfərin ailə səadətinə qovuşmasını elan edin». Digər bir hədisdə deyilir ki, Peyqəmbər gizli evlənmə mərasimlərini sevməzdi. Hədislərdə belə nəticəyə gəlirik ki, toylarda deyib-gülmək, musiqi calmaq müstəhəb əmirlərdəndir.

## HƏZRƏTI ZƏHRANIN TOY MƏRASIMI

Müqəddəs İslam dinində məzhəb bayramları, məsumların anadan olduğu gün, onlaarın şadlıq günləri sevinc və xoşbəxtlik əyyamı kimi qeyd edilir. O böyük şəxsiyyətlərin sələfləri həmin günləri hörmətlə yad edirlər.

Hədisdə deyilir: -Qadınlarən biri Fitr günü bayramını qeyd edirdi. Həmin məclisdə iki kəniz musiqi və mahnı oxuyurdu. Birdən Əbu Bəkr qızını görmək məqsədi ilə  Peyqəmbərin evinə daxil olur. Bu səhnəni görür və ona etiraz edir. Peyqəmbər Əbu Bəkrin bu hərəkəti müqabilində

buyurdu: «Ey Əbu Bəkr, hər bir tayfa üçün bayram ver. Bu gün də bizim bayramımızdır».

Həzrət Məsumin Əleyhissalamın şadlıq və bayram günlərinin içində İmamlarımızın valideynləri, iki böyük Məsum toy mərasimini nümunə kimi seçib, əziz oxucuların diqqətini bu toyun bəzi məqamlarına cəlb edirik.

Əmirəl-möminin Fatimə ilə nişan mərasimi «Məscidul-nəbidə» sona çatdı və onun xütbə və əqdləri Peyqəmbər və Əli tərəfindən oxundu və məsciddəki mərasim bitdikdən sonra Peyqəmbər öz evinə qayıtdı. Başqa bir mərasim təşkil edib arvadlarına əmr etdi: «Bu evlənməyin münasibəti ilə şadlıq edib nağara çalın». Peyqəmbərin həyat yoldaşları onun göstərişinə əməl etdilər. Nizam-intizamla şadlıq etməyə başladılar.

Bir müddət keçəndən sonra nişan dövrü qurtqrdı. Fatimənin Əlinin evinə köçürülməsi qərara alındı. Bu məqsədlə o əzəmətli Peyqəmbər göstəriş verdi: «Bu işin müqəddimatı sona yetişmişdir. İndi isə Fatimənin bəzəyin və Ümmül Səlimənin otağında başqa bir bayram qurun».

Peyqəmbərin övrətləri o Həzrətin əmr və göstərişlərini olduğu kimi yerinə yetirdilər. Fatiməni cənnət ətirləri ilə ətirləyib zifaf otağına saldılar. Bu zaman Peyqəmbər arvadların sevinc sədalarını və nağara səsini eşedib soruşdu: «Nə olub, nə xəbərdir?» Ümm Səlimə dedi: «Bu Əsma Bint Ömeysdir. Nağara çalmaqla Fatimənin xoşhal etmək istəyir». Bu sözləri eşidən Peyqəmbər əllərini qaldırıb Əsmaya dua edib dedi: «Mənim qızımın ürəyini sevinclə doldurduğu üçün Əsmanın qəlbini fərəh hissi ilə doldur».

Bu hədislərdən belə nəticəyə gəlmək olar ki, toy mərasimlərində çalmaq-oxumaq və şənlənmək şəriətə görə heç bir maneə olmadan icra oluna bilər.

Lakin arzuolunmaz hərəkətlərin qatılması, kişi və qadınların bir-birinə qarışması, bəzi məclislərdə baş verən abır-həyadan uzaq hərəkətlərə yol verilməsi şəriətə görə haram buyurulur və bunlar cəmiyyətə zidd hərəkətlər kimi qiymətləndirilir.

Allah-Təala hamınızı ayıq-sayıq etsin ki, Allahın haramını halal və onun halalını haram etməyək.

## KIMLƏRI ZIYAFƏTƏ DƏVƏT EDƏK?

Bütün hallarda gələnlərin sayı ən azı 10 (nəfər) olmalıdır. Yaxşı olar ki, kasib və imkansız adamlar da toy ziyafətinə dəvət edilsinlər. Belə toylara sərvətli adamların dəvət edilsəsi məkruhdur (çəsləhət görülmür).

Peyqəmbər bir hədisdə buyurur: «Varlı və imkanlı adamlara məxsus olan və imkansız, kasıb adamların həmin toylardan məhrum edilməsi nə qədər də iyrənc və çirkindir».

Peyqəmbərdən olan ikinci hədisdə oxuyur: «Ən pis qonaqlıq ziyafəti odur ki, oraya yalnız varlılar dəvət olunsun, imkansızlar isə belə ziyafətdən məhrum olsunlar. Bilin, hər kəs dəvətdən sonra belə məclisə getməkdən çəkinsə, Allaha və Peyqəmbərə qarşı itaətsizlik etmiş olar».

Bu hədislərdən aydın olur ki, bəxşiş və ehsan ziyafəti qarışıq olmalıdır. Xüsusi olaraq nə kasıblar və nə də varlılar üçün olmamalıdır.

Digər tərəfdən məclisə dəvət olunan kəslərin vəzifəsi orada iştirak etməkdir. Onların iştirak etməsi Allaha və Peyqəmbərə itaətsizlik kimi qiymətləndirilən.

Qurani-Kərimdə göstərlir ki, «Məclisdə iştirak etməkdən imtina etməyin». Böyük Peyqəmbər onlara mötəbər hədisdə bu məsələyə təkid edir. Qeyd etmək lazımdır ki, həddindən artıq təntənəli və iki gündən artıq sürən ziyafətlər məkruh və riyakarlıq sayılır.

## TOY KECƏSI, TOY GÜNÜ VƏ QONAQLIQ

1. Həzrət Rza (ə) buyurur: «Elə ki, gəlini gətirdilər, alnına tökülən tükü qaldır, üzünü qibləyə tutub de: «Pərvərdigara! Mən öz əmanətimi tapdım. İzdivac qaydalarının tələbinə uyğun olaraq, onu halal elədim. İlahi, ondan mənə mübarək və kamil-sağlam bir övlad nəsib et, şeytanı övladımdan uzaq elə».

2. Əli (ə) buyurur: «Elə ki, gəlin otağa daxil oldu, kürəkən iki rükət namaz qılıb, əlini onun alnına çəksin və desin «İlahi, həyat yoldaşımı mənə, mənim həyat yoldaşıma mübarək elə. Bir halda ki, bizim evlənməyəmizə kömək eləmisən, bizim həyatımızı xoşbəxt və mübarək elə! Əgər iş ayrılıqla nəticələnsə, bu ayrılıqda da bizə xeyir və yaxşılıq qismət elə».

3. Cabir deyir: «Elə ki, Peyqəmbər (s) Fatimənin (ə) Əliyə (ə) kəbinini kəsdi, dünyapərəstlərdən bir çoxu buna etiraz etdi ki, Siz öz qızınızı çox ucuz bir mərhələ Əliyə (ə) verdiniz». Həzrət cavab verdi:

«Bu nigah mənim ixtiyarımda deyildi, Allah özü Zəhranın kəbinini Əliyə kəsmişdi».

4. İmam Baqir (ə) özünün Meysər adlı birinə buyurmuşdur: «Ey Meysər! Toyu gecə elə, Allah gecəni sakitlik üçün yaratmışdır. Gecə hər hansı bir işin dalınca getmə, çünki gecə qaranlıqdır. Ancaq bir dostun, ya ehtiyacını ödəmək üçün hərəkət elə! Çünki sənin dostunun və möhtac olan adamın gecə vaxtı (sənin boynunda) böyük haqqı olacaqdır. (Çünki bu zaman sənə olunan müraciətin ehtiyac və çətinliklər üzündən olunduğu göstərilir)».

5. Həzrət Sadiq (ə) buyurur: «Gəlini ərinin evinə gecə aparın və qonaqlığı gündüz verin!»

6. Həzrət Rza (ə) buyurur: «Toy gecəsi Peyqəmbərin (s) sünnələrindəndir; çünki bu gecəni Allah rahatlığı əsası-mayası kimi müəyyən etmişdir və qadın özü də könül xoşluğu üçündür».

7. Həzrət Rəsulullah (ə) buyurur: «Gecəni səhərə qədər ayıq olmaq üç məqamdan başqa heç vaxt rəva deyildir: 1. Quran tilavəti zamanı, elm öyrənmək vaxtı, gəlini kürəkən evinə aparan zaman!»

8. Həzrət Əli (ə) buyurur: «Əgər bir kəsdən bir ehtiyacınız varsa, dalınca gündüz gedin. Çünki Allah həya hissini gözdə qərarv vermişdir. (Üzbəüz gəldikdə həya onun ehtiyacını rədd etməyə mane olur); əgər bir qadını evinizə gətirmək istəyirsizsə, bunu toy gecəsi edin. Çünki Allah gecəni rahatlıq üçün yaratmışdır».

9. Səkkizinci İmam buyurub: «Allah-təala gecəni və ər-arvadı könül rahatlığı üçün yaratmışdır. Toy gecəsi və gündüz qonaqlığı Həzrət Peyqəmbərin sünnələrindəndir».

10. Cabir ibn Əbdullah deyir: «Həzrəti Zəhranın (ə) toy gecəsi Peyqəmbər (s), Əlini (ə) çağırdı, sol tərəfində oturtdu. Sonra onların başını bir-birinə yaxınlaşdırdı: sonra hər üçü ayağa durdu və Əlinin (ə) mənzilinə doğru hərəkət elədilər. Cəbrail mələklər arasından «təkbir» səsini ucaltdı. Peyqəmbər (s) və müsalmanlar da «təkbir» dedilər. Və bu ilk təkbir idi ki, toy gecəsi söylənilmişdi və bir İslam adətinin mənbəyi olmuşdur».

11. Peyqəmbər (s) göstəriş verdi: «Əbdül-Mütəlibin qızları, mühacir qadınlar və ənsarlar Həzrət Zəhranın (ə) ardınca hərəkət etsinlər, sevinsinlər, şer oxusunlar, «Əllahu-Əkbər» və «Əlhəmdulillah» desinlər, Allahın bəyənmədiyi və razı olmadığı bir sözü deməsinlər».

Bu gün bir çox ölkələrdə belə bir adət var ki, mümkün qədər eyş-işrət, mahnı, musiqi, şərab, qumar və s. ilə həyata keçirilən toy günlərində qadın və kişi bir-biri ilə elə qaynayıb-qarışır ki, məhrəm naməhrəmdən, özününki özgədən ayırılmır. Burada günah və müsibətlər hədd və sərhəd tanımayacaq qədərdir. Amma Allaha və qiyamət gününə veriləcək cəzalara inanan adamlar əqlə və dinə zidd olan bu bcərimələrdən (günahlardan) ciddi sürətdə çəkinməlidirlər, özləri üçün, ailələri üçün axirət dünyasının əzablarını satın almamalıdırlar. Bilsinlər ki, Allahın göstəriş və hidayətlırinin çoxlarına söykənməyin, etinasızlıq göstərilən işlərin xeyir və bərəkəti yoxdur. Allah və Peyqəmbərə qarşı «müharibə» ilə başlayan izdivac xoşbəxt və mübarək ola bilməz.

12. Peyqəmbər (s) buyurur: «Toy məclisində iştirak etməyə tələsməyin, çünki o, sizin diqqətinizi dünyaya cəlb edir. Ancaq dəfn mərasiminə getməyə tələsin, çünki axirəti səzə xatırladır!»

## TOY MƏRASIMLƏRİNDƏ VERİLƏN YEMƏKLƏR

Bəxşiş və ehsan vermək Allah bəndələrinin xüsusi keyfiyyətlərindəndir. İlahi belə bəndələrini sevmiş və onlarla Quran ayəsi bunu təsdiq etmişdir. Dini göstərişlərdən olan pul xərcləmək, yaxşılıq etmək kimi keyfiyyətlər cəmiyyətdə vacib və müstəhəb keyfiyyətlərdən sayılır, insanları bir-birinə mehribanlaşdırır, düşməncilik, kin və küdürətin kökünü kəsir, həyat qurmaq yollarında insanlara yaxşı təsir göstərir.

Bu barədə Qurani-Kərim belə buyurur: «Möminlər və insanların bir-birinin boynunda haqqı var. Onlardan biri də iqtisadi sahədə kömək etməkdir. Hətta istisna hallarında yacxın qohum və dostlar biri-digərinin maddi imkanlarından istifadə edə bilərlər. belə olduqda mal və dövlətini başqalarına (yaxınlarına) sərf edən şəxslər Allaha yaxınlaşıb və o, Xəlilullah (Allahın dostu) səsini eşitmiş olur və Peyqəmbərin bu səsi onun qulağına çatır: Allah-təala İbrahimi səxavət və qonaqpərvərliyinə görə özünə xəlil etdi. Odur ki, Əmirəl-möminin həftə ərzində qonağı olmayanda ağlayırmış».

Peyqəmbər (s) bir adamı əshabələrinə təqdim edib deyir: «Kim bu axşam onu qonaq etsə behiştə getməyə ona zəmanət edirəm».

Əmirəl-möminin razılıq əlaməti olaraq həmin şəxsi evə gətirir. Əli cavan arvadından soruşur: «Ya Fatimə, ey Peyqəmbərin qızı, nəyimiz var?»

Cavabda Fatimə bildirir ki, nir nəfərlik yeməkləri vardır. Həmin yeməyi qonağa verib özümüz acyatarıq. Qonaqlıq vermək, yemək paylamaq şəriət qanunlarından olub həyatın bütün mərhələrində müsbət bir xüsusiyyət kimi qiymətləndirilmişdir.

Müqəddəs İslam şəriəti bir neçə xüsusi halda onun müstəhəbliyini qeyd etmişdir:

- Bunlardan biri toy ziyafətidir.
- Başqa bir hədisdə deyilir: «İman əhlinin adətlərindən biri də toy mərasimində qonaqlara təam verməkdir».

Fiqh alimləri də rəvayətlərə əsaslanıb toy zamanı yemək verməyin müstəhəb olmasını xatırlatmış və belə demişlər: «Yaxşı olar ki, toydan əvvəl və ya toydan sonra bir qrup mömini dəvət edib onlara yemək versinlər». Buna görə də bütün mömin insanlar, xüsusilə böyük Peyqəmbərimizlə Əmirəl-möminin bu İslam adətinə öz toylarından və övladlarının toyunda riayət etmişlər.

## Peyqəmbərin öz toy mərasimlərində verdiyi ziyafət

Hədis və rəvayətlərdən məlum olur ki, Peyqəmbər öz toylarında ziyafət vermişdir. Həmin mərasimlərdən birneçə hadisə diqqət edək:

1. İmam Sadiq (ə) söyləyir: «Peyqəmbər Harisin qızı Mumunənin toy mərasimində ziyafət, onları yağ və xurma məcunundan hazırlanmış yeməklərə qonaq etmişdir».
2. İmam Rza (ə) buyurur: «Həbəş padşahı Nəccaşi Əbu Süfyanın qızı Ümmü Həbibə adlı qızını Peyqəmbər üçün elçiləyərkən Ümmü Həbibə üçün yaemək hazırlayıb demişdir: «Evlənərkən ziyafət vermək Peyqəmbərin adətlərindəndir».
3. Peyqəmbərin yanında yaşayan Ənəs ibn Malik deyir: «O Həzrət arvadlarından heç biri ilə evlənərkən Zeynəblə olan toyu qədər ziyafət verməmişdir. O bu toyda bir qoyun kəsib ehsan etdi».

Həzrət İmam Baqir (ə) də ayrı-ayrı hədislərdə o Həzrətin verdiyi ziyafətlərdən söhbət açır. Bu hekayətlərdə deyilir ki, Böyük Peyqəmbər İslamın bu adət və ənənəsinə bağlı bir şəxs olmuşdur.

## Həzrəti-Zəhranın toyunda verilən ziyafət

Əmirəl-möminin Fatimə ilə nişanlı olduğu dövrdən bir ay keçdi. Peyqəmbər (s) buyurdu: «Ya əli ziyafət üçün yemək-içnək tədarükündə ol». Bu məqsədlə bir qədər ət, yağ və xurma alındı. Ziyafət başlandı. Ziyafətə dəstə-dəstə adamlar axışıb gəlirdi. Onların sayı 4 (dörd) mindən ço idi. Qonaqlar ziyafətdə ləzzətli yeməklər yeyərək bu müqəddəs ailəni təbrik etdilər. Bu barədə Əlinin özü belə deyir: «Mömінlərin toya dəvət etmək məqsədi ilə məscidə getdim. Utandığımdan xüsusi adamları dəvət edə bilmədim. Buna görə də adamlara müraciət edib dedim: «Ey insanlar, Fatimənin toy ziyafətində iştirak edin. Insanlar bu müraciəti eşidəndən sonra Peyqəmbərin evinə tərəf axışıb yemək yeməyə başladılar. İnsanlar bu müraciəti eşidəndən sonra Peyqəmbərin evinə tərəf axışıb yemək yeməyə başladılar. İnsanlar dərya kimi dalğalanırdılar. Mən yeməyin çatmayacağına narahat idim. Peyqəmbər fikrimdən agah olub dedi: «Narahat olma». O, əllərini yuxarı qaldırdı. Allaha dua edərək bərəkət dilədi. Məhdud miqdarda hazırlanmış yemək kifayət etdi. Dörd mindən çox olan qonaqlar yeyib qurtardıqdan sonra yeməyin qalanını Mədinədəki adamların evinə göndərdik. Evlərdəki də insanlar da yeyib-içib doydular».

Bəli Əli və Zəhra böyük humanistlik göstərib bütün insanlara yemək verdilər. Bu humanistlik onların ömrü boyu davam etdi. Əli belə nəql edir: «Mən Fatimə ilə evlənən vaxt o qədər kasıb və imkansız idim ki, hətta evdə bir dənə xalca belə yox idi. Lakin həmin vaxtlarda da imkansız insanlara əl tutdulam. Əgər mənim bağışladıqlarımı bütün bəni-Haşim əhlinə paylasaydılar, onların hamısını ehtiyacını ödəyərdi. Bu barədə Peyqəmbərin iki arvadı Ümmü Sələmə və Aişə belə deyirlər: «Peyqəmbər (s) göstəriş verdi ki, Fatiməni zifaf (bəy) otağına aparaq. Biz otaqlardan birini sahmana saldıq. Xurma lifindən balış və mütəkkə düzəltdik. Sonra qonaqlara xurma və kişmiş payladıq. Fatimənin toyu qədər gözəl toy görmədik».

## Zifaf üçün münasib olan gecə

Gecə və gündüzün yaradılması səbəbsiz deyildir. Ulu tanrı onların hər birini xüsusi bir məqsədlə yaratmışdır. Qurani-Kərim gecə-gündüz mütəfəkkir və filosofların tovhid və ayrılıq amili kimi qeyd edir. («Al-İmran» sürəsi, ayə 9-19)

Elmi nailiyyətlər sübüt edib ki, insan və digər canlıların orqanizmi günəş şuaları qarşısında daha fəal olurlar. Ona görə ulıu Tanrı gündüz işləməz və pul qazanmaq üçün müəyyənləşdirilmişdir. Heyvanlar aləmində də vəziyyət bu cürdür.

Həmçinin müəyyən olunub ki, insan orqanizminin müxtəlif üzvləri: tənəffüs, qan dövranı, ürək fəaliyyəti və digərləri gündüz daha fəal olurlar. Lakin günəş şuası ardınca insan bədəni huceyrələri yorulur. Əksinə həmin üzvlər gecə qaranlığında tam sakit olurlar və bu hal insana xoş əhval-ruhiyyə bəxş edir. Əziz oxucuların diqqqətini Qurani-Kərimin bu barədə nazil olan bir neçə ayəsinə cəlb edirik: «Allah gecəni sizin istirahətiniz və sakitliyiniz, gündüz də agahlığınız üçün yaratdı». («Yunus» sürəsi, ayə 67) «Nəml» sürəsinin 86-cı, «Qafir» sürəsinin 61-ci ayələrində bu mənaya işarə edilir.

Möhtərəm oxucuların gördüyü kimi bu ayələr bizə inkaredilmiz həqiqətləri çatdırır. Bu gecələ dincəlmək və gündüzlər çalışmaqdır. Mömin bəndələr gecələri yatmaq və istirahətlə keçirirlər. əksinə əyyaş adamlar vaxtlarını gecələr əbəs yerə keçirib gündüzlər yatırlar. Belə adamlar əsəb xəstəliklərinə mübtəla olurlar.

## Zifaf gecəsinin fəlsəfəsi

Qeyd edildiyi kimi istirahət, gündüz isə qurub-yaratmaq üçün xəlq edilib. Zifaf gecəsi də məhz gecələr daha təsirli və faydalıdır.

Digər tərəfdən qaranlıq gəlinin abır-hayasını hifz etmək üçün daha münasibdir. Bu barədə Məsumların bir çox hədislərimövcuddur. İndi isə diqqətinizi həmin hədislərə cəlb edirik:

1. Peyqəmbərin və böyük şəxsiyyətlərin toy mərasimləri (zifaf mərasimləri) gecə olub və bu İslami bir məsələdir.

2. Ulu Tanrı gecəni istirahət və sakitlik üçün yaratmışdır. Müasir elm də bunu subut və təsdiq etmişdir.

Yuxarıda qeyd ediləni nəzərə alıb bütün qeyrətli müsalman bəylər gəlini öz evinə aparanda mərdanəlik sifətlərinə malik olub öz namusunu

naməhrəmlərdən qorusun. Qərbin və qeyrətsiz insanların qeyrətsizliyini qəbul etməsinlər.

## Zifaf gecəsi mərasimi

Toy mərasimini zifaf gecəsi mübarək və ideal bir gecədir. Toy mərasimi üçün çəkilmiş bütün əziyyətlər həmin gecə öz bəhrəsini verir.

Lakin bütn cavanların bu tarixi gecədən çıxardığı nəticələr eyni olmur.

Əgər cavanların əksəriyyəti cinsi ehtirası, qorxunc tufanın qurbanı olur və onların bütün fikri-zikri heyvani cinsi etiraslarını tələm-tələsik söndürməkdirsə, digər qrup cavanlar da vardır ki, o ilahi gecənin qədrini bilir və bu müqəddəs mərasimi və məzhəbi qiymətləndirirlər.

Müqəddəs İslam dini bir çox proqramları ilə yanaşı belə xatirələrlə dolu bir mərasim üçün də proqram hazırlamşdır. Həmin gecə Allaha yalvarıb dua etməyə böyük qiymət vermiş və bəylə gəlinə tövsiyə edir ki, həmin gecənin qədrini bilsin, dua və namazı yaddan çıxarmasınlar.

Zifaf gecəsi dua qəbul olar. Cavnlarımız çalışmalıdırlar ki, həmin gecədəki xəlvəti ehtiraslarını həyata keçirməmişdən öncə ulu Tanrı ilə mənəvi əlaqə yaratsınlar. Əvvəlcə ona şükür-dua oxusun, qarşılaşdıqları çətinliyin aradan qalxmasında Ondan kömək diləsinlər. Həmin duanın qəbul olunmasına inansınlar.

## Zifaf gecəsi

Zifaf gecəsi bəy və gəlin üçün yadda qalan şirin xatirələrlə dolu bir gecə, ömrün xoşbəxt və səadət dolu anları kimi hesaba gəlir. İki Gəncin birgə ailə həyatı həmin anda etibarən başlayır və davam edir. Biganəlik və ayrılıq, həmin andan etibarən vüsala yetmək, bir-birinə qovuşmaqla əvəz olunur.

İslam zifaf gecəsi aid müvafiq şəri hökmləri var. Bu şəriət qaydalarına əməl etməklə - yəni ailə quruluşunda uğur və xoşbəxtliklərə nail olmaq olar. Bu cür şəriət qaydalarından ən mühümmü və birincisi zifaf gecəsi, gəlinlə əlaqəyə girərkən, əvvəlcədən: «Bismillahir-rəhmanir-rəhim»-deməsidir.

İmam Sadiq (ə) buyurur: «Xanımızla yaxınlıq etdiyiniz vaxt Allahın adı ilə başlayın. Çünki bu işə Allahın adı ilə başlayanda, əgər nütfələrində övlad formalaşırsa onda şeytan orada iştirakçı olur. Övlad dünyaya gəlib, boya-başa çatarkən onda şeytani xislətlər peyda olur. Kimin ki, nütfəsi pakdır biz Əhli-beytin dostları, nütfəsinə şeytan müdaxilə edənlər isə bizim bədxahlarımızdan olur».

İzdivacda olan kişi ilə qadın arasında vcinsi əlaqənin istər hüquqi, istərsə də şəri baxımdan mühümlüyünü və əhəmiyyətini əks etdirən hədis-şərifində Rəsuli-Xuda (s) buyurur: «O zaman ki, kişi istəyir öz xanımına yaxınlıq edə, iki mələk xəncərini qınından çıxartdıqları halda sanki İslam yolunda cihada hazır vəziyyətdə durur və onları mühafizə edirlər. Elə ki, ər-arvad arasında əlaqə başa çatdı, onların günahları xəzan yarpağı kimi tökülüb təmizlənir və o vaxt ki, cənabət qüslü verirlər – nə ki, xəta və səhvə yol veriblər hamısı bağışlanır».

Bir gün Osman ibn Məzun adında bir nəfərin arvadı Həzrət Rəsul (s)-in hüzuruna gəlib ərz etdi: «- Ya Rəsulullah! Ərim gündüz oruc tutmaqla, gecələri namaz qılmaqla başa vurur, mənə isə əhəmiyyət vermir».

Bu xəbəri eşidən Peyqəmbər (s) o qədər narahat oldu ki, hətta başmaqlarını əlinə götürüb tez Osman gilə gəlir və deyir: «Allah-Təala məni onunçun Peyqəmbər göndərməyib ki, dünya ləzzətlərini tərk edim, ona görə göndərib ki, sizinçün asan, sadə və xoşagələn ayinlərə rəvac verim. Mən də oruc tutur və namaz qılıram, fəqət ailəmin də huquqlarını yaddan çıxartmıram. Hər kəs məni özünə dost bilirsə, gərək bu cür hərəkət etsin və bilməlisiniz ki, ər-arvad arasında cinsi əlaqə mənim ayinlərimdəndir».

Peyqəmbərdən olan digər bir hədisdə deyilir: «Üç qadın Peyqəmbərin xidmətinə yetişib hərəsi ərinin bir xüsusiyyətindən ona şikayət etdilər. Onlardan biri dedi: «Mənim ərim ət yemir». Digəri dedi: «Ərim ətriyyat və bəzək şeylərini sevmir». Üçüncü qadın isə belə bəyan etdi: «Mənim ərim isə mənimlə yaxınlıq etmir». Peyqəmbər bu kədərli cümlələri eşidən kimi əsabının bir hissəsi yerdə, bir hissəsi çiyinində məscidə gəlib belə xitab etdi: «Mənim əsabımın bir qrupu bəd fikirlərə düşmüşlər. Ət yemək, ətir və zinət şeylərindən istifadə etmək və qadını ilə yaxınlıq etməkdən çəkinirlər. Bilin və agah olun mən ət yeyirəm, ətirlərdən də istifadə edirəm, arvadımla da bir yataqda yatıram. Kim belə olmasa mənim adətlərimdən üz döndərmiş olur».

## Zifaf gecəsində təkbir

Çox təəssüf ki, bizim əsrimizdə elə adamlar vardır ki, zifaf gecəsini qeyrətsizlik oyununa çevirirlər. İslam dünyasında isə həmin gecədə birinci hərəkət «Təkbir» şüarı ilə başlanır.

## Zifaf gecəsinin namazı

Zifaf gecəsi ikinci şərti və mərasimi iki rükət namaz qılmaqdır. Bu işin bəylə gəlinin gələcək taleyinə böyük təsiri vardır. Həzrət İmam Baqir (ə) buyurur: «Gəlini sənin otağına yola saldıqdan sonra yaxınlıq etməmişdən öncə ii rükət namqaz oxu və gəlindən bunu tələb et».

Bəy və gəlini müştərək həyatlarında Allaha qarşı diqqətli olmaq, namaz və dua ilə başlamalıdırlar. Onlar bilməlidirlər k, bu işlərin onların gələcək ailə həyatına və övladlarının taleyinə böyük təsiri vardır.

## Xüsusi dualar

Zifaf gecəsinin 3-cü mərasimi iltimas və dua oxumaqdır. Dualar zifaf namazı qılındıqdan sonra yerinə yetirilir. Bu dualarda deyilir ki, bəylə gəlin bir-birinə qovuşduqdan və həmin gecənin namazını qıldıqdan sonra bəy əllərini göyə qaldırıb aşağıdakı duanı oxuyur və gəlini müşaiyət edən şəxslərdən «amin»deməsini xahiş edir:

«Peyqəmbərə və Əhli-beytə Allahın salamları əbədidir. Ey ulu Tanrı, bizi bir-birimizə mehriban, sədaqətli et. Cəmiyyətdə bəyənilən və xoşa gələn rəftarla bizi gözəl və yaxşı cəhətdən tanıt. Bizi təhlükədən və ayrılıqdan hifz elə. Çünki sən hallalığı və paklığı sevirsən. Haramı və pis əməlləri sevməz və ondan narazı olarsan».

Əlbəttə, bəy və gəlinin duaları bununla bitmir. Onlar öz istək və arzularını, digər şəriət məsələlərini sadə dillə də bəyan edə bilərlər.

## Nümunə olan qadının zifaf gecəsi

İslamın nümunəvi qadını Fatimənin zifaf gecəsi gəlib yetişdi. Peyqəmbər göstəriş verdi: «Ya Ümmü Sələmə, qızımı gətirin». Bu barədə

Ümmü Sələmə belə nəql edir: «Fatiməni Peyqəmbərin hüzuruna gətirdim. Abır və həyadan tər tökən Fatimə o Həzrətin qarşısında dayandı. Əmirəl-möminin Əli isə digər tərəfdə dayandı. O böyük Peyqəmbər gözlənilmədən qızının ay üzünü Həzrət Əli üçün açdı. O Məsum bəy məsum gəlinin rüxsarına tamaşa etdi. Sonra Peyqəmbər Zəhranın əlindən tutub onu Əlinin əlinə təqdim etdi! Onun mübarək dili dua etməyə başladı: «Ya Əli! Allah Peyqəmbərin qızından sənə bərəkət versin. Sənin necədə gözəl və ləyaqətli ömür-gün yoldaşın vardır. Fatimə necədə həyalı və gözəldir». Sonra o, Zəhraya xitabən buyurdu: «Sənin ərin Əli necə ali bir şəxsdir». Bundan sonra o Həzrət zifaf otağını tərk edib Ulu Tanrının və Rəsulunun əmanətini əmanət sahibinə təhvil verdi».

Həzrət Əli və Fatimə zifaf gecəsini eşq, məhəbbət, Allaha ibadət və dua ilə sona çatdırdılar. Səhərisi o Həzrət əlində bir kasa süd dübarə onların yanına gəldi və buyurdu: «Ey əziz qızım Fatimə, ey möhtərəm kürəkənim Əli, gəlin süddən için. Peyqəmbər sizə fəda olsun!!!»

Əsma bint Ubeys digər bir hədisdə belə söyləyir: «Həzrət Əli və Fatimənin zifaf gecəsi sona Həzrət Zəhranın atası ilə dübarə görüşdü, söhbət əsasında dedi: «Atacan, kecən gecə Əmirəl-mömінini qeyri-adi bir halda gördüm. O yerlə (torpaqla) danışırdı. Mən torpağın da səsini eşitdirdim ki, Əli ilə söhbət edir». Bu sözləri eşidən Peyqəmbər alnını yerə qoydu. Allaha şükür və dua edib buyurdu: «Qızım, bu sənin ərini başqalarından üstün qərar vermiş və əmr etmişdir ki, torpaq onunla danışsın və Şərqdən Qərbə qədər onun üzərində nələr baş verirsə Əli ondan xəbərdar olsun!»

Əli ilə Zəhranın zifaf gecəsinin unudulmaz xatirəsi bəşər tarixində heyrətamiz bir gecə olmuşdur. Çünki Əli ilə Fatimə çox abır-həya və vuqarla eyni halda misli olmayan eşq-məhəbbətlə oturub-dururlar. Peyqəmbər o gözəl qızının rüxsarını kürəkəninə göstərir və qadının ərinə qarşı itaət rəmzi olaraq onun əlini Əlinin əli üstünə qoyur! Hər ikisini bağrına basır. Özü şəxsən zifaf otağına gəlir. Hətta kürəkən və gəlinlə zarafat da edir. Zifafdan sonra onlara yemək-süd aparmış və onlara «Sizə fəda olum» demişdir.

Əsirlər boyu min illərlə bir vaxt keçdikdən sonra belə bir unudulmaz xatirəyə rast gəlmək olarmı?!

## XƏLVƏT (xəlvətdə qalma) MƏRASİMİ

Zifaf gecəsi 6-cı mərhələsi (mərasimi) başqa sözlə axırıncı əsil mərhələsi – cinsi yaxınlıq olan xəlvətdə qalmaqdır. Bu əsas məsələ də İslamın diqqət mərkəzindədir və özünə məxsus xüsusiyyətləri vardır.

## Şeytandan uzaq olmaq üçün oxunan dua

Yaxınlaşmamışdan öncə yaxşı olar ki, bəylə gəlin Allaha dua etsinlər və ona pənah aparsınlar. «Bismillahir-rəhmanir-rəhim» deməklə və münasib dualarla şeytanın dəxalət etməsinin qarşısını alsınlar. Bu xüsusi diqqətinizi bir neçə hədisə cəlb edirik. Əbdül Rəhman ibn Kəsir belə deyir: İmam Sadiqin yanında oturmuşdum. O Həzrət şeytan haqqında danışırdı. Şeytanın dəxalət etməsini o qədər təhlükəli adlandırdı ki, məni dəhşət bürüdü. Mən soruşdum: «Nicat yolu nədədir?» Buyurdu: «Cinsi yaxınlığa başlayan zaman belə söylə: «İlahi şeytanı bizdən uzaq et!»

Həzrət İmam Sadiqdən bu barədə olan hədisdə deyilir: «Yoldaşınızla yaxınlıq etmək istəsəniz Allahı yad edin. Çünki hər kəs belə etməsə həmin anda ondan əmələ gələn övlad şeytan xislətli olacaq. Övladların pak olub-olmaması biz Əhli-beyt tərəfindən müəyyənləşdirilir».

Həzrət Əlidən bir hədisdə oxuyuruq: «Həyat yoldaşınız sizdən yaxınlıq etmək xaişini etsə deyin: «Bismillah», sonra dua edin: «İlahi şeytanı məndən uzaq et». Belə olduqda o uşaq sahibi olarsa şeytan heç vaxt ona zərər yetirə bilməz».

Çoxlu hədislər vardır ki, həmin hədislərdə cinsi yaxınlıq zamanı Allah yad etməmək və «Bismillah» sözünü işlətmək şeytanın gizli şəkildə nüfuz etməsinə cinsi yaxınlıq üdənlərə və onların övladlarına cismani və ruhi xətərlərin yetişməsinə səbəb olur.

## Cinsi yaxınlıq zamanı tələsməyin

Evlənmək zamanı cinsi təminat ər və arvadın ailə həyatında ən mühüm amillərdəndir. İstər bəy və istərsə də gəlin tərəfi - müqabilini razı sala bilmirsə, bu onun ləyaqətsizliyinə və gücsüzlüyünə dəlalət edir. Bu çox pis bir zəmin yaradır, boşanma və əxlaqsızlıq kimi hallarla nəticələnə bilir.

Adətən cinsi yaxınlıq zamanı kişilər qadınlara nisbətən cinsi etiraslarını daha tez söndürürlər. Əksinə qadınlar təbiətcə daha abırlı-həyalı və utancaq olduqları üçün cinsi etiraslarını kişilərdən gec söndürürlər. Buna görə də lazımi uyğunluq və yaxınlıq əldə etmək üçün İslam belə göstəriş verir: «Cinsi yaxınlıq üçün münasib başlanğıc şəraiti yaradılmalıdır. Ər nəvaziş və zarafatla arvadını cinsi yaxınlıq anı üçün hazırlaşdırmalı və bundan sonra öz istəyinə nail olmalıdır. əməl zamanı o arvadının vəziyyətini nəzərə almalı və tələsməməlidir».

Əziz oxucuların diqqətini bu barədə olan İslam hədislərinə cəlb edirik:

1. Peyqəmbər (s) buyurur: «Arvadı ilə yaxınlıq etmək istəyən hər bir kəs onun vəziyyətini də başa düşməlidir. Cinsi ehtiyacını ödəməmiş onu tənha buraxmamalıdır».

Bu hədisdə göstərilir ki qadın cinsi ehtiyacı gec ödənilir. Yaxşı ər o kəsdir ki, arvadının problem və ehtiyaclarını başa düşür.

2. Peyqəmbər (s) buyurur: «Cinsi yaxınlıq zamanı quşlar kimi tələsik iş görməyin. Əksinə lazımi vasitə və üsullardan istifadə edərək bir-birinizi razı salın».

3. Əziz və hörmətli Peyqəmbər (s) buyurur: «Üç şey sitəm və cəfa hesab olunur:

a) Biri-digəri ilə yol yoldaşı ola və onun xüsusiyyətlərini soruşub öyrənməyə.

b) Bir şəxsi qonaqlıq və ziyafətə dəvət edələr, lakin həmin şəxs oraya getməyə.

c) Kişi ilkin şərait yaratmadan və maraqlanmadan arvadı ilə yaxınlıq edə».

4. Əmirəl-möminin (ə) buyurub: «Arvadınıza cqovuşmaq istəsəniz, cinsi yaxınlıq fəaliyətinizi tez və sürətlə qurmayın. Qadınların da vəziyyətini başa düşün».

Həzrət Rza (ə) bu xüsusda deyir: «Heç bir kişi əvvəlcədən arvadı ilə zarafatlaşıb mazaqlaşmamış, onu bu fəaliyyətə hazırlaşdırmamış yaxınlıq etməsin. Kişi arvadının döşlərini elləməklə qadını ehtirasa gətirməlidir. Bu halda qadının etirası cuşa gəlir və cinsi yaxınlıq faliyyətinə hazır olur. Qadının şəhvət və etiras suyu (mayesi) döşlərindən ifraz olunaraq onun cəhrəsinə təcəssüm etdirilir».

Əziz oxucuların gördüyü kimi, İslam insanlara sadə bir yol göstərir. İslamöz sələflərini cinsi məsələlərdə də unutmamış, son dərəcə xüsusi bir incəliklə məsuliyyətini dərk etmişdir. Əgər bir şəxs evlənmək məsələsində düzgün yolda olmasa, ona düzgün yolda olmasa, ona düzgün yol göstərilməsə, cinsi təlabatı təmin edilməzsə şübhəsiz, xoşagəlməz hallarla qarşılaşar, ictimai fəsad və əxlaqsızlığa yuvarlanar. Buna görə də tövsiyyə olunur:

- Kişilər və qadınlara bir-biorini ehtiyacını dərk etsinlər. Onlar bilməlidirlər ki, cinsi çatışmamazlıq, ailə mühitindəki təmkinsizlik insanı uçuruma, ailə söz-söhbətə və digər mənfi hallarda sürükləyib aparar.

## Cinsi əlaqənin nəticəsi və mükafatı

Cinsi əlaqə bəşəri əlaqədən başqa, övladın dünyaya gəlməsində, nəslin qorunub saxlanmasında, cinsi əlaqədən şəxsi ləzzət almaq və axirət aləmi məsələlərində də böyük əhəmiyyət kəsb edir.

Bir qadın Peyqəmbər (s) soruşdu: «Atam-anam sənə fəda olsun. Mükafatların hamısı kişilərdəndir. Bəs qadınların mükafatı nədir?» Peyqəmbər cavabında buyurdu: «Allah-Təala gecəni yatmayıb səhərə qədər ibadət edən, gündüzlər oruc tutan şəxslərin mükafatını hamilə qadınlara yazır. Onların doğuş vaxtı çatan zaman Allahdan başqa heç bir kimsə onun fayda və savabını qiymətləndirə bilməz, doğuşdan sonra isə ulu Tanrı qadının verdiyi bir içim (qurtum) südün müqabilində onun bir günahında keçər, ona mərhəmət göstərər».

## ZIFAF GECƏSININ ƏDƏB AYDALARI

Toy gecəsinin özünəməxsus adət-ənənələri var. O cümlədən:

1. Dəstamazlı olmaq
2. «Əuzu billəhi minəş-şeytanir-rəcim» demək.
3. «Bismillahir-rəhmanir-rəhim» demək.
4. Allahdan sağlam və saleh övlad istəmək.
5. Dua etmək.
6. Bəy və gəlin əlaqədə olarkən tələsməmək.
7. Müstəhəbdir ki, kişi ilə qadın arasında əlaqə aşağıda göstərilən vaxtlarda olsun: bazar günü, çərşənbə axşamı, cümə axşamı (gündüz və

gecə), cümə günü (axşamdan bir qədər keçmiş) Ramazan ayının 1-ci gecəsi.

8. Heyz və nifas dövründə və oruc halında qadınla əlaqəyə girmək günahdırvə kəffarəsi var.

9. Çərşənbə günü və Fitr (orucluq) bayramında, Qurban bayrmında, hicri-qəməri ayın birinci günü, qəməri ayın ortasında günorta vaxtı, sübh zanı verilən vaxtda, gün batan vaxta, üzü qibləyə və arxası qibləyə, açıq səma altında, damda, qəməri ayın axırında, tox qarına, ayaq üstə əlaqədə olmaq və qadının oyrətinə baxmaq – bunlar hamısı məkruhdur. Yəni yuxarıda göstərilən vaxtlarda və elə vəziyyətlərdə qadınla təmasda olmaq yaxşı hal deyil.

10. Zifaf gecəsi və sonrakı gecələrdə bəy gəlinlə olduqca ehtiyatla rəftar etməli – nəvaziş göstərməli və cinsi əlaqə zamanı tələsməməlidir. Belə olmayan halda ilk günlərində mümkündür ki, bəylə gəlin arasında anlşılmazlıq olsun, əri ilə əlaqədə olmaqdan bir müddət qorxsun.

## Zifaf gecəsi ilə bağlı olan mühüm bir məsələ

Toy, zifaf gecəsi bəzi hallarda gəlinin «adət» vəziyyətinə düşürvə ondan heyz qanı xaric olur. Bəy və gəlin belə hallarda diqqətli olmalıdılar və bilməlidirlər ki, belə vəziyyətdə cinsi əlaqədə olmaq haram və günahdır.

Digər tərəfdən zifaf gecəsi bəy ilə gəlinin hökmən əlaqədə olmaqlarını heç kim vacib etməyib. Baxmayaraq ki, yaxın qohum qardaşlardan bəziləri, şəriət hökmlərinin məsələlərindən agah olmadığlarına görə, İslami göstərişlərə xilaf çıxaraq bu işin tez başa çatmağına çox can atırlar.

Əlbəttə gəlin öncədən elə edə bilər ki, dərman vasitəsilə heyz dövründə qanının açılmağına mane ola, bununla da günaha mürtəkib olmazlar.

Zifaf gecəsibəylə əlaqədə olarkən gəlinin bakirəliyi alınır və bu zaman ondan müəyyən qədər qan axır. Bu vəziyyətdə bəy və gəlinin boynuna qüsl gəlir, o cəhətdən yox ki, gəlinin bakirəliyi alınıb, ona görə ki, ərlə arvad bütün hallarda cinsi əlaqədə olarkən ikisindən də məni xaric olur. Belə olan sürətdə şəriət hökmü ilə ikisinə də cənabət qüslü almaq vacibdir.

Əlaqədən sonra kişi ilə qadının ikisinin də bir əskidən istifadə etmələri məkruhdur.

## Zifaf gecəsi namaz qılmaq

*Sual:* «Bəziləri deyirlər ki, zifaf gecəsi gəlinə vacib deyil ki, şam və xiftən namazı qılsın». Bu məsələyə aid şəriətin hökmü nədir?

*Cavab:* Hökmən gərək namazlarını qılsınlar, əgər qılmasalar günaha və məsiyətə mürtəkib olarlar. Əgər vaxtında qılmayıblarsa, sonra qəzalarını mütləq qılmalıdırlar.

## Zifaf gecəsi qüsl vermək qaydaları

*Sual:* Bəzən zifaf gecəsi bəylə gəlin əlaqədən sonra xəcalət çəkrlər deyə cənabət qüslünə əncam vermirlər və o halda da sübh namazını qılırlar. Şəriət baxımından bu məsələyə nə cür yanaşmaq olar?

*Cavab:* Başqalarından utanmaqq, xəcalət çəkmək, şəriət baxımından mühüm deyil, ən mühüm Allahın rizasını qazanmaq, hökmünə boyun əyərək dərgahında üzü ağ olmaqdır.

Əgər sübh namazının vaxtına az qalmış olsa belə, qüsl əvəzi təyəmmüm edib sübh namazını əda etmək lazımdır. Hərçənd ki, boynunda qüsl olan adamın təyəmmümlə namaz qılmağın özü bir günahdır, lakin namazı heç bir vəclə tərk etmək olmaz.

Zifaf gecəsində əlaqə zamanı qadından axan qanı bakirəlik, ya heyz qanı olmağı ehtimal olunarsa, bunu müəyyənləşdirmək üçün bir qədər pambığı qadının fərcinə daxil etmək və bir az gözlədikdən sonra götürüb baxmaq lazımdır. Əgər pambığın yalnız kənar hissəsi batıbsa – bakirəlik, yox əgər qan pambığa bütünlükdə hopubsa – o, heyz qanıdır. Nütfə qadının bətnində bağlanandan sonra onu aradan aparmaq haramdır.

*Sual:* Kişi ilə qadın əlaqədən öncə ehtirasa gələrkən hər ikisinin cinsiyyət üzvündən az miqdarda maye ixrac olur. Belə halda onlara cənabət qüslü vacibdirmi?

*Cavab:* Əgər axan mayeni məni olmamağına tam yəqindirsə, boyunlarına qüsl gəlmir.

Zifaf gecəsi gəlin bakirə olsa – ilk 7 gecə, əri onun yanında olmalıdır, yox əgər bakirə olmasa – 3 gecə onun yanında olur.

### Gəlinin yeməyi

Müstəhəbdir ki, izdivacın ilk həftəsi gəlin – turş alma, keşniş, toyuq əti və süd məhsulu yeməkdən çəkinsinlər.

### Gəlinin yanında olmaq

Yaxşı olar ki, izdivacın ilk günləri kimi imkan daxilində öz xanımının yanında olsun və gündə üç vaxt yeməyi onunla birlikdə yesin. Axşam gün batandan sonra evdə olsun, çünki ailədən yenicə ayrılan gəlin tənha qaldıqda özünü qərib hiss edir və darıxır.

Belə cəhətlərə əhəmiyyət vermədikdə, təzə qurulan ailədə qanıqaranlıq olur və gəlinin ərinə qarşı münasibət pozula bilər.

### Ailə məsələləri

Yeni qurulan ailə həyatı ilk vaxtlarda şirin olduğundan, günaha və məsiyyətəbir o qədər də yol verilmir. Belə dövrdə yaxşı olar ki, kişi və qadın – ailə məsələlərini və hökümlərini düzgün başa düşən və onları doğru yola istiqamətləndirən bir neçə nəfərdən mədəni sürətdə öyrənsinlər.

Yeni mühitə düşən gəlin gənc və təcrübəsiz olduğindan, onunla ehtiyatla davranmaq və məişət işlərində ona kömək etmək, həya-abırı gözləmək şərti ilə bir sıra evdarlıq məsələlərini ona öyrətmək lazımdır. Məsələn: Qadınlıq adətinə düşməsə bilməlidir ki, boyludur və diqqət edə, ta uşağını tələf etməyə.

## NƏSİL ARTIRMA

1. Peyqəmbər (s) buyurur: «Dünyaya çox uşaq gətirin. Mən sabah başqa millətlərin yanında sizin çox olmağınızla öyüyəcəm».

2. Bilin: övlad dünyaya gəlməmiş tələf olarsa, ata onu (öz övladını) behiştin qapısında dayanmış (atasının intizarında) görər. Gözü atasına sataşan kimi onun əlindən tutar və behiştə daxil edər. Övladınız ölürsə,

Allah sizə əcr verir. Əgər sağ qalarsa, öləndən sonra günahlarınızın bağışlanmasını Allahdan diləyir.

3. Peyqəmbər (s) Ümm Sələməyə buyurmuşdur: «Hamilə qadın, oruc tutub gecə oyaq adam və əsgər kimidir ki, canını və malını İslamın inkişafı yolunda nisar edir, uşaq doğulanda anaya o qədər əcr verərlər ki, bunu Allahdan başqa heç kəs bilməz, ana döşünü uşağın ağzına verəndə, hər soruq vurmağının İsmayıl nəslindən olan bir qulun azad edilməsi qədər savabı var, süd əmmək dövrü sona çatdıqda böyük bir mələk ananın yanına əl vurar: bu əməlini təzədən başla, sənin bütün günahların bağışlanmışdır».

4. Əli (ə) buyurur: «Övladın xəstəliyi ata və ananın cəzasıdır».

5. İmam Zeynalabidin (ə) buyurur: «Kişinin səadəti budur ki, övladları olsun və çətin məqamlarında ona kömək eləsinlər».

6. Həzrət İmam Sadiq (ə) buyurub: «Filankəs deyirdi: «Mən övladımı sevmirdim. Ancaq bir gün Ərafatda gördüm ki, yanımda bir cavan dayanıb xeyir-dua edirdi və deyirdi: «İlahi, atamı... İlahi, atamı..». Bu mənzərə mənə övladımı sevdirdi».

7. Deyirlər: Həsən Bəsri dedi: «Övlad pis şeydir, həyatda insana əziyyət verir, ölümü isə adamın sümüyünü də yandırır». Bu söz Həzrət Səccadın (ə) mübarək qulağına çatdıqda dedi: «Allaha and olsun, yalan deyir. Övlad yaxşı şeydir. Əgər sğ qalsa, nəqd duadır, atadan qabaq o dünyaya onu müdafiə üçün getmişdir».

8. Peyqəmbər (s) buyurur: «Övlad möminin ürəyinin bir parçasıdır. Əgər tez ölsə, atasının o dünyada şəfa diliyənidir. Əgər gec ölsə, atasının bağışlanmasını diləyər və Allah onu bağışlayar».

9. Həzrət Rəsul (s) Əşəs ibn Qeysə buyurdu: «Həmzənin qızından övladın varmı?» Dedi: «Bir oğlum var. Əgər onun əvəzinə bir kasam olsaydı, heç olmasa qonaq qabağına ovduq qoyardım və ondan daha çox sevərdim» Peyqəmbər (s) buyurdu: «Bu nə sözdür? Övladlar ürəyin meyvəsi, gözün işığıdır. Hərçənd qorxu, xəsislik və qüssənin də mayasıdır».

10. Peyqəmbər (s) buyurur: «Öz övladının sevindirən bir adam Allahın qorxusundan ağlayan bir bəndə kimidir: Allahın qorxusundan ağlayan adam isə Pərvardigar nemətlərlə dolu behiştə göndərər».

11. Həzrət İmam Sadiq (ə) Adəm və Həvva hekayəti barədə buyurur: «Həvva dedi: «Ey Allah! Adəm nə qədər mərhəmət etmisənsə, mənə də o

qədər kəramət elə!» Xitab gəldi: «Sənə həya, gözəllik və ünsiyyət vermişəm. əgər qüsl, doğmaq əzabları müqbilində sənə verdiyim əbədi savabları, ölməz ümmətləri və böyük hökmranlığı görsən gözün nurlanar, Həvva! Hamilə olduğun zaman ölən hər qadını şəhidlərlə birlikdə dirildərəm: Doğma əzabına qatlaşan hər bir qadın şəhid əcrinə malikdir; əgər salamatlıqla uşqa doğsa, günahını bağışlaram. əgər dərrd əlində can çəkişə-çəkişə canını tapşırsa, ölüm ayağında mələklər başının üstünə hazır olar və ona behiştə gedəcəyi müjdəsini verərlər və axirətdə yenidən öz əri ilə həyat sürər və behişt hurilərindən də 70 dəfə artıq gözəl olar». Həvva dedi: «kifayətdir» (Əlbəttə, bu savablar iman sahibi olmaqla bu, tamamilə mümkündür).

12. Peyqəmbər (s) buyurur: «Mənim ümmətim içində bir körpə doğularsa, o, mənim üçün onun üzərinə nur saçan günışdın daha sevimlidir».

13. Yeddinci İmam (ə) buyurur: «Öz canişinini görməyincə ölməyən kişi xoşbəxtdir».

14. Bəkr ibn Saleh Musa ibn Cəfərə (ə) göndərdiyi məktubda yazdı: «Mən beş ildir ki, övlad dünyaya gətirməkdən çəkinirəm. Çünki avadım uşaq doğmaqdan ikrah edir; deyir: «Uşaq tərbiyə etmək kasıb olduğumuz üçün bizə çətindir». Siz bu barədə nə göstəriş verərsiniz?» Həzrət cavab verdi: «Övlad sahibi ol, ruzisini Allah verəcəkdir».

15. Mərhum Səduq buyurmuşdur: «Hədis gəlmişdir: «Canişinsiz (övladsız) ölən adam elə bil ki, heç olmamışdır: canişini olub ölən adam isə sanki ölməmişdir».

16. Peyqəmbər (s) buyurur: «Doğa bilən qadınla çirkində olsa evlənin, doğmayan (qısır) qadınla gözəl də olsa, evlənməyin. Mən qiyamət günü başqa millətlərə nisbətən sizin çox olmağınızla fəxr edəcəyəm».

17. «Bilirsənmiki, kiçik yaşlarında ölən uşaqlar Allahın ərşinin altında atalarının günahlarının bağışlanması üçün dua edirlər və Həzrət İbrahimin himayəsi altında Sara tərəfindən tərbiyə olunurlar!»

18. Həzrət İmam Sadiq (ə) Həzrət Yusif hekayəti haqqında buyurur: «Qardaşlarını qəbul etmək üçün yemək hazırladı. Onlar oyağa daxil olan kimi göstəriş verdi ki, anadan bir olan qardaşlar bir süfrə başında otursunlar. Oturdular. Ancaq Benyamin tək qaldı. Yusif buyurdu: «Niyə oturmursan?» Dedi: «Mən qardaşların heç biri ilə bir anadan deyiləm».

Buyurdu: «Sənin atanın başqa oğlu yox idimi?» Dedi: «Niyə, vardı». Buyurdu: «Onun yoxluğundan sən nə qədər qüssə çəkmisən?» Dedi: «Ta o vaxta qədər ki, on bir oğul atası oldum. Hamısının adını onun adına bənzətdim». Buyurdu: «Məlum olur ki, sən ondan sonra evlənmisən və öz oğullarını iyləmisən?» Dedi: «Bəli. Çünki əməlisaleh bir atam var, o mənə göstəriş verdi ki, evlən, bəlkə Allah səndən bir nəsil törətdi ki, Allahın zikri ilə dünyanı daha da qiymətli elədi».

19. «Yaşlı və doğmayan qadınla evlənməyin».

## CINSI ƏLAQƏNIN MÜNASIB VAXT VƏ SAATI

Əgər bəy və gəlin, bütün evli kişilər və qadınlar evlənmək proqramalrını başa düşdükdən planlaşdırıb xoş və şirin xəlvət anlarını İslami göstərişlərə uyğun şəkildə qurmuş olsalar, hüç bir çətinliklə üzləşməz və onlar sağlam-ağıllı övlad sahibi olarlar.

İslam rəvayətlərini nəzərdən keçirib zifaf gecəsi xəlvət qalmaq üçün münasib vaxt və saatları və cinsi əlaqəyə təhrik edən amilləri əziz oxuculara təqdim edirik:

1. Yad qadınları görərkən baş verən cinsi istək.
2. Ər öz arvadının cinsi əlaqəyə olan meylini hiss edir. Onun bu işdən imtina etməsi qadının narahat olmasına gətirib çıxarır.
3. Həftənin 1-ci günü.
4. Həftənin 2-ci günü.
5. Həftənin 4-ci günü.
6. 4-ci gün günbatandan vaxtı.
7. Cümə günü, xüsusilə əsr namazından sonra.
8. Mübarək Ramazan ayının birinci gecəsi.
9. Cinsi yağınlığın təharət və yuyunmaqla icra edilməsi müstəhəbdir (məqsədəuyğundur). Bu məsələ hamilə qadınlara çox aiddir.

1. Peyqəmbər (s) cümə günü əshabələrindən birinə belə buyurdur: «Bu gün oruc tutmusanmı?» Həmin şəxs dedi: «Xeyr». Peyqəmbər (s) soruşdu: «Sədəqə vermisən?» Dedi: «Xeyr». Həzrət buyurdu: «Bu saat arvadının yanına get və sənin onunla yaxınlığın onun üçün ehsandır».

2. Peyqəmbər (s) bir hədisdə belə buyurur: «Ya Əli, 1-ci gün yaxınlıq etmək sənə qismət olsun. Çünki həmin gecə sənə qismət olan övlad Quranı əzbər bilər və ilahi qismətə öz razılığını bildirər.

Əgər 2-ci gün cinsi əlaqədə olsan və sənə övlad qismət olsa, o, şəhadət savabı qazanar və Allah onu müşriklərin əzabına düçar etməz. Onun ağzı bütöv və təmiz, mehriban, günahsız və doğru danışan olar.

Ya Əli, 4-cü gün arvadınla yaxınlıq etmiş olsan və Allah sənə övlad əta etsə o, alim və həkim olar. 4-cü gün günəş qurub edərkən yaxınlıq etsə şeytan dünyaya gəlimiş övladına yaxınlaşa bilməz. O bilikli alim olar və dünyadan faydalanar.

Ya Əli, arvadınla cümə gün əlaqədə olsan, dünyaya gəlmiş övladın natiq və gözəl danışan olar. Cümə günü axşam yaxınlıq etmiş olsan övladın məşhur şəxsiyyət olar. Cümə gecəsi işa namazından sonra dünyaya gələn övlad Allahın böyük və tayı-bərabəri olmayan bəndəsi olar. İnşallah».

## Xəlvət üçün münasib olmayan vaxtlar

Əgər dünyaya gəlmiş körpələr anadangəlmə kor, kar, lal, dəli, dördbarmaq vəs. olub cüzəm və ekzema xəstəliklərinə tutulurlarsa və bu xəstəliklər ata-anaya əzab verirsə, böyük günahı və səbəbi ər və arvadın cinsi yaxınlıq vaxtı məlumatsız olmalarıdır. Gələcəkdə uşaqların bədəxlaq olması, paxıllıq, ədavət kimi mənfi xüsusiyyətlər onlarda qeyd etdiyimiz anlardan başlayır.

İndi diqqətinizi məkruh olan cinsi yaxınlıq məqamlarına cəlb edirik:

1. İstina olmadan hər ayın əvvəl gecələri.
2. Hər ayın orta gecələri.
3. Hər ayın axır gecələri.

Bu məqamalarda əmələ gələn uşaqlar düşə bilər. Əgər onlar ana bətnindən düşməyib dünyaya gəlsələr də, adətən psixi və ruhi xəstəliklərə mübtəla olurlar. Bu gecələrdə cin və şeytanların nüfuzu olduğu üçün gəlin və bəy təhlükəsizliyi təmin olunmaz.

4. Cümə günündən başqa axşam tərəfi cinsi əlaqədə olmaq məqsədəuyğun deyil. Bu zaman əmələ gələn uşaqlarda müxtəlif çatışmamazlıqlar baş verir.

5. Müsafir müddəti 3 (üç) gündən artıq seyilsə həmin gecələrdə cinsi yaxınlıq məkruhdur. Həmin vaxt dünyaya gələnlər sitəmkarların dostu və köməkçisi olar.

6. Gecənin birinci yarısı və toxqarına cinsi yaxınlıq çox məkruhdur. Bu tibbi nöqteyi-nəzərdən və digər cəhətlərdən münasib deyil. Bir sıra rəvayətlərə görə bu saatlardakı yaxınlıq çox təhlükəli olub hətta insanın ölümü ilə nəticələnə bilər. Bu zaman dünyaya gələn uşaq malına həris olar.

7. Fitr bayramı kecəsi cinsi yaxınlıqdan çəkinin. Bu zaman dünyaya gələn uşaq tərs və bədəxlaq olar. Onun uşağı olmaz. Olsa da qoca vaxtına çəkər.

8. Qurban bayramı kecəsində bu əlaqədə namünasibdir. Həmin gecə dünyaya gələn uşaq şikəst və ya 4-6 barmaqlı olar.

9. Şənbə, bazar və 3-cü günlər cinsi yaxınlıq qəti qadağandır.

10. Kiçik yaşlı uşaqlar cinsi əlaqədə olanları görüb və səslərini eşidirlərsə qadağandır.

11. Lüt vəziyyətdə cinsi əlaqədə olmaq heyvani əlamətləri xatırladır. Belə hal abır-həyadan uzaqdır.

12. Örtülü olmayan yerdə qdınla yaxınlıqetmək qəti qadağandır. Bu zaman tərəflər sakit və aram ola bilməz. Dünyaya gələn uşaq isə münafiq və riyakar olar.

13. Ayaq üstə cinsi yaxınlıq yorğunluğa səbəb olur və hər bir ləzzət vermir. Rəhmət mələkəsi belə çəxslərin evindən uzaq olar. Uşaq nöqsanlı doğular (yerinə sidik salar).

14. Namaz vaxtı azan və iqamə arasında qadınla yaxınlıq etmək məkruhdur. Uşaq dünyaya gələndən sonra qatil olar.

15. Sübh azanından günəşin çıxdığı ana qədər yaxınlıq etmək qadağandır.

16.Günəşin və ayın tutulduğu bütün günlər və gecələr, zəlzələ, qırmızı və qara yellər əsən vaxtı cinsi yaxınlıq məkruhdur. İmam Baqir (ə) belə hallarda yaxınlıq edib ləzzət almağı zərərli hesab edir.

17. Hamilə qadınla qüsl etməmiş və dəstamazsız cinsi əlaqədə olmaq qəti qadağandır. Bu gələcək övladda pis əhval ruhiyyə oyadır.

18. Meyvəli ağac altında yaxınlıq etmək məqsədəuyğun deyil. Bu doğulan pis xüsusiyyətlər yaradır. Belə ki, o casus və insan qatili olur.

19. Məğrib namazı astanasında. Günəş qurub edərkən cinsi əlaqədən yaranmış uşaqlar cadugər, sehirbaz və dünyagir olar.

20. Cinsi əlaqə zamanı qadının abır yerinə baxmaq məkruh sayılır. Bu hal bir sıra çətinliklər yaratmaqla yanaşı uşağın dünyaya kor gəlməsinə səbəb olar.

21. Cinsi əlaqə zamanı bir dəsmalla təmizlənmək olmaz.

22. Üzü qiblə və onun əksinə cinsi əlaqədə olmaq məkruhdur. İmam Sadiq (ə) bir hədisdə bunu qadağan edib və onun mənfi təsirindən danışıb.

23. Başqa qadının eşqi və həvəsi ilə qadınla yaxınlıq etmək qadağandır. Bu peşmançılıqla nəticələnər. Belə vəziyyətdə əmələ gələn uşaq sitəmkər və insan qatili olar.

24. Cinsi yaxınlıq vaxtı Quran oxumaq məkruhdur. Peyqəmbər (s) buyurur ki, qorxuram belə halda göydən bir od düşə, kişi və qadını yandıra.

25. «Bismillah» sözünü zikr etmədən qadına yaxınlaşmaq olmaz. əks tətəqdirdə şeytan dəxalət edər və uşağın yaranmasında şərik olar.

26. Bir necə dəfə cinsi yaxınlıq icra edilirsə, onların arasında qüsl etmək məkruhdur.

27. Cinsi əlaqəyə vaxtı çox danışmaq qadağan edilişdir. Bu halda uşağın kar və lal olmasına səbəb olar (cinsi əlaqəyə təhrik edən cümlələr istinadır).

28. Gəmidə səfərə çıxarkən, ümumiyyətlə səyahət zamanı cinsi əlaqədə olmaq məkruhdur. Onun üçün müvafiq şərait (çimmək üçün) varsa, məkruh deyil.

29. Cinsi əlaqəyə zamanı qadın və kişi həna yaxmış olsa bu hal məkruh sayılır. Bu onların övladlarına pis təsir edər.

30. Dördüncü gündən başqa günorta çağı və ona yaxın bir vaxtda yaxınlıq etmək məkruhdur. Bu uşağın gözlərinin şikəst olmasına səbəb olar.

31. Yol üstündə, adamların gözü qarşısında yaxınlıq etmək olmaz.

32. Cinsi əlaqədə olan kişi və qadında Quran ayəsi yazılmış üzük varsa bu haram sayılır.

33. Aybaşı olan qadınla yaxınlıq haramdır. Lakin qadın aybaşıdan təmizlənibsə, yuyunmazdan əvvəl onunla yaxınlıq məkruhdur.

34. Yorxun və yuxusuz halda cinsi əlaqədə olmaq məzəmmətə səbəb olar. Bu övladın sonsuzluğuna səbəb olar və onu pis yollara vadar edər.

35. Örtüksüz, ay və günəş altında cinsi əlaqədə olmaq məzəmmətə səbəb olar. Dünyaya gələn övlad ehtiyac içərisində olar və hətta tələf ola bilər.

Bütün bu rəvayətlər Məsumlardan gəlib əlimizə çatmışdır.

## CİNSİ CATIŞMAZLIQLAR

Kişi ilə qadının izdivacında əsas istədiklərindən biri də bir-birinin cinsi ehtiyaclarını ödəməkdir. Əks halda bu, ailədə bəzi narahatçıqlıqlara səbəb olar və bəzən talağa aparıb çıxarar.

Cinsi catişmazliqlar 3 növ ola bilər:

1. Etiras hisslərinin təhrik olmaması
2. Spermanın normal təhrik olmaması.
3. Yumurtalıqda olan catışmamazlıqlar.

Biz alimlərin nəzərlərini və bu növ xəstəliklərin əlac və dərmanını zikr edirik.

Düzdür ki, qadında da bəzən orqanizmin zəifliyindən cinsi catişmazliqlar olur. Amma onların çətinlikləri kişilərlə müqaisədə çox azdır. Kişilərdə olan çətinlikləri xatırlayırıq.

### 1. Etiras hisslərinin təhrik olmaması

Bəzən kişilər qadını ilə rastlaşanda cinsi hazırlığı özündə çox cçətinliklə hiss edir. Və ya təhrik alandan sonra cinsi hərarət tez sönüb aradan gedir və kişilik hələtini əlindən verir. Bu hal qadında müəyyən narazılıqlar səbəb olur.

*Bu catişmazliqların səbəbi nədir?*

Bəzən həyacanlar və ya məhəbbətinazlığı və ya narkotik maddələr, spirtli içkilər hamısından mühüm əxlaqsızdıqlar bu xəstəliyə səbəb olar.

*Bu xəstəliyin dərmanı.*

Sağlam istirahətlər və sübh çağı idman, ılıq su ilə çimmək,bal, banan, erkək quzunun əti, balıq və onun kürüsü və başqa yeməklər xəstənin orqanizmdə və əsəblərində müsbət təsir qoyar.

### 2. Spermanın normal təhrik olmaması.

İslam kişilərə tövsiyə edir ki, qadınlarının ruhi istəklərini hiss etsinlər. Cinsi əlaqədə olan zaman tələsməsinlər. Müəyyən zarafat və məhəbbət ilə qadında hazırlıq yaratsınlar. Bu şəraitə riayət etməyəndə, spermanın normal halda gəlməsinə şərait yaratmayanda müəyyən narahatçılıqlara səbəb ola bilər.

Seksopotoloqlar belə fikirdədirlər ki, cavan çağlarında anonizm və digər fəsadlı işlərlə məşğul olmiş qadınlarda cinsi zəiflik müşahidə olur.

Ola bilsin ki, belə şəxslərin əsəb sistemi xəstəliyi və xüsusən ürək nevrozu mövcüdolsun və amillər onların zəifliyinə şərait yaratsın. Elə şəxslər vardır ki, onlar cinsi əməliyyatı ilk vaxtlar sürətlə icra edirlər. Bu onların bədəninin güclü və hərarətli olması və cinsi əlaqə meylinin həddən artıq olmasıdır. Bir necə aydan sonra cinsi proses öz təbii halına qayıdır. Belə şəxslər üçün narahat olmasına dəyməz. Lakin yuxarıda qeyd edilən hal bir neçə aydan sonra əvvəlik halına qayıtmazsa onun səbəbləri araşdırılmalıdır.

Digər qrup şəxslər cinsi əlaqəni gec icra edirlər, bir sıra şəxslər yoldaşına qarşı etinasız olduğundan belə vəziyyətə düşürlər. Çünki arvadın zahiri görünüşü, gözəlliyi, onun əxlaqı və ərinə qarşı olan məhəbbəti ərin cinsi əlaqəyə daha çox meyl göstərməsinə səbəb olur. Bu halda bəzən spirtli içkilər, narkotik maddələr qəbul edilməsi, cinsi əlaqədə çox olmaqla əlaqədar olur. əgər vaxtında müalicə olunmazsa həmişəlik bu xəstəliyə mübtəla ola bilər.

Müalicəsi: - Cinsi catişmazliğa ducar olmuş şəxsləri eyni cür müalicə etmirlər. İlk növbədə xəstəliyitörədən amillər müəyyənləşdirilməli və sonra buna uyğun müalicə aparılmalıdır.

Əgər xəstəliyi törədən amillər anonizm, spirtli içkilər və narkotik maddələrdirsə onun aqibətini başa düşərək dərhal onlardan uzaqlaşmalıdır.

Bu catişmazliğın amili həyat yoldaşının xarici görünüşü və digər xüsusiyyətlərdirsə, kişi dostcasına və mehribanlıqla bu catişmazliqları arvadına xatırlatmalı və arvad öz növbəsində nəvaziş və mehribanlıqla bu catişmazliqları aradan qaldırılmasında ərinə kömək etməli, ailə səadətinin və həyatının dağılmasının qarşısını almalıdır. Əgər cinsi qüsurun səbəbi zəiflik və qida catişmazlığı ilə əlaqədardırsa, qeyd etdiyimiz kimi, hormonlu yemək və meyvələrlə çətinliyi aradan qaldırmaq olar. Cinsi

əlaqənin vaxtından əvvəl baş verməsinin qarşısını almaqdan ötrü prezirvativdən istifadə etmək və dəniz qırağında isti qum vannası qəbul etmək məsləhət görülür. Bundan əlavə istirahət, əsəbləri sakitləşdirmək də faydfalıdır.

## Cinsi catişmazliğın digər amilləri

Bir qrup adamlar cinsi catişmazliqlar müşahidə edilmir və heç vaxt ruhi və psixi xəstəliklər keçirməyiblər, onlar xoşa gəlməz hərəkətlərdən və anonizmdən uzaq olmuşlar. Onlarda heç bir mənfi hal və xəstəlik müşahidə edilməmişdir. Lakin bununla belə cinsi əlaqə zamanı onların gücsüz olmaları məlum olur.

Belə şəxslərin cinsi gücsüzlüyk amillərini öyrədərkən onları 3 qrupa bölmək olar:

a) Onlardan bir hissəsi sağlam və güclü olub öz bilik və bacarığını elmi tədqiqatlara həsr edir və cinsi yaxınlıq haqqında düşünmürlər.

b) Bir qrup insanlar ictimai-siyasi fəaliyyətlə məşğul olur. Onların bütün enerjisi, fikri-zikri bu yolda sərf edilir.

c) Bir hissə adamlar isə günlərini ibadət və dua etməkdə keçirir.Belə görünür ki, bu cür şəxslər qadın hüquqlarına əməl olunmasaı, cəmiyyətə qaynayıb-qarışmaq və dostlarla ünsiyyətdə olmağı dini ibadətə zidd hərəkət kimi qiymətləndirir və beləliklə də cinsi aləmdə müvəffəqiyyətsizliyə uğrayırlar.

Yuxarıda qeyd olunan 3 qrupdan əlavə digər təbəqələr mövcuddur. Bunların hərəsi həyatın müxtəlif sahələrində həddindən artıq ifrata varmaqla Qurani-məcidin buyurduğu tarazlığı, orta həddi pozaraq ailə huquqlarını pozurlar. Beləliklə, cinsi yaxınlıq zamanı zəiflik və arvadlarının narazılığı ilə üzləşirlər.

Sonra 3-cü qrup şəxsləri qeyd etmək lazımdır ki, bunnlar maddi çatışmamazlıq və münasib qida maddələrinin olmamasından cinsi problemlərlə qarşılaşırlar. Müasir dövrdə az maaş alan və az gəliri olantəbəqədən çoxlu sayda adamlar bu böyük bəla ilə üzləşirlər. Çox təəsüflə qeyd etmək lazımdır ki, cəhalət qalıqları, iqtisadi infilyasiya, məsul şəxslərin məsuliyyətsizliyi bu çətinliyin aradan qaldırılmasını çətinləşidirir. Ümid edirik ki, dövlət və millət ilahi və şəxsi

məsuliyyətlərini dərk edib az təminatlı təbəqələri yaddan çıxarmayacaqlar.

## NƏSİL-ÖVLAD ARTIMI VƏ AİLƏNİN TƏNZİMLƏNMƏSİ

Əgər ulu Tanrı cinsi etiras kimi çox güclü bir amili bəşər övladının varlığında yerləşdirilmiş və ailə qurmaq kimi müqəddəs bir məsələni onun vəzifəsi hesab edirsə burada əsas məqsəd yeni nəsil dünyaya gəlməsidir. Şübhəsizdir ki, yeni nəsil dünyaya gətirməyən ailələr boş və mənasızdır və onun İslam dinində heç bir yeri yoxdur.

Ulu Tanrı Qurani-Kərimdə buyurur: «O zaman yada salın ki, siz onda az idiniz, biz sizi artırdıq». («Əraf» sürəsi, ayə 16)

Əziz oxucular, əgər diqqətlə nəzər yetirsəniz görərsiniz ki, Allah cəmiyyətin artımını və yeni nəslin dünyaya gəlməsini öz neməti kimi qiymətləndirir.

### Nütfənin hədər yerə tələf etməyin

Müqəddəs İslam dini nəslin artması tərafdarı olduğu üçün nütfəni bəşər övladının artması amili hesab edir. Buna görə də onu hədər yerə məsrəf etməyin bütün hallarına qarşı mübarizəyə qalxmış və buna xilaf onları şiddətli cəzalarla cəzalandırır. Bununla bağlı qeyri-qanuni cinsi əlaqələri, heyvanata təcavüz etməyi haram buyurmuş, ərlə arvadın qeyri-təbii yerlərdə cinsi əlaqədə olmasını məsləhət görməmişdir.

Diqqətinizi bu barədə olan hədislərə cəlb edirik:

- Kafir bir şəxs İmam Sadiqin huzuruna gəlib dedi: «Nə üçün Allah heyvanatla yaxınlıq etməyi haram buyurub?» Həzrət buyurdu: «Çünki Allah istəmir ki, kişi öz toxumunu hədər yerə sərf etsin». Bir kafir İmam Sadiqdən həmcinslə yaxınlıq etməyin haram olması barədə sual etdi. İmam Sadiq (ə) cavabda buyurdu: «Əgər oğlanlarla cinsi əlaqədə olmağa yol verilsə idi kişilər qadınlarla evlənməzdilər. Onda bəşər övladının nəsli kəsilərdi. Heç kim evlənməz və fitnə-fəsad baş alıb gedərdi».

Başqa bir hədisdə qadınların da bir-biri ilə yaxınlıq etməsi yuxarıda qeyd edilən günahdan sayılır. Hər kim belə günaha batmış olarsa onu öldürün. Onu mütləq məhv edin.

*Uşağın dünyaya gəlməsinin qarşısını almağa icazə verilmirmi?*

Qeyd etdiyimiz kimi İslam nəsil artırmağın tərəfdarıdır. Əgər uşağın dünyaya gəlməsinin qarşısının alınmasında söhbət gedirsə bu müəyyən ictimai zaman və məkan daxilində cəmiyyət maddi imkanları ilə əlaqədər baş verir. Əgər bir sıra ailələrdə övladlarının təlim-tərbiyə olunmasında imkanlarında məhrumdurlarsa, şəriət qanunları ilə belə vəziyyətdə uşağın dünyaya gəlməsinin qarşısını almaq şübhəsiz ki, düzgübdür və bunun heç eybi yoxdur.

Mühəmməd ibn Müslüm belə deyir: «İmam Baqirdən (ə) soruşdular: Müsalman kişi atəşpərəst (məcussiyə) qadınla evlənə bilərəmi? Həzrət buyurdu: Yox. Ancaq əgər onun atəşpərəst kənizi varsa, onunla cinsi əlaqədə ola bilər. Bir şərtlə ki, uşaq olmasının qarşısını alsın». Buna oxşar sual divanə qadın haqqında da soruşulub və Həzrət buyurub: «Divanə kənizlə cinsi əlaqədə olmağın ziyanı (eybi) yoxdur. Bir şərtlə ki, ondan uşağı olmaya».

## Dövr və zamanın nəsil artımına təsiri

Əziz oxucular yaxşı bilirlər ki, müasir şəraiti Peyqəmbər və İmamların dövrü ilə müqaisədə fərqlidir. İslam dini ümümbəşər və əbədi din olduğu üçün bu çətinlikləri nəzərə alaraq öz ayinlərini fəqihlərin və alimlərin ixtiyarına vermiş və onlar bu ayinlərdən zaman və məkana uyğun olaraq istifadə etmişlər.

İmam Sadiq (ə) soruşdular: «Uşağın dünyaya gəlməsinin qarşısını almaq düzgündürmü?» Həzrət buyurdu: «Cəddim Əli bunu etmirdi, ancaq mən edirəm!» Bu hədisdə zamanın onların etdiyi əmələ təsiri vardır. Bu İmamların yaşadığı dövr və zaman eyni deyil.

Böyük Peyqəmbər uzaqgörənliklə bildirib ki, bir zaman gələcək o şəxslər yaxşı adamlar sayılacaqlar ki, ailəsi az olsun. Hədislərdən görünür ki, uşaq artımı məsələsi zamanla bağlı olaraq fərqli olmuşdur.

## Ailə sahibi olmaq və ya Peyqəmbərin nifrətinə ducar olmaq!

Peyqəmbərdən olan hədisləri araşdırarkən görünür ki, uşaq artımı bəzi hallarda Peyqəmbər tərəfindən razılıqla qarşılanmamışdır.

Bir hədisdə deyilir:

Allah-təala!!! Mühəmməd və onun dost və nəslinə çoxlu ruzi, mal-dövlət əta et. Ancaq onların düşmənlərinə isə çoxlu övlad-uşaq nəsib et ki, onların zəhmətinə və çətinlik çəkməsinə səbəb olsun. Həzrət Əli (ə) buyurur: «Dünyada ən ağır bəlalardan üçü aşağıdakılardır:

1. Çoxlu ailə və uşaq sahibi olmaq;
2. Çoxlu borcu olmaq;
3. Uzun sürən xəstəlik».

Qurani-Kərim «Təğabun» surəsinin 14-cü ayəsində deyilir: «Ey iman gətirənlər! Şübhəsiz ki, zövcələrinizdən və övladınızdan sizə düşmən olanlar vardır. Onlardan özünüzü gözləyin». Əli (ə) buyurdu ki, övladın az olması iki asanlığın biridir (asanlıqların biri də maddi imkanların olmasıdır). Xatırlamalıyıq ki, ailə çətinliklləri və valideynin hövsələsizliyi ölkələrin imkanatının məhdud olası bu məsələdə təsir var.

## Sonsuzluq

Ailə qurmağın əsas məqsəd layiqli övlad sahibi olmaqdır. Odur ki, sağlam kişilər və qadındar sonsuzluqdan kədərlənir, dava-dərman və müxtəlif vasitələrlə övlad sahibi olmağa can atırlar. Nütfə sperma və ovulun (qadının hüceyrəsi) tərkibində əmələ gəlir. Sonsuzluq iki amildən baş verə bilir:

1. Bir qism adamlar bu problemi həkim və dava-dərman vasitəsi ilə aradan qaldırırlar.
2. İrsi olaraq və başqa səbəblərdən uşaqları olmayanlar.

Qeyd etmək lazımdır ki, hər iki qrup sonsuzluqdan məyus olmasınlar. Onlar bilməlidirlər ki, hər şey Allahın əlindədir. Hər bir insan təmiz ürəklə Allaha dua etmək və həkimdən kömək almaqla Allahınköməyi ilə övlad sahibi ola bilər.

## NƏSİL VERMƏYƏN ARVADLAR

Qurani-məciddə oxuyuruq ki, ulu Tanrı qoca və ahıl çağlarında insanların dua və yalvarışlarını eşidib onlara övlad əta etmişdir. Onlardan Həzrət İbrahimi və yoldaşını göstərmək olar. Qoca çağlarında Allah-təala onlara məyusluqdan qurtarıb İsmayılı və sonra İsaqı əta etdi. Bu barədə

bir neçə ayəni oxuculara təqdim edirik: «İbrahimin əziz qonaqlarının xəbəri çatmışdırmı? Onun yanına gəlib dedilər: «Salam». Dedi: «Salam ey tanımayanlar. Gizli və tələsik adamlarının yanına gedib kök bir dana gətirdi. Yeməyi qarşılarına qoyub dedi: «Nə üçün yemirsiniz?» Və onlardan qorxuya düşdü. Qorxma və onu bilikli bir oğulla muştuluqladılar. Və arvadı qışqıra-qışqıra gəlib, özünə vuraraq dedi: Mən qısır bir qarıyam. («Zariyat» surəsi, 24-29-cu ayələr)

Həzrət Zəkəriyyə Peyqəmbər haqqında oxuyuruq: «O Həzrətin arvadı qısır idi. O əlini qaldırıb dua etdi və Allahdan ona bir qız əta etməsini xahiş etdi. Nəhayət onun duası qəbul edildi. Qoca çağında onun qısır arvadına övlad qismət etdi. Qız əvəzi olaraq ona Həzrəti Yahyanı bağışladı. Gördüyünüz kimi, Allah-təala qüdrətli və qadirdir».

## Hamilə olmaq üçün oxunan dua

İmam Baqirdən (ə) olan bir hədisdə deyilir: İmam şəhərinə getmişdim. Hişam ibn Əbdül Malik ilə görüşmək qərarına gəldim. Onun mühafizəçisi məni içəri buraxmırdı. O var-dövlətli bir şəxs olmasına baxmayaraq övladı yox idi. Ona dedim: «Əgər icazə versən ki, mən Hişamla görüşüm, sənə bir dua öyrədərəm ki, övladın olsun». O məni Hişamın hüzuruna göndərdi. İmam qayıdan vaxtı ona bir dua öyrətdi. Həmin duanı yerinə yetirməkdən sonra övlad sahibi oldu. İmam Baqir və İmam Sadiq üçün hədiyyə göndərdi.

İmam Sadiq (ə) buyurur: «Kim arvadının hamilə olmasını istəyirsə cümə namazından sonra iki rükət hacət namazı qılsın. Ruku və səcdədə çox olsun. Namazı bitirdikdən sonra övlad əta etmək üçün Allah-təalaya bu cür dua etsin: **«Əllahummə inni əsəlükə bima səələkə bihi Zəkəriyya. Ya rəbbi la təzərni fərdən və əntə xəyrul varisin. Əllahummə həbli zurriyyətən təyyibətən innəkə səmi ud-dua. Əllahummə bi ismikə istəhləl tuha və fi əmanətikə axəztuha fə in qazəytə fi rəhimiha vələdən fəcəlhu mübarəkən və la təcəl liş-şeytani fihi şirkən vəla nəsiba»**.

## Yeməklərin hamiləliyə təsiri

Heyvani və bitki qidalarinin özünə görə xüsusiyyətləri var. Onlar hamiləlik prosesinə öz təsiri var. Müqəddəs İslam dini 14 əsr bundan öncə bu məsələyə başlanmış onun təsiri və tərkibi haqqında xırda detallara qədər məlumat vermişdir. İdi isə onların bir neçə nümunəsini oxuculara təqdim edirik. İmam Sadiq (ə) buyurur: «Peyqəmbərdən biri övladının az olmasından şikayət etdi. Allah-təala göstəriş verdi: «Nəslin artırması üçün toyuq yumurtasındanistifadə edin».

Yenə də İmam Sadiq (ə) buyurur: «Cinsi imkanlarını və övladlarının çoxluğunu istəyən hər bir kəs zəncirotundan istifadə etsin.

Şirin nar yemək kişinin cinsi fəaliyyətini artırar və övladın gözəl olmasına təsir edər».

İndiki zamanda da alimlər bitkilərin təsiri barəsində nəzəriyyələr söyləyilər.

*Övladlarınızın qız olmasını istəyirsiz, ya oğlan.*

Bütün övladlar Allah-təalanın payı və nemətidir. Bütün oğlan və qız olmasının heç bir fərqi yoxdur. Bəzi dastan və rəvayətlərdə qızlar oğlanlardan üstün tutulur. Buna görə Həzrət Zəkəriyyə Həzrət Məryəmin əzəmət və gözəlliyini görüb Allahdan ona qız əta olunmasını xahiş edir. («Ali-İmran» sürəsi, ayə 37-38)

Həzrət İbrahim də qız olmasını arzu edir kiu, öləndən sonra onu ağlasın.

Ancaq elə ailələr də var ki, onların övladlarının hamısı ya oğlan və ya da qız olur. Onlar istəyirlər ki, hər iki cinsdən övladları olsun. Biz həkim məsləhəti və İslami hədislərdən istifadə edib belə şəxsləri bəzi amillərlə tanış edirik:

- Bir qrup adamların sperması eyni cürdür. Belə adamların övladlarının hamısı oğlan və ya qız olur. Yemək və digrə amillərin belə şəxslərə heç bir təsiri yoxdur.

- Hərarət gətirən yeməkdən istifadə etmək oğlan uşağının doğulmasında böyük təsirə malik olur. Buna görə də qadın və kişilərlə tövsiyə edilir ki, cinsi əlaqədən bir necə ay əvvəl xurma, bal və süd, təzə erkək əti, göyərti, heyva, zəncirotu və onun şirəsi, şirin nar, qoz və s. istifadə etsinlər.

- Yorğun, həvəssiz və gecənin əvvəlində, səfər zamanı cinsi əlaqə olmaq qız doğulmasına səbəb olur.

- Cinsi yaxınlıq zamanı ifrata varmaq bədənin hərarətini azaldır və nütfəni zəiflədir. Buna görə də bu məsələlərə fikir vermək lazımdır.

- Övlad dünyaya gəlməsi cavanlıq və evlənmə mərasimin ilk vaxtlarında daha münasibdir. Çünki insan yaşa dolduğca qız anadn olmasının etimalı daha da artıq olur.

- Qadının aybaşısına iki həftə qalmış qadınla cinsi əlaqədə olmaq oğlan uşağının dünyaya gəlməsinə müsbət təsiri olur.

Qadın və kişidə olan vitamin çatışmamazlığı – xüsusilə *B* vitamini qız anadan olmasına səbəb olur. Odur ki, ehtiyac içərisində yaşayan, vitaminli qida maddələrindən məhrum olan ailələrdə qız övladlarına daha çox təsadüf edilir.

Ulu Tanrıya edilən xüsusi dualar gələcək övladın cinsini təyin edilməsində böyük rol oyayır. İndi isə nəzər diqqətinizi bu barədə olan bir necə hədisə cəlb edirik.

İmam Sadiq (ə) bir hədisdə oxuyuruq: «Bir kişinin 8 qızı var idi. Lakin oğlu yoxidi. İmam ona belə buyurdu: «Cinsi əlaqə zamanı sağ əlini qadının göbəyinin sağ tərəfinə qoy və «Qədir» surəsini 7 dəfə oxu, sonra cinsi əlaqəyə gir. Arvadın hamilə olarsa dübarə əlini onun göbəyinin sağ tərəfinə qoyub həmin surəni yeddi dəfə təkrar et. Bil və agah ol ki, arzuna çatacaqsan».

İmam Sadiqdən olan digər bi hədisdə deyilir: «Hər kimin arvadı hamilə olsa və qərara alsa ki, uşağın adını Mühəmməd və yaxud Əli qoyacaq onun oğlu olacaqdır».

Başqa bir hədidə oxuyuruq: «Hər vaxt qadının hamiləliyi dörd aya çatdıqdan sonra üzü qibləyə durub «Ayət-əl-Kursi» oxusa və əlini astaca qadının böyrünə qoyub «İlahi bu uşağın adını Mühəmməd qoydum» desə düyaya gələn uşaq oğlan olar.

## QISQANCLIQ KİŞİYƏ VƏ QADINA RƏVA DEYİLİR

1. Peyqəmbər (s) buyurmuşdur: «Atam İbrahim qeyrətli idi, mən ondan daha qerətliyəm. Görürsən ki, Allah namus qeyrəti olmayan mömin torpaq altında çəkib aparır».

2. İbn Əbi Umeyr deyir: Həzrət Rəsul oturmuşdu, birdən lüt-üryan bir qadın daxil oldu, Həzrətin qarşısında dayandı, dedi: «Ya Rəsulallah, mən zina eləmişəm. Məni pak et! (Yəni cəzamı təyin et!)» Bu zaman bir kişi onun dalınca qaça-qaça gəldi, üstünə paltar atdı. Həzrət soruşdu: «Nə olmuşdur?» O dedi: «Bu mənim arvadımdır. Mən kənizimlə xəlvətə çəkilmişdim. Arvadım məni tənbeh eləmək üçün belə bir rusvayçılıq elədi». Buyurdu: «Onu apar, qısqanclıqı coşub-daşan qadının gözü dərənin aşağısını-yuxarısını görməz».

3. Peyqəmbər (s) buyurur: «Cənətin iyi 500 illik məsafədən adamın burnuna gəlib çatar. Ancaq ata-ananın üzünə ağ və dəyyus olan adamın burnuna çatmaz. Demişdilə: «Ya Rəsullah, dəyyus kimdir?» Buyurdu: «Dəyyus o adamdır ki, qadını zina eləyər və bundan özünün xəbəri olar (Yəni heç bir tədbir görməz)».

4. Əmirəl-möminin (ə) buyurur: «Ərinin başqa bir qadın almasına dözə bilməyən qadının hikkəsi Allahın hökmünü rədd etməkdir, kişinin qeyrəti isə imandır».

5. Yenə o Həzrət buyurur: «Allah qeyrətli mömin üçündür. Mömin də gərək özü üçün qeyrətli olsun. (Allah onun namusunu hifz etmişdir, o özü də gərək onu qorusun). Belə deyilsə, demək, onun qəlbi məhv olmudur».

6. Həzrət Baqir (ə) buyurur: «Allah qısqanclığı qadın üçün nəzərdə tutmamışdır, kişi üçün yaratmışdır. Çünki dörd qadını daimi və həmçinin kənizi kişi üçün halal buturmuşdur. Lakin qadın üçün bir kişidən artığını halal buyurmamışdır. Əgər qadın ərindən başqa bir kişi ilə əlaqə yaratsa, Allahın yanında zinakardır. Çoxərlilik məqamənda qısqanclıq nümayiş etdirən bu qadınlar Allah hökümlərinə etiqad bəsləməyən imkansız qadınlardır».

7. Yenə o Həzrət buyurur: «Bir neçə əsiri Peyqəmbərin yanına gətirirlər. Həzrət onların qətli haqqında fərman verdi, yalnız birini bağışladı.Əsir soruşdu: «Məni azad etməyinin səbəbi nədir?» Buyurdu: «Cəbrail Allah tərəfindən xəbər gətirdi ki, sənin beş xislətin var ki, Allah elçisi onları sevir: namus qeyrəti, səxavət, xoş əxlaq, düz danışmaq və şücaət».

8. Başqa bir hədisdə buyurur: «Qadının qısqanclığı əslində həsəddir. Həsəd isə küfürün köküdür. Qısqanclığı coşan qadın qəzəblənir,

qəzəblənəndə isə küfürə yuvarlanır. Əlbəttə, müsalman qadınlar belə deyildir».

9. Həzrət Sadiq (ə) buyurur: «Allah qeyrətlidir və qeyrətliləri sevir. Qeyrətlidir ki, o, zina və s. kimi çirkin işləri – istər aşkar, istər pünhan olsun – haram buyurmuşdur».

10. Yenə o Həzrət buyurur: «Əgər bir kişi arvadının ya kənizinin kiminləsə qeyri-şəri əlaqəsindən xəbər tutursa və bir tədbir qılmırsa, Allah ona 40 günə qədər möhlət verir. Sonra iman hissini ondan alır və mələklər onun adını dəyyüs qoyurlar».

11. Başqa bir hədisdə buyurur: «Əgər 40 gündə çal-cağırdırsa adamlar gəlib-gedirsə, şeytan ev sahibinin bədən əzalarına daxil olur və ondan sonra qeyrət hissi onun vucudundan susur. Hətta arvadları təcavüzə məruz qalsalar, heç yerindən tərpənmir».

12. Bir kişi İmam Sadiqin (ə) huzurunda öz arvadını təriflədi. Həzrət buyurdu: «Qeyrətini yolamısan?» Dedi: «Yox!» Buyurdu: «Get, onu imtahan elə!» Kişi getdi, sınadı, gördü ki, yersiz qeyrət nümayiş etdirmədi. Həzrət buyurdu: «Hə qədər təriflənsən, yeri var!»

13. Yenə İmam Sadiq (ə) buyurur: «Allah cihadı kişi və qadın üçün vacib saymışdır. Kişinin cihadı budur ki, canını və malını Allah yolunda sərf edir. Qadının cihadı budur ki, azda və qeyrətli bir adamı özünə ər edir». (Əgər ər namusunu qorumaq üçün yersiz və qeyri-şəri gəl-getlərin qarşısını alırsa, pis bir iş görmür).

14. Peyqəmbər (s) buyurur: «Qeyrət imanın nişanəsidir. Ədəbsiz, çirkin sözlər isə cəfa əlamətidir».

15. Yenə buyurmuşdur: «Öz arvadı ilə yad bir adamın əlaqəsinə yol verən adamın Allah qiyamət günü tövbə və qurbanını qəbul etməyəcəkdir».

16. «Ata-anasının üzünə ağ və dəyyüs olan adam behiştə gedə bilməz və dəyyüs o adamdır ki, öz qadını üçün oynaş aparır».

17. «Allah cihadı mənim ümmətimin kişiləri üçün və qeyrəti qadınları üçün yaratmışdır (yəni qadınlar təbiətən qeyrətlidirlər və özlərinə rəqib görə bilmirlər). Kim Allah rizası üçün qadınlarının qeyrətini başa düşsə və səbr etsə, Allah ona şəhid məqamı əta edər».

18. Əli (ə) buyurur: «Kişinin qeyrəti iman, qadının qeyrəti düşmənçilik deməkdir».

19. «Kişinin qeyrəti onun namus hissi və mərdanəliyi qədərdir».

## QADININ ƏXLAQİ SAFLIĞINI QORUMAQ

1. Həzrət Səccadın (ə) kürəkəni, ya bacılarının əri onun yanına gəlirdisə, altına palaz salır, oturan kimi, buyurdu: «Afərin olsun o adama ki, həyatı idarə etməyi və namusun qorunmasını öz öhtəsinə götürmüşdür».

2. Peyqəmbər (s) buyurmuşdur: «Qadınlardan ötrü Allahdan qorxun, bu təbəqə doğru yol göstərilməyə möhtacdır; onların mühafizi vardır və ilahi əmanətdirlər ki, siz özünüzə halal eləmisiniz. Əgər onlardan fikrinaqislik və dözümsüzlük görsəniz, səbrlə və sükütla aradan qaldırın və namusların əminlik şəraitində qorunmasının məsuliyyəti sizin üzərinizə düşür».

3. Həzrət Əli (ə) buyurur: «Peyqəmbər (s) bizdən sual etdi: «Qadın üçün ən yaxşı şey nədir?» Heç kəs cavab vermədi. Mən əhvalatı Həzrəti Zəhranın (ə) qulağına çatdırdım. Həzrət Fatimə buyurdu: «Qadın üçün naməhrəm adamlarla qeyri-şəri təmasda olmasından daha yaxşı heç bir şey yoxdur». Həzrəti Rəsula ərz etdim. Buyurdu: «Düz demişdir, Fatimə mənim canımın bir parçasıdır».

4. Başqa bir hədisdə deyilir ki, Peyqəmbər (s) səhabələrdən soruşdu: «Qadın Allaha daha yaxındır?» Sualı Zəhra (ə) eşitdi, cavab verdi: «Hicab və namusunu qoruduğu zaman!»

5. «Qadın gözəldir, onu hər kəs aldı, geyindirməlidir».

6. «Qadının qorunması və hifz edilməsi onun təravət və gözəlliyini təzə-tər saxlayır».

7. İbn Həmran İmam Sadiq (ə) dedi: «Sizin qeybə çəkilmiş Sahib-zamanınız nə vaxt üzə çıxacaqdır?» Buyurdu: «O zaman ki, qadınlar kişilərə, kişilər qadınlara oxşayacaq, qadınlar yəhər üstə çıxacaqlar, yalançı şahidliklər eşidiləcək, pak adamların şahidliyi rədd ediləcək, insanların tökülən qanına etiram ediləməyəcək, zina, oğurluq və rüşvət rəvac tapacaqdır».

## ÇOXARVADLILIQ

Təbii olaraq kişi ilə qadın arasında özünəməxsus çinsi fərqlər mövcuddur. Məlumdur ki, qadın hər ay «adət dövrü» və ya hamiləliklə

əlaqədər, müəyyən vaxtlarda təbii olaraq kişi ilə cinsi əlaqədən uzaqlaşır. Bundan əlavə qadın kişiyə nisbətən daha tez, yəni kiçik yaşlarından etibarən izdivaca özlərini ehtiyac duyurlar, lakin müəyyən yaş həddinə çatdıqda cinsi hissiyyatları azlır və tədricən aradan gedir.

Kişilərin isə başqa səciyyəvi xüsusiyyətləri vardır. O cümlədən kişi ağır fiziki, zehni və məsul işlərlə məşğul olduğundan, iş ilə əlaqədar olan bir sıra çətinliklər, ailə qayğıları və bir çox dərd-sər ucbatından qadına nisbətən az ömür edir və dünyadan tez gedir. Bundan əlavə zaman və şəriətlə əlaqədar olaraq, qəza, bədbəxt hadisələr, müharibə və s. bu kimi hadisələrə daha çox məruz qaldıqlarından, müəyyən dövr ərzində minlərlə kişilər «vaxtından tez» dunya ilə vidalaşırlar. Nəticədə qadınları və uşaqları başsız, kimsəsiz qalır.

Nəzərə alsaq ki, yer üzündə qadınların sayı kişilərin sayından çoxdur və qadınların sayı kişilərin sayından çoxdur və qadınların yaşamaq, həyatlarını davam etmək istəyi (uşaqlara ata, ailədə maddi çətinliklər, izdivaca davam etdirmək və s. amillər nəzərdə tutulmaqla) adi, həm də təbii bir haldır, onda şərait və huquqi baxımından bir kişinin (qanuni sürətdə) bir neçə qadın almağı özü də təbii və qanunauyğun sayılmalı və heç kimdə bu hal təəccüb doğurmalıdır.

Əksinə, belə olmadıqda, ictimaiyyət daha acınacaqlı hallarla rastlaşmış olur. O, mənada ki, başsız və arxasız qalan (xüsusilə gənc) ana, ailə üçün ağır olan bu itkidən sarsılır və bir sıra ailə çətinlikləri ilə üz-üzə durur. Onlardan bəziləri bu məhrumiyyətləri dözməyib maddi rifahını yaxşılaşdırmaq, cinsi ehtiyacı ödəmək (və s.) məqsədi ilə bəzi əyyaş kişilərin əlində oyuncağa çevrilirlər (Çünki vicdanı və niyyəti təmiz olan şəxs, qadınların zəif məxluq olduqlarından və düşdükləri vəziyyətdən sui-istifadə etməli, bəlkə də, onunla qanuni izdivaca girməyi daha üstün tutmalıdır.)

Bəli, şəxsi mənafe, ləzzət, mala-dövlətə uymaq, zorakılıq, seksual kinolar, pornaqrafik şəkil və jurnallar və s. mənfi amillər – nəzarətsiz və kimsəsiz qalan qız və gəlinləri faişəliyə sürükləyən atributlardır. İslam ölkələrində bu dözülməz bir haldır. Belə halların qarşısı hər bir vəclə alınmalıdır. Çünki zinakarlıq, fahişəlık və s. bu kimi əxlaqsızlıqlar artıq Qərb (Avropa) ölkələrində geniş yayılıb, qol-qanad açmaqdadır və bunun zərərli nəticələri (ailə pozğunluğu, həya-abırın aradan getməsi, yolxucu

xəstəliklər və s.) artıq bütün bəşəriyyət şahididir ki, cəmiyyəti nə cür fəlakətlərə sürükləyir.

Ona görə də müşkulata, məhrumiyyətə ducar olan hər bir qadın bilməlidir ki, lazım gəldikdə təbii ehtiyacları təmin etmək huquq və şəriət qanunlarının yol verdiyi qaydada həyata keçirməlidir, digər yollar isə batildir.

Həmçinin kişilər belə vəziyyətlə rastlaşarlarsa, heç vəclə qanunsuzluğa yol verməməli, şərait imkan verirsə (hətta evli olsada belə) onlarla qanuni sürətdə ailə qurmalı və normal yaşayış üçün onlara lazım olan hər bir ehtiyaclarını ödəməlidir.

Əgər təkrar izdivac huquq və şəriət hökümlərinə tam cavab verirsə qadında ərini bu işdə gunahlandırmamalı və onlara irad tutmamalıdır.

Belə olan sürətdə sual olunur: Həyatda ərdən məhrum olan qız-gəlinlər əgər təkrar nigah yolu ilə deyil, bəs hansı yolla öz təbii ehtiyaclarını təmin etməlidirlər? Batil, haram yol iləmi? Yoxsa nəfəslərini kor edib öz yetimləri ilə bahəm həyatın əzab-əziyyətinə qatlaşıb zillət içərisində ömrlərini başa çatdırmalıdırlarmı?

Müqəddəs İslam dini qadınların təbii, mənəvi ehtiyaclarına diqqətlə yanaşır, imkan və şəriət nəzərə alınmaqla təkrar evlənməyə üstünlük verir və bununhəqiqi və doğru yoluna da öyrədir.

Tarix nişan verirki, İslamiyyətdən çox-çox qabaq, müxtəlif millətlər arasında çoxarvadlılıq geniş yayılmış və inkişaf etmişdir.

Beləliklə, çoxarvadlılıq İslamiyyətdən irəli gələn adət-ənənə deyil, əksinə İslam dini onu məhdud etmiş mühit və imkanla əlaqədər olaraq sayını azaltmışdır. (Məsələn: Bəzi şahların 3 min arvadı, 12 min nəfər kəniz, çalğıcıları və rəqqasələri olub).

İnsanları düşündürən ən mühüm və çətin suallara cavab tapmaq üçün dinimizdə Qurandan ali və etibarlı bir mənbə ola bilməz. Odur ki, kişilərin sahib ola biləcəyi qadınların sayını konkretləşdirmək üçün yenə bu müqəddəs kitaba müraciət edək.

«Nisə» surəsinin 3-cü ayəsində Allah-Təala buyurur: «Pak və xoşunuza gələn qadınlarla evlənin, ikisini, üçünü, dördünü alın. Əgər qorxsanız ki, bunları ədalətlə yola verə bilməyəcəksiniz, onda biri ilə kifayətlənin..».

Zövcələrin sayı müəyyənləşdirən bu Quran ayəsi, İslam dinində bir qanuni hökümdür. Belə ki, şərait imkan verirsə, yəni: əgər kişinin cismən,

ruhən və maddi cəhətdən imkanı varsa o, iki və hətta dörd arvad da ala bilər. Yox əgər normal şəraitdə onları təmin etməyib və ədalətlə rəftar edə bilməyəcəksə onda yalnız bir qadınla kifayətlənə bilər.

Digər tərəfdən qadınlar öz ərlərinin təkara izdivaclarına çox zaman etiraz edir və irad tuturlar ki, bu da onların təbii xüsusiyyətlərindən irəli gəlir. Bununla əlaqədar iki hədisə nəzər yetirək:

Rəvayətlərdə varid olub ki, Peyqəmbər-Əkrəm (s) öz sahəbələri ilə birgə oturub məşvərət və söhbət edirdilər ki, nagəhan bir qadın yarıçılpaq bir halda o Həzrətin məzhərinə yetişdi və ərz edir ki: «Ya Rəsulallah, mən zinaya mürtəkib olmuşam, məni daş-qalaq et!» Bu zaman bir kişi ona catıb əlindəki libası qadının əyninə keçirtdi. Bunu görən Peyqəmbər (s) soruşdu: «Nə hadisə üz verib?» Dedi: «Ya Rəsulallah! Bu mənim arvadımdır, zinada etməyib, lakin mənim evimdə öz kənizimlə tək qadığımı görərkən buna dözməyib bu xoşagəlməz hərəkətə əncam verdi». Rəsuli-Xuda (s) buyurdu: «Bu qadından muğayat ol, çünki məğrur və kəmhövsələdir və qısqanclığı ucbatından həqiqəti dərk etməyib aldana bilər».

İmam Sadiq (ə)-dan rəvayət olunan digər bir hədisdə ərləarvad arsındakı naratçılıqdan və kişinin başqa qadınlahəmsər olmağa meyl göstərmədiyindən söhbət gedən əsnada, İmam buyurur: - «Bu cür təsirin kökü, kişinin qadınla həddindən ziyadə əlaqəyə girməyindən və qadınında həddindən çox kişiyə mehribançılıq göstərməyindən irəlu gəlir».

Nümunə üçün zikr olunan bu iki hədisdə diqqət yetirdikdə görürük ki, qadınların təbii xüsisiyətlərinə görə kişilərin digər qadınla ünsiyyəti (bu və ya qeyri halda) onların xoşuna gəlmir və buna qəbul etmirlər. Bəzi halda, qadının qısqanclığı və səbirsizliyi ucbatından əksül-əməllər peyda olur ki, bu da xoşagəlməz hallara aparıb çıxardır.

Bəli, Qərb İslamın əleyhdarları dinimizin bu ilahi hökmünü təhrif edir və ona irad tuturlar, lakin öz ölkələrindəbaş alıb gedən axlaqsızlıq və faişəliyə göz yumurlar. Ərdən məhrum qızlar və başsız qalan dul qadınları unudurlar və ya onların talelərinə biganəlik göstərirlər və onları təhrik edirlər ki, yad kişiləri «ovlamaqla», faişəliyə qoşulmaqla öz təbii ehtiyaclarını təmin etsinlər.

Şərqin «çoxarvadliliq» adəti ilə Qərb adət şəklini almış əxlaqsız və bihəya hərəkətləri arasında fərq qoymayan Avropanın önündə gedən bir çox ictimai xadimləri Şərqin qadınlara nisbətən bir sıra

«məhdudiyyət»ləri «bol-bol azadlıq»larla (o cümlədən cinsi azadlıqlarla; istədikləri vaxt və isdədikləri yerdə öpüşmək, bir-birinin ağuşuna atılmaq, bir-biri ilə rəqs etmək, çılpaq halda bir-biri ilə suda çimmək, bir-birinin gözləri önündə geyinib-soyunmaq və s.) öyünərək Şərqi keçmiş adət-ənənələrə qapılmaqda təqsirləndirir, özlərini isə nümayişkaranə sürətdə bütün dünyaya «sivilizasiya»lı bir ölkə kimi tanıtdırmaq istəyirlər.

Odur ki, cavanlarımız olduqca ayıq-sayıq olmalı, İslamın inçəliklərini öyrənməklə Qərbin bu cür zərərli təsirindən özlərini və yaşadıqları cəmiyyəti qorumalıdırlar.

Əyyaşlığın, faişəliyin, homoseksualizmin adi bir hal aldığı İngiltərədə iki milyonadək yalnız ərdə olan qadın başqa kişilərlə əlaqədə olur və zinakarlığa bu kimi hərəkətləri ilə bir az da «rövnəq» verirlər.

İkinci dünya müharibəsində sonra kişilərin külli miqdarda müharibə nəticəsində həlak olmaları ilə əlaqədər olaraq Avropa, xüsusilə Almaniyada «çoxarvadlılıq» mövzusunda maraq artmaqda idi. Ona görə də Almaniyanın hakim dairələri «Əl-əhzər» universitetində «çoxarvadlılıq» haqqında qanun lahiyəsini onlara vermələrini xaiş etdilər, lakin kilsə xadimlərinin güclü müqaviməti ilə rastlaşdıqlarına görə bu işdən əl götürməyəı məcbur olurlar. Nəticə də bu oldu ki, bu gün şahidi olduğumuz kimi, qanunsuz cinsi əlaqə, faişəlik Almaniyanı və s. Avropa ölkələrini (xüsusilə müharibədə iştirak edən ölkələri) alov kimi bürüdü və hal-hazırda Qərb çarəsi müşkül olan belə bir ictimai bəla ilə üz-üzə durub.

Məgər iman və təqva sahibi olan müsalman qadını razı olarmı özü və ya övladları Qərbin bir çox qadınlarının giriftar olduqları bəlaya düçar olsunlar? Məgər görmürlər ki, «əsrin bəlası» adlanan sağalmaz, yolxucu xəstəliklərin rişəsi və sorağı hardan gəlir? Görəsən qanuni «çoxarvadlılıq» yaxşıdır , yoxsa qeyri-qanuni, xəlvət cinsi əlaqə?

Həzrət Əli (ə) bu kimi məsələlərə öz münasibətini belə bildirir: «Qadının qısqanc olması və təkrar izdivaca qarşı çıxması – dinsizliyi və etiqadsızlığı üzündən irəli gəlir» (Nəhcül-bəlağə, s. 114)

Təkrar izdivac – İlahi bir əmr olmala yanaşı ərsiz və ya ərindən məhrum olan qadınların ictimai huquqlarını qorumaq üçün ən münasib və doğru bir yoldur. Çünki bir çox başqaları kimi təbii olaraq ailə məhəbbətinə, kişi nəvazişinə haqları var.

## İfrat izdivaca uğrayanlara İslamın münasibəti

Baxmayaraq ki, İslamın hüquq qaydalarrınından təkrar izdivac haqqında göstərişlər var, lakin bu müqəddəs əməl, ictimai əsaslar üzərində qurulmalı və davam etdirilməlidir. Əgər ailə təminatı –fizika və maddi imkanlar nəzərə alınmayıb, yalnız şəhvət və heyvani hisslərə uyub, qadınların və oğul-uşaqlarının huququnu müdafiə edə bilməyəcəksə, onlaaarın maddi və fiziki təlabatlaını ödəyə bilməyəcəksə, onda belə müqəddəs, ilahi əmrə məsuliyyətsiz yaşamaq təqdirəlaiq hərəkət deyil, şər hökmlərə istinadən bu cürc əməl məkruh və hətta günah sayılır. Təkrar izdivaca girib bu çür məsuliyyətli işə yalnız birtərəfli yanaşan, müvafiq şəriət qanunlarını pozan şəxslər – bu kimi əməlləri ilə müqəddəs dinimizi qeyir-İslam millətlərin nəzərində salır, dinimiz haqqında onlarda bədgümanlıq yaradır, nəticə etibarı ilə İslama ləkə vururlar.

Bu xususda məsum İmamlarımız varid olan hədis və rəvayətlər çoxdur, biz onlardan bir neçəsini sizin diqqətinizə yetirmək istəyirik.

Həzrət Əli (ə) buyurur: «Hər kəs şəhvətpərəstliyi ucbatından çox arvad alarsa – o, cəmiyyət rusvay olunar və bədbəxtçiliyə giriftar olar».

İmam Sadiq (ə) buyurub: «Möminlik o şəxslərin məqmıdır ki, şəhvətə uymasın və qarınqulu olmasın».

Rəsuli-Əkrəm (s) buyurur: «Hər kim mövcud şəraiti və imkanları nəzərə almayıb, yalnız əylənmək və kef çəkmək xatirinə çox arvad alsa, o, Allahın qəzəbinə və lənətinə duçar olar».

Bu və digər hədislərə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, münasib şərait və imkan olarsa (şeytani, nəfsani hisslərdən uzaq olmaqla) şəri baxımdan çoxarvadlılıq müstəhəb və savab bir işdir. Yox əgər onların maddi və cinsi ehtiyaclarını ödəyə bilməyəcəksə, normal şəraitlə təmin edə bilməyəcəksə, belə olan sürətdə çox arvad almaq nəinki caiz deyil, hətta ilahi əmri pozduğuna görə və şərait hökmlərinə xilaf çıxdığına göə cəmiyyətdə və daha çox Allah dərgahında mənəvi və hüquqi məsuliyyət daşıyır.

## MÜVƏQQƏTİ İZDİVAC

## İslamda müvəqqəti nigahın dəlili

## Müvəqqəti nigahın xüsusiyyətləri və daimi olan nigahla fərqləri

Hər iki tərəfin razılığı, zaman və mehriyyənin təyin olması bu nigahın əsaslarındandır. Fərqləri bunlardan ibrətdir:

1. Bir-birlərindən irs apara bilməzlər. Amma daimi nigahda irs apararlar.

2. Qadının yeməyi-içməyi, libas kişiyə vacib deyil. Amma daimi nigahda vacibdir.

## İslamda çoxarvadlılıq fəlsəfəsi

1. Hər zaman və hər ölkədə qadınların ömrü kişilərdən uzundur. Buna dəlil bir çoxlu nümunələr gətirmək olar. Bir necəsini qeyd edək:

Paris şəhərində dövlət tərəfindən 100 yaşlıların siyahısı aparılmışdır. 11 nəfərdən ibarət olan yaşlıların 10-u qadın, 1-i kişi idi. Amerikada 1890-cı ildə 100 yaşlılardan siyahı tutdular. 3000 nəfərdən 1398-i kişi, qalanı qadın idi.

2. Amerikada normal qadının ömrü 73, kişilərin ömrü 69-dur.

3. Cəmiyyətdə qadın bir çox xətərlərdən uzaqdır. Məsələn müharibələrdə və təjhlükəli ağır içlərdə kişilər çox iştirak edirlər.

4. Kişilər morf, tiryək, nəşə və bütün məstedici şeylərdən çox istifadə edirlər. Qadınlar isə az istifadə edirlər.

5. Biz əgər qadınla kişilərin sayını bərabər fərz etsək də həddi-buluğa çatan qızların sayı, həddi-buluğa çatan oğlanların sayından çoxdur. Çünki qızlar tez həddi-buluğa çatırlar.

6. Bəzi təhlükəli təsadüflər müharibə, təyyarəçilik, gəmiçilik, sürücülük, xüsusilə atom döyüşü kimi milionlarla kişinin müharibə meydanında məhv edir və və onların qadınları başsız qalır. Onları dənizə tökmək olarmə? Ya onlara demək olar ki, etiras hissələrinizin qabağını alın? Ya da deyilə ki, bundan sonra sizinyaşamağa haqqınız yoxdur. Əks sürətdə çəmiyyətdə pozğunluq baş verər. Neçə ki, dünya müharibəsindən sonra Almaniya bu cür oldu. Qadınların sayı kişilərin sayından 6 milion çox idi.

7. Bəzən qadının müəyyən xəstəliklərinə görə kişisi onunla cinsi əlaqədən məhrum olur və qadında uşaq doğma qabiliyyəti olur. Bu halda kişinin ikinci qadın ilə evlənməkdən başqa yolu varmı?

## Siğə (müvəqqəti evlənmə) hər kəs icazə verilirmi?

İslamın bütün göstərişləri, o cümlədən əhkam ictimai əsaslarla qanuna uyğunlaşdırılmamışdır.Siğə etmək məsələsi də bu səpkidə və bu istiqamətdə icra edilir. Siğə etmək məsələsi də bu səpkidə və bu istiqamətdə icra edilir. Əyyaş və əxlaqsız insanların hərəkətləri İslamın və Allahın həqiqi qanunla xələl gətirə bilməz.

Keçmiş əsrlərdə müvəqqəti evlənmək amilindən xoşagəlməz və qeyri-münasib məqsədlər üçün istifadə edilmişdir. Bİr qrup şəxs belə fürsətdən şeytani nəfsin öldürüb öz murdar məqsədinə çatmaq üçün istifadə etmişlər. Təəssüf ki, müasir dövrdə də belə hallara rast gəlmək olur. On dörd əsr keçməsinə baxmayaraq müqəddəs şiə qanunu ilə nəzərdə tutulmuş bu məsələnin əsas məqsədi bir çoxları üçün qaranlıq qalmışdır. Ir qrup səhv olaraq bundan şəxsi məqsədləri üçün istifadə edirlər.

Imkanlı şəxslər bəzən ailə və övladlarının olmasına baxmayaraq yollarını azaraq başqa yerlərə əl uzadır, müvəqqəti və cürbəcür evlənmək xəyalına düşürlər. Qeyd etmək lazımdır ki, müvəqqəti evlənmək öz həmişəlik həyat yoldaşına əziyyət vermək, onun şəriətlə təsbiq edilmiş

huququnu pozmaq üçün nəzərdə tutulmayıb. Evli şəxslərin heç birinin haqqı və huququ yoxdur ki, öz ailəsinin təmin etməmiş müvəqqəti evlənmək fikrinə düşsün.

## Müvəqqəti evlənməyə nə məqsədlə icazə verilir?

Bu mövzu bəzilərinin narazılığına səbəb olub müəlifi çətinliklərlə üzləşməsinə baxmayaraq fikir mübadiləsi etmək və məsələyə aydınlıq gətirmək qəsdi ilə sahədə olan hər bir fikir və nəzəriyyəni bölüşdürməyə hazırıq. Əvvəlcə bu barədə olan bir necə hədis hakimlik etmək xatirinə oxucuların nəzər-diqqətinə cəlb edirik:

- Müsalman döyüşçüləri müxtəlif qüvvələri məhv etmək məqsədi ilə səngərənin - Peyqəmbərin yanında idilər. Uzun bir zaman keçdi. İbn Məsud belə nəql edir ki, bir qrup Peyqəmbərin hüzuruna gəlib ərz etdilər: «Ey Allahın Peyqəmbəri! Arvadlarımız yanımızda deyildir. İcazə versən cinsi etiraslarımızı söndürək?»

Peyqəmbər belə bir işi qadağan edib Allahın hökmü ilə müvəqqəti evlənməyə onlara icazə verdi.

Əbu Bəsir deyir: «Müsafirətdə olarkən İmam Sadiqin hüzuruna yetişdim. O məndən sual etdi: «Ey Əba Mühəmməd (Əbu Bəsrin künyası Əba Mühəmməd idi), evin dən və ailəndən uzaq düşdüyün gündən heç kəslə müvəqqəti evlənmisən?» dedim: «Xeyr». Soruşdu: «Nə üçün?» Cavab verdim ki, buna maddi imkanım yoxdur. Həzrət mənə dinar verdi. Mən həmin dinarla qadınla siğə etdim.

Hədislərdən göründüyü kimi, müvəqqəti evlənmək ehtiyacı olanlar üçün bu, şiə qanunlarına uyğun olaraq həyata keçirilir. Buna ehtiyacı olmayan və arvadları bu işə etiraz edən şəxslər, siyasi mövqeyi bu məsələyə uyğun olmayanlar ondan çəkinməlidirlər.

## İmamların nəzərinə görə müvəqqəti evlənməyin qadağan olunduğu hallar

İslami hədislərin araşdırılması göstərir ki, müvəqqəti evlənmək bəzi hallarda daimi evlənməyə bərabər tutulduğu kimi bir çox hallarda isə bir qrup insanlar üçün qadağan edilir. Belə işlər törətmiş şəxslər fasiq və fəsad admlar hesab olunur.

İndi isə nümunə üçün bu sahədə yazılmış rəvayətlərdən bir neçəsini nəzərinizə çatdırırıq:

İmam Musa ibn Cəfərin yaxın dostlarından olan Əliyibni Yəqtin müvəqqəti evlənmə barəsində o Həzrət sual etdi. O Həzrət qəzəb və narahatlıqla bildirdi: «Sənin bu məsələyə nə dəxlin var? Allah-Təala sənə daim həyat yoldaşı verməklə belə işlərdən azad etmişdir».

Göründüyü kimi, Həzrət İmam Musa ibn Cəfərin evli şəxslərin müvəqqəti evlənmək haqqında düşünməsindən narahatlıqü hissi keçirir və belə şəxsləri danlayır.

İmam Sadiqin ləyaqətli və dahi tələbələrindən biri olan Müfəzzəl ibni Ömər deyir: «O Həzrətin belə ərz etdiyini eşitdim ki, buyurur: «Müvəqqəti evlənməkdən çəkinin. Xəcalət çəkmirsiniz ki, sizlərdən biriniz gülünc vəziyyə düşüb ittihamlara məruz qalarsınız. Bununla laiqli dost və qardaşlarınıza ləkə vurarsınız».

Diqqətə laiq haldır ki, müvəqqəti evlənmə Allahın və Peyqəmbərin qoyduğu qaydadır. Bu fəslin başlanğıcında qeyd edildiyi kimi, bu məsələyə dəfələrlə təkid edilib. Ancaq bu məsələ səbəb və ehtiyac olmadan qadının, həyat yoldaşının huquqlarına toxunub əyyaşılq məqsədilə ediləcəksə qadağandır.

Bu barədə olan bir hədisdə ravi deyir: «İmam Kazımdan (ə) soruşdum: Müvəqqəti evlənməyin hökmü nədir? O Həzrət buyurur: «Bu müqəddəs əmr subay cavanlar üçün mübahdır. Evli şəxslər üçün o vaxt halal ola bilər ki, həyat yoldaşları onlardan uzaq düşüb».

# MÜNDƏRICAT

**MÜQƏDDİMƏ**
**İSLAMDA IZDIVACIN ƏHƏMIYYƏTI**
İzdivac – Quran baxımından
İzdivac – Hədis və rəvayətlər baxımından
**MÜASİR DÜNYADA BAŞ VERƏN ƏXLAQSIZLIQ HÜCÜMLARI**
İsmətsizlik və pozğunluq ticarət paltarında
**ISLAMDA AILƏ QURMAĞIN DƏYƏRİ**
Evlənmənməyinin cəzası
**İZDIVACIN SƏBƏBI, MƏQSƏDI, FAYDASI VƏ VAXTI**
İzdivacın səbəbi
İzdivacın məqsədi
İzdivacın faydası
İzdivacın vaxtı
**İZDIVAC RUZİNİ ARTIRIR**
İzdivac, müqəddəs ailə həyatı
İzdivac fəziləti
İzdivaca girməməyin mənfi cəhətləri
İzdivacaın dünyəvi və axirəvi mahiyyətləri
İzdivacaın axirət dünyasından ötrü əhəmiyyəti
**İZDIVAC ƏRƏFƏSİNDƏ TANIŞLIQ**
Qız barəsində tanışlıq
Diqqət:
Qadın ləyaqəti
Pis və yaxşı qadının qiyməti
Ləyaqətli kişının xüsusiyyətləri
Ləyaqətli kişının sifətləri
Kişıların və qadınların ən yaxşısı və ən pisi
**MÖMİN KİŞİ VƏ QADIN BİR-BİRİNƏ YARAŞIR**
**QIZLARINIZI TEZ ƏRƏ VERİN!**
Qadın kişinin məhək daşı və bədbəxtliyinin səbabkarı
**NAMƏHRƏMƏ BAXMAQ**
Qadının kişiyə baxması
**LAYİQLİ ELÇİNİ RƏDD ETMƏYİN**
Şərabın icən və bədəxlaq kişiyə qız verməyin!
Belə bir qadın seçin!
**QADINLAR BİR NEÇƏ QRUPDUR**
Belə qadınlardan qaçın!
Qadının malına və camalına göz dikməyin!
Oğlanlarınızın bqadın seçməkdə azad buraxın!
**HƏYAT YOLDAŞINI NECƏ SEÇMƏLİ?**
Ləyaqətli həyat yoldaşının vəsfi
Yaxşı və pis xüsusiyytlərə malik olan kürəkənlərin vəsfi
**HƏYAT YOLDAŞI SEŞMƏMİŞDƏN ÖNCƏ NƏ ETMƏK LAZIMDIR?**

Müsalman alimlərinin bu məsələyə münasibəti
ƏGƏR EVLƏNMƏK MÜMKÜN OLMASA, NƏ TƏKLİF OLUNUR?
Orucluq və cinsi şəhvət
Allaha inam və onu yad etmək
Abır və həya çəkindirici amillər kimi
Abır-həya olmazsa, nə etmək lazımdır?
Qeyrət hissini gücləndirilməsi
Ailəli şəxslər nə üçün yoldan çıxırlar?
Bu barədə İslamın fikir və nəzərləri
Cinsi ehtirası tənzimləyən və kontrol edən faktorlar
**QADINI SEVİN VƏ BU SEVGİNİ ONA BİLDİRİN!**
Qızın dəyəri
**ELÇİLİK MƏRASİMİ**
Elçilik zamanı diqqətli olun
Elçiliyə görə mükafat
Həzrət Əlinin Fatimənin elçiliyinə getməsi
(Əlinin Fatiməni istəməsi)
Nurun Nura qovuşması
Evlənmək hansı yaşda münasibdir?
**İZDİVAC VƏ TƏLAQ MƏSƏLƏSİNDƏ VASİTƏÇİLİK**
İzdivaca vasitəçilik etməyin fəziləti
İzdivaca dair hakim qüvvələrin rolu və məsuliyyət
«Xeyir işə» tələsmək
Valideyinlərin vəzifələri
**IZDIVAC-İMAN VƏ ƏXLAQ ƏSASINDA**
Maddi imkan və şəhvət əsasında izdivac
Həyat yoldaşı secməkdə ehtiyatlı olmaq
Həyat yoldaşı secməkdə müşahidə və təhqiqat aparmaq
Zahiri əlamətlər
Qadınların evdarlıq qabiliyyəti
Ünsiyyət və rahatlıq
Əxlaqi təmizlik və günaha batmaq
Rahatlıq və əsəblərin tarazlığı
Nəslin artırılması
Cəmiyyətin sağlamlığı və əminamanlığı
Izdivaca mane olan amillər
**ATANIN NÜFUZU ÜSTÜNDÜR, YOXSA QIZIN SƏRBƏSTLİYİ?**
Ata ailənin bütün üzvləri üzərində mütləq hakimdirmi?
Böyüklükdən sui-istifadə
Peyqəmbər (s) qızından icazə istəyir
Qızlar atanın icazəsi olmadan evlənə bilərmi?
**AİLƏ QURMAQDA İKİ QANUN ƏSASDIR**
Ailə qurmaqda diqqət etmək lazimdir
**GƏİLN MƏCLİSİ, QONAQLIĞI**
**MEHRIYYƏ**

Mehriyyənin miqdarı
Hədislərdən əldə olunan nəticələr
«Mehrül-sünnə» nədir?
Toydan öncə mehriyyənin ödənilməsi
Mehriyyəsiz ailə qurmaq
**QADININ KƏBININƏ TƏCAVUZ ETMƏYIN**
**NİŞANLIQ DÖVRÜ**
Əli-Əleyhisalamin Fatimeyi-Zəhra ilə nişanlıq dövrü
Nişan mərasiminə bir neçə sual:
**GƏLİNİN CEHİZİ**
Cehizin hazırlanması
Cehizin pulu kimin malıdır?
Cehizin pulunun xümsu
Evlənməyə dair xütbələr
**IZDIVACIN QİSİMLƏRİ**
Daimi əqdin oxumaq qaydası
Müvəqqəti əqdin oxuma qaydası
İzdivacın şərtləri
İzdivacın barəsində ata-ananın və qohum-qardaşın mövqeyi
**II HİSSƏ TOY MƏRASİMİ**
**NİGAHIN VAXTI VƏ SAATI**
Nigah üçün gecənin münasib olması haqqında
Toy etmək üçün münasib olmayan əyyam (zaman)
Nigah üçün münasib olmayan saatlar
Toy - şadlıq mərasimi
Bəyə qızıl üzük hədiyyə edilməsi
Məscidlərdə evlənmə mərasimi
Ruhani alimlərin bu haqda nəzəriyyələri
**HƏZRƏTI ZƏHRANIN TOY MƏRASIMI**
**KIMLƏRI ZIYAFƏTƏ DƏVƏT EDƏK?**
**TOY MƏRASIMLƏRİNDƏ VERİLƏN YEMƏKLƏR**
Peyqəmbərin öz toy mərasimlərində verdiyi ziyafət
Həzrəti-Zəhranın toyunda verilən ziyafət
Zifaf üçün münasib olan gecə
Zifaf gecəsinin fəlsəfəsi
Zifaf gecəsi mərasimi
Zifaf gecəsi
Zifaf gecəsində təkbir
Zifaf gecəsinin namazı
Xüsusi dualar
Nümunə olan qadının zifaf gecəsi
**XƏLVƏT (xəlvətdə qalma) MƏRASİMİ**
Şeytandan uzaq olmaq üçün oxunan dua
Cinsi yaxınlıq zamanı tələsməyin
Cinsi əlaqənin nəticəsi və mükafatı

**ZIFAF GECƏSININ ƏDƏB AYDALARI**
Zifaf gecəsi ilə bağlı olan mühüm bir məsələ
Zifaf gecəsi namaz qılmaq
Zifaf gecəsi qüsl vermək qaydaları
Gəlinin yanında olmaq
Ailə məsələləri
**NƏSİL ARTIRMA**
**CINSI ƏLAQƏNIN MÜNASIB VAXT VƏ SAATI**
Xəlvət üçün münasib olmayan vaxtlar
**CİNSİ CATIŞMAZLIQLAR**
1. Etiras hisslərinin təhrik olmaması
2. Spermanın normal təhrik olmaması.
Cinsi catişmazliğın digər amilləri
**NƏSİL-ÖVLAD ARTIMI VƏ AİLƏNİN TƏNZİMLƏNMƏSİ**
Nütfənin hədər yerə tələf etməyin
Dövr və zamanın nəsil artımına təsiri
Ailə sahibi olmaq və ya Peyqəmbərin nifrətinə ducar olmaq!
Sonsuzluq
**NƏSİL VERMƏYƏN ARVADLAR**
Hamilə olmaq üçün oxunan dua
Yeməklərin hamiləliyə təsiri
**QISQANCLIQ KİŞİYƏ VƏ QADINA RƏVA DEYİLİR**
**QADININ ƏXLAQİ SAFLIĞINI QORUMAQ**
**ÇOXARVADLILIQ**
İfrat izdivaca uğrayanlara İslamın münasibəti
**MÜVƏQQƏTİ İZDİVAC**
İslamda müvəqqəti nigahın dəlili
Müvəqqəti nigahın xüsusiyyətləri və daimi olan nigahla fərqləri
İslamda çoxarvadlılıq fəlsəfəsi
Siğə (müvəqqəti evlənmə) hər kəs icazə verilirmi?
Müvəqqəti evlənməyə nə məqsədlə icazə verilir?
İmamların nəzərinə görə müvəqqəti evlənməyin qadağan olunduğu hallar


Hacı Əbürahman
Yusifpur
İSLAMDA
AİLƏ QURLUŞU